Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

I cild

Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

I cild

Bakı 2022

Redaktor:

**Məhərrəm Qasımlı**

Rafiq Yusifoğlu. Seçilmiş əsərləri. Bakı, ADPU nəşriyyatı, 2022. - 512 səh.

Görkəmli şair, ədəbiyyatşünas, nasir, publisist, tərcüməçi, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor, “Qızıl kəlmə”, “Qızıl qələm”, “Vətən”, “İlin ən yaxşı kitabı”, “Araz” və s. ədəbi mükafatların laureatı Rafiq Yusifoğlunun “Seçilmiş əsərləri”nin I cildinə onun “Ocaq yeri”, “Aylı cığır”, “Həsrət köçü”, “Qəm karvanı” kitablarında gedən şeirləridaxil edilmişdir.

$© \frac{19479863}{1957(H)2022}$ - Qrifli nəşr

**© Rafiq Yusifoğlu**

## Ön söz əvəzi

Mənə yaradıcı insan ömrü, istedad, zəhmətsevərlik bəxş eləyən Ulu Yaradanıma şükürlər olsun!

1950-ci il yanvar ayının 2-də Qubadlı rayonunun Çardaxlı kəndində dünyaya göz açmışam. Atam Əliyev Yusif Seyidəli oğlu (1922-1974) və anam Kərimova Şamama Nuşirəvan qızı (1928-2000) fizika-riyaziyyat müəllimi idilər. İlk təhsilimi də elə atamın direktor işlədiyi Çardaxlı kənd məktəbində almışam. İbtidai sinifdə mənə Ziyadxan müəllim, Süleyman Rəhimovun bacısı Səriyyə xanım, Əfruz və Şəmruz bacıları, Umud müəllim, Göyçək xanım dərs deyiblər. Yuxarı siniflərdə atam və anam fizika və riyaziyyat, Eldar və Bahar müəllim Azərbaycan dili və ədəbiyyat, Ədil müəllim tarix, Oruc müəllim coğrafiya, Azad müəllim kimya-biologiya, Məhərrəm və Camal müəllim rus dili, Azad müəllim bədən tərbiyə müəllimim olublar.

Uşaqlığım Çardaxlı və Xocamsaxlı kəndlərində keçib. Bu mənada ilk müəllimlərimin sırasına bu kəndlərin təbiətini, bulaqlarını, dağlarını, dərələrini, gül-çiçəkli yamaclarını, biçənəklərini, əkin və örüş yerlərini, pöhrə və meşəliklərini, Ağa çayını da əlavə edə bilərəm. Bu təbiət mənim ürəyimi gözəlliyə məhəbbət ruhunda kökləyib. Çayda balıq tutmağı, üzməyi öyrənmişəm. Ot da biçmişəm, odun da yığmışam, heyvanları alatoranda yaylıma da aparmışam, qoyun-keçi nobatına da getmişəm. Ov hərisi olduğumdan hələ beşinci sinifdə oxuyan vaxtlarımdan əlimdə tüfəng dağları, dərələri qarış-qarış gəzmişəm də...

Ana babam Nuşirəvan Kərimov ailəsi ilə birlikdə yaylağa köçəndə məni – ilk nəvələrini də özləri ilə Qarakilsə (Sisyan) yaylaqlarına aparardılar. Alaçıqda keçirdiyim günlər məni ayrı bir aləm idi. Bir tərəfdən təbiətin gözəllikləri, digər tərəfdən babamın şeir-sənət haqqında söhbətləri məni sehrli bir dünyaya aparırdı. İlk sənət müəllimim olan, mənə şeirin ibtidai qayda-qanunlarını öyrədən Nuşirəvan babam

sən demə şair imiş, “Molla Nəsrəddin” jurnalında “İstot” təxəllüsü ilə xeyli şeirləri çap olunubmuş.

Təhsilimi Qubadlı qəsəbə orta məktəbində davam etdirəndə artıq qəti qərara gəlmişdim ki, mən filoloq olacam. Ona görə dəqiq elmlərdən çox humanitar elmlərə daha çox üstünlük verirdim. İmamqulu müəllim ədəbiyyat, Bəhmən müəllim tarix, ictimaiyyət, Həlimə xanım kimya, Əlqəmə müəllim fizika, Nigar xanım riyaziyyat, Qüdrət müəllim biologiya, İnqilab müəllim coğrafiya, Taisa Stepanovna rus dili, Amalya xanım isə ingilis dili müəllimimiz idi...

Orta məktəbdə oxuyanda da bəzən kənd uşaqlarına qoşulub Xocamsaxlıya gedər, çətin şeirləri babamın köməyi ilə təhlil eləməyə çalışardım. Səhərin alatoranında Xocamsaxlıdan Qubadlıya gəlmək də ayrı bir aləm idi...

Tale elə gətirmişdi ki, babamın vaxtilə orta məktəbdə dərs dediyi, yaxın qohumumuz, görkəmli şair, ədəbiyyatşünasQasım Qasımzadə Qubadlıya, Xocamsaxlıya gələndə onunla görüşə, söhbətləşə, şeir-sənət yollarında addımlamaq üçün bu bənzərsiz insanınilk tövsiyələrini dinləyə bilmişdim. Sonralar Qasım Qasımzadə babam haqqında bir məqaləsində yazırdı: “İstedadlı şair Rafiq Yusifoğlu, necə deyərlər, babasına çəkmişdir. Nuşirəvan müəllimin yandırdığı poeziya ocağının kül altda qalan közünü sönməyə qoymamışdır.”

1966-cı ildə böyük əmim Mirağa Əliyevin istəyi ilə sənədlərimi Azərbaycan Dövlət Universitetinin (BDU) yox, Azərbaycan Pedaqoji İnstitutunun (ADPU) filologiya fakültəsinə verdim və ora qəbul oldum.

Yaxşı oxumağım, mətbuatda şeir və məqalələrlə şıxış eləməyim əmimi çox sevindirirdi.Müəllimlərim görkəmli ədəbiyyatşünas və dilçi alimlər idi. Ə.Dəmirçizadə, F.Qasımzadə, Z.Tağızadə, İ.Şıxlı, S.Əfəndiyev, Ə.Hüseynov, K.Qəhrəmanov, M.Təhmasib, P.Əfəndiyev, M.Həkimov, A.Hüseynov və başqalarının mühazirələri qəlbimizi ədəbiy-

yata, Azərbaycan dilinə, folklora məhəbbət ruhunda kökləyirdi...

Sevimli müəllimim, xalq yazıçısı İsmayıl Şıxlının yaşıl rəngli qələmlə öz tələbəsinə, 17 yaşlı bir yeniyetməyə yazdığı məktubdakı bu sözlər mənim sənətə gedən yolumun üstündə elə bil ki, ilk yaşıl işıq idi: *"Rafiq, poemanı oxudum. Çox təsirli və səciyyəvi bir məsələdən bəhs edirsən. Müharibənin yaraları indi də göynəyir. Sən o ağır illəri görməsən də, nəfəsini hiss edirsən. Poema göstərir ki, səndə şairlik istedadı var. Misraların çoxu axıcı və səlistdir. Söz seçməkdə az çətinlik çəkirsən."* Sonralar mənim SSRİ Yazıçılar İttifaqının üzvlük biletimdə də İsmyıl Şıxlının imzasının olması ilk xeyir-duanın təsdiqi idi...

Tələbə vaxtı tez-tez Əliağa Kürçaylı, Söhrab Tahir, Məmməd Araz, Xəlil Rza, Tofiq Bayram, Zahid Xəlil, Fikrət Qocavə başqa qələm adamları ilə görüşlərimiz də ədəbi zövqümün formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərirdi. Yolumun redaksiyalara düşməsi, ilk şeirlərimin "Azərbaycan gəncləri", "Bakı", "Ədəbiyyat və incəsənət" qəzetlərində, "Ulduz", "Azərbaycan", "Göyərçin", "Pioner" jurnallarında, ayrı-ayrı ədəbi almanaxlarda çap olunması, S.Rəhimov, Ə.Vəliyev, S.Rüstəm, R.Rza, M.İbrahimov, M.Rahim, B.Azəroğlu, N.Xəzri, B.Vahabzadə, B.Bayramov, Ə.Cəmil, F.Sadıq, F.Qoca, N.Həsənzadə, T.Mahmud, H.Ziya, T.Mütəllibov, M.Aslan, İ.İsmayılzadə, Ə.Salahzadə, A.Laçınlı kimi tanınmış şair və yazıçılarla şəxsi tanışlıq məni daha böyük enerji ilə yazıb-yaratmağa həvəsləndirirdi.

Hələ tələbə ikən mətbuatda şeirlərim haqda ilk xoş söz söyləyənlərdən biri də Məmməd Araz idi. "Kənd həyatı" qəzetiniin 3 aprel 1969-cu il tarixli nömrəsində redaksiyaya gələn şeirlər haqqında fikir söyləyən şair yazırdı: *"Rafiq Yusifoğlunun "Qış" şeiri maraqlıdır. Müəllif özünəməxsus boyalarla, səmimi yumorla qışın portretini yaratmağa*

*çalışır. Yaşından asılı olaraq hər kəsin qışı necə qəbul etdiyini poetik dillə təsvir edir, əsasən də buna nail olur:*

*Qış da bir qocadır, ancaq nədənsə*
*Onun qocalarla söhbəti tutmur. “*

1970-ci ildə ali məktəbi bitirib Sumqayıtda müəllim kimi əmək fəaliyyətinə başladım. 1971-1972-c illərdə hərbi xidmətdə oldum, sonra yenə müəllimlik fəaliyyətimi davam etdirdim. Elə həmin vaxtlar, daha dəqiq desək, 10 avqust 1971-ci il tarixdə Nəriman Həsənzadənin “Azərbaycan gəncləri” qəzetində mənim haqqımda yazdığı “Uğurlu yol” adlı məqaləsi dərc edildi. Maqalədə yazılırdı: *“Rafiq Yusifoğlunun şeirlərində mənim xoşuma gələn təfəkkür aydınlığıdır. Fikri çılpaq şəkildə yox, poetik ifadələrlə, obrazlı dil ilə, həm də asan başa düşüləsək bir şəkildə oxucuya çatdırmaq onun şeir yaradıcılığının məziyyətləri kimi yadda qalır.”*

Xalq yazıçısı Hüseyn Abbaszadənin *“Rafiq Yusifoğlunun alimlik fəaliyyəti ilə tam tanış deyiləm, ancaq poeziyasını sevirəm. Uşaqlar üçün də, böyüklər üçün də çox gözəl yazır, çox gözəl nəğmələri var”,* Xalq şairi Qabilin *“Rafiq Yusifoğlu Azərbaycan dilini çox gözəl bilən şairlərimizdəndir”,* Fikrət Sadığın *“Rafiq Yusifoğlu elə daş-qaşdı ki, bir künsü ədəbiyyatşünaslıqdı, bir künsü şairlikdi, bir künsü nasirlikdi... Bu sakit, təmkinli adamın canında bunların hamısı cəm olub. Hardasa üç-dörd insan lazımdı ki, Rafiq kimi alim olaydı, daha heç nə yazmayaydı, Rafiq kimi şair olaydı, daha heç nə yazmayaydı”,* Tofiq Mahmudun *“Adi daş, çiçək, yağış, ağac, bulaq, quş, şəlalə Rafiq Yusifoğlunun poeziyasında sehrli bir dona bürünür, adilikdən çıxıb mənalanır, canlanır, görünür, dil açıb danışır”,* İlyas Tapdığın *“Rafiqdən Səhhət ətri, Şaiq ətri, Səməd Vurğun ətri gəlir. Xeyirxahlıqla, qayğıkeşliklə doludur onun canı”* fikirlərini xatırlatmaqdan məmnunluq duyuram. S.Rüstəm,

N.Xəzri, B.Vahabzadə kimi görkəmli şairlərin öz yazılarında mənim də adımı çəkmələrini də qürurla xatırlayıram.

Ədəbi yaradıcılığımla yanaşı elmi fəaliyyətimə də Yəhya Seyidov, Qasım Qasımzadə, Əkbər Ağayev, Yaşar Qarayev, Atif Zeynallı, Cəlal Abdullayev, Şamil Salmanov, Anar, İsa Həbibbəyli, Akif Hüseynov, Təhsin Mütəllimov, Vəli Osmanlı, Tehran Alışanoğlu, Məhəmməd Əliyev, Vaqif Yusifli, Vaqif Arzumanlı, Nailə Muradəliyeva, Məhərrəm Qasımlı, Himalay Qasımlı, Aydın Hacıyev, Kamran Əliyev, Tərlan Novruzov, Şahin Xəlilli, Vaqif Qurbanov və başqaları yüksək dəyər vermişlər.

1978-ci ildə Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasına qəbul olundum, 1984-cü ildə "Azərbaycan sovet poemasının inkişaf problemləri (1956-1965)" mövzusunda dissertasiya müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi aldım. 1985-1992-ci illərdə "Göyərçin" jurnalının redaksiyasında şöbə müdiri, 1992-1996-cı illərdə məsul katib, 1996-1997-ci illərdə Azərbaycan Dövlət Televiziyasının Xəbərlər Baş Redaksiyasında "Elm, mədəniyyət, incəsənət" şöbəsinin müdiri vəzifəsində çalışdım. 1997-ci ilin may ayından "Göyərçin" jurnalının baş redaktoru vəzifəsində işləyirəm. Redaksiyada işlədiyim müddətdə də heç zaman pedaqoji fəaliyyətdən ayrılmamışam. Orta məktəbdə, Sumqayıt Pedaqoji Seminariyasında dərs demişəm. 2000-ci ildən, Sumqayıt Dövlət Universiteti açılandan bu günə kimi həmin təhsil ocağında mühazirələr oxuyuram. Əvvəl universitetin dosenti, 2008-ci ildən bu günə kimi Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının professoru vəzifəsində çalışıram.

2006-ci ildə "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda dissertasiya müdafiə etmiş, 2007-ci ildə Ali Attestasiya Komitəsinin qərarı ilə filologiya elmlər doktoru elmi dərəcəsi, 2011-ci ildə isə

professor elmi adı almışam. 2008-2016-cı illərdə bir vaxt tələbəsi olduğum ADPU-nun "Folklor və qədim ədəbiyyat" kafedrasının professoru işləmiş, tələbələrə ədəbiyyat nəzəriyyəsindən mühazirələr oxumuşam. Uzun müddət AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən dissertasiya şurasının üzvü olmuşam. Hazırda bu fəaliyyətimi AMEA-nın Folklor İnstitunda davam etdirirəm.

İlk kitablarımın - "Yurdum-yuvam" ("Gənclik", 1983); "Ətirli düymələr" ("Gənclik"1986); "Ocaq yeri" ("Yazıçı",1989); "Aylı cığır" (Gənclik", 1992) nəşri və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanması, 1986-cı ildə o zamankı SSRİ Yazıçılar İttifaqına üzv qəbul olunmağım, 1989-cu ildə "İlin ən yaxşı kitabı" mükafatına layiq görülməyim, Moskvada keçirilən üç ümumittifaq seminarında (1982, 1985, 1988) respublikamızı təmsil etməyim, əsərlərimin dərsliklərə düşməsi, bir sıra dillərə tərcümə edilməsi mənim yaradıcılıq bioqrafiyamın uğurlu addımları hesab oluna bilər.

Bütün ömrüm boyu yazıb yaratmış, ədəbiyyatımızın yaranması, nəşri, tədqiqi və tədrisi ilə məşğul olmuşam. Müsahibələrimdən birində dediyim kimi elə sanmışam ki, ədəbiyyat mənim Leylim, mən isə onun Məcnunuyam. Bu sevginin bəhrələri də az olmamışdır. Çoxlu şeir, nəsr, məqalələr, tərcümə, publisistika kitablarım çap olunmuşdur. "Azərbaycan poeması: axtarışlar, perspektivlər" (1998), "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" (2010), "Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri" (2016) monoqrafiyalarının, "Ədəbiyyatşünaslığın əsasları" (2001, 2005, 2009), "Uşaq ədəbiyyatı" (2002, 2006), "Müasir ədəbi proses və ədəbi tənqid" (2004-2014) dərsliklərinin müəllifi, ümumtəhsil məktəblərinin birinci sinifləri üçün "Ana dili (2009) dərsliyinin, ikinci siniflər üçün "Azərbaycan dili" (2009) tədris vəsaitinin həmmüəllifiyəm. Dərsliklərə düşən yaradıcılıq nümunələrimin biblioqrafik göstəricisi dörd yüzü

çoxdan ötüb və bu proses indi də davam eləyir. Şeirlərimə mahnılar bəstələnib, onlar əsasında televiziya tamaşaları hazırlanıb, əsərlərim bir sıra dillərə tərcümə edilib...

2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ədəbiyyatımızın, mətbuatımızin inkişafındakı xidmətlərimə görə mənə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adı verib. "Qızıl kəlmə", "Qızıl qələm", "Araz", "Vətən", "İlin ən yaxşı kitabı" və sair mükafatlara layiq görülmüşəm. 2016-cı ildə Təhsil Nazirliyinin elan etdiyi müsabiqədə uşaqlar üçün yazdığım şeirlər birinci yerə layiq görülüb və 1-ci dərəcəli diplomla təltif olunmuşam.

Necə deyərlər, Allahın yardımı ilə uğurlarım çox, yaradıcılıq məhsullarım boldur. Bu əsərlərin hamısını əhatə etmək mümkün olmasa da, bəzilərini "Seçilmiş əsərlər"imə toplayıb gələcək nəsillərə yadigar qoymaq qərarına gəldim.

Yatsam yuxuma da gəlməzdi ki, nə vaxtsa çoxlu cildlərdən ibarət "Seçilmiş əsərləri"m nəşr olunacaq. Adətən bu tipli nəşrlərə mötəbər insanlar ön söz yazırlar. Əsərlərim haqda çox görkəmli yazıçılar, ədəbiyyatşünaslar, jurnalistlər xoş sözlər söyləyiblər. Bilirəm ki, mənim yaradıcılığıma həmişə yüksək dəyər verən dostlarımdan kimə müraciət eləsəm, məmnuniyyətlə ön söz yazardı. Ancaq düşündüm ki, buna ehtiyac yoxdur. Həm onlara əziyyət vermək istəmədim, həm də düşündüm ki, ön söz, müəyyən mənada oxucunun haqqına girmək kimi bir şeydi... Qoy qədirbilən oxucular əsərlərimi oxuyub özləri bir fikrə, qənaətə gəlsinlər...

Alahıma şükürlər olsun ki, ömür də, yaradıcılıq yolu da davam eləyir, ilham köhlənim hələ də cilov gəmirir... Hiss eləyirəm ki, hələ deyiləsi sözüm, görəcəyim işlər çoxdur. Allah özü yar olsun! Allah özü daha gözəl işlər görməyə, daha gözəl əsərlər yazmağa, tədqiqatlar aparmağa, xalqıma ləyaqətlə xidmət etməyə möhlət versin! Amin!

**17.10.2021**

## “Ocaq yeri” kitabından

# DOĞULDUĞUM TORPAQ, GÜVƏNDİYİM XALQ

### AZƏRBAYCAN TORPAĞI

Bəxtəvərsən, bura gəlmək qismət olmur hər kəsə,
Dostumuzdur, kim özünü lovğalanıb öyməsə.
Hiss etməzsən, əziz qonaq, ayaqların dəyməsə
Bu yerlərin atəşini, – bir yerə düş maşından.

Burda nələr yaradıbdır təbiətin öz əli,
Qayaları dilləndirər Füzulinin qəzəli.
Düz ilqarlı, sərv boylu Azərbaycan gözəli –
Heyrətindən daş olarsan, bir yol keçsə qarşından.

Güneyində qışda günəş qar əridir, buz yeyir,
Əskik olmaz qar tığından yayda belə quzeyi.
Dağlar, daşlar təbiətin əsrarəngiz muzeyi,
Ürək doymur bu yerlərin baharından, qışından.

Qalx zirvəyə, öyünmə ki, sən hamıdan hündürsən,
Ürəyincə cavab verər burda kimi dindirsən,
İgidlər var, yumruğunu qayalara endirsə,
Parçalanar ovum-ovum, seçilərmi daş undan?!

İnsanları taleyini işə, gücə bağlayıb,
Kəmənd atıb gur çayları axarından saxlayıb.
Qocalar var bu torpaqda, yaşı yüzü haqlayıb,
Təpəri var ürəyində, gileylənməz yaşından.

Təslim oldun qüdrətimə, iradəmə çar-naçar,
Qobustanım heykəlləşən tariximdən söz açar,
Pis niyyətlə toxundumu, ayaq altdan yer qaçar,
Haray qopar bu yerlərin torpağından, daşından.

Ana torpaq, ana torpaq, həm dərman, həm təbibsən,
Ürəyinin istisini varlığıma səpibsən,
Ayağımı neçə dəfə oxşayıbsan, öpübsən,
Tikan çıxıb qövr eləyən ürəyimin başından.

**1977**

## MƏNİM İMZAM

İmzasını qoymuş miləl övraqi-həyatə,
Yox millətimin xətti bu imzalar içində.

**M. Hadi**

İmzam yoxsa imzaların içində,
Mənim dərdim Araz olub çağlayar.
Mənim imzam öz qüdrətli çiynində
Dünənimi, bu günümü saxlayar.

Xətainin qüdrətinə bələdəm,
Boşalmayıb kəhərinin törpüsü.
Namərd əllər pozammayıb hələ də, –
Mənim imzam – Xudafərin körpüsü.

Mənim imzam – Təbriz, Qarabağ, Gəncə…
Mənim imzam tarixin yaddaşında.
Mənim imzam – Qız qalası, Əlincə,
Mənim imzam – Qobustanın daşında.

Düşmənimin dar gününü gözlərəm,
Sevinərəm, tutar onu sancılar.
Məni görmək istəməyən gözlərə
Mənim imzam bıçaq olub sancılar.

Sərgimizə özgə quşlar dadanıb,
Təzə-təzə sevda gəzir başında.
Mənim imzam məni danan nadanın
Həkk olunub ocağının daşında.

Bir gün tarix yapışacaq yaxamdan,
Kim salacaq bu işləri nizama?
Övladımın damarında axan qan
Təmizdisə, zaval yoxdu imzama.

**1985**

## BAYATI YAĞIŞI

Şair dostum, bayatı çək, bayatı,
Həsrətimiz yarpaq-yarpaq ərisin.
Qəlbimizdə neçə nisgil boy atıb,
Sarı Aşıq – şerimizdə sarı sim.

Sarı qızıl axı nə vaxt paslanıb? –
Tanıyırıq xalisi biz, qəlpi biz.
Qoy bayatı yağışında islanıb,
Köksümüzdə çiçəklənsin qəlbimiz.

Sarı Aşıq, qalx yuxudan, sıçra, min
İlhamının sənə həsrət atına.
Sarı Aşıq, sən bulud ol, kölgə sal,
Biz də dolaq qanadının altına.

**1985**

## DOĞULDUĞUM KƏND

Sığmaz xəyalına böyük bir vətən,
Sığar xəyalına doğulduğun kənd.

**K. Simonov**

Lal olsam, o məni gətirər dilə,
Çırpınar bağrımın başında arzum.
Doğma torpağımı demirəm hələ,
Göyərər kəndimin daşında arzum.

Atamın, babamın adları ilə
Mənim pasportumda qoşadır adı.
Nə qədər boy atsam, ucalsam belə,
Özülüm ordadı, köküm ordadı.

Ay ürək, bir nəğmə oxu dünyaya,
Ay keçir, il keçir, daşlanır ömrüm.
Orda göz açmışam axı dünyaya –
Bir çayam, kəndimdən başlanır ömrüm.

Gedirəm, günbəgün uzanır boyum,
Təzə mənzillərlə qucaqlaşıram.
Daha bərk axıram artdıqca suyum,
Bəs niyə kəndimdən uzaqlaşıram?

Çayam, mənbəyimdən gərək güc alım,
Gec-tez bu həsrətin buzu əriyər.
Mən axıb getdikcə fikrim, xəyalım,
Dönər balıqlara, üzər geriyə…

**1977**

## ŞƏHƏR YUXU GÖRƏR

Gündüzlər dayanıb pyedestal üstə
Gələni, gedəni süzər heykəllər.
Gecələr kürsüdən düşüb ahəstə
Tənha küçələri gəzər heykəllər.

Göydən ulduz dərər polad əlləri,
Sabir qədəminə el gül ələyər.
Sahibinin ruhu dağ heykəlləri
Zərif kəpənəkdən yüngül eləyər.

Ayaqlar altında çırpınar gecə,
Yalvarar: – Qurtarın mənim canımı!
Vurğun öz evinə gedər gizlicə,
Cəfər qəbri üstə Sona xanımın.

Nəsimi getdikcə axar qızıl qan,
Füzuli qoynuna qoyar əllərin.
Gecə işıqları – addımlarından
Qopan qığılcımdı bu heykəllərin.

Şəhər yuxu görər sökülüncə dan,
Qıvrıla-qıvrıla yatar küçələr.
Heykəl addımının ağırlığından
Titrəyər küçələr, batar küçələr.

Şirindir Bakının gördüyü yuxu,
Ancaq yuxu görmək deyildir hünər.
Eh, neçə heykəlsiz dahinin ruhu
Gəlib meydanlarda heykələ dönər…

**1985**

## HÜSEYN CAVİDƏ

Vətən! Bir övladın geriyə dönür,
İgid oğulların qolları üstə.
Qoynuna qayıdır bir payız günü,
O, keçib ayların, illərin üstdən.

Gəzir ürəkləri bir gizli dalğa,
Sanki göy kişnəyir, bulud ağlayır.
Bütün Azərbaycan qalxır ayağa,
Elə bil qırx illik sükut ağlayır.

Bu qayğı, ehtiram dindirir onu,
Bu gəliş daşı da kövrəltdi bəlkə!
-Oxqay! Sümüyümün açılır donu,
Məni torpaq ana göyərtdi bəlkə?!

…O gələn yollara güllər düzülüb,
Neçə xəbis ürək batıbdır yasa.
Ona qibtə edir böyük Füzuli,
Baxıb köks ötürür Müşfiq hardasa…

**1982**

## ARAZIN CAVABI

“Gözlərində qaldı neçə xoş arzu, muraz,
Bu insafsız çayı görmək ağırdı bizə.” –
Eh, o qədər giley-güzar eşitdi Araz,
Dilə gəlib cavab verdi axırda bizə:

– Əzəl gündən öz məcrama düşüb axıram,
Şair, sən də sızıldama, yerində otur.
"Bura mənim, ora sənin", – deyib bağıran,
Çəpər çəkən insanlara gülməyim tutur.

Öz önünə köz eşməyə sən də tələsdin,
Çalışdın ki, elin dərdi sənə dəyməsin.
Gülməlidir qohumbazın, yerlipərəstin
Araz deyib, Təbriz deyib sinə döyməsi.

Zəmanənin köhləninə nə yəhər-yüyən? –
Boş ah-ufla incitməyin mənim ruhumu.
Bu sahildə qardaşıyla yola getməyən
Neyləyəcək o sahildən gələn qohumu?!

Öz nəğməmi oxumuşam həyatım boyu,
Azmamışam gözlərimə duman çökəndə.
Ayrılıqda nə günahı torpağın, suyun? –
İnsan olub körpü tikən, sərhəd çəkən də.

Əzəl gündən öz məcrama düşüb axıram,
Şair, sən də sızıldama, yerində otur.
"Bura mənim, ora sənin", – deyib bağıran,
Çəpər çəkən insanlara gülməyim tutur.

**1986**

## QARA ZURNA, DÖNÜM SƏNİN GÖZÜNƏ

Dağların da sanki gəlib həvəsi,
Qara zurna qayır-qayır qaynayır.
Oda düşüb zurnaçının nəfəsi,
Gözlərində ildırımlar oynayır.

Ayrı düşən quzudurmu köçündən,–
Mələr qalıb, nədir onun günahı?!
Aman Allah, sanki onun içindən
Tərtər axır, Araz axır, Kür axır…

Dağ səksənər dinləyəndə bu səsi,
Heyrətimin zirvəsidi "Heyratı".
Harayında Koroğlunun nərəsi,
Ayağının səsi gəlir Qıratın.

Bir ocaqsan, qızınırıq közünə,
Sənin səsin tariximin aynası.–
Qara zurna, dönüm sənin gözünə,
Din, babamın sümükləri oynasın!

***

Gözümüzdən qovdu qara yuxunu,
Şad elədi babaların ruhunu.
Nurla dolsun qəbri usta Nuhunun,
Gözün yumub zurnasını pülədi.

Günəş çıxdı, düşdü dağa, daşa nur,
Az qalır ki, üfüqlərdən daşa nur,
Yaxına get, əllərini daşa vur,
Elə bil ki, daş deyil heç, pilədi.

Sümüyümüz bu sədaya köklənib,
Canavarın qulaqları şəklənib,
Ana qoyun göy çəməndə təklənib,
Qara zurna quzu kimi mələdi.

Bir buluddu – dodağında yağışı,
Bir ağacdı – soyuq deyil ağuşu,
Nəğmə ilə siləl追nib koğuşu,
Birdən daşıb ruhuma nur əlƏdi.

Neçə ahıl bu sədadan xoşlanıb,
İki gəncin "Vağzalı"sı başlanıb,
Qara zurna görən hara tuşlanıb? –
Elə bil ki, bir sehrli lülədi.

Araz axır bu lülənin içindən,
Biçinçilər əl saxlayıb biçində.
Hamımızı bircə anın içində
Bu dünyanın bəxtəvəri elədin. –

Qara zurna, dönüm sənin gözünə,
Bir ocaqsan, isinirik közünə.
Güc vermisən Koroğlunun dizinə,
Dədə Qorqud sənə uğur dilədi.

***

Qara zurnanın içindən
Keçən nəfəs "Cəngi" olar.
"Vağzalı"sı çalınmayan
Gözəllərin rəngi solar.

Bir günəşdi, qəlbimizə
Nur ələyir şəfəqləri.
O, dinəndə genişlənər
Kəndimizin üfüqləri,
Əngin olar.

Yada düşər ötən çağlar,
Qara zurna coşar, çağlar.
Sümüyünə düşsə, dağlar
Kəpənəkdən yüngül olar.

**1981**

## LAYLAY, QƏBƏLƏM, LAYLAY

Torpağın içindəki
Şəhəri görmürsən bəs?
Ayağının altında
Tarix yatır, yavaş gəz!

İtirib-axtarmasaq,
Küsər Qəbələ birdən.
Qazıb üzə çıxartdıq
Qəbələni qəbirdən…

***

Qəbələ bir yüyrükdü,
Onu zaman tərpədir.
Qaraçay, Qocalançay
Sanki yüyrük ipidi.

Qaraçay, Qocalançay
Həzin-həzin oxuyar.
Bu yüyrüyün içində
Tarix gedib yuxuya.

***

Evinin, hasarının
Kərpici uçub lay-lay.
Laylay, gözümün nuru,
Laylay, Qəbələm, laylay!

Laylay, ulu şəhəri
Salan memar əlləri.
Laylay, evim-eşiyim,
Laylay, ötən illərim.

Laylay, düşmən oxuna
Sipər olan sinələr.
Laylay, ulu babalar,
Laylay, ulu nənələr!

Biz sizi unutmarıq,
Düşmənə uduzmarıq.
Yatın, arxayın yatın,
Yerinizdə biz varıq!

**1985**

## QƏBƏLƏNİ QORUYAN HASAR

Düşmən hücum edəndə
Dönüb keçilməz dağa.
Bu hasar sinəsini
Tez veribdir qabağa.

Qılınclara, oxlara
Qalxan olub nə qədər.
Bu hasarın önündə
Düşmənlər al qanına
Qəltan olub nə qədər.

Qoruyarmış şəhəri,
Nə yaxşı ki, varmış o.
Qəbələnin əynində
Zirehli paltarmış o.

Daşların, kərpiclərin
Donub gözündə leysan.
Hasar qalıb, şəhərsə
Olub yer ilə yeksan.

Hanı "mənəm" deyənlər?
Hanı "mənim" deyənlər?
Bu hasarın köksündə
Yatır dərdlər, düyünlər.

Dindirmə, ağlayacaq,
Bulud tək dolub indi.
Ölən qədim şəhərə
Baş daşı olub indi…

**1985**

## KƏND TOYUNDA

Nə vaxt
Sarı Həsənin
Ovurdları şişərdi,
Kəndə haray düşərdi.

Yığışardı qız-gəlin
Eyvanların altına.
Öz toyları düşərdi
Nənələrin yadına.

Bəy qazan dibi yeyib, –
Hava bir az nəmişdi.
Baş qızışdı oyuna,
Qoyun-quzu əmişdi.

Nurlanmışdı, Günəşi
İstəyirdi Ay dana.
Sümükləri yanmışlar
Düşərdilər meydana.

Dəmçi yaman coşubdur,
Bu toy kimin toyudu? –
Yelləyirdi başını,
Guya çalan o idi…

Deyirdilər: – Ay İmran,
Dəm tutursan elə sən.
Nə olar bir dəfə də
"Dütdülüdü" eləsən?!

Toybaşıya nə oldu,
Yoruldu çal-çağırdan?
O qədər "Şabaş!" – dedi,
Batdı səsi axırda…

Neçə qoca ah çəkdi,
Neçə cavan odlandı.
Nə durmusan, ay Həsən,
Bir çal "Gəlin atlandı"…

Evdə şüşə qalmadı,
Çilik-çilik etdilər.
Uşaqlar qız evinə
Xəbərçilik etdilər.

Aydınlıq olsun təki,
Şənlik həmişə olsun.
Ürəkləri qırmayın,
Sınanlar şüşə olsun!

Çal-çağır hey uzandı,
Göydə ulduz əridi.
Bəy üzülür həsrətdən,
Bir sümük, bir dəridi.

Gün çıxdı, bir anlığa
Ulduzlar yaddan çıxdı.
Təzə gəlin atlandı,
Şən qızlar yaddan çıxdı.

Günəş qalxdı üfüqdən,
Günəş təzə gəlindi.
Onun gül camalına
Oğulsan bax gəl indi!

Qızlar nələr danışdı
O gün çeşmə üstündə?! –
Dava düşdü gəlinin
Sağ əlinin üstündə: –

O dedi mənim başıma,
Bu dedi mənim başıma!
Gileyləndi bir qarı:
–Eh, nə deyim yaşıma?!

Dilə gəldi “Vağzalı”,
Xatirələr dindilər.
Qocalar o havanı
Dəstələyib, xəyalən
Toylarına döndülər…

**1977**

## TOY ÇÖRƏYİ SALINANDA

Külləyin, sacı külləyin,
Yoxsa yandırar yuxanı.
Bəy anası, iş şuluqdu,
Ələ vermisən yaxanı!

Oxlov yayar, şiş çevirər,
Təzə bəyin qaç yanına.
Ona xələt, buna xələt,
Sac dirənib sac yanına.

Yaya-yaya yuxaları,
Çoxunun qəlbi yuxalar.
Söyləyərlər: –Qoy hamıya
Qismət olsun bu yuxalar!

Kündə yuxa olanacan
Ötən günlər çözələnər.
Xatirələr sac üstündə
İstilənib təzələnər.

Hərə bir pay verməlidi –
Neçə qohum yaxalanar.
Arzuların kündələri
Pardaxlanar, yuxalanar.

*******

Toy çörəyi hazır oldu,
Zurnaçıya göz eləyin.
Heç düşmədi sümüyümə,
Bu havanı təzələyin.

Qırmızı lent bağladılar
Qoçların buynuzlarına.
Təzə gəlin yandıq verdi
Kəndimizin qızlarına.

Bəy dönmədi öz sözündən,
Ov ovladı oğul kimi.
Səpin gəlinin başına
Ulduzları noğul kimi!

**1977**

## QABOY ÇALINANDA

**Kamil Cəlilova**

O kim idi qaboy çaldı? –
Bir titrəyiş qondu
mənim dodağıma.
Elə bildim
köpüklənə-köpüklənə
Dağ çayları
töküldülər otağıma.

Çaylar çıxdı məcrasından,
Göylər hönkürdü, ağladı.
Bulbül kəsdi nəğməsini,
Durnalar qanad saxladı.

Qönçənin dodağı qaçdı,
Qızılgüllər pardaxladı.
Ağ tüstülər qanad açdı,
Qara kömür köz bağladı.

Dərə açdı ağuşunu,
Zirvələr çatdı qaşını.
Daş kövrəldi daşlığıyla,
Çinarlar əydi başını.

Sular dönüb buz oldular,
Çıraqlar ulduz oldular.
Qarılar gedib xəyala,
On beş yaşlı qız oldular.

Səsdən od düşdü fələyə,
İblislər döndü mələyə.
Vətənindən küsüb gedən
Gəldi mələyə-mələyə…

Ağlayanlar şən oldular,
Səhralar çəmən oldular.
Qaratikan kolları da
Dönüb yasəmən oldular.

Araz boyu səpələndi
Qaboy səsi gilə-gilə.
Birdən tikanlı məftillər
Döndülər çiçəyə, gülə.

Bir anlığa yaddan çıxdı
Ayının da ayılığı.
Qaboy susdu, gör neylədi
Sədasının ayrılığı?!

Qaboy susdu, çıraq gördü
Çıraqdı, ulduz olmayıb.
Qərib gördü qürbətdədi,
Qarı gördü qız olmayıb.

Tikan gördü nə yasəmən?!
Səhra olmayıbmış çəmən.
Bülbül fəğana başladı,
Durnalar uçdu yenidən…

**23.01.1977**

**LƏNKƏRANDA YAĞIŞ**

Nəğmə imiş buranın çən-çisəyi,
Dağlar, düzlər bələnibmiş ətirə.
Öpdü yağış həsrətlə gül-çiçəyi,
Öpüşünün yeri qaldı xatirə.

Dağların da qəlbi belə yuxamı?
Elə bil ki, sehr yağdı sinəmə.
Yağış yağdı, dartıb açdım yaxamı,
Damcı-damcı şer yağdı sinəmə.

Burda güllər qol götürüb süzərdi,
Bir qızılgül dəstəsiydi "Cəlalə".*
Ürəyimdə neçə duyğu közərdi,
Neçə bulaq dönüb oldu şəlalə.

Bu yağışın damlasında üzərlər,
Dalda yerə qısılmağın yerimi?!
Elə bildim rəqs eləyən gözəllər
Ayaq açan misrasıdı şeirimin.

Yaxam qaldı bu həsrətin əlində,
Ağıl dedi: –Bir özünü al ələ!
Kərəm oldum bu Lənkəran elində,
Ürəyimdən Əsli keçdi, a Lələ!

Şehə batıb bu güllərin ləçəyi,
Duyan üçün bir damla da dərindi.
Bu yağışa qol götürən çiçəyin,
Hünərin var, bircəsini dər indi…

**1981**

*** Rəqs qrupu**

## ASTARA

Göyçək balan güllə çıxdı qarşıma,
Bu şerimin ilk misrası – Qızılgül.
Astaranın yağışında üşüyüb,
Əllərimin istisiylə qızır gül.

Neçə qızın çiçək bitdi dilində,
Neçə cavan tora düşdü gözündən.
Bu torpağın yağışı da, seli də
Yuya bilmir gözəlliyi üzündən.

Torpağına qədəm basdım baharda,
Ağ örtüklər bəzək verir üzünə.
Yaşıllığı görməsəydim kənarda,
Sanardım ki, qar ələnib düzünə.

Ürəyimin istəyini göz deyər,
Bu torpağın abidəsi – gözəllik!
Qorxuram ki, cəlalına göz dəyə,
Yanan qəlbim olsun sənə üzərrik.

Dönərəmmi burdan çiçək dərməmiş?!
Bir kitabdı – dağlar, düzlər varağı.
Yaxınları yaxşı-yaxşı görməmiş,
Duman qoymur gözün görə uzağı.

İlə dəyər burda keçən bir günüm,
Deməyin ki, sizə yadam, "gəlmə"yəm.
Qayıdanda sel apara körpünü,
Bu torpaqdan geri dönə bilməyəm.

**1981**

## QARAÇI YURDUNDA

Ürəyində təpər varsa, yola çıx!
Gözəlliyə sarı gedən yol açıq.
Gör nə qədər geniş imiş bu dünya,
Yamacı gəz, yavaş-yavaş yala çıx!

Üfüqlərdə batan günəş odlanır,
Köksüm altda neçə duyğu atlanır.
Bura niyə “Qaraçı yurd” adlanır,
Nə gəzirmiş axı burda qaraçı?

Kor bulağın gözünə yaş gələ bir,
Lazım gəlsə, dar ayaqda gülə bil.
Bu gözəllik dənizində elə bil
Ağ yelkəndi görünən hər alaçıq.

Zirvədəki dumandımı, sisdimi?
Tunca dönən bu üfüqlər misdimi?!
Göyqurşağı – paxır tutan hissimi
Çəmənlərdə qalaylayan qalayçı.

Odmu yanır o dağların qaşında?
Bir gözəllik sərgisi var qarşımda,
Görünəsən kaş yolun o başında –
Göz yol çəkir, ürək həsrət, qol açıq.

Qan fışqırır bu dağların köksündən,
Qəlb od alır lalələrin közündən,
Yusifoğlu, çiçəklərin gözündən
İçdiyin şeh – dərdlərinin əlacı…

**1983**

## KƏPƏZ

Nə vaxtdır bu dünya boşalır, dolur,
Heç özü də bilmir yaşını Kəpəz.
Zirvəsi həmişə duman, çən olur,
Göygöl yaşınmaqdan, yaşınır Kəpəz.

Qalxana çevrilir onun təpəsi,
Azğın şimşəkləri qoymur yaxına.
Təbiət dumana bükür Kəpəzi, –
Qorxur ki, göz dəyə o boy-buxuna…

**1987**

## MARALGÖLƏ YOL GEDIRƏM

Maralgölə yol gedirəm sevincək,
Dərə çiçək, təpə çiçək, yer çiçək…
Elə bil ki, əl eləyib hər çiçək
Söyləyir ki, ruhun olsun, mənə bax!

Günəş qalxıb, zülmət gecə əriyib,
Zirvələri yenə duman bürüyüb.
Ağac gördüm, ayaq üstə quruyub,
Meşələrin saçındakı dənə bax!

Elə bilmə duman dağa gənəşir,
Gədiklərdə maral durub gərnəşir.
O yanda çən, bu yanda yay günəşi,
Yağışa bax, dumana bax, günə bax!

Bu lövhəyə təbiətmi qol qoyub?!
Gül-çiçəklər alov saçır yol boyu!
Meşəsində ağac gördüm qolboyun,–
Ulasa bax, palıda bax, vənə bax.

Çin olubdur neçə arzun, diləyin,
Dumanlarda itib-batıb gileyin,
Çəkib səni bu dağlara taleyin,
Yusifoğlu, gözün doymur, yenə bax!

**1982**

## BU GECƏ

Yuxuma giribdir dağlar, meşələr,
Göylərdə ildırım çaxıb bu gecə.
Kəndimizdə olan çaylar, çeşmələr
Yuxu dənizimə axıb bu gecə.

Talada kəkliklər gəliblər dilə,
Yenə da dağlarda çiçəkli yazdır.
Təpədən dərəyə enən şəlalə,
Elə bilirdim ki, sədəfli sazdır.

Gəlinmi köçürdü dağlar bu gecə? –
Kəpəz ağ libasda nə göyçək idi!
Bir əsər yazmışdı bahar bu gecə,
Onun hər kəlməsi gül-çiçək idi.

Nə görsəm yaxşıdır yuxudan durub? –
Gördüm at oynadır çöldə qarlı qış.
İsti yatağımdan məni qaldırıb,
Dağlara aparan yuxuya alqış!

**1976**

**SARI AŞIQ YANĞISI**

Dedim: –Güləbirdə çox qalıb hələ? –
Bizi mat-mat süzdü oğlan da, qız da.
Qəbriniz üstünə yol gələ-gələ
Sizə toy elədik xəyalımızda.

Kim qol götürəcək, yaxşı, bu toyda? –
Eşqinin o parlaq ülkəri solub.
Sən qaldın o tayda, Yaxşı bu tayda,
Arada günahkar Həkəri olub.

Kövrəldi, qəlbimiz ipəyə döndü,
Elə ki, şeirini su kimi içdik.
Sənin nəğmələrin körpüyə döndü, –
Üstündən adlayıb o taya keçdik.

Yaxşı dayanmışdı günahkar kimi,
Məzarı önündə xəyala daldım.
Sənin başdaşına dəyən əlimi,
Onun başdaşına qoycaq, od aldın:

–Mən Aşığam, ya dəli,
Ya divanə, ya dəli.
Qəbrim od tutub yanar,
Sənə dəysə yad əli…

**1987**

## İYDƏ ƏTİRLİ NƏĞMƏLƏR

**“Ağ saçlarım” şeirinin müəllifi**
**Qasım Qasımzadəyə**

O gümüşü saçlara bax,
Şəfəqi dörd yanı tutub.
Dağ başında qar deyil o,
Bir ağ bahar bulududu.

Ala gözlərini sıxsa,
Yaş ələnər gildir-gildir.
O buluddan yağan yağış
Bənövşədir, qərənfildir.

Hər birində qeyrət yükü,
O ağ saç başın tacıdır.
Durub kənardan baxıram,
Sanki iydə ağacıdır.

O ağacın budağından
Şeir “dərdik” biz nə qədər.
Ruhumuza nur çilədi
İydə ətirli nəğmələr.

**1983**

***

Kəndimizə qonaq gələn dost,
Öz bəxtindən küs ki,
Sən adicə bir çiçək görürsən,
mən baba qəbrindən
boylanan nisgil.

Min xatirə uyuyur
o dağın zirvəsində,
bu dərənin qucağında.
Bir həsrət nəğməsi çağlayır
bu bulağın dodağında.
Bir ürək titrəyir
bu ağacın hər yarpağında.
Bir ata həniri var
bu evin suvağında…
Sən adicə dərə,
adicə dağ görürsən.
Sən adicə ağac,
adicə yarpaq görürsən.
Sən novunu sel aparmış
adicə bulaq görürsən,
Sən suvağı tökülmüş
adicə otaq görürsən.–
Mən o dərədən, o dağdan,
o ağacdan, o yarpaqdan,
novunu sel aparmış bulaqdan,
suvağı tökülmüş otaqdan
yamanca utanıram…

**1987**

## ÇAYZƏMİDƏ QIŞ GECƏSİ

Meşə heyrətə gəlib,
Çay heyrətə gəlib.
Ulduz heyrətə gəlib,
Ay heyrətə gəlib.
Gecə heyrətə gəlib,
Qış heyrətə gəlib.

Yuxudan oyatdığımız
Quş heyrətə gəlib.
Çay elə bil soruşur
Aydan süzülən nurdan:
–Gecənin bu vaxtında
İnsan nə gəzir burda?!
Bulaq heyrətlə baxır,
Meşə heyrətlə baxır.
İnsan ay işığında,
İnsan qar işığında
Şam kimi əriyib axır.
Heyrət heyrətə qovuşur,
Heyrət bir çıraq olur.
İnsan heyrətə gələndə
Gözləri bulaq olur…

**1986**

## ZİRVƏDƏ

Ucalmaq – arzumun əzəli, ilki,
Bir dəfə qıy vurmaq yüz ömrə dəyər.
Zirvə qartal üçün zirvə deyil ki,
Qartal yorulanda enər zirvəyə.

Könlümə ruh verən onun səsidir,
Mən qərib saymıram özümü orda.
Zirvələr qartalın söz kürsüsüdür,
Qarğa deyə bilməz sözünü ordan.

**09.02.1975**

## BÜLLUR BƏLƏDÇİM

Qısıldım bir palıd budağına mən,
Xəyalım hər yanı gəzdi, dolaşdı.
Döndüm xatirələr bulağına mən,
Qayğısız günlərim kükrədi, daşdı.

Meşənin qoynunda itirdim yolu,
Hündür bir təpənin çıxdım üstünə.
Qanatdı dizimi həmərsin kolu,
Yoncanın suyunu sıxdım üstünə.

Çiyələk qoxusu tutdu hər yanı,
Yaşıl bir talaya endim ehmalca.
Yuxarı baxanda gördüm səmanı,
Aşağı baxanda yaşıl bir xalça.

Əyildim bulaqdan bir qurtum içim,
Yol hanı? – Bürüdü məni həyəcan.–
Bir çeşmənin suyu oldu bələdçim,
Ötürdü o məni coşqun çayacan…

**1976**

## YERİN YERİNƏ OLSAM

Kasıbın əynində
isti köynəkdi,
Pətəkdə baldı,
Çəməndə çiçəkdi –
Günəş.
Tarlada sünbüldü,
Çöldə sarmaşıqdı.
Budaqda meyvədi,

Gözdə işıqdı –
Günəş.
Can verir kürəmizin
torpağına, daşına…
Yerin yerinə mən də olsam,
Dolanardım onun başına…

**1985**

## ƏL QUZUSU

Allı-güllü yonca yeyir
gövşək-gövşək,
Ot dalınca dolanmayır
kövşən-kövşən.
Çörək yeyir, kişmiş yeyir…
Bu dünyanın bəxtəvəri
Mənəm deyir.
Hamı onu sığallayır,
Hamı onu əzizləyir.
Bilməyir ki,
Bu qayğının arxasında
Bəxtəvəri nə gözləyir…

**1981**

## QOYUN

Qoyunu qurddan
qoruyuruq,
Bu bizim dostumuzdu
deyirik.
Südünü içirik,
Yununu qırxırıq,
Ətini yeyirik
dostumuzun…

**1985**

## OCAQ DAŞI

Odların içində hər vaxt qalsa da,
Daşdır, daşlığını o, heç danmayıb.
O, neçə yanana şahid olsa da,
Özü yanmayıb.
Bəlkə buna görə,
düşünürəm mən,
Üzü qara çıxıb odlar içindən?

**1970**

## KİŞİ ÜRƏYİ

Ağlın söz kəsəndən tutdun doğru yol,
Gördün zaval yoxdu mərdə, doğruya.
Dözdün neçə-neçə dərdə, ağrıya,
Mənim fil ürəyim, azman ürəyim.

Gümüşə döndərdi saçımı illər,
Məni qınamasın qoy bizim ellər,
Toxundu əlimə kəmanə tellər,
Hönkürüb ağladı kaman ürəyim.

Sevgi nə yaxşı ki, baxmayır yaşa,
Qəlbində ilk bahar get üzü qışa,
Kişi sinəsində kişi tək yaşa,
Kimsədən istəmə aman, ürəyim.

Pay verdin hamıya duyğudan, hissdən,
Yoxdur bir qorxumuz dumandan, sisdən.
Ələyib seçəcək yaxşını pisdən,–
Ən gözəl sərrafdı zaman, ürəyim…

**1981**

## O BAĞIN AĞACLARI

Uşaqlıqda dərs keçdiyimiz məktəbin, onun gözəl bağının yerində şum görəndə kövrəldim.

Burda bir gözəl ev vardı,–
Ürəyimdən bir ah qopub.
O ev göyəmi çəkilib,
O ev torpağamı hopub?!

O evin itdiyi yerdə
Elə bil ki, ahdı ilğım.
O ilğımın arxasında
Mənim kövrək uşaqlığım...

O evin dörd tərəfində
Bir gözəl bağ vardı o vaxt.
O bağın köksünə axan
Bir bulaq çağlardı o vaxt.

O ev uçub dağılanda
Bu bağı da tutub qarğış.
Demə bu bağın üstündə
O evin kölgəsi varmış…

O ağacın budağında
O bülbüllər ötməz daha.
Şumlanıb o bağın yeri,
O ağaclar bitməz daha…

Əziz bala, zərrə qədər
Yalan yoxdu sözlərimdə.
Bax, o bağın ağacları
Bitib mənim gözlərimdə…

**1987**

## DÜZ – ƏYRİ

Əyrinin kimsəyə axı nə xeyri,
Düzlərə həmişə ehtiyac olur.
Bəs niyə meşədə yaşayır əyri,
Kəsilən həmişə düz ağac olur?

**1970**

## DEYİRƏM YAXŞI Kİ, BU QƏLƏMİM VAR

Deyirəm yaxşı ki, bu qələmim var,
Könlümü açıram mən ona hərdən.
Bir həsrət çeşməsi coşar, çağlayar,
Min arzu göyərər o dəyən yerdə.

O mənə sadiqdi intizar kimi,
Külüngə çevrilər desəm: daşı yar!
Yorulmaq bilməyən bir qatar kimi
Qəlbimdən kağıza nisgil daşıyar.

Şərikdi sevincə, ortaqdı dərdə,
Qıymaz ki, qəlbimin alovu sönə.
Bir mizraba dönüb toxunar hərdən,
Mənim həsrətimin sarı siminə.

Bir yaşıl budağa dönər baharda,
Mənim ondan ayrı təmənnam yoxdu.
O, mənə arxadı çətində, darda
O, mənim əlimdə qılıncdı, oxdu.

Dünyada nə qədər buqəlamun var,
Daha dizlərimin gücü tükənib.
Yaxşı ki, yaxşı ki, bu qələmim var,
Ayağa dururam ona söykənib…

**1984**

***

Ürəyim dolanda dinər qələmim,
Varaqlar üstündə quş kimi uçar.
Elə bil kotana dönər qələmim,
Kağızın üstündə şırımlar açar.

İlhamım zəhmətdən səadət umar,
Çəkər "şum kağızlar" alın tərimi.
Titrək qələmimlə açdığım şuma,
Toxum tək səpərəm fikirlərimi…

## OXŞAR TALELƏR

Mən bu dağa vurulmuşdum körpə çağımdan,
Kəndimizə yol çəkənlər onu oyublar.
Bir abidə düzəldiblər yol qırağında,
Suyu sısqa bir bulağa heykəl qoyublar.

Özünə də ad veriblər: "Ceyran bulağı",
Gəlib-gedən sudan içmir, heykələ baxır.
Ondan yüz yol suyu sərin, şəfa qaynağı
Bulaqlar var kol dibində çağlayır, axır.

Mən onların gözlərindən öpmüşəm bir vaxt,
Hər birinin səsi qalıb qulaqlarımda.
Düşünürəm, qismətə bax, taleyə bir bax,
İnsanlara oxşarı var bulaqların da…

**1984**

## SAZ KÖYNƏKDƏN ÇIXANDA

Köynəkdən çıxartdı sədəfli sazı,
Bulud arasından günəşmi çıxdı?
Şəfəqli tellərə qəlbim tamarzı,
Nəğmələr sel kimi kükrədi, axdı.

Simlər min hekayət danışdı mənə,
Sevincim kükrəyən bir dəniz oldu.
Nəğmə dənizinə baş vurduq yenə,
Soyunan saz oldu, çimən biz olduq.

**05.12.1975**

## İLK QAR

Qəlbimizi aça bilmir Cənub qışı,
Yerə çatmır, qar yağsa da inci-inci.
Harda qalıb təbiətin buz naxışı? –
Göydə ölür körpələrin ağ sevinci.

Həsrət çəkir qarlı qışa neçə ürək,
Qar altında mürgüləyir yüz dağ, dərə.
Göydən enən dəstə-dəstə ağ kəpənək
Bəyənmirmi küçəmizi – qonmur yerə?!

Yer ağarıb, bu sevinc də çıxdı əldən,
Zəng vuruldu, sinfə girdik dəstə-dəstə.
Gözlər baxır müəllimə, fikir çöldə,
Qar yağacaq bu gün neçə dərsin üstə…

**1984**

## DƏYİŞMƏ

Mənim bəxt ulduzum hələ
Göyün yeddi qatındadı.
Başdaşım olacaq mərmər
Hardasa yer altındadı.

Mən köçəndə yer altına,
O çıxacaq yer üstünə.
Dönəcək adi insanın
Kiçik xatirə büstünə…

**01.04.1988**

## SUMQAYIT

O sayrışan işıqların görən nə deyir? –
Neçə ürək pərvanə tək oda atılıb.
Neçə cavan yuxusunda görəmmədiyi
Gözəlləri Sumqayıtda görüb, mat olub.

Dil açıbdır neçə gəncin şirin diləyi,
Ürəyində tikmək, qurmaq həvəsi gəlib.
Bu şəhərə neçə düzün gülü, çiçəyi,
Neçə dağın könül açan havası gəlib.

Ona bağlı illərimiz unudularmı? –
Milyonlara doğma olub Sumqayıt adı.
Yurdumuzun elə kəndi, şəhəri varmı
Bu şəhərdə yaşamasın onun övladı?

Burda kimsə taleyindən deyil narazı,
Qara gün də toy-bayrama dönər bu yerdə.
Şəkinin qara zurnası, Qazağın sazı,
Qarabağın tar-kamanı dinər bu yerdə.

Övladları bir-birindən xoşbəxt, bəxtiyar,
Adamların bir-birinə qaynayır qanı.
Evsizlərə ev olubdur, yarsızlara yar,
Aslanlara, Şəmşadlara hünər meydanı.

Gündən-günə ucalır o, artır qüdrəti,
Bir yenilməz dağa dönür qürur köksümdə.
Sumqayıtım bəxtəvərdi, səksən millətin
Mərd ürəyi bir ahənglə vurur köksündə.

Bir qartala bənzəri var, buna çox şadam,
Uzaq-uzaq üfüqlərə dikilib gözü.
Ona şəhər söyləmək də istəmir adam,
Sanki böyük bir ölkədir Sumqayıt özü...

**1981**

## BİZƏ İNSAN DEYƏRLƏRMİ

Heç olmasa qovuşaydıq
Arzuların bircəyinə.
Ağ saqqalım qarışaydı
Sənin gümüş birçəyinə.
Qocalaydıq ikimiz də,
Yəni qoşa qarıyaydıq.
Oğul-uşaq sarıdan da
yarıyaydıq.
Gözümüzdən axmayaydı
Bir qətrə yaş.
Oğul toyu görmək nədir,
Nəvə toyu görəydik kaş!
Deyirsən: –Çox yaşayardıq,
Qayğıların ucbatından
Çürütməsək ömrümüzü.
– Bizə insan deyərlərmi
Arzuların atəşində
Əritməsək ömrümüzü?

**1977**

## ÇİYİN-ÇİYİNƏYƏM PAYIZLA

Həzinlikdən yoğrulub elə bil,
Son bahar sözü, payız adı.
Çiyin-çiyinəyəm payızla,
Ömrün üzü payızadı.
Bağımızdakı ağaclar
Elə bil mənə pay uzadır,
Meyvə payı.

Bir işıqdı sanki
Almaların, heyvaların hərəsi…
Bəs mənim meyvələrim hanı
Dost-tanışa sovqat verəsi?!
…Çiyin-çiyinəyəm payızla,
Ömrümün üzü payızadı…

**1984**

## UŞAQLIĞIM

Uşaqlığım çıxıb getdi narın-narın,
Bir də çətin qonaq gələ o bu dağa.
Meyvələri biz olardıq ağacların,
Bu budaqdan tullanardıq o budağa.

O günlərim köçüb getdi, haray, haray…
Harda qaldı "Südlü sümük", "Mollaharay",
"Dirədöymə", "Yoldaş, səni kim apardı"?
O günləri ömrümüzdən kim apardı?

Uşaqlığım şimşək kimi
çaxdı getdi,
Uşaqlığım qarğı atın
belindəcə çıxdı getdi.
Ağacların budağında
qaldı mənim uşaqlığım,
Bir də, bir də öz anamın
Dodağında qaldı mənim uşaqlığım…

**1972**

# SEVİNCİM, KƏDƏRİM

## ULDUZLAR

Taleyə bax, hər vaxt göydə olsa da,
Qaranlıqda gözə dəyir ulduzlar.
Eh, gündüzlər dili gödək olsa da,
Gecələr gəl, gör nə deyir ulduzlar!

Arzularım deyil eyni biçimdə,
Gözə dəymir heç adım da, sanım da.
Bəxt ulduzum ulduzların içində,
Özüm yerdə, adamların yanında...

Böyüklüyü gedib öyrən günəşdən,
Var hər kəsin öz mənliyi, qüruru.
İşığıyla öyünsəydi günəş də,
Heç kəs qəbul eləməzdi o nuru.

Kim istəyər cılızlaşmaq, kiçilmək? –
Könlümdəki arzulara gülürsən.
Ulduz olub ulduzlardan seçilmək,
Hər ulduza qismət olmur, bilirsən…

**13.03.1977**

## TAYTUTAN

İnsanlar bir yana, evlər bir yana,
Yadıma zəncirli köpəklər düşür.
Dəryazlı kişilər düşüb meydana,
Güllü biçənəyə təzə vər düşür.

Axşam ot verirlər iki bağ, üç bağ,
Yenə ayağıma dolaşır sicim..
Mən də bir uşağam, cılız bir uşaq,
Atı yükləməyə çatmayır gücüm.

Özünə qarışıb hərənin başı,
Yüklənir tarlada ulaq, at, qatır.
Axır yanağıma isti göz yaşı,
Yenə də dadıma taytutan çatır.

Taytutan – meşədən qırdığım ağac,
Taytutan – köməkçim, yaxın yoldaşım.
Qışda inəyimiz niyə qalsın ac? –
Ot-alaf yığmağa qarışıb başım.

Məni qorxutmurdu kiçik də olsam,
Qoruqçu Ziyadın sözü, hədəsi.
Deyərdi: –Canımı yığdı boğaza,
Bu Yusif müəllimin böyük gədəsi.

Bağrımın başında açılan çiçək
Alışdı qəlbimin təzə qoruna.
Gün keçdi, o allı-güllü biçənək
Döndü redaksiya qapılarına.

Orda da uşaqdım, burda da uşaq,
Hərənin öz məşhur soyadı varmış.
Dedim öz-özümə: –Taleyimə bax,
Şerin də qoruqçu Ziyadı varmış…

Yenə də Ziyadın kefini pozdum,
Demə ki, bu oğlan əcəb mətinmiş!
Bir bənd çap etdirmək, sən demə, dostum,
Bir bağ ot almaqdan yüz qat çətinmiş!

Hərdən kövrəlirəm, gözlərim dolur,
Nə bilim, sabah nə gözləyir məni?
Ümidim, inamım taytutan olur,
Yenə də meydana səsləyir məni…

**1977**

## BİBİMİN SÖZLƏRİNDƏN

Ahın bu dağlara gəlsin,
Dağ ahlara dözər, bala!
Aşkar yana bilməsən də,
İçin-için közər, bala!

Gəl bu sözün duraq üstə,
Zülmətdən qaç, çıraq istə.
Az baş sındır varaq üstə,
Səni fikir üzər, bala!

Təkrar etmə dediyini,
Oğulsan, aç bu düyünü:
Özgə özgə itiyini
Bayatıyla gəzər, bala!

Azalt bir az sərtliyini,
Əsirgəmə mərdliyini.
Vüqarlı ol, pərtliyini
Birdən yağı sezər, bala!

Tərəzidir elin gözü,
Qiymət verər bir gün özü.
Qulaq assan, onun sözü
Həyatını bəzər, bala!

**1977**

## ZAMAN

O, hara tələsər, bilmirəm hara? –
Aşar bərələri, keçər düzləri.
Ağ cığırlar salar qara saçlara,
Qalar yer üzündə ayaq izləri.

Bilinməz ünvanı, bilinməz yaşı,
Hərəyə bir cürə sovqat göndərər.
Canlıya döndərər torpağı, daşı,
Canlını torpağa, daşa döndərər.

Gör nələr törəyər gərdişi ilə? –
Bəzən düşünürəm, bəlkə də zaman
Getsəydi tısbağa yerişi ilə
Gözümüz doymazdı yenə dünyadan.

Zaman hər müşkülə bir əncam çəkər,
Bəzən tumarlandıq, bəzən əzildik.
Zaman yel qanadlı olmasa əgər
Dünyanın üstündə biz nə gəzirdik?!

Qoy artsın sürəti, mən buna şadam,
Ömrün sahilinə gec-tez yetəcəm.
Zamanın qurbanı olubdur atam,
Zamana göz dikib nəvəm, nəticəm…

**28.05.1977**

## BU DÜNYA

Qalalarda qaynaq olub sanki daş daşa,
Dərələrdə sellər, sular çağlayar, daşar,
Xəyalımın buludları gələr baş-başa,
Gözlərimdə şimşək olub çaxar bu dünya.

Kövşənlərdən, zəmilərdən ayaq yığışıb,
Ürəyimi nurlandırar bir qız baxışı.
Bu dünyanın hər sevinci bir yaz yağışı,
Damarımda selə dönüb axar bu dünya.

Öz ağlımın budağında əsir həyatım,
Qitələrdə göbələk tək boy atır atom,
Farağat dur öz yerində, qardaşım, atam,
Çiçək olub qəbrimizdən qalxar bu dünya…

***

İnsan var ki, ömrü keçib boran içində,
Neçə gülü qönçə ikən dərdi bu dünya.
Elə təzə dərd verir ki, bir an içində,
Unutdurur neçə köhnə dərdi bu dünya.

Yaxşıları, yamanları aradı, seçdi,
Gözlərindən neçə qərib ildırım keçdi,
Bir də gördün dağa, düzə ağ libas biçdi,
Bir də gördün güllü xalı hördü bu dünya.

Yaşamaqçün bağışladı çörəyi bizə,
Sevmək üçün bəxş elədi ürəyi bizə,
Ocaq olub nur gətirdi ürəyimizə,
Tüstü olub gözümüzə girdi bu dünya.

Bu həyata bircə dəfə gəlmirmi adam?! –
Ay insanlar, ömrünüzü verməyin bada!
Qoca Xəyyam sağ əlində nur dolu badə,
Haray salıb qışqırır ki, birdi bu dünya!

Yusifoğlu, hey döyürsən gözünü hələ,
Sən də deyə bilməmisən sözünü hələ,
İnsan oğlu dərk etməyib özünü hələ –
Başdan-başa möcüzədi, sirdi bu dünya.

**1984**

## SEVİNCİM – KƏDƏRİM

Sevinci bölməyə hamı hazırdır,
Kədərin ortağı tapılmır ancaq.

**M. Lermontov**

Yazıqsan, yoxdursa könül həmdəmin,
Dünyada hər kəsin öz sirdaşı var.
Dərdini bölüşsən, azalar qəmin,
Sevinci bölüşsən, sevincin artar.

Bir könül həmdəmi halımı sorsa,
Açaram dərdimi, ürək dinc olar.
Ən ağır kədərin ortağı varsa,
O kədər özü də bir sevinc olar…

**1972**

## QƏBİR QAPISINDA PASLANAN QIFIL

Ot basmış cığırın yol çəkir gözü,
Həsrət cadar salıb, daşı da bölüb.
Bir vaxt bu gözəlin ölmüşdü özü,
İndi ona olan məhəbbət ölüb.

Torpaq unutmayıb o ahı, ufu,
Şahidsən nə qədər göz yaşına sən –
Qəbir qapısında pas tutan qıfıl,
Göz dağı olmusan baş daşına sən.

Hanı, bu kilidin açarı hanı?–
Soyuq mərmərin də gözləri dolub.
Hanı, bu qapının açanı hanı? –
Adicə bir qıfıl qıfılbənd olub…

**1987**

## QOCANIN ÜZÜ – ŞAİRİN GÖZÜ

Bu qocanın üzündə
Gör nə qədər qırış var.
Zaman bir əkinçidi,
Saldığı şum – qırışlar.

Suala tutsan əgər,
Qoca nəfəs dərəcək –
Üzündəki o şumdan
Xatirə göyərəcək.

Vala da bənzədərsən,
Əgər o üzə baxsan.
Bu qırışın hər biri
Səs cığırıdı yoxsa?!

Bu valı dilləndirmək
İstəyənlər az olub.
O cığıra bir ömrün
Qayğıları yazılıb…

**1987**

## QOCALIĞIN XATİRƏSİ

Uşaqlıq xatirələrinin
Çiynində dayanıb bu günüm –
Özüm qazanmışam bu ucalığı.
Ömrüm bir çay kimi axıb gedir:
Bir sahilində uşaqlığım, gəncliyim,
Bir sahilində qocalığım.
Hərəyə öz canı şirindi,
Ömrü özgələrdən borc allıq necə?
Uşaqlıq, gənclik xatirəyə dönə bilir,
Bəs qocalıq necə? –
Qocalığın xatirəsi yoxdu…

**1987**

## RUHUNUN DALINCA

**İstəkli dayım Maisin əziz xatirəsinə**

Ayaqların sözünə baxmadı,
Dağ çayı kimi qıjıltılı qanın
Adi insan damarlarına sığmadı…
Başına firlandı şəhər.

Elə bil çağırırdı səni
sümükləri sürmə olmuş ata, ana.
Qaçmaq istədin
doğulduğun kəndə qədər,–
Bədənin dözmədi
bu arzunun ağırlığına.
Çökdü gözlərinə əbədi bir yuxu.
Cəsədini sahil bağında qoyub,
Ucqar bir dağ kəndinə uçdu ruhun.
Hıçqırdıq, ağladıq,
Şivən qopardıq…
Sənin bədənini yerdən qaldırıb,
Ruhunun dalınca apardıq, –
Əlimizdən nə gəlirdi daha…

**1984**

## SON YARPAQ

O yarpaq titrəyəndə
Ürəklərimiz əsir.
Neçə evin üstündə
O ağacın kölgəsi…

O yarpaq ümidimiz,
O yarpaq dayağımız.
O yarpaq yol göstərən
İşıqlı mayağımız.

O yarpağı görəndə
Ömrümüzə gün düşür.
Gecələr o yarpaqda
Yuxumuz düyün düşür.

…Atan, anan, qardaşın
Olubdur torpaq, anam.
Bir nəslin budağında
Əsən son yarpaq – anam…

**1987**

## BU BAĞÇADAN PAYIZ KEÇIB

Xəzəllərdə gözüm qalıb,
Yarpaq yanıb, közü qalıb.
Bu bağçadan payız keçib,
Ayağının izi qalıb…

**1987**

## OXQAY

Həyata keçən insan arzusu,
Təşnə üçün bir qurtum su.
Kor gözə gələn işıq,
Həsrətli barışıq.
Ürəkdən çıxarılan qəlpə,
Ana döşlərini əmən körpə.
Zirvədə yellənən Vətən bayrağı,
Qərib üçün bir ovuc Vətən torpağı.
Ana yurdu, ata obası,
Ciyər dolusu dağ havası.
Vətən yelləri.
Loğman babaların səriştəsi.
Xəstə alnında ana əlləri,
Nənələrin sulu əriştəsi.
Tarın sarı simi.
Yağışdan sonra günəşin təbəssümü.
Məhəbbətin şirin əzabı,

Sükutun dili.
"Yaxası dar köynəkdə" iki sevgili.
Balamın dodağında "ata" kəlməsi,
İşdən qayıdanda
Qaça-qaça qabağıma gəlməsi.
Bəxtiyar gün, ay…
Oxqay! Oxqay!!!

**05.03.1977**

## ÜZÜ GƏLƏCƏYƏ

Zaman – məhək daşı,
Zaman – saxtalara qənim.
Elə bil körpüdü məhəbbət,
Bir ucu sənin çiynində,
Bir ucu mənim.
Bu körpünün altında
sellər-sular çağlayır –
ömrümüzü budaya-budaya.
Üstümüzdən körpələrimiz
keçəcək
O taya, bu taya…
Üzü gələcəyə…

**1980**

## OCAQ YERİ

Qibtə elədim
baş-başa verən
iki oduna.
Yandılar məhəbbət oduna,
Yandılar əl-ələ,
Yandılar qucaq-qucağa.
Alovdan köz doğuldu,

Apardılar onu başqa ocağa.
Baxdım iki közə,
Dayanmışdılar göz-gözə.
Ömürdən-gündən
Nəsə deyirdilər bizə…
Əbədi deyil ki, ömür –
Sabah üz-üzə dayanacaq
İki kömür…

**1980**

## ALDANIŞ

Qışın saxta təbəssümünə
aldanıb,
Onu yaz bilən ağac!
Çiçək gözlərini açıb,
Bəxtiyar-bəxtiyar
gülən ağac!
Çiçəyinin üstünə
Ləçək-ləçək qar yağmazmı?
O qar – gözlərinə atılan
Bir ovuc torpağa bənzəməzmi?
Qar saçlı qış bilərmi heç
Nə deməkdi yaz öpüşü?
Güllərini soldurmazmı
buz öpüşü?!
Damarında daşıb qanın,
Çiçək-çiçək közərmisən.
Bu vədəsiz oyanışa
Tab gətirib dözərmisən?!

**1980**

## AĞAC

Ay qış küləyi!
Sevinmə ki, qupqurudur,
bomboşdur budağım.–
Yenə gələcək bahar!
Hələ mənim içimdə
Nə qədər doğulmamış yarpağım,
açılmamış çiçəyim,
yetişməmiş meyvəm var!
Ancaq sənə verməरəm onları.
Qışqırırsan, hədələyirsən məni, –
Yoxdur özgə əlacın.
Nəvaziş görməsə,
Səxavət əli açılarmı ağacın?

**1982**

## XƏSTƏXANA

Yaşamaqdan üzməmişəm əlimi,
Hələ neçə arzularım körpədi.
Xəstəxana həyat ilə ölümün
Arasında elə bil ki, körpüdü.

Zalım əcəl oynatmasın qoy atın,
Bu dünyadan gəlib keçib de, kimlər?!
Sərhədində ölüm ilə həyatın
Sərhədçi tək dayanıblar həkimlər.

Qaytarıblar neçə-neçə dəstəni,
Söyləyiblər: –Tələsməyin köçməyə!
Sərhədçilər neçə-neçə xəstəni
Qoymayıblar bu körpüdən keçməyə.

**1981**

## ADİ ADAM

Yer qazar, daş yonar, gəlməz arına,
El-oba içində axtar, gəz onu.
Qarışar dünyanın adamlarına,
Yoxluğu, varlığı bilinməz onun.

İşi diliylə yox, əliylə görər,
Natiqlər lal olar danışsa, dinsə.
Ən ağır işlərə o, sinə gərər,
Çalışar, tər tökər, ad alar kimsə.

Könlündən nə dövlət, nə ad-san keçər,
Düşmənə əl açmaz, dosta əyilməz.
Çəkilib bir küncə sakitcə içər,
Toyda sağlığına tost da deyilməz.

Ələnər saçına qayğı qırovu,
Ağ gün arzusula vurar ürəyi.
Öləndə nə mitinq, fəxri qarovul,
Nə də ki, nekroloq deyil gərəyi.

Bu qoca dünyadan köçər ahəstə,
Onu yola salar beş-on can-ciyər.
Adi adamların qəbrinin üstdə
Vida sözünü də göz yaşı deyər…

**21.04.1983**

## ÖMRÜN QIŞ ÇAĞINDA

İllər ötüb, yaşa dolub,
Yanağının gülü solub,
Qız qocalıb, qarı olub,
Gözdən yaşına-yaşına.

Elə ki, dağlara baxdı,
Dilindən bayatı axdı.
Cavanlar kimi qıvraqdı,
Baxma yaşına, yaşına.

Xatırlayır həyatını,
Xəyal çapır hey atını,
Eşitsə o bayatını,
Dönər daş una, daş una.

Dalda yerə qaçır hər gün,
Nəğməsi od saçır hər gün,
Ürəyini açır hər gün
Qəbir daşına, daşına.

Dili yoxdu dinə dağlar,
Bu ayrılıq sinə dağlar.
El qayıtdı, yenə dağlar
Qaldı başına, başına.

Dönüklük ona ar gəlib,
Yuxusuna hey yar gəlib,
O, qəlbində bahar gəlib,
Ömrün qışına, qışına…

**1978**

## MOSKVADA İLK QAR

Payız öz sözünü deməyib hələ,
Görəsən bu qarın qəsdi nə, yağır?
Hələ saralmağa macal tapmamış
Yaşıl yarpaqların üstünə yağır.

Bir həsrət qəlbimi üzür gizlicə,
Əriyir ömrümün qızıl günləri.
Çatım harayına bilmirəm necə? –
Üstünə qar yağır qızılgüllərin.

**1982**

## MOSKVADA PAYIZ

Qızlarının saçı kimi
Ağaclarının saçı qızılı.
Payızın qızıl əlləriylə
Ömrümün qızıl səhifələri yazılır.
Moskva bir ağacdı elə bil,
Ürəyim payız yarpağı kimi
Onun budağından asılıb…

**1982**

## BU TONQALIN ODU ILƏ

Hərzə-mərzə söz danışır,
Tutun onu! Vurun onu!
Diri-diri yandırdılar
Burunonu.
Bu tonqalın odu ilə
Müşfiqimin, Cavidimin
İlhamının qanadını ütdülər.
Bu tonqalın işığında

Neçə ömrü üyütdülər.
Karbışevin bədəninə
su vurdular…
Neçə kəndin, neçə yurdun
Külünü göyə sovurdular.
Bu tonqalın odu ilə
yanan gördüm
Osvensimi, Xatını…
Bu tonqalın işığında
Namərd yenə yəhərləyib
Öz "neytron atını"…
Bu alovun tüstüsündə
Boğun onu!
Tutun onu!
Vurun onu!
Yoxsa bir də yandırarlar
Burunonu…

**1981**

## PAPAQ

Eşqi, əməliylə tanınar insan,
Ağıldır hamını ucaldan göyə.
Sən isə özünü kişi sanırsan
Başında qiymətli papaq var deyə.

Yersiz lovğalığın nə mənası var,
Əgər baş qılıncsa, papaq qın olub.
Başını uca tut deyib babalar,
Bir ağlın meyvəsi bir xalqın olub.

Zəkadır, ağıldır insana həyan,
Ağıl çeşməsindən güc alıb bəşər.
Deyirəm: görəsən başı olmayan
Adamın yadına ürəkmi düşər?!

Sevdim, gözlərimdən yuxu da qaçdı,
Ağıl olmasaydı, neylərdi ürək?!
Papağı qiymətə mindirən başdı,
Başa qiymət vermə papağa görə…

**1984**

## TƏPƏR VƏ ÇƏPƏR

Nə vaxt ki, canımda təpər var idi,
Qarşımda tikanlı çəpər var idi.
Nə vaxt ki, qarşımda çəpər yox oldu,
Qocaldım, canımda təpər yox oldu…

**1982**

## BALIQQULAĞI

Elə bil toydur dənizdə,
Dalğaların səsi
Gah bəmə enir,
gah qalxır zilə.
Balıqqulaqları şabaş kimi
səpələnib sahilə.
Əl atıb götürürəm birini
sevə-sevə,
dönürəm evə.
Öz səsimi uduram,
Qulağıma tuturam.
Bu nədir? –
Heyrətlə baxıram
soluma, sağıma.
Qəribə səslər gəlir qulağıma.
Elə bil sahilindəyəm dənizin,
Ləpələr oxuyur həzin-həzin.

İnanmıram qulaqlarıma,
Boylanıram dörd bir yana.
Bəlkə maqnitafondur balıqqulağı,
Dənizin səsi yazılıb ona?
Ürək tufan sorağında,
Otağımsa dənizə oxşayır.
İşə bax, bir kiçik balıqqulağında
Dəniz yaşayır,
Tufan yaşayır…

**1970**

## KEÇƏLLƏR

Biri varıdı, biri yoxudu,
Bir keçəl var idi, – noxudu.
Keçələ sataşma, adamını tanı.
Şeytan da aldada bilməyib,
Keçəl aldadanı.
Fəqət mərd olublar,
İnsanlara səadət diləyiblər keçəllər.
Şahlar qırmızı geyinib taxta çıxanda,
Bəd niyyətləri keçəl eləyiblər keçəllər.
…Deyirlər fəlakət olarmış,
nəmişliyin qarşısı saxlanmasa.
Şikayətə Allah da baxmazmış.
Qırx keçəlin başı bir ipə bağlanmasa,
Günəş də çıxmazmış.
Biri varıdı, biri yoxudu,
Bir keçəl var idi, – noxudu. –
Biz dinləmişik bu nağılları,
Hələ dinləyəcək qızlarımız, oğullarımız.
Deyirəm əhsən keçəllərə,
Onlarsız keçəl qalar nağıllarımız.

**1972**

***

Düzlərdə zəncəfil, qantəpər, kəkotu,
Dağ boyda olurmuş dağların sükutu.
Başının altına yastıq tək çək otu –
Mürgü vur, bu yuxu xoş olar.

Gülləri dəstəylə köksünə sıxanda,
Küləyin əlləri dolanar yaxanda,
Zirvədə dolanan qartala baxanda
Ürək də çevrilib quş olar.

Sel gələr, dağlara səs düşər, "güm, gurum"…
Əks edər o səsi özündə sıldırım,
Dağıdar sükutu bir anda ildırım,
Göylərin ürəyi boşalar.

Tez durub qaçasan yaxına,
Verəsən özünü Göyəzən dağına,
Bir ürkək maral da köksünə sığına, –
Ah, necə xoş olar!

**1970**

## HƏYATIN MƏNASI

Uşaqların qəlbi əsir bayaqdan bəri,
Düşüncələr nəhayətsiz, arzular min-min.
Çox çəkmədi müəllimin titrək əlləri
Ağ yol çəkdi üzərində qara lövhənin.

"Sən həyatın mənasını nədə görürsən?" –
Neçə yerə parçalandı bu yol bir azdan.
Duyğuları alışdıran suala əhsən,
Hər ürəyə bir qol gəldi Kürdən, Arazdan.

Düşüncələr hey kükrədi, ürəklər doldu,
Sanki günəş göl üstündə əritdi buzu.
Hər sərlövhə elə bil ki, bir vağzal oldu,
Yola düşdü sinəsindən min xəyal, arzu.

Biri yazır: əsl həyat mübarizədir,
Biri yazır: yaratmaqdır ömrün mənası.
Birisinin sözü köhnə, biri təzədir,
Biri ömür arzulayır min il ən azı.

Biri yazır kaş olaydım çiçəkli bir yaz,
Paylayaydım işığımı çəmənə, çölə.
Biri yazır: həyatımın mənası olmaz,
Əgər fayda vermirəmsə obaya, elə.

Biri yazır: qanatmayın köhnə yaramı,
Yalvarıram, rişxənd edib gülməyin mənə.
Yaş fərqimiz sərhəd kimi kəsib aranı,
Bacarmıram ürəyimlə, sevirəm yenə.

Biri yazır: dalğasız da dəniz olarmı?! –
Bəzək vurur ömrümüzə həsrət, intizar.
Biri yazır: sevilməkdən gözəl şey varmı?!
Biri yazır… Nə qəribə sözlər yazırlar…

**1976**

## ASFALTIN ÜSTÜNDƏ ÇİÇƏKLƏR AÇAR

Bu necə arzudu könlümdən keçib? –
Ürəyin işindən baş açmaz fələk.
Kəndin çəmənindən, çölündən keçib,
Asfaltın üstünə can atar ürək.

Asfaltın üstüylə ümidlər uçar,
Şəhərin yuxusu ərşə çəkilər.
Asfaltın üstündə çiçəklər açar,
Çiçək ətri ilə dolar səkilər.

Üz gülər baharın gəlişi ilə,
Qızlar təbəssümdən çələng toxuyar.
Yırtar köynəyini Qızılgül, Lalə, –
Güllər cavanlara meydan oxuyar.

Yanaqlar allanar çiyələk kimi,
Asfaltın tozunu yuyar yağışlar.
Burda qanad açıb kəpənək kimi
Çiçəkdən-çiçəyə qonar baxışlar.

İşığa can atar sevən ürəklər,
Bir ürək işıqdı bir qız gülüşü.
Çəmənin bəxtinə güllər, çiçəklər,
Asfaltın bəxtinə gözəllər düşüb.

**1983**

## TƏK ARMUDUN ÖNÜNDƏ DÜŞÜNCƏLƏR

Təklik sıxdı ürəyimi, boynumu burdum,
Həsrət odu yanağıma süzüldü dən-dən.
Bir qurumuş tək armudun yerində durdum,
Ağac olub bitmək keçdi mənim qəlbimdən.

Əziz gəlir burda mənə ot da, ağac da,
Bu dərədən, bu təpədən adam utanır.
Köhlənimi oynatdığım o yal-yamacda
Ayrı uşaq məhmizləyir indi atını.

Doğma yerdə kövrək olmaq nə asan imiş,
Eh, nə bilim, bəlkə elə bu tək armud da
Mənim kimi qəribsəyən bir insan imiş,
Ağac olub kök salıbmış bir vaxt bu yurdda.

Uzaqlara sürdüm bir vaxt mən qarğı atı,
Bu yollarda həm sevinc, həm sinə dağı var.
Buludlara can atsa da, ağacın, otun,
Öz əslinə, öz kökünə qayıtmağı var.

İllər ötür, ömür dönür şirin nağıla,
Ən qüdrətli igidin də boşalır qolu.
Saymazyana öz atını səyirdən oğlan,
Gəlib bura dirənəcək sənin də yolun.

Görəcəksən buza dönüb o od, o ocaq,
Qarğı atlı uşaqlar da keçəcək səni.
Doğma yurdda səni heç kəs tanımayacaq,
Ürəyindən ağac olmaq keçəcək sənin…

**1986**

## QAPIMIZDA BİTƏN TUTLAR

Tale özü qarğıyıbmı bu kəndə? –
Tənha evlər gözümüzü dağlayır.
Üstümüzə dərd buludu çökəndə
Gözlərimiz bulaq olub çağlayır.

Bir nisgil var bu tutların boyunda,
Küskün-küskün dayanıblar gör necə?!
Gözlərimin göz göynədən suyunda
Ötən günlər güzgülənir gizlicə…

Qapımızda bitən tutlar, xoş gördük,
Buğum-buğum boy atmısız, qalxmısız
Bu ev sizə səngər olub, əsgər tək
Neçə-neçə döyüşlərdən çıxmısız.

Dönüb tapdaq meydanına bizim bağ,
Baramaçı gəlib sizi doğraya.
Hücüm çəkib qoyun-keçi, at-ulaq,
Dözmüsünüz hər əzaba, ağrıya.

Ürəyimi təkcə sizə açıram,
Başdan-başa duyğusunuz, hissiniz.
Qapımızdan getməmisiz heç hara,
Hamımızdan etibarlı sizsiniz…

**18.02.1988**

## HƏSRƏT

Gözüm görür,
Ürəyim atlanır.
Əllərim titrəyir,
Ruhum qanadlanır.
Yaşımın bu çağı,
Saçımın ağı,
Məni böyük adam sanan
Kəndçilərimin qınağı –
Bu doğma yerlərlə mənim aramda
Sərhəd dirəkləri kimi dayanır.
Bu dirəklərin o üzündən
on üç yaşlı,
qara gözlü, qara qaşlı
bir uşaq boylanır…
Mənə "gəl-gəl" deyir
Dərələrin dərinliyində
çağlayan bulaqlar.

Yol kənarında bitən qırxbuğumlar,
Kol dibindən boylanan quzqulaqlar,
Sinəsindən çiçək dərdiyim çəmənlər,
Budağından yelləncək asdığım ağaclar…
Ancaq…
On üç yaşım kimi
əlçatmazdı, ünyetməzdi
bu dağlar, bu dərələr, bu yamaclar…

**1986**

## ŞEİR YAZANDA

**“Şair şer yazanda birinci növbədə oxucunu düşünməlidir” deyən bir nəfərə**

Yoldaş fəlsəfəçi,
Gizlənmə şüarlar arxasında.
Dərindən düşün bir!
Yağış yağanda otları, çiçəkləri,
Çiçək bitəndə arıları,
Arı bal çəkəndə insanları düşünmür.
Ancaq…
Yağış çiçək üçün,
Çiçək bal üçün,
Bal insan üçün gərəkdi…
Toxunma şair ürəyinə,
O, üsyankardı, şıltaqdı, kövrəkdi.
Şair şeir yazanda
gözünə oxucu görünmür,
ilan kimi qıvrılır yerində.
Yoxsa yağışın səsi,
Çiçəyin ətri,
Balın şirinliyi
Olmaz onun şerində…

**1984**

## YETİMİN TOYUNDA

Səhər-səhər evdən çıxdı,
şad-şalayın.
Toya getdi o,
yetim qohumunun toyuna.
Toyçular gələn kimi
İlk sifarişi verib,
Yazıq girdi oyuna.
Gəlmişdi
Sınıq ürəyi yamamağa,
Yetim toyunu şənləndirməyə.
Oynadı –
Bu dünyaya bağlı həsrətini əritdi
O havanın odunda.
Torpaq oyum-oyum oyuldu,
Didim-didim dididldi
Ayağının altında.
Belə ürəkdən oynadığını
Heç kəs görməmişdi hələ,
Oynayırdı deyə-deyə, gülə-gülə.
Bu oyun –
Onu nə bezdirdi, nə yordu.
Bu oyun bir toyun ilk havasıydı,
bir ömrün son akkordu…
Birdən kökündən qopan
qoca palıdlar kimi
tirtap yıxıldı yerə,
birdən qarışdı ara. –
Yetimin toyu da yetim qaldı
bircə havadan sonra…

**1977**

***

İnsan torpağı şumladı,
bellədi, kərkilədi.
Dünya dünya olduğunu
Qoynuna insan gələndə
dərk elədi…

**1985**

## DOQQUZ AYLIQ NAĞIL

Ağrıların gücünə
Gözəlləşir həyat da.
Ağrılar hesabına
Şirinləşir övlad da.
Yer üzündə eh nə qədər
ağrı var? –
Biri sanki bir ulduz.
Ağrıların müqəddəsi –
Doqquz aylıq ağrılar,
Rəqəmlərin müqəddəsi –
Doqquz.
Doqquz ay, doqquz gün,
doqquz gecə,
doqquz saniyə…
Doqquz aylıq çağanı
Qoyacaqlar nənniyə.
Sona yetəcək
doqquz aylıq nağıl.
Göydən alma yerinə
ya qız düşəcək, ya oğul.
Almalar kimə çatacaq? –
Nə mənə, nə sənə.
İkisi də nağıl söyləyənə…

**1973**

## GÖY AT

Göy at kişnəyəndə
Göydə şimşək çaxardı.
Göy at fınxıranda
Elə bil yağış yağardı.
Göy at yola çıxanda
Su kimi axardı.
Göy at şahə qalxanda
Hamı həsrətlə baxardı.
Tövlədən çıxaranda
Baxmazdı yola gözləri.
Ala buludlarda idi
Göy atın ala gözləri.
Göy at göydəki buludları
Əmirdi elə bil.
Göy atın ayaqları göydə idi,
Yerə dəymirdi elə bil.
Fərman dayı hər gün
Göy atı tumarlayardı,
Yalını darayardı.
Palçığa batmasın deyə
quyruğunu düyərdi.
O biri atlar küləş tapmazdı,
Göy at arpa yeyərdi.
Qışda altına saman səpərdilər,
Qupquru olardı altı.
Yazda biçənəyin ortasında
Hörükləyərdilər göy atı.
Tez-tez qırardı hörüyünü,
Atları qatardı qabağına.
Atmı dözərdi
Göy atın şıllağına?

Göy atı əzizləyərdilər,
Göy atı oxşayardılar.
O biri atların belində
Göy ata qış azuqəsi
daşıyardılar.
Göy at kəklik kimi səkərdi,
Göy atı ayda bir dəfə
minərdilər,
Suya aparanda da
Fərman dayı
onu yedəyində çəkərdi.
Minəndə fişəngə
dönərdi göy at,
Qəfəsdən çıxan pələngə
dönərdi göy at.
…Təzə sədr qoydular
kolxoza,
Hər şey dəyişdi.
Göy atı dinclik, qayğı
Göy at eləmişdi.
O qədər mindilər Göy atı,
Hay-hayı getdi,
qaldı vay-vayı.
Göy at göydən yerə düşdü,
Oldu o biri atların tayı…

**28.12.1976**

## DÖRD MİSRA BAYATI

"Bu qonaq evinin qarşısında dörd çinar var idi, onları kəsdirib, yerində gül əkdirmişəm."

**Bir müdirin sözlərindən**

Deyirəm görəsən o xan çinarı
Üstünə yıxmadı külək nə üçün?
A gül sevən müdir, bir düşün barı,
Yermi qəhət idi gül əkmək üçün?!

Çinarın yerini verərmi kollar,
Daşın gözlərində sellənərmi yaş?!
Doğrandı günəşə uzanan qollar,
Bir kötük üstündə kəsildi dörd baş.

O törə boyundan bir utan barı,
Mərdə tələ quran niyə ər olsun?!
Sənə baş əyməyən o dörd çinarı
Kəsdin ki, boyunla bərabər olsun?!

Uca ağacların görünür yeri,
Kaş onlar bir az da boy ata idi.
Sanki bu dörd çinar anamız yerin
Dilində dörd misra bayatı idi:

Haray naşı əlindən,
Alın işi əlindən!
Torpaq şikayət eylər,
Gözüm yaşı selindən…

**1985**

# SƏNİN PƏNCƏRƏNDƏN SÜZÜLƏN İŞIQ

## O İŞIQ

"…Yel vurub sinən açdı,
Gözümə işıq gəldi."

**Bayatıdan**

Bu sevgi yoludu, həsrət yoludu,
Bu yolda can vermək könlümdən keçər.
Qara paltarını – qara buludu
O işıq şimşək tək doğrayar, biçər.

Sinəndən nur daşıb axar gözümə,
Göyərər içimdə bir dəli həsrət.
Bir cüt intizar göz baxar gözümə,
Deyər ki, ömrünü o nura həsr et.

O işığı görcək quru budağın
Üstündə tumurcuq ümidlər yanar.
Gözünə yaş gələr quru bulağın,
Bir ölmüş cığırın otu tapdanar.

Taleyim bir anda bürünər zərə,
Bir ötəri sevinc gözləyər məni.
O işıq xətt çəkər ötən günlərə,
Təzə bir həyata səsləyər məni...

**1983**

## SƏNİN PƏNCƏRƏN

İncimi parlayır gözündə dən-dən? –
Bir gün qəh-qəh çəkib güləsisən sən.
Sənsiz kor qalardı sənin pəncərən,
Pəncərən gözdüsə, giləsi sənsən.

Ürək intizarda, gecə uzundu,
Yatarmı gözünə göz dikən aşiq?!
Mənə elə gəlir bəxt ulduzumdu
Sənin pəncərəndən süzülən işıq.

Küçəniz, məhləniz yolumu gözlər,
Hər titrək təbəssüm dayağım olar.
Sənin pəncərəndən boylanan gözlər
Sevda yollarında mayağım olar.

Yenə pəncərənə göz dikmişəm mən,
Həsrətə köklənib qəlbimin simi.
Axır ki, açıldı sənin pəncərən,
Açıldı həsrətli qolların kimi…

**1980**

## SƏN AÇDIN QAPIMI

Çölləri, düzləri dolandım, gəzdim,
Gözümə dəymədi bir gül, bir çiçək.
Qışın bu çağında heç gözləməzdim,
Açarsan qapımı bahar yeli tək.

Közərib boğuldum mən öz tüstümə,
Gircək otağıma sən yana-yana.
Qəfil yağış kimi yağıb üstümə,
Solmuş yarpağımı gətirdin cana.

Ürək olduğunu dərk etdi ürək,
Titrək əllərini alanda ələ.
Odlu baxışların yaz günəşi tək
Qarımı, buzumu döndərdi selə.

Harda od görmüşdüm sənin odun tək?!
Közərib alışdı gizli bir ocaq, –
Baş-başa qoyulmuş iki odun tək
Əlimi əlinin üstünə qoycaq.

Bahara çevrildi bir an içində,
Gecikmiş məhəbbət qışda közərdi.
Ətirli yaz oldum boran içində,
Qurunun oduna yaş da közərdi…

**1979**

## BİR GÖZƏL YAĞIŞA MEYDAN OXUYUR

Alıcı quş kimi yerə şığıyır,
Zövq alır yağmaqdan leysan elə bil.
Bir gözəl yağışa meydan oxuyur,
Qaçıb daldalanmaq hayında deyil.

Gəzən bir çiçəkdi sanki çəməndə, –
Xoşbəxtdir saçına düzülən yağış.
Onun tellərində düşüb kəməndə,
Gümüş topuğundan süzülən yağış.

Sinəyə yapışan ağ köynək altdan
Tunc qamət görünür, ilahi qamət.
Baxışı salacaq atlını atdan,
Qiyamət qopacaq, vallah, qiyamət.

Baxıram, heyrətdən lal olmuşam mən,
O qəddi-qaməti oğulsan unut! –
Ayağı altında məst olub çəmən,
Başının üstündə hönkürür bulud…

**1985**

## QARA PALTARDA

Qara gün ömrünə düşməsin yaxın,
Bu qara paltarda sən nə qəşəngsən.
Mənə elə gəldi qara zanbağın
İçində dincələn ağ kəpənəksən.

Əyilib su içsəm eşqin camından,
Vallah, güləsidi, ömür güləsi…
Gözünün təbəssüm qığılcımından
Alışdı gözümün kömür giləsi.

Közərdi eşqimin ümid tonqalı,
Məhəbbət havalı küləkmi əsən?!
Sən işıq saçırsan, qara manqalın
İçində alışan alovsan, nəsən?!

Odlu gözündəki o sehr nədi? –
Yoxsa müjdəçisi odur baharın?!
Sənin gözəlliyin savab eylədi,
Üzünü ağartdı qara paltarın…

**18.05.1978**

## YANĞIN

Ürəyin qovrulur, bilirəm bunu,
Dilin də söz tutmur, kəkələyirsən.
Fürsət tapan kimi öz "ah-uf"unu
Telefon xəttinə yük eləyirsən.

Asıram dəstəyi, düşmürsən ruhdan,
Yenə zəng edirsən, "ah-uf"dur işin.
Od alsa ürəyim o "ahdan, ufdan",
Bizi nə gözləyir, bir özün düşün!

Vallah bu istəyin əbəsdir, əbəs,
Beynimi yerindən oynatma nahaq.
Telefon yanğını söndürə bilməz,
Gəlsəm, evinizdə yanğın olacaq…

**1986**

## DAĞ ÇİÇƏYİ

Sən təzə bir çiçək idin,
Heç kəs xəbər tutmamışdı
Saçlarının qoxusundan.
Gözlərinin məsumluğu ayıltmışdı
Məni qəflət yuxusundan.
Əlçatmaz bir uçurumda
Bitəydin kaş.
Sürünəydim sənə sarı
Dizin-dizin, yavaş-yavaş.
Güc verəydi qollarıma
Məhəbbətin qadir səsi.
Qayalara yazılaydı
Eşqimizin tarixçəsi ,–
Axmayaydı qanım hədər,
Qızılı bir yol salaydım
Sənə qədər.
Daha uca olaydı kaş
Sənin yerin.
Baş qoyaydım ayağına,
Can verəydim şirin-şirin…

**1976**

## SƏNİ ÖTÜRMƏYƏ GƏLMİŞDİM O GÜN

Əlinə çatmaqçün əsirdi əlim,
Özümü bəxtəvər bilmişdim o gün.
Köksümü ötürə-ötürə, gülüm,
Səni ötürməyə gəlmişdim o gün.

Ürəyimdə həsrət, dilimdə giley,
Pərişan saçımı külək dağıdır.
Mənimçün nədənsə çox gördü tale,
Səninlə görüşüb ayrılmağı da.

Üzümdən bir həsrət buludu keçdi,
Yağışda islandı qızılı tellər.
Sənin əllərinçün qəribsəmişdi,
Mənim əllərimdə ağlayan güllər…

Ayrılıq gətirdi bizə bu bahar,
Yenə küçələrə sisəkləmişdi.
Güllər əllərimdə ağlayırdılar,
Qəlbimdə həsrətin çiçəkləmişdi…

**1985**

## BU ÇƏMƏNDƏ BİR QIZ ÇIXDI QARŞIMA

Bu çəmənlik yaman gəldi xoşuma,
Bir cüt büllur ləçək düşdü gözümdən.
Bu çəməndə bir qız çıxdı qarşıma,
Çəmən düşdü, çiçək düşdü gözümdən.

Həsrət gözüm o gözələ dikilcək,
Yanaqları baxışımdan aldı od.
Əllərində şehli-şehli gül-çiçək
Şirin-şirin xəyallara daldı o.

Gülümsədi, dağa döndü ürəyim,
Bu xoş günə şahid olsun Göyəzən.
O yanaqda pardaxlayan çiçəyi,
Üzmək mənim qismətimmiş deyəsən!

**1986**

* * *

– Qaldır kirpiyini səbrim yox daha,
Görüm gözlərini bir yol yaxından.
– Mənim kirpiklərim qalxa bilmir ha,
Sənin baxışının ağırlığından!

**1985**

## SEVGİ AĞACI

Sanırdım bir daha titrəməz ürək,
Çevrilib olmuşdu daş ürəyim də.
Qayanın üstündə bitən ağac tək
Bir sevda göyərdi daş ürəyimdə.

Bu sevda ağacı gec-tez boy atıb,
Mənim daş qəlbimi parçalayacaq…
Qayanın qəlbində sevgi oyadıb,
Zərif bir çiçəyin qüdrətinə bax!

**1984**

## O AYLI AXŞAMDA

Mənim həsrətimə sən qənim idin,
Köksümün altında əsirdi ürək.
O aylı axşamda sən mənim idin,
Dolmuşdun qəlbimə ay işığı tək.

Araz topuğumdan, Kür aşığımdan,
Titrəyən ürəyim müğənni idi.
Sanki çarpayımız ay işığından
Asılmış sehrli bir nənni idi.

Bizi yelləyirdi külək astaca,
İlahi, nə xoşbəxt, bəxtəvər idik!
Kəlmə kəsməyə də tapmadıq macal,
Biz eşqin oduna şam tək əridik.

Onda həsrətimə sən qənim idin,
Köksümün altında əsirdi ürək.
O aylı axşamda sən mənim idin,
Dolmuşdun qəlbimə ay işığı tək…

**1985**

## SEVGİDƏ GERİYƏ YOL YOXDU AXI

**Musiqisi Nailə Mirməmmədlinindir**

Qəlbimdə yurd salan təmiz sevgiyə
Niyə yuxarıdan aşağı baxdın?
Məndən üz döndərib uydun özgəyə,
Elə düşündün ki, açıldı baxtın.

Gülünü soldurdu çiçəkli bağın
Soyuq baxışların bir şaxta kimi.
Mənim ürəyimə vurduğun dağın
Yarası göynəyir bu vaxta kimi.

Üstümdən ayrılıq yelləri əsdi,
Məni kül elədi həsrətin ahı.
Sədəqə umursan, ancaq əbəsdi,
Sevgidə geriyə yol yoxdu axı…

**1985**

## DAĞLI QIZIN TOYUNDA

Nələr düşünürdü təntimiş göylər?
Xəyala getmişdi qocaman palıd.
"Gəlin atlandı"ya bənd imiş göylər,
İldırım kişnədi, hönkürdü bulud.

Ələndi gözlərdən yaş gildir-gildir,
Qardaş ovundurdu öz anasını.
Dağın başındakı bulud deyildi,
Dolan gözləriydi qız anasının.

Təzə bəy təlaşla boylanır göyə,
Darayır köhlənin ağ yallarını.
Dağ qızı dağlardan getməsin deyə,
Sel yuyub apardı dağ yollarını.

Adətlər qoymur ki, haraya gəlsin,
Oğlanın köksündə çırpınır ürək.
Dağlı gözəliylə evlənən kəsin
Qəlbi də, səbri də dağ olsun gərək…

**1977**

## BƏNÖVŞƏ

Səni intizarda qoyub gəlmişəm,
Başqa çiçəklərə uyub gəlmişəm.
Sənin həsrətindən özgə nə dərdim,
Bənövşə, qəlbimi salmısan oda.
Səni sevə-sevə nərgizi dərdim,
Taleyin hökmüymüş sən demə bu da…

**1983**

***

Fikirsiz baş çiyinə,
Sevgisiz ürək sinəyə
yükdü.
İnsan ağlıyla,
məhəbbətiylə
böyükdü…

**1982**

## GÖZÜMÜN QAN CIĞIRLARI

Hara atım sinəmdəki bu ağrıları,
Həyatımı indən belə kimə həsr edim?
Gözümdəki qıpqırmızı qan cığırları
Ayağının izləridi yoxsa həsrətin?

O cığırlar qan ağlayan bulud gözümdə,
İşıq saçan qızıl-qızıl şimşəkdi yoxsa?!
Su elədin, kömür oldu qızıl közüm də,
Gözlərimi açıb gördüm yanımda yoxsan…

**1986**

## AĞ ƏLLƏRİN İŞIĞINDA

Bu çiçəklər yatdı mənim könlümə,
Ürək dedi: –Gəl onlara nəğmə qoş!
Bir ağ zanbaq əl uzatdı əlimə,
Dedi: –Burdan dönərlərmi əliboş?

Alovlandı, közə döndü yanağı,
Gördüm yazıq için-için qovrulub.
Əllərimə əl uzadan zanbağın
Təbəssümü kədər ilə yoğrulub.

Qara gözlər taleyimin ülkəri,
Duruşu da, baxışı da şeir idi.
Mənim kösöv əllərimin kədəri
Ağ əllərin işığında əridi.

O ağ əllər taleyimə nə yazdı? –
O gözlərdə bir yaz seli daşırdı.
O əlləri boş qaytarmaq olmazdı,
O əllərə ürəyimi tapşırdım…

**1982**

## PƏRVANƏ KİMİ

Fırlandım sənin başına
Göz yummadan bütün gecə.
Pərvanə odun başına
Necə fırlanır, eləcə…

Elə ki, qaranlıq düşər,
Ürək qızmaz dosta, yada.
Sığınar öz ulduzunun
İşığına hər bir adam.

**01.04.1988**

## MƏN SƏNİNLƏ…

Mən səninlə
aylı gecələri,
şehli çəmənləri,
ətrindən məst olduğum
yasəmənləri,
suyundan içdiyim
bulaqları,
zirvəsindən baxdığım
dağları,
gülləri üşüdən
çəni, çisgini,
ürəyimi göynədən
ağrını, nisgili –
hər şeyi, hər şeyi
unuduram,
yumuram gözümü də,
Unuduram səni də,
özümü də.–
Əbədiyyətə
qovuşmaq kimi
bir şeydi
səninlə birlikdə olmaq.

**1988**

## SUBAYLAR MƏCLİSİ

Burda nə qeybət var, nə də bir giley,
Duyğular acsa da, göz tox, könül tox.
Alman hesabıyla düzəlib hər şey,
Kimsənin kimsədən təmənnası yox.

Qədəhlər toxunur biri-birinə,
Səmimi sağlıqlar səfə düzülür.
Burda badələrə şərab yerinə
Zarafat süzülür, sevinc süzülür.

Durub stol üstə yol gözləyir mey,
On adam sübhədək içsə bəsidir.
Bizim süfrəmizdə çatışmayan şey
Tək qadın əlinin səliqəsidir.

**1973**

## SEVGİ FƏSLİ

Dünya yaranışdan xeyirdi, şərdi,
Sevib əzab çəkən əhli-bəşərdi,
Bu həyat necə də adiləşərdi,
Ürək olmasaydı əsir sevgiyə.

Sevgi yolumuzda yanır çıraq tək,
Hədəyə, qorxuya baxmır ki, ürək.
Sevdin, ilanboğan vaxtındı demək,
Yaş sərhədmi çəkir əsil sevgiyə?!

O necə ömürdü, yoxuşu yoxdu,
O necə bahardı, yağışı yoxdu?!
Sevginin nə yazı, nə qışı yoxdu,
Ürəyin özüdü fəsil sevgiyə…

**1984**

***

Oxuya-oxuya durnalar köçür,
Yarpaqlar tökülür, payız ağlayır.
Pəncərə önündən bir oğlan keçir,
Pərdə arxasında bir qız ağlayır.

Nə üçün gizlicə durub gözləyir?! –
Qəlbində bir ümid közərir bəzən.
Bir qərib məhəbbət vətən istəyir,
Nə üzlə geriyə dönsün yenidən?!

**1976**

## UMACAĞIM VAR

Gizləmək əbəsdir, açım "boğça"nı,
Gül üçün bülbülün çıxır bax, canı…
Axı nə gizləyim, sizin bağçanın
Qızıl güllərindən umacağım var.

Bu tutqun qəlbimi yalnız gül açar,
Dilim yox, dərdimə olub gül açar,
Toxunsa əlimə, əlim gül açar,
Titrək əllərindən umacağım var.

Demə ki, körpəyik, bircə qarışıq,
Baxma ki, soyuqdur, verir qar işıq,
Nəfəsin qarışıq, səsin qarışıq
Səhər yellərindən umacağım var.

**1978**

## YALLI

Bu dağlara haray düşür, ün düşür,
Qoç igidlər qızışıblar təzəcə.
Yarpaqların arasından gün düşür,
Toyxanada təzə gəlin süzəcək.

Hamı düşmür axı şabaş selinə,
Ağrın alım, sən köksünü ötürmə.
Dəstəbaşı nə götürsə əlinə,
Hünərin var həmin şeydən götürmə.

Cavanların çırtlayıbdır çiçəyi,
Dəstəbaşı… Əlində şiv çubuğu.
Kimə vursa göynədəcək neçə gün,
Çıxacaqdır kürəyinin qabığı.

Yallı gedən igidlərə bir baxın,
Ayaqların zərbəsindən yer qızıb.
Kürəyimə yavaşca vur, çubuğun
Ürəyinə dəyir axı bir qızın…

**18.07.1977**
**Qubadlı**

**"Aylı cığır" kitabından**

# QARŞIDA DÖYÜŞLƏR ÇOXDU, BİZİM XALQA ZAVAL YOXDU

## MƏNİM XALQIM

Dili sənə dost deyənin əli gizlicə
Əsrlərlə ayağının qazıb altını.
Sən bu ağır günlərində məğrursan necə,
Mənim xalqım, uca saxla təmiz adını!

Başımızın üstündədir yenə duman, çən,
Yolumuzu seçməliyik biz bəri başdan.
Ümidin var, heç bilmirəm nə gözləyirsən
"Dovşana qaç, tazıya tut" – deyən qardaşdan?

Ədalətdən hey dəm vuran dostun səsində
Bu günəcən bir zərrə də haqq görməmişəm.
Səndən başqa xəyanətin mənganəsində
Sıxılsa da, "uf" deməyən xalq görməmişəm.

Dost demisən qismətini basıb yeyənə,
Bəsdir daha, həqiqətin gözlərinə bax!
Neyləyəsən, bəs qatığa qara deyənə
Açıq-aşkar haqq verirsə güvəndiyin dağ?

Canavarla həvirləşib hiyləgər köpək,
Üzdə mənim tərəfimi saxlamasın o.
Dəysin özcə təpəsinə etdiyi kömək,
Təki vuran qolumuzu bağlamasın o.

Azadlığı verməyəcək sənə kimsə pay,
Ayağa dur, öz oduna, közünə güvən.
Mənim xalqım, bir kimsədən gözləmə haray,
Ağır sınaq günlərində özünə güvən…

**1990**

## YADINDA SAXLA

Zaman insanları seçir, ayırır,
Dağdan nə aparar hər əsən külək?
Əvvəl evin içi, sonra bayırı
Deyən babalara baş əyək gərək.

Kənarda gəzirsən hey pislikləri,
Uzaq düşmənləri hədələyirsən.
Sən öz işindəki naqislikləri
Vətən kəlməsiylə pərdələyirsən.

Boğazdan yuxarı sözə uymayıb, –
Bir tük də yayınmaz elin gözündən.
Əlin daş üstünə bir daş qoymayıb,
Dilin qabar tutub "vətən" sözündən.

Sən öz sənətini bilmirsən hələ,
Ancaq danışırsan hey dürək-dürək.
Kəsməkdən savayı hər şeyi bilən
Küt balta vətənin nəyinə gərək?

Dadsan da həyatın yüz nəşəsini,
Sevgi qazanmazsan fəğanla, ahla.
Vətənin düşməni öz peşəsini
Yarımçıq bilendir, yadında saxla!

**1989**

## YUMRUQ KİMİ BİRLƏŞMƏSƏ ELİMİZ

Göz dağına dönən ulu Kəpəzin
Zirvəsində soldu neçə gülümüz.
Torpaq üçün vuruşmadıq, vətənin
Qarşısında gödək oldu dilimiz.

Ağbulağın bəxti qara yazıldı,
Şamsız adı xəritədən pozuldu.
Qəlbimizdə bir əbədi sızıltı –
Gözləmirdik belə fitnə-feli biz.

Qardaş deyib başımızı qatdılar,
Ömrümüzü alovlara çatdılar,
İzimizi qaşıdılar, atdılar,
Əldən çıxdı kövşənimiz, çölümüz.

Nökərimiz üzümüzə ağ oldu,
Dağlarımız gözümüzə dağ oldu.
Sonaları pərən-pərən dağıldı,
Qara geydi bizim Qara gölümüz.

Ürəyimdə ağrı, nisgid boy atar,
Başımıza dünya oldu niyə dar?
Dağ döşündə yetim qalıb Niyədar,
Bir də ona çətin yetə əlimiz.

Qələm çəkdi yağı doğma adlara,
Torpağımız qismət oldu yadlara.
Bu ayrılıq saldı bizi odlara,
Tarixlərə səpələndi külümüz.

Nə vaxtacan yurdumda yad gəzəcək?
Ürəyimiz haqsızlığa dözəcək?
Yağı bizi tapdayacaq, əzəcək,
Yumruq kimi birləşməsə elimiz…

**12.05.1990**

## AZADLIQ

Qış gecəsi başımıza gələnlər
Başdan-başa müəmmadı, təzaddı.
Unudulmaz el yolunda ölənlər,
Qan gölündə bitən gülmüş azadlıq.

Tapdananda xoş ümidlər, diləklər,
Tısbağalar çanağına çəkildi.
Ürəklərdə qönçələyən çiçəklər
Güllələrin sınağına çəkildi.

Qanımızdan yarandı bir göl, Vətən,
Neyləmişik ağ gün bizdən küsübdü?
Harınların nə vecinə el, vətən? –
El qeyrəti çəkən kasıb-kusubdu.

Gücsüzlərə qılınc çəkib, güclüyə
Durub quyruq bulayana nə deyək?
Bəsdir qoydun sən özünü bicliyə,
Tüpürdüyün yalayana nə deyək?

Rahat, zəngin otağında süslənib,
Bizə tələ quranları tanıdıq.
El sözünün arxasında gizlənib,
Nala, mıxa vuranları tanıdıq.

Qış gecəsi başımıza gələnlər,
Başdan-başa müəmmadı, təzaddı.
Yaddan çıxmaz el yolunda ölənlər,
Qan gölündə bitən gülmüş azadlıq…

**1990**

## YANVAR RÜBAİLƏRİ

Ölən igid gənc idimi, qaboyum?
Göz yaşların incidimi, qaboyum?
Tank keçəndə sinəmizin üstündən
Tırtılları incidimi, qaboyum?

Qara geydi dağım, düzüm, kamança,
Qan püskürdü ağlar gözüm, kamança.
Haqq səsimə kilid vurdu nahaqlar,
Dodağımda yandı sözüm, kamança.

Pətəyimdə şan qalmadı, balaban,
Daha məndə can qalmadı, balaban.
Gözlərimdə yaş qoymadın, a zalım,
Damarımda qan qalmadı, balaban…

**1990**

## QƏRƏNFİLƏ DƏYƏN GÜLLƏ

Qaçmağa da qoymadı,
Namərd dörd yanı kəsdi.
Vətənimin gülləri
Harayıma tələsdi.

Qərənfil, bu meydana
Can verməyəmi gəldin?
Yaralı igidlərə
Qan verməyəmi gəldin?

Güllələr "haqq", "ədalət"
Deyən dillərə dəydi.
Təzəcə qönçələyən
Qərənfillərə dəydi.

Sinəm aşsüzən oldu,
Köks ötürdüm dərindən.
Bir qərənfil boylandı
Hər yaramın yerindən…

**1990**

## ATA EVİ

Əziz bala, bu ocağı yaxından tanı,
Bura gəlcək həyəcandan əsir dil-dodaq.
Ata evi – qartalların uçuş meydanı,
Ata evi – övladların güvəndiyi dağ.

Bu gün varam, sabah yoxam, ömür-gün keçir,
Sən bunları yaxşı başa düşəsən gərək.
Doğmalara, əzizlərə yovuşmaq üçün
Axşam-səhər bu ocaqda bişəsən gərək.

Bu həyətdən köz götürüb ömür payınız,
Neçə nəsil gəlib burda görüşməlidi.
Unutmayın, hamınızın ömür çayınız
Axıb, axıb, bu mənzildə birləşməlidi.

Ata evi – ögeylərin önündə səngər,
Siz bu evin işığında şad yaşarsınız.
Bu həyətdən ayağınız kəsilsə əgər,
Bütün qohum-qardaş ilə yadlaşarsınız.

Ata evi – bu kəlmənin mənası dərin,
Ata evi, doğmaların doğma ölkəsi.
Zaman-zaman nəvələrin, nəticələrin
Üzərinə düşəcəkdir onun kölgəsi.

Ömrüm-günüm, bu ocağı yaxından tanı,
Bura gəlcək həyəcandan əsir dil-dodaq.
Ata evi – qartalların uçuş meydanı,
Ata evi – övladların güvəndiyi dağ…

**1989**

## QARDAŞ, BİR BAŞINI YUXARI QALDIR

İndicə yağacaq bahar yağışı,
Göylərdə bir qərib bulud kişnədi.
Sonra gec olacaq, atam-qardaşım,
Bəsdi başaşağı gəzdin, işlədin.

Tez elə, başını yuxarı qaldır,
Çiçəyi çırtlayan budaqlara bax.
Yığdığı var-dövlət de, kimə qaldı? –
Göylərə baş çəkən bu dağlara bax!

Dizində güc varkən, gəz bu yaylağı,
Çəmənin üzünə düşən şehi gör!
Dinlə nəğməsini şırşır bulağın,
Çiçəyin gözündən öpən mehi gör!

Get dayan dənizlə nəfəs-nəfəsə,
Dinlə ləpələrin pıçıltısını.
Meşənin qoynunda düşüb həvəsə,
Eşit xəzəllərin xışıltısını!

Bu necə cığırdı, bu necə yoldu? –
Yarır toranlığı durnanın döşü.
Qardaş, bir başını yuxarı qaldır,
Ayın danışdığı nağılı eşit!

Qoxla bu çiçəyin gözəl iyini,
Onu sev, ürəyin qalansın oda.
Bədbəxtdi, həyatın gözəlliyini
Duymaya-duymaya yaşayan adam…

**1989**

## ÜŞÜYƏN DAŞLAR

Əsər də qalmayıb hünərimizdən,
Talemi qarğıdı o çağımızı?
Hərarət alardı hənirimizdən,
Közü qurtarmazdı ocağımızın.

Bizsiz yetim qalan ulu yurd yeri
Görəsən bizimi düşünür indi?
Yağışın altında, qarın altında
Ocaq daşlarımız üşüyür indi…

**1988**

## HƏSRƏT KÖZÜ

**Oğlum Gündüzə**

Əgər nəfəs dəysə, açıla bilər,
Yol çəkir kösövün mürgülü gözü.
Bir təzə ocağın təməl daşıdı,
Sönməyə qoymayın sonuncu közü.

Anıram keçmişi, gözüm yaşarır,
Ürəyim mələyir bir quzu kimi.
Qəlbimdə sonuncu həsrət işarır,
Sonuncu ocağın son közü kimi.

Ömür ağacımın budaqlarında
Titrəyən sonuncu yarpaqdır o köz.
Sənin yollarını nura qərq edən
Bir gözəgörünməz çıraqdır o köz.

Nənənin, babanın təmiz eşqinin
Halal mayasından yoğrulmuşam mən.
Bir əmanət kimi verilən közü,
Oğlum, sənin üçün qorumuşam mən.

Bığ yerin tərləyib, yol çəkir gözün,
Köksümün altında çırpınır ürək.
Götür qəlbimdəki əmanət közü,
Sənin ocaq ömrün başlayır demək…

**30.09.1988**

## ÜRƏYİM ATLANIR DAĞLARA SARI

Ürəyim atlanır dağlara sarı,
Deyəsən, deyəsən yuxum çin olub.
Gedirəm, gedirəm üzü yuxarı,
Bir körpə dağ çayı bələdçim olub.

Arabir üzülür yerdən ayağım,
Qalxıram kollardan mən tuta-tuta.
Gedib zirvəsində o uca dağın,
Dönmək istəyirəm bir top buluda.

Boylanıb baxırlar ürkək marallar,
Bağrımın başında dərd qönçələyib.
Bu çayın suyunda yanğı var, Allah,
Bu çayın içində ay gecələyib…

Sıxın gözünüzü buludlar kimi,
Amandı, qoymayın sozalsın bu çay.
Siz onun içində qazın qəbrimi,
Sinəmin üstündə saz olsun bu çay.

Ürəyim atlanır dağlara sarı,
Deyəsən, deyəsən yuxum çin olub.
Gedirəm, gedirəm üzü yuxarı,
Bir körpə dağ çayı bələdçim olub…

**14.10.1988**

# BOŞALMIŞ KƏNDDƏ TƏK QALAN KÖPƏYİN NƏĞMƏSİ

"Başımız elə qarışdı ki, tələsik köçəndə itin zəncirini açmağı da unutdum."

**Bir didərginin sözlərindən**

Boş evlər göz dağı oldu,
Dost çevrilib yağı oldu.
Ulartım bu ulu kəndə
Layla oldu, ağı oldu.

İtirmişəm dostu, yarı,
Zəncirsiz olaydım barı!
Çaqqallar diş qıcadılar,
Dartındım onlara sarı.

Buludam, yağa bilmirəm,
Eyvana baxa bilmirəm.
Zəncirimi dartıb qırdım,
Həyətdən çıxa bilmirəm.

Ev soyuyub, ocaq sönüb,
Durmuşam bir küncə sinib.
Bu həyətə sədaqətim
Boynumda zəncirə dönüb…

**25.11.1988**

## YOXDU

İnana bilmirəm duyumu olsun,
Kimin ki, qəlbində bir ağrı yoxdu.
Nə qədər dərd verir həyat insana,
Qürbətə düşməkdən ağırı yoxdu.

Qardaş, sevinərsən rütbəyə çatsam,
Bir gün tənbəlliyin daşını atsam,
Camaat yol salıb, sən narahatsan,
Hələ qardaşının cığırı yoxdu.

İnsan min əzabla ruzi qopardır,
Beynimdə ağrılar qabar-qabardı.
Bir də görərsən ki, coşdu, qabardı,
Xəmir yeyənlərin fağırı yoxdu.

Qarışma, qarışma işimə, qardaş,
Çox dostu vurmuşam dişimə, qardaş,
Başını sındırıb düşünmə, qardaş,
Dünyanın əvvəli, axırı yoxdu…

**1989**

## BİZİ

Ağlımız kəsəndən ulu babalar
Öyrədib dostluğa, ülfətə bizi.
Yağı at oynadır meydanımızda,
Kökləyir qəzəbə, nifrətə bizi.

Dəryalardan çıxan atlar görmüşük,
Doğmalar görmüşük, yadlar görmüşük,
Alovlar görmüşük, odlar görmüşük,
Ta heç nə gətirmir heyrətə bizi.

Bir işi heç iki iş eləməzdik,
Olanı, keçəni eşələməzdik,
Özgə toyuğuna kiş eləməzdik,
Qonşular gətirib qeyrətə bizi.

Hər qarış torpağım yatar – xəzinə,
Girər bədxahların paxıl gözünə.
Bədbəxt qəbir qazar özü özünə,
Salmaq istədikcə zillətə bizi.

Halaldır suyumuz, çörəyimiz də,
Təmizdir arzumuz, diləyimiz də,
Məhəbbət qaynayır ürəyimizdə,
Allah çox görməsin millətə bizi…

**1990**

## GÖRƏCƏKLİ GÜNLƏRİMİZ

Nəyimiz var bizdən sonra
Gələnlərə pay qalası?
İnsan oğlu təbiəti
Barmağına az dolasın.

Açılmamış solur qönçə,
Qələmələr olub xənçəl,
Gicitkənə dönüb yonca,
İstəyir bizi dalasın.

Gözəl-gözəl guşələri,
Zümrüd-zümrüd meşələri,
Bu insafsız nəşələnib,
İstəyir çapıb talasın.

Namərdə vermişik qazı,
Dolanırıq qazı-qazı.
Üşüyür atam balası,
Odun yox ocaq qalasın.

Gün yeri yandırıb, yaxıb,
Göy gurlayıb, şimşək çaxıb,
Yağışın yadından çıxıb,
Yağıb çölləri sulasın.

Heç kəs gəzmir itiyini,
Çoban çalmır tütəyini,
İt itirib itliyini,
Məqam gəzir ki, ulasın.

Mal bəyənmir axurunu,
Su axtarmır çuxurunu,
Bu işlərin axırını
Allah xeyirə calasın…

**1989**

## BƏSDİR TƏRİFLƏDİK BU BOZ SƏRÇƏNİ

“Almır da vecinə çovğunu, çəni,
Vətəndə keçirir o, bütün qışı!” –
Bəsdir tərifədik bu boz sərçəni,
Bəsdir qoyduq onu durnaya qarşı.

Gəzib dolaşsa da qarın içində,
Sığınmaq yeri var, sevinsin gərək.
Gedərdi, qalmazdı boran içində,
Hiss etsə, bahara yetə biləcək.

Bilir: "şahin-şonqar" doludur, dolu,
Bu yol yüz qırğının içindən keçir.
Durnanın getdiyi baharın yolu
Ölümün, qırğının içindən keçir.

Bacarsa gedərdi bahar dalınca,
Deməyin sərçənin həvəsi yoxdu.
Gəzir, eşələnir qarnı dolunca,
Neyləsin, bir ayrı çarəsi yoxdu.

Peyinin içində axtarırsa dən,
Yem üçün dözürsə ömrün qışına,
Əgər yaranıbsa əfəlliyindən,
Onun vətən eşqi dəysin başına.

Sönməz bahar eşqi, axsa da qanı,
Onun zəhmətini zay eləməyin.
Döşü buludları yaran durnanı,
Bir yoluq sərçəyə tay eləməyin!

**1989**

## HAQQIN YOLU

Bu çətin yolla getməyə
Az adamın həvəsi var.
Haqqın yolunun üstündə
Nahaqqın yüz tələsi var.

Əsrlərlə yalan, hiylə
Həqiqətə zəfər çalıb.
Haqqın yolu haqq gəzənin
Qəbrinə dirənib, qalıb.

Qəlbimizdə sonsuz ümid,
Başımızda möhnət, ağrı,
Ağlımız söz kəsən gündən
Can atırıq haqqa doğru.

Yetəmmirik ancaq ona,
İllər ötür, ömür bitir.
Haqqın yolu düyün-düyün,
Haqqın yolu kələ-kötür…

**1989**

## GƏZİRƏM

**Bir qaçqının dilindən**

Əlçatmaz olubdur süsənli dağlar,
Ay oğul, səhrada çiçək gəzirəm.
Əyib sındırdılar haqqı nahaqlar,
İçimdə fırtına, şimşək gəzirəm.

Yanıram, ürəyim qalanır oda,
Öz evim, eşiyim düşəndə yada.
Tığlanıb ucalan yük qaldı yada,
Üstündə yatmağa döşək gəzirəm.

İmdad diləyirik biz hər yetəndən,
Didərgin düşmüşük doğma vətəndən,
Təzə bir yurd yeri axtarıram mən,
Dəvə itirmişəm, köşək gəzirəm…

**1990**

## MEDALDAN MƏHRUM EDİLƏN QIZIMA

Xəbərin yox fırıldaqdan, hiylədən,
Xoş təbəssüm qərar tutub üzündə.
Ürcahına pis adamlar çıxmayıb,
Tərtəmizdi dünya sənin gözündə.

Çiçək sanıb boylandığın qar imiş,
Tale cibi dolulara yar imiş,
Bir medalın iki üzü var imiş,
Çömçətutan möhkəm durdu sözündə.

Paklıq mənə hər nemətdən əzizdi,
Arzularım kükrəyən bir dənizdi,
Adım kimi ciblərim də təmizdi,
Qızım, bunu sən bilirsən özün də.

Qalstuklu dilənçilər pay dilər,
Ürəyimi kündə kimi yaydılar,
Haqq aradıq, bizi haqsız saydılar,
Düzlük gəzdik, qaldıq çölün düzündə…

**1990**

## DOĞMA DAĞLARIN HÜZURUNDA

Saç-saqqalı dümağ gəldim,
Ürəyimdə bir dağ gəldim.
Qış qapını alan zaman,
Dağlar, sənə qonaq gəldim.

Tüfəngimi alıb qalxdım,
Qarlı zirvələrə baxdım.
Gəldim sizə yiyə duram
Dağların yiyəsiz vaxtı.

Qəlbim açıldı göy kimi,
Ürəyim dindi ney kimi.
Qarınız kəfənim olsun,
Sizə baxsam ögey kimi…

**1989**

## QORUYUR

Təpə gərib sinəsini
Küləkdən düzü qoruyur.
Həyat eşqi qarlı gündə,
Çovğunda bizi qoruyur.

Alov yeri xal-xal edib,
Elat köçüb, ilxı gedib…
Kül özünü qalxan edib,
Ocaqda közü qoruyur.

Dağ seli tək daşa-daşa,
Hey çırpılır dağa, daşa,
Qoymur dildə ucuzlaşa,
Şairlər sözü qoruyur.

**1990**

## İLAN

Ömür paylananda, can veriləndə
Sənin taleyinə sürünmək düşüb.
Ancaq titrəmişik adın gələndə,
Önündə pələnglər, fillər büzüşüb.

Ağrıdan, əzabdan göynəyir için,
Bu namərd dünyada çəkmisən zillət.
O zərif görkəmlə yaşamaq üçün
Zəhər bəxş eləyib sənə təbiət.

Öz doğma yurdunda qəribsən, qərib,
Qaçıb dalda yerdə qalan olmusan.
Yalmana-yalmana yamanlıq görüb,
Qıvrıla-qıvrıla ilan olmusan…

**1990**

## ÖZÜNÜ QORU

Salamat çıxsam da alovdan, oddan,
Daha əzəlki tək deyiləm duru.
Yüz tənə dadmışam qohumdan, yaddan,
Günbəgün azalıb gözümün nuru,
Sən isə deyirsən: – Özünü qoru!

Düşmənim işində ustadır, usta,
Etibar qalmayıb tanışa, dosta.
Necə hirslənməyim bu bashabasda? –
Arzular əlçatmaz, ömür-gün yarı,
Sən isə deyirsən: –Özünü qoru!

Dağların başında yelə dönmüşəm,
Dərənin qoynunda selə dönmüşəm,
Alışa-alışa külə dönmüşəm,
Ömür ocağımın azalıb qoru, –
Sən isə deyirsən: –Özünü qoru!

Axır ürəyimə gözümün yaşı,
Gül sandım üstümə atılan daşı.
Bizə ağıl qoymaq istəyən naşı
Ayıra bilməyir "hırınan zırı", –
Sən isə deyirsən: –Özünü qoru!

Üstümə əssə də yüz qara külək,
Yalqızam, kimsədən görmürəm kömək.
Adətdir, qurd basar arxalı köpək, –
Görürəm xalqıma qurulan toru, –
Sən isə deyirsən: –Özünü qoru!

Namərdlər mərdlərin pozur izini,
Gördük anaların ağlar gözünü,
Nahaqlar qatlayır haqqın dizini,
Oğrular dəryadan çıxırlar quru,
Sən isə deyirsən: – Özünü qoru!

**1990**

## DOĞMA YERLƏRDƏ

**Dostum İxtiyara**

Hara gedir baş alıb bu buludlar? –
Göz dikmişəm qarasına, ağına.
Qəlbim kimi boşalıbdı buludlar,
Yer həsrətdir, heç oxşamır yağana.

Bura gələn torpaq yollar didilib,
Dağ döşündə qəribsəyib Qədili.
Bu daşların nə ağzı var, nə dili,
Boş obalar çevrilib göz dağına.

Əzəl gündən bu dağlara söykəndim,
Arzularım nə bitdi, nə tükəndi.
Gorus yolu elə bil ki, örkəndi,
Dəlikdaşsa bir əbədi doğanaq.

Buludların bəbəyində donub yaş,
Dağ ağlasa, gözlərindən yağar daş,
Qəm eləmə, zaval yoxdu, a qardaş,
Nəbiləri, Həcərləri doğana…

**20.08.1987**
**Qubadlı**

## "Həsrət köçü" kitabından

# YURD HƏSRƏTİ

### AY ALLAH

Xəyali güllərdən çələng hörürəm,
Çıxıb yol üstünə sən çağır məni.
Günəş istəyəndə bulud görürəm,
Bulud istəyəndə gün yaxır məni.

Qismətim deyilmiş zərif bir çiçək,
Ürəyim tutulub dərdə, ələmə.
Ay Allah, dünyanı mən gördüyüm tək
Görməyi kimsəyə qismət eləmə.

Gördün qəlbimizdə şeytan oturub,
Saldın tərəziyə, ölçüyə bizi.
Təzdi sürüsündən qoyun qudurub,
Niyə ürcah etdin keçiyə bizi?!

Ay Allah, qəlbimi yeyir xəfif qəm,
Ay Allah, yaxşı ki, sevirsən məni.
Ay Allah, ay Allah, uf da deməzəm,
Xalqımın başına çevirsən məni…

**1993**

## ÜZ-ÜZƏ

Baş açmıram öz-özümdən,
Başdan-başa möcüzəyəm.
Ağlım bir şey kəsən gündən
Ehtiyacla göz-gözəym.

Sözüm yox danışım, dinim,
Əzizdi imanım, dinim.
Hara dönürəmsə, dönüm,
Allah ilə üz-üzəyəm…

**1993**

## TƏRƏZİNMİ XARAB OLUB, PƏRVƏRDİGAR

Uçurublar ədalətin dayağını,
Dönüb ölüm meydanına bizim diyar.
Yerdən üzüb nahaq haqqın ayağını, –
Tərəzinmi xarab olub, Pərvərdigar?

Qaçaq-quldur meydanıdır bu dağ, dərə,
Döyülən də, söyülən də, ölən də biz.
Bu sitəmi, müsibəti görə-görə
Yenə səni çağırırıq öləndə biz.

Dönüb əqrəb yuvasına yastığımız,
Hamımızı maqnit kimi dağlar çəkir.
Qardaş deyib sinəmizə basdığımız
Gecə-gündüz köksümüzə dağlar çəkir.

Balıq kimi ilişmişik qarmağına,
Ora-bura sürükləyir bizim eli.
Dolayıbdır bir ölkəni barmağına,
Yalnız qəbir düzəldəcək bu qozbeli.

Haqq işimə bir kimsədən yoxdu kömək,
Nahaq qanlar selə dönüb şırıldayır.
Neçə-neçə həvirləşən quduz köpək,
Xalqımızın taleyinə mırıldayır.

Uçurublar ədalətin dayağını,
Dönüb ölüm meydanına bizim diyar.
Yerdən üzüb nahaq haqqın ayağını, –
Tərəzinmi xarab olub, Pərvərdigar?

**22 noyabr 1991**

## QARA MEYMUN

**1992-ci il qara meymun üstündə təhvil olunub.**

Sənin ögey qardaşların dolub qəsdinə,
Ürəyində ağappaqsan, quzey qarısan.
Qara meymun, qara əllər yıxıb üstünə,
Bu il gələn qara günün baiskarısan.

Qara meymun, gözün dönüb qara buluda,
Bir azca döz, ömrün qışı yaz olacaqdır.
Qara meymun, sarı başın qara xalı da
Sənin qara ayağına yazılacaqdır.

Bu yol bizi aparacaq hara görəsən?
Ehtiyaclar dönəcəkdir iti qılınca.
Meymunluğun dəhşətini görə-görə sən,
Aparmaqmı istəyirsən bizi dalınca?

Bu dünyada ömrün boyu görmüsən əzab,
Sənin nurlu kölgəni də çəkiblər dara.
Ağlın varsa, dünya olsa "Qırmızı kitab",
Razı olma həkk etsinlər adını ora.

Qara meymun, qəlbin olsa gülün qönçəsi,
Yağlı-yağlı totuq əllər dərəcək səni.
Qara meymun, sarı şirin qara pəncəsi
Qara-qara torpaqlara sərəcək səni.

Sən ağa da, qaraya da göstər doğru yol,
Qarşımızda təpə deyil, keçilməz dağdır.
Qara meymun, göylər boyda qara bulud ol,
Ürəyindən nə keçirsə, üstümə yağdır.

Qara daşlar sarı dəni ağ un eləyib,
Bizim qara torpaqlarda dənmi olmusan?
Qara meymun, həyat bizi meymun eləyib,
Bu dünyada əcdadımız sənmi olmusan?

**09.01. 1992**

## SƏN HÖNKÜRDÜN

**Hamlet Xanızadənin xatirəsinə**

Yandın, yandın, səhnəmizin çırağı oldun,
Qayalardan sıza-sıza gəlib duruldun.
Çox adamın kədərinin ortağı oldun,
Səhnəmizdə neçə dəfə ölüb-dirildin.

Getdin, daha ruhumuza od ələmədin,
Qəlbimizi ovutmadın şirin dilinlə.
Öldün, ancaq dirilməyə cəhd eləmədin,
Çünki bu gün sən ölmüşdün öz əcəlinlə.

Tufan kimi bir hönkürtü qopdu canından,
Əsrləri keçib gəldi bir acı külək.
Çıxıb getdin sən "Şəhidlər xiyabanı"ndan,
Gözlərinin gördüyünə dözmədi ürək.

Gördün zalım nöqtə qoyub yüz təzə eşqə,
Solanların arasında qönçə çox idi.
Sən hönkürdün,
yer üzündə ölümdən başqa
Ağlartını kəsə bilən qüvvə yox idi…

**10.03.1990**

## ÇAĞADIR HƏLƏ

Bilmirik ki, nə gözləyir bizi qabaqda,
Yol gedirik, səfərimiz dağadır hələ.
Cibkəsənin təbəssümü, gülüşü saxta,
Heyf, onlar yurdumuzda ağadır hələ.

Bir söz desən, adamları salar qalmaqal,
Xalqı soyan, gedir xalqa elçi olmağa,
Konfet verib, gümanı var mandat almağa,
Görmürsənmi, bu köstəbək lovğadır hələ?!

Mən bu qoyun sürüsünə olmuşam bələd,
Görən çoxmu uzanacaq bu zülm, bu zillət?
Konfet ilə aldadıla bilən bir millət,
Ahıl yaşda olsa belə, çağadır hələ…

**1990**

## YUXULAR GÖRÜRMÜŞÜK

Yağı qardaş deyərək aldadıb millətimi,
Daşdan-daşa dəysək də, ayılmamışıq hələ.
Geyindirmək olarmış neçə-neçə yetimi
Üstündə şüar olan qumaş parçalar ilə.

Xirtdəyimizdə imiş dostumuzun qarmağı,
Taleyin umuduna yaşayırmış elimiz.
Kökündən yadırğayıb yaratmağı, qurmağı
İclaslarda həvəslə çəpik vuran əlimiz.

Yuxular görürmüşük rahatca yata-yata,
Səpdiyimiz taxıl yox, adicə bir ot imiş.
Dilində zəfər sözü "kommunizm"ə can atan
Güvəndiyimiz rəhbər demə Don Kixot imiş…

**1991**

## SƏN DEMƏ

Bəşərin işıqlı gələcəyinə
dikmişdik gözümüzü,
Bəxtiyar olduğumuza
inandırmışdıq özümüzü.
Şüarlar söyləyərək
ağalıq edirdi
gədə-güdə.
Yerişimizi də itirmişdik
"kommunizm"ə
gedə-gedə…
Qarnımız ac olsa da,
gözümüz tox idi.
Xoşbəxt idik,
bədbəxt olduğumuzdan
xəbərimiz yox idi…
Sən demə havayı yerə
gülürmüşük.
Sən demə aclığa,
qıtlığa doğru
gəlirmişik…

**1991**

## LAQEYDLİK ULU XALQIN BELİNİ BÜKÜB

De, nə qədər getmək olar insan yasına?
Barı güldür üzümüzü hərdənbir, Allah!
Dözəmmirdik bir ağacın qırılmasına,
Kəndlər yanır, tükümüz də tərpənmir, Allah!

Sanki çıxmaq istəmir o, düşmən lığından,
Heç bilmirəm hara baxır gözü millətin?!
Daşıdığı tabutların ağırlığından
Az qalır ki, yerə gələ dizi millətin.

Boş-boş gəzmək cavanların gəlmir arına,
Laqeydlik ulu xalqın belini büküb.
Viran qalan binaların divarlarına
Xəbislərin ürəyinin qarası çöküb.

Ağır toplar silkələyir dərəni, dağı,
Qarabağın torpağını al qan sulayır.
Gəncəmizdə, Bakımızda günorta çağı
Cibkəsənlər, yolkəsənlər meydan sulayır.

Gecə-gündüz selə dönür gözümün yaşı,
Heç bilmirəm kimə edim mən bu gileyi?
Alver ilə qarışıqdı millətin başı,
Dönüb hərrac bazarına xalqın taleyi.

De, nə qədər getmək olar insan yasına?
Barı güldür üzümüzü hərdənbir, Allah!
Dözəmmirdik bir ağacın qırılmasına,
Kəndlər yanır, tükümüz də tərpənmir, Allah!

**1992**

## AYDINLARDIR ÇIXARAN MİLLƏTİ AYDINLIĞA

Alverçi at oynadır, ziyalılar mat qalıb,
Ürəyimi göynədən bu ağrı nahaq deyil.
Xeyli vaxtdır vətənin başını bulud alıb,
Ziyalısı – aydını olmayan xalq xalq deyil.

Köhlənləri yabının quyruğuna düyməyin,
Qəlbi təmiz olanın dözümü yox danlağa.
Ziyalını işbazın qarşısında əyməyin,
Aydınlardır çıxaran milləti aydınlığa.

Arzuları həyatda olsa da xıncım-xıncım,
Zəkasıyla dərəni dümdüz eləyə bilər.
Ziyalının köksündə doğan körpə qığılcım,
Millətin gecəsini gündüz eləyə bilər.

Tikanlar düzülsə də onun getdiyi yola,
Dizləri qüvvət alar ürəyinin səsindən.
Nadanların əliylə olunsa da daş-qalaq,
Dərisi soyulsa da, dönməz əqidəsindən.

Güləni düşündürər, ağlayanı kiridər,
Dolar gözlərimizə ürəyinin işığı.
Ətini, sümüyünü el yolunda əridər,
Qazancı süpürgəçi qazancından aşağı.

Millətin dar günündə mütləq yeri bilinər,
Heç nəyi düşünməz o, doğma elindən özgə.
Millətin xoş günündə yaddaşlardan silinər,
Qapısını kim açar səhər yelindən özgə?!

Onu nura döndərər ürəyinin istisi,
Məhəbbəti köksündə yanar atəşə dönər.
Gözünü göynətsə də cəhalətin tüstüsü,
Vətən üfüqlərində doğan günəşə dönər…

**1992**

# BOZ DÜNYA

Az qalır ki, sinəmdən sıyrılıb ürək qopa,
Nifrətim selə dönüb gözlərimdə qaynayır.
Dilənçinin əlində minliklər topa-topa,
Şairin ciblərində siçovullar oynayır.

Niyə gəldim dünyaya dünyanın bu pis vaxtı? –
Ürəyim od püskürür, gözümdə qəm sayrışır.
Şairin şerləri qovluqlarda dustaqdı,
Alverçinin kitabı vitrinlərdə alışır.

Güvə düşüb inama, güvə düşüb umuda,
Dünyamızda hər şeyi çeviriblər bazara.
Boz şeirlər, maşnılar dönüb bir boz buluda,
Üstümüzə yeriyir söz bozara-bozara.

Basır alaq otları gülləri hər gün, hər ay,
Özünü düzəltməyə həyalı tapmır macal.
Bu millətin başına turp əkənlər, ay haray,
Millətin zövqünü də bu gün qoyub hərraca.

Arxadan gələn yoxdu, kəsilib arxın suyu,
Əriyib yox oluruq biz dünyanın içində.
Get qəflət yuxusuna, uyu, millətim, uyu,
Vitrinləri alışan boz dünyanın içində!...

***1995***

## DƏYİRMAN

Sağmal inəyimiz qısır qalıbdır,
Sarı sünbül olub qızıldan baha.
Bizim dəyirmanlar insan üyüdür,
Gərəyimiz deyil qızıl dən daha.

Çax-çax başımızı yaman ağrıdır,
Çoxdan həsrət qalıb dəyirman una.
Gəlsin siyasətin Don Kixotları
Bizim məmləkətin dəyirmanına…

**1996**

## QALX AYAĞA

**Qardaşım Razimə**

Üstümüzə göylərdən hey mərmilər tökülür,
O kimdir bir tərəfdə uzanıb, bihal düşüb?
Kol dibində bənövşə durub boynu bükülü,
Lalələrin köksünə qara-qara xal düşüb.

Bir-bir diz üstə çökür tikdiyimiz binalar,
Vaxt tapmırıq getməyə hər ölənin yasına.
Oğulları tək qoyub gedə bilmir analar,
Körpələrin ürəyi dönüb qəm yuvasına.

Ciyərimdə qövr edir kəkotunun qoxusu,
Dərd oynayır gözümdə alovlu şimşək kimi.
O dağları, düzləri itirməyin qorxusu
Ürəyimin başında böyüyür xərçəng kimi.

Aman vermir qocaya, aman vermir qarıya,
Rəhm etmir körpəyə də, niyyəti bambaşqadı.
Namərd oğlu danışır hey zarıya-zarıya,
Baxan deyir bu yazıq bir günahsız çoşqadı.

Çor deyənə can dedim, nələr çəkmədi başım? –
Ədalət savaşına kömək olsun Yaradan.
Səbrin də hüdudu var, qalx ayağa, qardaşım,
Dua oxumaq ilə donuz çıxmaz darıdan.

Qalx ayağa, dağların açılsın qırışığı,
Kəndlərimiz boynunu burmasın yetim kimi.
Dolsun bəbəklərinə haqq işin gur işığı,
Görsünlər millət yoxdu mənim millətim kimi…

**1992**

## HARA GEDİR BU MİLLƏT?

El dərdini çəkən olub gözündən,
Ağladıqca, bəbəyinə tor gəlib.
Ziyalının ziya qaçıb üzündən,
Alverçinin sifətinə nur gəlib.

Öləziyib həya, ismət çırağı,
Səda gəlmir yaradandan, qurandan.
“At oynadan” arvadların sorağı
Gah İrandan, gah da gəlir Turandan.

Sevincimiz əsir düşüb ələmə,
Bu dünyanın hökmranı pul olub.
Qara bazar diş qıcayıb aləmə,
Həya, ismət, namus ona qul olub.

Boğazımız ilişibdir ilməyə,
Həyalıdan həyasıza nəf gəlir.
Əlifbanı höccələyə bilməyən
Tərəzidə müəllimə kəf gəlir.

Gedəmmirik yetim qalan kəndlərə,
Düşmən bizə çoxdan quyu qazırmış.
Quyruğunu hey bulayan itlərə
Nimçələrdə sümük payı hazırmış.

Xəzan düşdü niyə bizim gülzara? –
Bu aləmi qatan kimdi, nə bilim?!
Məmləkətim dönüb qara bazara,
Alan kimdi, satan kimdi, nə bilim?!

Bu qayğılar başımızı böyüdüb,
Xəzəl olub arzuların yarpağı.
Qara bazar Qarabağı "üyüdüb",
Yaddan çıxıb əldən gedən torpağım.

Başımıza kim ələdi bu külü?
Görən çoxmu uzanacaq bu zillət?
Ziyalısı qalıb boynu bükülü,
Hara gedir, hara gedir bu millət?!

**1992**

## NECƏ YAZACAQ

Bu da bir yarışdı, düşüb bəhsabəhs,
Ey xalqım, sən dostu, düşməni tanı.
Bu gün "Şirvan" verib imza alan kəs
Sabah sata bilər Azərbaycanı.

Daralır boynuma ilişən halqa,
Gəlir üstümüzə qara bir duman.
Vedrəyə aldanıb səs verən xalqa
Vedrə bağlayacaq tarix bir zaman.

Çaşma hər yetənə uğur diləyib,
Sınaq günlərimiz yaxınlaşır, ha!
Çoxları mandatı qalxan eyləyib,
Qılınc oynatmağa hazırlaşır, ha!

Qoymayın düşməni bizə gülməyə,
Nadanlar millətə qəbir qazacaq.
Adını, soyunu yaza bilməyən
Xalqın taleyini necə yazağaq?!

**1995**

## SEÇİLƏ BİLMƏSƏM DƏ

Qəm toxumu cücərdi alnımın qırışında,
Başımın üzərindən durna qatarı keçdi.
Seçilə bilməsəm də bu mandat yarışında,
Düşmənimi, dostumu seçki aradı, seçdi.

Gördüm ki, adamların təbəssümü saxtadı,
Çoxlarının köksündə ürək də ürək deyil.
Gördüm ki, görəcəkli günümüz qabaqdadı,
Bu millətə heç millət vəkili gərək deyil…

Sürə biləcəyikmi bu yelkənsiz gəmini?!
Çıxa biləcəyikmi zamanın sınağından?
Bu millət saya salmır daha "Məmmədəmin"i,
Bu millətə "Şirvan" ver,
keçsin Qarabağından…

Zaman başlara səpdi arzuların külünü,
Yaltaqlar nadanları döndərmişdilər bütə.
Yetərsay yerə vurdu neçəsinin belini,
Yetərsay qoymadı ki, əllər arzuya yetə.

Səadətin yolları hələ bizdən uzaqdı,
Yaxamızdan yapışıb hələ də qara əllər.
Ümidimiz budaqda titrəyən son yarpaqdı,
Üstünə neçə yerdən əsnəyir qara yellər.

Qəm toxumu cücərdi alnımın qırışında,
Başımın üzərindən Sabir harayı keçdi.
Seçilə bilməsəm də bu mandat yarışında,
Düşmənimi, dostumu seçki aradı, seçdi…

**1995**

## BU MİLLƏTİN BAŞINA BİR AĞIL QOY, İLAHİ

Çaxnaşdırıb dünyanı bir iblis – qulyabanı,
Köhlənmi etmək olar dılğır yabını dartıb?
Böyüdükcə böyüyür "Şəhidlər xiyabanı",
Bəlkə göz yaşımızdan Xəzərin suyu artıb?!

İşbilməzlər, naşılar qalxdıqca pillə-pilə,
Millətin dərdi artır, faciəsi başlanır.
Xalqın öz boğazından kəsib aldığı güllə,
Xalqın öz övladının kürəyinə tuşlanır.

Alver ilə yamanca qarışıb yurdun başı,
Çatammırıq getməyə hər ölənin yasına.
Öz burnundan qabağı görə bilməyən naşı
Düşüb filosoflara dərs vermək sevdasına.

Ulu Şah İsmayılın üzünü qəm bürüyür,
Qocaman Füzulinin yanır bağrının içi.
Minib süpürgəsini küçə boyu sürüyür,
Siyasət meydanında at çapır süpürgəçi.

Sən mərdləri aparma namərdin ayağına,
Xalqına xor baxanın gözünü oy, İlahi!
Torpağımız çevrilib dəli yığıncağına,
Bu millətin başına bir ağıl qoy, İlahi!

**1992**

## ÜRƏK FƏĞAN QOPARIR

Köksümdə dura bilmir, ürək fəqan qoparır,
Arzumuzun külünü başımıza səpirlər.
Güllə yağışı altda göbələk tək qabarır
Torpağın sinəsində təzə-təzə qəbirlər.

Namərdlər at oynadır, sinəmizdən qopur ah,
Qollarını gen açıb qucur mərdi məzarlar.
Günahımız nə imiş yanında, qadir Allah, –
Yolumuzun üstünə çıxıb mərdiməzarlar?!

Ürəyimin başında arzular düymə-düymə,
Örkən uzun olsa da, doğanaqdan keçəcək.
"Dünya bizi tanıyır", – deyib, döşünə döymə,
Belə getsə, xalqımız bu dünyadan köçəcək.

Qardaşım, qalx ayağa, ər qədrini ər bilər,
Sabahımız yetimdir, bu günə güllə dəyir.
Dinir toplar, tüfənglər, uçur quduz mərmilər,
Neçə nişana, toya, düyünə güllə dəyir…

Yatır papaq altında adsız ərlər, ərənlər,
Başçısı müdrik olsa, el səfərbər olacaq.
Namusu vəzifəyə, pula qurban verənlər,
Vətən gedəndən sonra kimə rəhbər olacaq?!

Dünyaya gəlməmişik cənazə daşımağa,
Ölkəni satanları oda atalar gərək.
Bu müqəddəs torpağın üstündə yaşamağa
Layiq oğullar, qızlar, layiq atalar gərək…

**1993**

## VƏZİFƏ DƏYİRMANI

**Anama**

Zoqquldayır sübhəcən yarandakı suluqlar,
Ay ana, öz elindən, obandan ayrı düşdün.
Xırdaca balıqları yeyir iri balıqlar,
Sənin də taleyinə qaçqınlıq payı düşdü.

Sinəmiz dağlanıbdır, meydan verilib pisə,
Çəkilib bir kənara hey çəkirsən hər gün ah.
Doğulduğun torpaqda ölmək qismət deyilsə,
Niyə acığın tutub, əzrayılda nə günah?

Bir yorğan üstündəymiş fələyin min oyunu,
Bu qərib görkəminlə sinəmi dağlayırsan.
Gah zəncirdəki iti, gah həyətdə qoyunu,
Gah kürt yatan toyuğu düşünüb ağlayırsan.

Macal vermir mənə də ürəyimin ağrısı,
Birdən duyarsan deyə, göz qırpmıram, ay ana!
Təskinlik verməyə də dilim gəlmir doğrusu,
Qorxuram ki, qəlbində fırtınalar oyana.

Millətə dağ çəkdilər "millət savaşı" ilə,
Azadlıq davasında çıxdı kasıbın canı.
Biçarə anaların qanlı göz yaşı ilə
İgidləri üyütdü vəzifə dəyirmanı…

**1993**

## ÖZ DƏRDİNƏ GÜLƏN XALQ

**Nərimanov klubunun qarşısında toplaşan qaçqınlar öz zarafatlarından da qalmırdılar…**

Elə dərd görürəm ki, bədənimdə qan donur,
Az qalır ki, yer qaça ayağımın altından.
Bir-birini görəndə üzə təbəssüm qonur,
Gözü yaşlı adamlar qalmır zarafatından.

Hamı durub dərdinə həyan olan gözləyir,
Bilmir ki, nə gələcək başına bu gün-sabah.
Ancaq gördüklərini hərə bir cür bəzəyir,–
Xalq öz faciəsinə gülə bilərmiş, Allah?!

Nə oyunlar açıldı gör millətin başına? –
Dar gündə səsinə səs verməyənlərə gülür.
Beləmi girərdilər azadlıq savaşına? –
Xalq burnundan uzağı görməyənlərə gülür.

Tanrı yerdə qoyarmı anaların ahını?
Qiyamət qabaqdadır, bu millət bilməlidir.
Bu müsibət içində anlayıb günahını,
Öz dərdinə gülən xalq, nə vaxtsa, gülməlidir…

**1993**

## QƏLBİMƏ DAMMIŞDI Kİ…

Mən bu gün getməliyəm, etibar yox sabaha,
Qubadlını görməyə fürsət də qalmayacaq.
Qəlbimə dammışdı ki, bu yerlərə bir daha
Dönmək bəlkə də mənim qismətim olmayacaq.

Bu torpaqda ən ağır günlər mənə xoş olub,
Qısılmışam dağlara gah qarda, gah gürşadda.
Nəvəm yerində olan uşaqlara qoşulub,
Çimdim gah Həkəridə, gah da ki, Bərgüşadda.

Gəzdiyim cığırları keçib qurtarammadım,
Gah Mistan, Qızıl qaya, gah Səngər dağı qaldı.
Bulaqların suyunu içib qurtarammadım,
Ürəyimin başında yenə bir yanğı qaldı.

Qəbristana yollandım, gəldi qəbirlər dilə,
Için-için ağladım, od götürdüm, alışdım.
Son dəfə vidalaşıb doğma qəbirlər ilə
Ruhlarını qəlbimdə gətirməyə çalışdım.

Nə vaxtdır ərşə çıxıb anaların yuxusu,
O uca zirvələrə qar yağmamış, üşüdük.
Vallah, özümüzdədi günahların çoxusu,
Milləti düşünmədik, özümüzü düşündük…

Döz Tanrı cəzasına, öz döşünə döymə çox,
Acizsən, süd əmsən də bu dağların döşündən.
Taleyin qarşısında qüvvətin yox, gücün yox,
Heç kəs baş aça bilməz fələyin gərdişindən…

**1993**

## AY BƏRGÜŞAD, AY HƏKƏRİ

Ay Bərgüşad, ay Həkəri,
Sizi keçən yay görmədim.
Ömrüm əridi, sozaldı,
İl görmədim, ay görmədim.

Gözümdə qüssə sayrışdı,
Dərd ürəkdə aşıb-daşdı.
Başım yaslara qarışdı,
Nə şənlik, nə toy görmədim.

Dağa dırmandım, yol aşdım,
Neçə nadanla dalaşdım,
Dünyanı gəzib dolaşdım,
Sizin kimi çay görmədim…

**1993**

## SAMAN ÇÖPÜ

**Qaçqınları qınayan bir qələm sahibinə**

Mənim kimliyimi çox adam danıb,
Ancaq bu həyatda alınıb köpü.
Nə evin dağılıb, nə yurdun yanıb,
Həmişə üzdəsən, ay saman çöpü.

Dünya öz işində, öz axarında,
Üzə biləcəkmi, üz desən elə?
Qəzet dünyasında, söz axarında
Nədənsə həmişə üzdəsən elə.

Öz ömür yolunu yaşayır hərə,
Yalandan hönkürmə, fəğan qoparma.
Səni saya saldıq sünbülə görə,
Bizi samanlığa çəkib aparma.

Verdiyin öyüdlər deyil gərəyim,
Bağışla, gileyim aşkara oldu.
Mənim dərd əlindən yanan ürəyim
Sənin süfrən üçün aş-qara oldu.

Yandıra bilmədin bir odunu da,
Ucuz nəsihəti tərk eləmədin.
Gördün çiyindaşın yalotunu da,
Öz ucuzluğunu dərk eləmədin.

Həyat sənin üçün deyil tamaşa,
İçimdə tufan var, demə fağırdı.
Keçsən də məclisdə yuxarı başa,
Samanın müqəddəs yeri axurdu…

Dünya öz əvvəlki gərdişindədi,
Mənimçün əzizdir öz elim, obam.
Zamanın selləri öz işindədi,
Bu saman çöpləri tükənmir, babam.

Alnımdan taleyin yelləri öpür,
Çətin ki, önündə əyiləm daha.
Suda boğulsam da, ay saman çöpü,
Sənə əl uzadan deyiləm daha…

**01.12.1993**

# QUBADLIM

**Əziz Turala**

Yadıma dağların, düzlərin düşür,
Kül altda uyuyan közlərin düşür,
Yoluma dikilən gözlərin düşür,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayılacağıq?!

Qızıldaş əzəldən sinə dağlıdı,
Çayzəmiyə gedən yollar bağlıdı,
Bu miskin görkəmin məni ağrıdır,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayılacağıq?!

Qoca Sak hirsələnib Xocamsaxlıda,
Dönüb Ballıqaya qara buluda.
Unuda bilmərik, səni unuda,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayılacağıq?!

Çardaxlı dağları kövrəlib, dinib,
Əyinin, Göyyalın işığı sönüb,
Başarat – həşarat yurduna dönüb,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzlə qoynuna qayılacağıq?!

Zəhərə çevrilib ömrün şəkəri,
Hönkürür Bərgüşad, dinir Həkəri
Söndümü bəxtimin tale ülkəri?–
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Darıxma, qoynuna qayılacağıq!

**1996**

## QAÇQIN RÜBAILƏRİ

Düşmən öz işindən çox razı qalıb,
Hələ gözlərimdə min arzu qalıb.
Yolumu gözləyən yollar, cığırlar,
Ayaq izlərimə tamarzı qalıb…

***

Mərmilər göynədir dərəni, dağı,
İnsan da olarmı insana yağı?!
Gərək ot dillənə, çiçək danışa,
Haraya dəyibsə insan ayağı.

***

Xəyalən bostanı ha ək, ha suvar,
Qəlbimdə bir elin dərdi, yası var.
Yəqin əriyimiz çiçəkləyibdir,
Sevdalı könlümdə yaz havası var.

***

Dilimə bir həzin, doğma ad düşüb,
Sanki varlığıma bir gürşad düşüb.
Məni ayrı çaylar ovuda bilmir,
Yadıma Həkəri, Bərgüşad düşüb.

***

Düşmən köksümüzü dağlayır indi,
Nifrətin selləri çağlayır indi.
Söykəyib başını səngər dağına,
Bulaqlar hönkürür, ağlayır indi.

***

Xəyala dalıbmı Hərtizin dağı?
Yadına düşürmü əzəlki çağı?
Susur Qızıl qaya günahkar kimi,
Xəzərə can atır Qısraq bulağı

***

Həsrətdən saralıb soluram, Allah,
Göylər tək boşalıb, doluram, Allah.
Hər gecə evimiz yuxuma girir,
Gecələr bəxtəvər oluram, Allah!

**1994**

## BU İLİN BAHARI

Zəmilər torpağın bağrını dəlib,
Çiçəklər bağların dönüb tacına.
Bu ilin baharı ayrı cür gəlib,
Bizim kəndimizin yal-yamacına.

Uşaq da, böyük də ayağa qalxır,
Vətən qeyrətini çəkən nə çoxdu?!
Şümşürük oynayır, ildırım çaxır,
Bəs niyə göylərin yağışı yoxdu?!

Yazıq sığırçınlar, qaratoyuqlar,
Odlu mərmilərə baxıb çaşırlar.
Kövşəndə yaranıb dərin oyuqlar,
Güllələr kəklik tək qaqqıldaşırlar.

Müqəddəs torpağın ağır günündə
Döyüşən insanlar kamala yetir.
Bu bahar lalələr vətən önündə
Sinə gərənlərin köksündə bitir.

Qəzəbdən anamın əsir ürəyi,
Məndən hal-əhval da soruşa bilmir.
Gül-gülü çağırır, çiçək çiçəyi,
Təbiət davayla barışa bilmir…

**1993**

## BU QIŞIN QARI DA BELƏCƏ YAĞDI

Kəpəzin, Səngərin ağardı başı,
Bu qışın qarı da beləcə yağdı.
Selləndi nənəmin isti göz yaşı,
Yağdı, Çardaxlıya, Xələcə yağdı…

Qaldı qar altında ömrün baharı,
Şirin xatirələr coşub-çağladı.
Ruhuma od saldı bu qışın qarı,
Qayğılar saçımda qırov bağladı.

Tutdu bərələri, tutdu bəndləri,
Sümükdən, ilikdən gəlib keçdi qış.
Bizdən ayrı düşən qərib kəndlərin
Elə bil boyuna kəfən biçdi qış.

Yollara, izlərə yağdı, yağdı qar,
Arzumun gülləri sazağa düşdü.
Qar altında qalan təzə məzarlar
Bizdən bir qarış da uzağa düşdü.

Kəpəzin, Səngərin ağardı başı,
Bu qışın qarı da beləcə yağdı.
Selləndi nənəmin isti göz yaşı,
Yağdı, Çardaxlıya, Xələcə yağdı…

**1993**

## VƏTƏN DƏRDİ

Tale bizim ömrümüzə
Ağrı, acı yazasıymış.
Çox gördü şən ömrü bizə,
Bu da alın yazısıymış.

Danışanı tərifləyib,
Tez ağzına pul atdılar.
Başçısını hərifləyib,
Ulu xalqı ulatdılar.

Həsrət qaldıq doğma yurda,
Ayrı düşdük köçümüzdən.
Dərd çevrilib bir ac qurda,
Yeyər bizi içimizdən…

**1992**

## YUXUMDA BOZ QURD ULAYIR

Üstümüzü alıb bəla,
Xatirələr dönüb bala.
Qocalar dalıb xəyala,
Ömür-günü xırdalayır.

Ötən günlər oldu talan,
Yıxdı bizi yalan-palan,
Yad tapdağı altda qalan
Uluca bir yurd ulayır.

Zəmimizdən başaq gəlib,
Gözümüzə işıq gəlib,
Körpəcə bir uşaq gəlib,
Sönən közü qurdalayır.

Üstümüzə tufan əsdi,
Ruzumuzu Tanrı kəsdi,
Deyir: – Uyuduğun bəsdi, –
Yuxumda Boz qurd ulayır…

**1992**

## HƏSRƏT QALDIĞIMIZ YERLƏR

Könül açır Çayzəminin
Dumanı da, çiskini də.
Yaşamağa haraylayır
O, həyatdan küskünü də.

Ancaq yolları bağlanıb,
Dayanıb dərdli, naəlac.
Ayaq izlərindən ötrü
Qəribsəyib bu yal, yamac.

Bulaqların gözü dolub,
Gen dünya əcəb daralıb.
İntizardan meşələrin
Gözünün kökü saralıb.

Qızıldaş dalıb xəyala,
Kəpəz dərdli-dərdli baxır.
Ağsuyun qaynar gözündən
Qara-qara qanlar axır.

Çoxdandır həsrət qalmışıq
Qantəpərin qoxusuna.
Hər gecə alaçıq girir
Vəl düzünün yuxusuna…

**1992**

## OCAQLARI SÖNƏN YURDUM

Nə çox idi heyrətindən
Bəxtəvərə dönən burda.
Od alardı çiçəklərdən,
Alışardı sönən burda.

Gözəlliyə əl açmışdım,
Qəlbdə arzu dil açmışdı,
Xarı bülbül gül açmışdı,
Xoşbəxt idim dünən burda.

Analar qara bağlasın,
Şuşamı Tanrı saxlasın!
Bir cüt göz gərək ağlasın,
Ocaqları sönən yurda…

**1992**

## XOCALI ŞƏHİDLƏRİNƏ

Biz ürcah olduq çaqqala,
Düşsək də, bəbir izinə.
Bəsdir bu dərdə dözdüyün,
Namərdin tüpür üzünə.

Neçə-neçə kəndim yanıb,
Düşmən marıqda dayanıb,
Odlu bir nifrət oyanıb,
Qəlbimdə səbir sözünə.

Köksümüzdən vurulmuşuq,
El içində xar olmuşuq,
Biz ölmüşük, qırılmışıq,
Həsrətik qəbir üzünə…

***

Çəməndə çiçək darıxır,
Üstündə ləçək darıxır,
Köksümdə ürək darıxır,
Deyəsən bürkü olacaq…

Ellər düşüb pərən-pərən,
Unutmaz bu dərdi görən.
Pələngi güdaza verən
Olsa, bu tülkü olacaq.

Uyduq biz onun felinə,
Od verdik düşmən əlinə,
Vətən yolunda ölənə
Torpaq qu tükü olacaq…

**1992**

## PAPAĞIMIZ YERƏ DÜŞÜB

Tarix boyu öyünmüşük
Döyə-döyə döşümüzə.
Baxmışıq barmaqarası
Ən gərəkli işimizə.

Başını qaldıranları
Laylay çalıb, yatırmışıq.
Bizə kimsə batmaz deyə,
Adımızı batırmışıq.

Mənliyimiz tapdalanıb,
Namusumuz ləkələnib.
Oğul-uşağın yanında
Gözlərimiz kölgələnib.

Canımızdakı ətalət
Önümüzdə divar olub.
Biz paslı qılınc gəzəndə,
Düşmən tanka süvar olub.

Yağı gəlir üstümüzə,
Kürkümüzə birə düşüb.
O qədər göyə baxmışıq,
Papağımız yerə düşüb…

**1992**

## KİRPİKDƏN ASILAN DAŞLAR

**Əsir düşən qızlara**

Tapdalanmış ismətiniz
Alovlara atır məni.
Hər baxış bir tikan olub,
Ürəyimə batır mənim.

Qan ağlayan nəmli gözlər
Nə qədər yerə baxacaq?
Allah, mənim ürəyimdən
Bu tikan nə vaxt çıxacaq?!

Qələm titrəyir əlimdə,
Göynəyir bağrımın başı.
Qaldırmağa oğul gərək,
Kirpikdən asılan daşı.

Hər papaqlı layiq deyil
Kişi adı daşımağa.
Biz almasaq bu qisası,
Haqqımız yox yaşamağa…

**1992**

## QAÇQIN HEYKƏLLƏR

Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Gözləriniz önündə
Şuşa qəltan oldu qanına.
Tanklar qarışqa kimi darışdı
Onun şirin canına.
Siz tarixin ucalığında susanda,
Güllələr alçaqların əllərində
dilləndi.
Evləriniz od tutub yandı,
Qanı alov-alov
üfüqlərə çiləndi…
Sizi güllələdilər,
gözləriniz önündə
ildırımlar sayrışdı…
Qanınız tarixlərə axıb,
Babəklərin qanına qarışdı.
Hönkürdü Üçmıx dağı,
Hönkürdü Cıdır düzü…
Daşın da, torpağın da

dolmuşdu gözü…
Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Sizə işgəncə versələr də,
dindirə bilmədilər.
Uçurdular postamentinizi,
ancaq özünüzü
tarixin ucalığından
endirə bilmədilər…
Millətin yaralı ürəyini
odlara yaxdınız.
Zülmlər görə-görə
Siz də gəlib
Bakıya çıxdınız…
Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Qanınız yerdə qalmayacaq,
İgidlər silaha qurşanıb.
Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Gəlin gözlərinizdən öpək,
Sonuncu siz görmüsünüz Şuşanı…
Həmyerlilərinizi görəndə
Gözləriniz dolmadımı?!
Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Heykəl Vaqifdən
xəbəriniz olmadımı?!…

**17.07.1994**

## VƏTƏN UĞRUNDA

**Keçmiş şagirdim Rövşən Veyisova**

Qara haşiyəli şəklini görəndə
Ürəyimdə tufanlar gəzdi.
Sənə şeir həsr edəcəyim
Yatsam, yuxuma girməzdi…
Utanırdın pis oxumağından,
Arabir dərsdən qaçardın…
"Vətən" şerini
əzbərləyə bilməmişdin,
ancaq Vətən uğrunda
ölməyi bacardın…

**1995**

## ŞƏHİD MƏZARLARI

Bu torpağı müqəddəsləşdirən
igidlərin al qanıdı.
Hər şəhid məzarı –
Vətənə atılan bir güllənin
qalxanıdı…

**1995**

## BU NECƏ DÜNYADI

Bu necə dünyadı;
Haqsız haqlı olub,
Haqlı haqsız.–
Böyük adamlar
torpaq satır,
Kiçik adamlar
siqaret, saqqız…

**1995**

## SATIR

Biri çörək almaq üçün
Son arşın bezini satır.
Biri torpaqları satır,
O biri benzini satır.

Yamanca sathasat düşüb,
Qafa bomboş, ciblər şişib.
Bu arsıza bax, irişib,
Odunu, közünü satır.

Çör-çöp dikdi, gül əyilib,
Çaqqallara fil əyilib,
Ağızlarda dil əyilib,
Söz bilən sözünü satır.

Koroğlu, çatlasın gorun,
Gün nəyinə gərək korun?
Yavaş-yavaş, korun-korun
Bu millət özünü satır…

**1995**

## OLURMU

Yedəkdəki yabıların
Köhlən ayqırı olurmu?
Elə arxa çevirənin
Söylə, uğuru olurmu?

Göz görmür qırıq çeşməkdən,
Bağrım yarıldı köçməkdən!
Vətəndən ayrı düşməkdən
Dərdin ağırı olurmu?!

Mənsiz güllər solsun, – dedin
Gözlərin az dolsun, – dedin,
Axır qəmin olsun, – dedin, –
Qəmin axırı olurmu?!

**1993**

## KOROĞLU,
## ÇATLASIN GORUN

Mərdliyin dövranı bitdi,
Tükəndi zorun, Koroğlu!
Yağ ilə bərabər oldu
Qiyməti şorun, Koroğlu!

Naxələflər keçdi başa,
Əllərimiz çıxdı boşa,
Neyləyəcək Hasan paşa? –
Həmzədən qorun, Koroğlu!

Çaylar keçdik üzə-üzə,
Səpələndik çölə, düzə.
Ocaq çatdın, heyf, bizə
Çatmadı qorun, Koroğlu!

Fal açdım, falım pis çıxdı,
Yoluma duman, sis çıxdı,
Nəvələrin fərsiz çıxdı,
Çatlasın gorun, Koroğlu!

**1993**

## QALDI

Mərmiylə qovdular bizi,
Kəmər düşdü, qurşaq qaldı.
Yağıların pəncəsində
Arvad qaldı, uşaq qaldı.

Od götürüb yazı masam,
Uduzmuşam, daha marsam.
Bağ yoxdu özümü asam,–
Yada saldığım bağ qaldı.

Hamı düşdü pərən-pərən,
Qoymadılar nəfəs dərək.
Nə qədər çiçəkli dərə,
Nə qədər uca dağ qaldı.

Düşdük qara, çənə biz də,
Sözə baxmır çənəmiz də,
Hamımızın sinəmizdə
Çalın-çarpaz bir dağ qaldı…

Saçımızın artdı qarı,
Dost bivəfa, düşmən qarı!
Bizə şəhid məzarları,
Düşmənə Qarabağ qaldı…

**1993**

## QARANQUŞ SEYİD QUŞUDU

***Babam Seyidəlinin ruhuna ittihaf edirəm***

Qaranquşa seyid quşu deyirlər. Nə üçün? Bəlkə elə onun üçün ki, köçəridi? Ulu seyidlər, imam övladları – Seyidibrahim, Seyidəli, bəlkə elə Siz də qaranquş döşündə baharı gətirdiyi kimi insanlara, Ulu Tanrının övladlarına sevinc gətirmək arzusu ilə Ərdəbildən Ecanan dərəsinə, Oxtara, Dorfnuya, Ecanan dərəsindən Çardaxlıya, Çardaxlıdan Qubadlıya, Qubadlıdan Bakıya, Sumqayıta gəlib çıxmısınız? Nəvələriniz, nəticələriniz Sizin pak adınızı qoruyub saxlayırsa, narahat olmağa dəyərmi? Nəsil öz mənəvi saflığını zamanın çirkablar burulğanından xilas eləyə bilibsə, deməli, bəşərin yolu cənnət yoludu. Allah özü sevə-sevə yaratdığını özü məhv etməz axı?!

Qaranquş seyd quşudu,
Qaranquş sevimli quşdu.
Qaranquşa baxa-baxa
Əlimdən doğmalar uçdu...

Ay babalar, ruhumuza
Nur çiləyən fikirsiniz.
Qəbrinizlə yurdumuzun
Keşiyini çəkirsiniz.

Tale bizim nəslimizi
Döndəribsə qaranquşa,
Özü də əncam çəkəcək
Öz hökmüylə yaranmışa.

Günəş üçün nə fərqi var,
Ya tülu, ya da ki, qürub?!
Baba, qərib evimizdə
Qaranquşlar yuva qurub…

**1996**

## QƏRİB DİYAR

Sinəsini gərib, qalıb,
Nəfəsini dərib, qalıb.
Mən burda qərib olmuşam,
Yurdum orda qərib qalıb…

**1996**

## HACILEYLƏK

Ay tək gəzən hacıleylək,
Həsrətindən quş olardım.
Tanrı mənə qanad versə,
Uçub sənə qoşulardım.

**1996**

## ANA TORPAQ, KÖKLƏ MƏNİ

Körpə vaxtı uyutmusan
Doluyla, şimşəklə məni.
Yağı çətin ki, qorxuda
Mərmiylə, fişənglə məni.

Bizdə deyil, bil ki, günah,
Möhkəm dur, Allaha pənah!
Gələcəyəm bu gün-sabah,
Ana yurdum, bəklə məni!

Önümdə çəpər var hələ,
Qarşımda sipər var hələ,
Dizimdə təpər var hələ,
Qayğılarla yüklə məni.

Ya çaylağında daş elə,
Ya da uçan bir quş elə,
Yenə bağrıbadaş elə
Uşaqla, böyüklə məni.

Ürəkdə süstlük baş alıb,
Həsrətin yeri boş qalıb,
Qəlbimin simi boşalıb,
Ana torpaq, köklə məni!…

**13.08.1993**

**Qubadlı**

## İNSAN XASİYYƏTİ

Şirin şey mənə ziyandı,
Onunçün qəndi sevirəm.
Qismətimə şəhər düşüb,
Mən isə kəndi sevirəm…

# KƏSİLMİŞ QOL HAQQINDA AĞI

**20 Yanvarda özü itkin düşən,**
**kəsilmiş qolu isə evlərinə gətirilən**
**aspirant Yusif Sadıqovun anasına**

Yağı hiyləsinə aldandıq necə? –
Düşmənin fitnəsi bizi ayıltdı.
Geriyə dönmədi oğlun o gecə,
Bədəndən ayrılan qolu qayıtdı.

Gözlərinin yaşı çevrildi selə,
Arzu qönçəsini döydü qar, dolu.
Cəsədi gəlsəydi, yanmazdın belə,
Ömrünə dağ çəkdi kəsilmiş qolu.

Yerəmi, göyəmi çəkilib balan?
Falçılar bu dərdi yozmağa gəlib.
O qol evinizə yarımçıq qalan
Elmi əsərimi yazmağa gəlib?

Bağrımız başında dərd düyün-düyün,
Vulkan tək püskürür sinəmizdən ah.
Ay ana, sızlama, sənin gördüyün
Babəkin kəsilmiş qoludu, vallah!

Bu ağrı, bu nisgil bağrımı dəlir,
Durub hıçqırıram mən için-için.–
Neçə əsrlərdir o qol yol gəlir
Azğın düşmənlərlə döyüşmək üçün…

**18.01.1991**

## ÖN CƏRGƏ

Həmişə yolumuz dirənib dağa,
Göydən başımıza yağıb dolular.
Heç vaxt buraxmayıb bizi qabağa,
Durub ön cərgədə cibi dolular.

Onların bağına axıb yaxşı su,
Kababın yağlısı onlara bişib.
Maşının yaxşısı, evin yaxşısı,
Tikənin yaxşısı onlara düşüb.

Sovrulub havaya istəyin külü,
Gözümüz gül açıb ürək dolanda.
Durmuşuq kənarda boynu bükülü,
Həmişə olmuşuq arxa planda.

Varlının nə işi düşmən önündə? –
Çəkilib kənara, dalda yer seçib.
Elin dar günündə, ağır günündə
Arxada olanlar qabağa keçib…

**14.08.1991**

## FƏHLƏYƏ MƏKTUB

Adam cərgəsində olmayıb yerin,
Kimdi saya salan sözünü, fəhlə?
Qəbri nurla dolsun böyük Sabirin:
"İnsanmı sanırsan özünü, fəhlə?!"

Belədir taleyin: nə küs, nə inci,
Sənin hesabına ömür sürdülər.
Bayrağa həkk edib oraq-çəkici,
Nurlu gözlərinə kül üfürdülər.

Varlılar yedilər yağlı tikəni,
Sən talon üzünə həsrətsən hələ.
Nə üçün qan töküb, bir qan tökəni
Əvəz eləmisən ayrısı ilə?!

Üzünə nur saçır həyat varlının,
Özün de, nə zaman kefin çağ olub?
Taleyin həmişə qoluzorlunun
Əlində bir canlı oyuncaq olub.

Yenə özümüzə kəsildik qənim,
Yenə bir-biriylə millət çəkişdi.
Yüz dövlət dəyişə, a bədbəxt, sənin
Əlinin bəzəyi beldi, çəkicdi…

Qardaş, deyiləsi sözüm yox daha,
Qanlı döyüşlərə sən müntəzirsən.
Yenə də sinəni verib qabağa
İnsan cərgəsində yermi gəzirsən?

**1991**

## ANANIN SƏSİ

Dişi şaqqıldayır qoca qurdların,
Müqəddəs torpaqdan olmaz pay, oğul!
Bizdən ayrı düşən qərib yurdların
Gözləri yol çəkir, oğul, ay oğul!

Dünyanın zülmətli gecələrində
Şimşəyə bənzəyən ahlar sayrışır.
Xaraba kəndlərin küçələrində
Nigaran-nigaran ruhlar dolaşır.

Bizsiz qəribsəyib yamaclarımız,
Cığırlar içində tikanlar bitib.
Bizsiz çiçəkləyir ağaclarımız,
Doğma ocaqlara gedən yol itib.

Səbrim tükənibdir sözün qısası,
Qoyma evimizin çırağı sönə.
Düşməndən almasan sən bu qisası,
Halal edərəmmi südümü sənə?!

**1997**

## AYAQLAR ALTINDAN BƏBƏKLƏRƏCƏN

Öpür gözəllərin şehli telini,
Nəfəsim bir həzin mehə dönübdür.
Ərməğan sanmışam bahar yelini,
Ömrüm gilələnib, şehə dönübdür.

Səpilib qalmışam çölə, çəmənə,
Gələnlər, gedənlər tapdayır məni.
Könlümü açmışdım bir yasəmənə,
İtirdim, axtarıb tapmayır məni.

Daddım bu həyatın yüz nəşəsini,
Heyf ki, bu dünya deyil əbədi.
Dərdim nərgizini, bənövşəsini,
Oxşadım, heç biri uf da demədi.

Kaş ömrüm olaydı dağcan, dərəcən,
Onun küləyini, mehini sevdim.
Ayaqlar altından bəbəklərəcən
Yüksələn ilk bahar şehini sevdim…

**1993**

## DƏYİRMAN

Düşdüm borana,sazağa,
Tuş oldum bir yalquzağa,
Çətin ki, gedəm uzağa,
Bu gələn ölüm iyidir.

Tərsə yozdular yuxumu,
Dərdlər tanıdı yaxamı,
Qəlbə düşən qəm toxumu
Böyüdür, məni böyüdür.

Dərdimə tapılmaz dərman,
Yazılıb alnıma fərman,
Dünya bir ulu dəyirman,–
Üyüdür, bizi üyüdür…

**1993**

## NƏ VAR, NƏ YOXDUR

Şadlıq dənizində üzürəm yenə,
Baxışlar elə bil atılan oxdur.
Doğma paytaxtımda gəzirəm yenə,
Deyirsən: –Bakıda nə var, nə yoxdur?

Ruhumu dindirir ayna küçələr,
Baxıram Xəzərə Dağüstü parkdən.
Ulduzlu səmaya dönür gecələr
Bakımız, atəşdən don geyir hər yan.

Kater şütüyərək yarır dənizi,
Gəlir xəyalıma neçə toy-düyün.
Çox solğun görünür bəti-bənizi,
Bizim ulduzların yanında göyün.

Neyləyim, bu sinəm ürəyə darsa,
Könlümün gündüzü, gecəsi yoxdur.
On bir Xreptovı küçəsi varsa,
Bircə Qaçaq Nəbi küçəsi yoxdur

Bu odlar elində, bilirsən bunu,
Bu gün niyə belə danışıram mən?
Adam var yanmağın nə olduğunu
Ömründə görməyib, alışıram mən.

Olar eşqi uca, əməli uca,
Ana torpağından hər kim güc alsa.
Pis olmaz, Nəsimi rayonundaca
Nəsimi heykəli göyə ucalsa.

Gərək dildə gəzə, dodaqda gəzə
Öz adı Müşfiqin, sanı Müşfiqin.
Bakının ən gözəl bir guşəsində
Axı tunc heykəli hanı Müşfiqin?

Sənətin gücüylə canlansın daşlar,
Bizim vüqarımız görün nə çoxdur?!
Məndən inciməsin heykəltaraşlar,
Babəkin, Cavidin heykəli yoxdur.

İftixarla danış, iftixarla din,
Öz əqidəsindən nəslim dönməyib.
İgid Babəkimin, Cavanşirimin
Qılınc tutan əli torpaq olsa da,
Hələ ürəyinin odu sönməyib.

İnsanlıq adını daşıyanların
Daim yanar olsun köksündə ürək.
Odlar diyarında yaşayanların
Sözü də, özü də od olsun gərək!

Heç ərlər, ərənlər gəlirmi saya? –
Koroğlu nərəsin unutmamışıq.
Biz odlar elini bütün dünyaya
Hələ lazımınca tanıtmamışıq…

**1969**

## HEYKƏLLƏRİN GÖZ YAŞI

**Fuad Əbdülrəhmanovun xatirəsinə**

Buludlar qaş-qabaqlı, göyün üzü ləkəli,
Bir ölməz sənətkarın həyatı yetib sona.
Düşənbədə kövrəlib Rudəkinin heykəli,
Buxarada dalıbdır xəyala İbn-Sina.

Tunca dönmüş Üzeyir gedə bilməyir dəfnə,
"Azad qadın"ın əli yerdən-göydən üzülüb.
Qiymətini almayıb ən qiymətli dəfinə,
Küsüb getmək istəyir Kərbəlaya Füzuli.

Bir sənətkar qəlbinin alovu, odu sönüb,
Heykəllərin gözündə elə bil şimşək çaxır.
Vağzalın qabağında Vurğun Məcnuna dönüb,
Bir Nizami Gəncədən, biri Bakıdan baxır…

Susur Fəxri xiyaban, qar yağır narın-narın,
Kim deyir heykəllərin axan göz yaşı yoxdu?!
Özgələrə abidə ucaldan sənətkarın
Öz qəbrinin üstündə adi baş daşı yoxdu…

**1993**

## YUMAQ

Hamı sözlərimə qulp qoya bilər,
Hamı qəm karvanı daşıya bilməz.
Çoxu bir həyatı bir röya bilər,
Heç kəs mənim kimi yaşaya bilməz.

Yumağa döndərib bu həyat məni,
Nadanlar ömrümü odlara atar.
Açılsam, bir ucum Mirzə Cəlilin,
Bir ucum Sabirin qəbrinə çatar…

**1993**

## SƏN ÇALDIN

**Həsrət Hüseynova**

Sən çaldın, dünyanın dərdi, azarı
Dumana çevrilib axdı qanımdan.
Sən çaldın, unutdum qara bazarı,
Taleyin zərbəsi ötdü yanımdan.

Vuruldum yurduna, doğma obana,
Gileyim, güzarım qaldı geridə.
Allah rəhmət etsin sənin babana,
Oynadı babamın sümükləri də.

Koması dağılsın mərdimazarın,
Yenə şaqqıldayır çaqqalın dişi.
Sənin qara zurnan qara bazarın
Üstündən bir qara xətt çəkdi, kişi…

Varlığım, məsləkim qalandı oda,
Sevdalı ürəyim pərişan oldu.
Bu ilahi səda, bu doğma səda
Mənim damarımda axan qan oldu.

Cahilin hay-küyü əbəsdir, əbəs,
Dünya mehvərindən oynaya bilər.
Bu ilahi nəfəs, bu ilahi səs
İxtiyar köksündən qaynaya bilər.

Ötənlər, keçənlər düşdükcə yada
Duydum ki, qəlbimdə həvəs var imiş.
Birdən hiss etdim ki, ulu dünyada
Mənə həyan olan bir səs var imiş.

Hərəyə qismətdi bir həsrət payı,
Ömrümüz bir həsrət köçündən keçib.
Dünyanın özü də, ay Həsrət dayı,
Bir qara zurnanın içindən keçib…

**1993**

## SİNƏNDƏ

Ay Çardaxlım, görüşünə gəlmişəm,
Çor söyləsən, qallam razı sinəndə.
Qız həyalı, qız ismətli dağların
Dağa dönüb neçə nazı sinəndə.

Sən üstümə qanadını gərmisən,
Mənim xoşbəxt günlərimi görmüsən,
Nə istəsəm, yox deməyib vermisən,
Qalmamışam mən tamarzı sinəndə.

Quzu saldım ac qurdların dişindən,
Süd əmmişdim bu dağların döşündən,
Baş açmazdım bu dünyanın işindən,
Xoşbəxt idim qışı-yazı sinəndə.

Tufanları almamısan eyninə,
Qollarımı dolayaydım boynuna,
Kimlər gəlib, kimlər gedib qoynuna,
Həkk olunub neçə yazı sinəndə.

Yusifoğlu çəmənində süslənir,
Ürəyində sənə sevgi bəslənir,
Bəlkə mənim ürəyimdi, səslənir
Xançobanın qərib sazı sinəndə?

**1991**

## SIĞINIB

Əzəl gündən gül-çiçəkli yamaclar
Başı qarlı uca dağa sığınıb.
Yaxasını koldan-kosdan qurtarıb,
Əzgil köçüb bizim bağa sığınıb.

Oğrun-oğrun mənə baxdı gözləri,
Yar közərtdi sinəmdəki közləri.,
Bu dünyanın ən müqəddəs sözləri
Qönçə tutub gül dodağa sığınıb.

Nələr çəkdik namərdlərin əlindən,
Çaylar daşdı gözümüzün selindən,
Ayrı düşüb obasından, elindən –
Bir quş uçub bir budağa sığınıb.

Gur suların önündəki bəndə bax,
Bu yerlərə mən baxmışam, sən də bax.
O çeşmənin yanındakı kəndə bax –
Bir el gəlib bir bulağa sığınıb.

Qısa ömrü vermə bada, ay nadan,
Bəsdir yatdın, bir çölə bax aynadan,
Əvvəl-axır köçəcəyik dünyadan,
Üç-dörd arşın təmiz ağa sığınıb.

Yusifoğlu muradına yetəcək,
Sevən könül bülbül olub ötəcək,
Arzuları gülə dönüb bitəcək,
Kim ki, köçüb bu torpağa sığınıb…

**1990**

## ÖMRÜMÜN İLK ÜNVANI

Dərə o dərədi, təpə o təpə,
Həyət o həyətdi, çəpər o çəpər.
Ötən xatirələr gələrək dilə,
Kövrəldirlər məni, üzürlər məni.

Hər şey necə varsa, qalıbdır elə,
Bəs niyə qərib tək süzürlər məni?!
Bulaq üstündəki gözəldən su al,
Düşünsün, gəlibdir bu qonaq hardan?!
Baxışlarda sual, gözlərdə sual,
Baş daşı olublar qocalar burda.
Susur həyət-baca, susur lal kimi,
Nitqi tutulubdur sərçələrin də.
Bir xatirə kimi, bir xəyal kimi
Gəzirəm kəndimin küçələrində…
Doğma evimizin getdim yanına,
Qayıtdım ömrümün ilk ünvanına.
Cansız divarlar da sanki sevindi,
Yadına düşdümü ötən çağları?
Evimiz məktəbə dönübdür indi,
Orda dərs öyrənir kənd uşaqları.
Bahar axtarıram boran içində,
Gəncliyim sinəsi dağlı gəlibdir.
Kəndə haray düşdü bir an içində:
Yusif müəllimin oğlu gəlibdir!
Ölümə çarə nə, yoxsa da kefim,
Təskinlik tapıram mən hamı kimi.
Məktəbə dönübdür atamın evi,
Müəllim ömrünün davamı kimi...

**27.07.1977**

## ELƏ BİL MİN İLDİ YAŞAYIRAM MƏN

Ruhuma nur saçıb yol göstərmisən,
Düşsəm də dumana, çənə, İlahi!
İlk dəfə gördüyüm dağlar, dərələr,
Necə tanış gəlir mənə, İlahi?!

Qundaqda görmüşəm sanki Nəbini,
Arabir özümü qınayıram mən.
Təzəcə dil açan körpələri də
Elə bil yüz ildi tanıyıram mən.

Baş alıb gedirik üzü sabaha,
Qəlbimiz əzəlki ahənglə vurur.
Babanın ruhunu tərk eləyən ruh,
Nəvə ürəyində aşiyan qurur.

Mənim qan yaddaşım istər-istəməz
Könlümün telini bağlayır elə.
Cismim dəyişsə də, damarlarımda
Axan qan min ildi çağlayır elə.

Həyatın yükünü çiyinlərimdə
Bir qarışqa kimi daşıyıram mən.
Arxada qoysam da qırxı təzəcə,
Elə bil min ildi yaşayıram mən…

**1991**

*******

Çəmənlikdə gül-çiçəyə,
dağda qara bax,
De, kimindir sehr yatan
bu daş, bu torpaq?
Kim "Qarabağ şikəstəsi"
oxuya bilsə,
Onunkudur göz oxşayan
gözəl Qarabağ…

**1991**

# ALNIMA YAZILAN YAZI

## ÖMÜR KITABI

Dağları görməyə gözüm tələsir,
Zirvələr üzünü niyə yaşmayıb?
Yol dağa dirənib, dizlərim əsir,
Ya qismət, o üzə aşım, aşmayım?!

Gərək dağ övladı dağa sığına,
Ürəyim hönkürsə, çətin kiriyər.
Girib xatirələr alaçığına,
Tək-tənha dönürəm üzü geriyə.

Söz almaq istəyir sozalan ömrüm,
İtən gəncliyimi soraqlayıram.
Taleyin əliylə yazılan ömrün
Qalın kitabını vərəqləyirəm.

Yaxşı ki, getməyib ömrüm havayı,
Qəlbimi isidir doğma yurd, ocaq.
Ömür kitabımı məndən savayı
Heç kəs vərəqləyib oxumayacaq…

**29.09.1989**

# ŞEİR YOLUMUZDAN ELƏDİ BİZİ

"Bir dövrdəyəm ki, nəzm olub xar…"

**M.Füzuli**

Həyat yollarımız dirəndi dağa,
Dumana büründük, çənə büründük.
Pula, var-dövlətə çevirib arxa,
Şeirin ətəyindən tutub süründük.

Vura bilmədilər iliyimizi,
Şirin əzabların ömrü uzandı.
Soruşan olanda kimliyimizi
Gülüb söylədilər: – Şeir yazandı!…

Ac adam nəğməni vecinə almaz,
Xidmət eləyəsən bu yurda gərək.
Şeirlə kimsənin qarnı tox olmaz,
Millətə ət gərək, yumurta gərək…

Çılğın ilhamımız şahə qalxanda
Məst olduq bir qızın məhəbbətindən.
Biz qərib durnaya gendən baxanda,
Kimsə kabab çəkdi durna ətindən.

Zəngin süfrələrə can atar afət, –
Şairə çəkdiyi əzab qalacaq.
Kimindən var-dövlət, gözəl imarət,
Kimindən beş-altı kitab qalacaq.

Bəzəkli evlərə köçə bilərdik,
Ömrümüz keçərdi kef-damaq ilə.
İstəsək, o yolu seçə bilərdik,
Qazan doldurardıq qaz vurmaq ilə.

Həyat yollarında sındıq, əyildik,
Doğma obamızda yersiz olmuşuq.
Biz əvvəl bu qədər aciz deyildik,
Şeir yaza-yaza fərsiz olmuşuq.

Göz açıb dünyadan ilham alınca,
Zaman xəlbirində ələdi bizi.
Hərə çıxıb getdi bir iş dalınca,
Şeir yolumuzdan elədi bizi…

**08.10.1990**

## ŞAİR

Oxuyacaq, himə bənddir könlünün simi,
Gözlərinin qarşısına gələr dağ, aran.
Şair ki var, təzə eşqə düşənlər kimi
İlham qızın görüşünə can atar hər an.

Ürəyini əsir edən el-obasıdır,
El qeyrəti çəkənlərə şair deyirlər.
Şair qəlbi elə bil ki, quş yuvasıdır,
Pərvazlanar o yuvadan kövrək şeirlər.

Qəlbi coşsa, iki daşın arasında da
Şeir yazar, bəzən ilham bilmir vaxt, vədə.
Şair sözü simürğ kimi yetişər dada,
Şair özü insanlara gülünc gəlsə də.

Nələr çəkdin söz karvanı yola düşüncə?!
Ürəyindən, ilhamından umursan kömək.
Sığışmırsa çərçivəyə fikrin, düşüncən,
Rahatlığın yoxsa əgər, şairsən demək…

**13.06.1977**

## İŞIQDI ŞAİR

Bəzən nərə çəkər yaralı şir tək,
Sanma ki, həlimdi, yumşaqdı şair.
Güləş meydanıdır bu həyat ona,
Dərdlə əlbəyaxa-qurşaqdı şair.

Onun yazdıqları haqqın səsidir,
Bir xoş söz söyləsən, bir il bəsidir,
Öz ana dilinin pərvanəsidir,
Vətən torpağına aşiqdi şair.

Aparar dünyanın haqq-hesabını,
Çəkər ürəyində el əzabını,
Açsan qapısını bir kitabının,
Dolar ürəyinə, işıqdı şair.

Düşünər, daşınar hər vaxt dərindən,
Qalmaz insanların xeyir-şərindən,
Bir körpə əliylə zəmi yerindən
Yığılan bir dəstə başaqdı şair.

Heç çəkinmə ondan, yeri yaxına,
Dırman asta-asta sənət dağına,
Baxma saqqalına, baxma bığına,
Sözlərlə oynayan uşaqdı şair…

**1990**

## İLK ŞEİRİMİ ÇAP ELƏYƏNLƏRƏ

Uğurlu yol dilədiniz,
Təriflərə bələdiniz.
Şeirimi çap eləməklə,
Məni yoldan elədiniz.

Gəldim bir az cəsarətə,
Üsyan etdim əsarətə.
Atıb işimi, gücümü
Qurşandım sözə, sənətə.

Dostum kağız, qələm oldu,
Sirdaşım dərd, ələm oldu.
Qazandığım ağrı, acı,
İtirdiyim aləm oldu.

Durdum kimlər sırasında? –
Tanrı, saxla sonrasından!
Gördüm bir kiçik yarpağam,
Azmanların arasında.

İstedad hesab etdiniz,
Ömrümü əzab etdiniz.
İnsafsızlar, niyə məni
Bəyəndiniz, çap etdiniz?!

**1991**

## ŞAİR OYUNCAĞI

Ürəklərinə yükdü millətin ağır dərdi,
Ağılsız pərvanə tək odlara alışırlar.
Dəlilərə dil verən, vallah, bu şairlərdi,
Onlar içməyəndə də dəli tək danışırlar.

Ürəyimi dərd deşir, bir parça varaq gətir,
Sənə əmr eləməyim qəlbinə toxunmasın.
Yüz nəsihət verincə, yüz qram araq gətir,
Ayıq başla bu şeiri bir kimsə oxumasın.

Seyr edirik dünyanı gözümüzdə min maraq,
Köksümüzdən yol alıb, sellər kükrədi, axdı.
Biz hamımız bəbəyik, içdiyimiz bu araq
Şairlərə Allahın verdiyi oyuncaqdı.

Ən ağır günümüzdə imdada çatır Allah,
Yoxsa qoluzorlular bizi əzər, döyərlər.
Şairlərin başını araqla qatır Allah,
Deyir:– Birdən ayılıb, "mən də varam", – deyərlər!

**1991**

## HƏKİMLƏ SÖHBƏT

– Ağrılar kəsibdir lap kələyini,
Bilsək də arzunu, məramını biz.
Üzülüb gedirsən, gəl ürəyinin
Çıxaraq kardioqramını biz.

– Yaxına qoymadım heç vaxt haramı,
Halallıq olubdur özülüm, köküm.
Şair ürəyinin kardioqramı
Yazdığı şeirlər deyilmi, həkim?

**1991**

## SÖZ

"Mənim həyatım sözlərdir, gözəl sözlər.
Mən sözlər içində yaşayıram, özünəməxsus
bir nağıl sarayı kimi."

**P.Neruda**

Anaların qucağında
Gül qoxulu körpədi söz.
Ürəklərin arasında
Bir qırılmaz körpüdü söz.

O, don geyib insanların
Neçə kövrək duyğusundan.
Eyləyibdir "bidar" bizi
"Xəbi-əcəl" uyğusundan.

Evsizlərə, yurdsuzlara
Söz ev olub, söz kənd olub.
Vətənində qəribsəyən
Bir şirin dilə bənd olub.

İnsanlar ac qarışqa tək
Dadanıb, darışıb sözə.
Nizamilər, Füzulilər
Qaynayıb, qarışıb sözə.

Söz isidir qəlbimizi,
Köz içində yaşayırıq.
Şair sözdən qala tikib,
Biz içində yaşayırıq…

**11.01.1988**

## BU TƏYYARƏNİN YÜKÜ SÖZ

Bu təyyarə göydə uçur,
Bu təyyarənin yükü – söz.
Bu təyyarənin ardınca
Baxır bir cüt gülümsər göz.

Ürəyimdən bir ah qopur,
Boylanıram oğrun-oğrun.
Bu təyyarə qanad çalıb,
Uça o gözələ doğru.

Çatan kimi, qarşısında
Dövrə vurub yerə enə.
İçindəki həsrət dolu
Sözləri boşaldıb, dönə.

Yoxdur özgə bir əlacım,
Durub baxıram qıraqdan.
Oğlum təyyarə düzəldib,
Şeir yazdığım varaqdan…

**27.01.1988**

## ŞAİRLƏR

Adi bir insan ömrünü
Nağıl eləyib şairlər.
Göydən gələn bumbuz qarı
Noğul eləyib şairlər.
Qız alıb, gəlin köçürüb,
Gənclərə buta içirib.
Neçə-neçə ögey dərdi,
Öz köynəyindən keçirib,
Oğul eləyib şairlər…

**1997**

## SÖZ

Sözün də kösövü, külü,
Sözün də közü var imiş.
Gözümün içinə baxır,
Sözün də gözü var imiş.

Söz ürəkdən inciyəndə
Qələmin sözünə baxmır.
Başını salır aşağı,
Heç kəsin üzünə baxmır…

**1997**

## DÜNYANIN ƏN GÖZƏL SÖZÜ

Hazır verilən şərbəti
İçməyin nə ləzzəti var?
Özgəsinin əkdiyini
Biçməyin nə ləzzəti var?

Gərək sevda sorağında
Ürək dönüb bülbül ola.
Gərək ilham zəmisinin
Hər sözü bir sünbül ola.

Zəhmətə könül verənin
Ruzisi fələkdən gəlir.
Sözün toxumu həyatdan,
Şirəsi ürəkdən gəlir.

Söz dediyi vaxt şairin
Ən bəxtiyar anlarıdı.
Sözlər tale qatarının
Xırdaca vaqonlarıdı…

Bürünüb kül yorğanına
İşıqlı közlər uyuyur.
Adi qələmin içində
Qiymətli sözlər uyuyur.

Zəhmət qolunu çırmayıb,
İlhamın borcundan çıxır.
Dünyanın ən gözəl sözü
Qələmin ucundan çıxır…

**1991**

## TƏMİZLİK

“Mənəm” deyənləri zaman mars qoyur,
Sanmayın özümə xəyanət etdim.
Xalq öz övladına pul miras qoyur,
Mən təmiz adımı əmanət etdim.

Suyun nə dostluğu axı od ilə? –
Həyatın qanunu necə sərt imiş!
Çoxu elə bilir təmiz ad ilə
Dünyada yaşamaq müsibət imiş.

Qara bulud kimi yenə dolmuşam,
Acı söz şimşəkdən qorxunc olubdur.
Bu necə zamandır, çaşıb qalmışam –
Təmizlik başıma qaxınc olubdur.

Qalmışam cibkəsən nadan əlində,
Üstümə gör kimlər qıcayıbdı diş?
Sən demə təmizlik onun dilində
Yazıqlıq sözünün sinonimiymiş.

Boyun əyməmişəm dünya malına,
Nadan bu hikməti çətin qanarmış.
Bu qoca dünyada daşın halına
Kəsək ağlayarmış, kəsək yanarmış.

Saymadım, şeytanın ötdüm yanından,
Min sınağa çəkir adamı Allah.
Nə yaxşı, çirkablar burulğanından
Təmiz çıxarmışam adımı, Allah!

**1991**

## ALNIMA YAZILAN YAZI

Alnıma yazılan yazı
Çözələnib ömür oldu.
Ürəyimdə neçə arzu
Kösöv oldu, kömür oldu.

Dağa dəydim, daşa dəydim,
Dərələrdən keçib gəldim.
İnsan nəfəsinə həsrət
Bulaqlardan içib gəldim.

Danladılar, dansıdılar,
Ahım göyə bülənd oldu.
İllər uzun ipə dönüb,
Qollarıma kəmənd oldu.

Ləkə yaxa bilmədilər
Heç zaman təmiz adıma.
Yaman günlər, ehtiyaclar
Döndü mənim ustadıma.

Yoluma sədlər çıxartdı,
Həyat mənə zalım oldu.
“Düz olub düzdə qalmağım” –
Tərcümeyi-halım oldu.

Tükəndi ömrümün yazı,
Xəzan yeli qoparırsan. –
Alnıma yazılan yazı,
Məni hara aparırsan?!

**1991**

## DOĞMA YERLƏRDƏ

İnsan bircə dəfə gələr həyata,
Meyvə bircə dəfə budaqdan qopar.
Oğlum xahiş etdi: – Nə olar, ata,
Məni doğulduğun yerlərə apar.

Düşdük tozlu yola payi-piyada,
Bizə gəl-gəl dedi tanış cığırlar.
Yol boyu ürəyim qalandı oda,
Hər daşda, kəsəkdə bir doğmalıq var.

Dedim ki, seyr elə sən sağı, solu,
Gör ata diyarı istidir necə?!
Oğlum, doğma kəndə doğmanın yolu
Gərək qəbristanın içindən keçə.

Heç zaman unutma sən bu səfəri,
Doğma tək qədəm bas bu ulu yurda.
Qəbristan – kəndimin yaddaş dəftəri,
Nənələr, babalar uyuyur orda.

Qəbirlər sığınıb yamaca, düzə,
Gəl əvvəl onları ziyarət edək.
Sonra da qoşulub bir-birimizə
Doğma evimizə doğma tək gedək.

…Birdən ömür yolum dirəndi dağa,
Gözümdə yaşamaq həvəsi söndü.
Birdən ürəyimdən doğma torpağa
Qarışmaq arzusu şimşəyə döndü.

Uçurum dibində bir vaxtsız ölüm
Nə ömrə baxırdı, nə də ki, yaşa.
Uçrumun başında bir uşaq əli
Mələk əllərinə döndü o axşam.

Yapışdı qolumdan, titrədi səsi,
Yalvardı: – Geriyə qayıt, ay ata!
Uçrumun başından övlad nəfəsi
Təzədən qaytardı məni həyata.

Bir həzin sızıltı keçdi içimdən,
Yenidən başıma qayıtdı ağlım.
Doğulduğum kənddə bir gün içində,
Bəlkə də bir ömür yaşadı oğlum…

**14.08.1989**
**Qubadlı**

## İŞIQLA BAŞ-BAŞA

Təlaş içindədir dostum, tanışım,
Huşum özümdə yox, söz tutmur dilim.
Yarış meydanına çevrilib başım,
Orda qurşaq tutub həkimlə ölüm.

Sən necə şirinsən, dadlısan, həyat,
Gərək həkk edələr adını zərlə.
Çarpışdı, vuruşdu, düz doqquz saat,
Həkim bu döyüşdən çıxdı zəfərlə.

Yenidən həyata qayıtdı xəstə,
İlahi, qəribə tamaşa gördüm.
Gözümü açanda başımın üstdə
İşıqla həkimi baş-başa gördüm…

**18.11.1989**

## BAŞIMA DÜŞƏN AY

Könlümdə baharın şimşəyi çaxdı,
İstədim buludlar üstündə qalım.
Gözüm gah ulduza, gah aya baxdı,
Göylərə üz tutdu səyyar xəyalım.

Yerə yıxılmışam, – bir vaxt gördüm ki,
Həftələr ötüşdü, aylar ötüşdü.
O qədər könlümü aya verdim ki,
Başıma bir para ay əksi düşdü…

**18.11.1989**

## HƏYAT DAVAM EDİR…

İncik salmamışıq bir nəfəri də,
Dost-tanış yanında üzü ki, ağıq…
Ölmədik, biz açdıq bu səhəri də,
Həyat davam edir, çox şükür, sağıq…

**18.11.1989**

## SƏNİN GÖZ YAŞINA QIYMADI TANRI

"Əziz və sevimli müəllimim. Nə yaxşı ki, Sizin kimi insanlar var həyatda. Daha doğrusu, nə yaxşı ki, Siz varsınız! Siz olmasaydınız mən nə edərdim? Kimdən kömək istərdim?"

**Bir qızın məktubundan**

Ağrının gücündən qapandı gözüm,
Ələndi başıma taleyin qarı.
Az qala həyatdan getmişdim, quzum,
Sənin göz yaşına qıymadı Tanrı.

Təzəcə közərən bir işıq kimi
Adicə küləkdən sönə bilərdin.
Sən mayak itirmiş bir qayıq kimi
Daşlara çırpılıb sına bilərdin.

Körpə ürəyini göynədir yüz dağ,
Dərd düyün bağlayıb köksünün altda.
Uçub dağılsaydı güvəndiyin dağ,
Necə yaşayardın sən bu həyatda?!

Ağrının gücündən qapandı gözüm,
Ələndi başıma taleyin qarı.
Az qala həyatdan getmişdim, quzum,
Sənin göz yaşına qıymadı Tanrı…

**19.11.1989**

## DÜNYADAN AYRILMAQ İSTƏMİR ÜRƏK

Nisgilli bir ağrı qopur sinəmdən,
Qarşıda nələr var? – Allah kərimdi!
Uzanıb xərəyə yol gedirəm mən,
Elə bilirəm ki, son səfərimdi…

İti qılıncını sıyırıb ölüm,
Onun zərbəsindən gərək qorxmayam.
Cərrah bıçağının altından, gülüm,
Ya qismət, salamat çıxam, çıxmayam?!

Məni qınayırsız, vallah, nahaqdan,
Sinəmdən boylanır min arzu, dilək.
Ölümdən qorxmuram, oğul-uşaqdan,
Dünyadan ayrılmaq istəmir ürək…

**20.11.1989**

## ŞƏFQƏT BACISI

Gözlərim saçında düşüb düyünə,
Adımı çağırır mehriban səsi.
Üzündə təbəssüm, əlində iynə
Gircək palataya ürəyim əsir.

Ölməyə hazıram əgər öl desə,
Bircə şirin sözü bir ömrü bəzər.
Özü qızılgüldü, iynəsi isə
Ona keşik çəkən tikana bənzər…

**29.11.1989**

## BAĞIŞLA MƏNİ, USTAD

"Yaşamaq səni sevmək kimi ciddi bir işdi…"
**N.Hikmət**

Hiss elədim
bu həyatın boş olduğunu.
Unutdum
yaşamağın sevmək qədər
ciddi bir iş olduğunu, –
Əzrayılla zarafat elədim.
Anamın, sevgilimin ürəyini
çat-çat elədim…
Az qala söndürmüşdülər
ömrümün işıqlarını.
Unutmuşdum ki,
mən də sənin kimi
"Torpaq ananın uşaqlarından çox,
sevirəm öz uşaqlarımı"…
Payız yağışları ələndi
qohum-qardaşın gözündən.
Bağışla məni, ustad,
bir də çıxmaram sözündən…

**30.11.1989**

## XƏSTƏXANA PƏNCƏRƏSİNDƏN SÜZÜLƏN İŞİQ

Ən ümidli,
ən əlçatmaz,
ən iliq –
Xəstəxana pəncərəsindən
süzülən işıq…

Kiminə dünyanın son sözüdü –
İnsan quş kimi
köçəridi, köçəri…
Həyat o işığı
alpinist kəndiri kimi
atıb ki, içəri,
kimin yaşamaq ümidi qalıbsa,
yapışıb ondan qalxsın,
adamlara qarışsın.
O işıq gəlib ki,
alınlarda ana əli olsun,
xəstələrin halını soruşsun.
Ən ümidli,
ən əlçatmaz,
ən ılıq –
Xəstəxana pəncərəsindən
süzülən işıq…

**02.12.1989**

## ÖMÜR YOLU

Ömür –
beşikdən qəbrəcən olan yoldu;
kimi ağlaya-ağlaya, ağrıya-ağrıya
gedir bu yolu,
kimi gülə-gülə, nəşələnə-nəşələnə.
Kimi yol boyu gül dərə-dərə,
kimi eşələnə-eşələnə.
Qaçırıq, tələsirik,
görüləsi işlərimiz
çoxdur hələ.
Az qalır ürəyimiz
ağzımızdan gələ. –
Sancdıqca, ağrıdıqca

ovuduruq onu, deyirik:
–Qadan alım, bir az da döz,
dözümü çox olur doğruların.
Mənzil başına çatan kimi
kəsəcək ağrıların…
"Səksən, doxsan, bir gün yoxsan"…
Ölüm haqqdı…
Ancaq hərənin olur
bir ölüm vaxtı.
Ömür bir yoldu –
biri iyirmi, otuz ilə,
biri qırx, əlli ilə,
digəri daha tez çatır mənzilə.
Bəziləri yaşayırlar
hay-hayları gedib,
vay-vayları qalana qədər.
Özləri özlərinə
göz dağı olana qədər.
Sinələrindən
səhər-axşam qopur
bir yazıq, hüznlü ah: –
Bu nə zülümdü çəkirik,
bizə bir ucuz ölüm ver, Allah!
Dahilərin, qəhrəmanların yolu isə
kəsədi,
nə dincəlir, nə yatır onlar.
Son mənzilə hamıdan əvvəl
çatır onlar.
Uf demədən dözürlər
enişlərin, yoxuşların hər əzabına.
Onlar öləndən sonra da yaşayırlar
qənaət elədikləri vaxtın hesabına…

**02.12.1989**

## QIRX YAŞIM

Ürəyimin
bir üzündə sevinc,
bir üzündə ağrı,
otuz doqquz il idi ki,
gəlirdim sənə doğru,
qırx yaşım!
Astanana çathaçatda
büdrədim yamanca,
sərildim
sinəsində heç nə bitməyən
çınqıllı yamaca.
Sənə yetmək üçün
başım nələr çəkdi;
sevinc də daddım,
kədər də.
Günlərim mənalı da keçdi,
hədər də.
Kiminin toyuna getdim,
kiminin hüzürünə.
Çapıq, üstündə
aypara şəkli çəkilmiş başımı
zorla da olsa,
gətirib çıxara bildim
hüzuruna.
Xoş gördük, qırx yaşım!
Ömrümün qürubu gəlsə də,
Arzumun budağı yaşıl-yaşıl…
Xoş gördük, qırx yaşım,
xoş gördük səni!

**07.12.1989**

## QAYĞILAR

Həyat yollarında
sönürük, alışırıq.
Canımızı qayğılardan
qurtarmağa çalışırıq.
Ağrılara-acılara
dözə-dözə,
qayğısız günlər naminə
özümüzü vururuq
oda-közə.
Ancaq nə yaxşı,
öz qayğısı olur
hər yaşın…
Ömür çaydısa,
onun suyu dərddi,
qayğıdı.
Arzular bu çayın
yelkənli qayığıdı…

**1990**

## BU PAYIZ

Cilovu boşalan
köhlən kimi dartındı,
meşələrin,
bağların üstünə
xəzan cümdü.
Bu payız –
adicə payız deyil,
Bu payız –
mənim qazancımdı…
Dərmanların
qoxusundan sonra

qazanmışam onu.
Dünyanı itirmək
qorxusundan sonra
qazanmışam onu.
Getsəm,
bir daha görə bilməzdim
çiyninə xəzəl qonan
o şux gözəlləri.
Qəbrimin üstünə
tökülə də bilərdi
bu payızın xəzəlləri…

**1990**

## DƏRD

Dərd alay-alay,
dərd bölük-bölük…
Kiçiyin kiçik dərdi var,
böyüyün böyük.
Böyük dərdi
böyük çəkə bilər, ancaq
xırda dərd özü də
ağır bir yükdü –
Kiçiyin dərdi də
özünə görə böyükdü.
Dərdin özgə şeylə işi yoxdu –
onunku qısma-boğmadı.
Dərd namərddi,
ancaq doğmadı…

**01.11.1988**

***

İnsan! – Zəriflikdə çiçək,
sərtlikdə qaya…
O, canlıların ən ağıllısı,
ən sevimlisi, ən qəşəngidi.
İnsan ağ bir
maqnitafon lenti kimi
gəlir dünyaya;
Ömür –
bu lentin üstünə yazılan
nəğmələr,
ağrılar çələngidi…

**01.11.1988**

## ƏBƏDİ ÜNVAN

Qulluq edir hərə bir niyyətə.
Köçümüz – üzü əbədiyyətə…
Dünya qoca,
yol uzun, yolçu cavan…
Hardadı əbədi şəhər,
hardadı əbədi küçə,
hardadı əbədi ünvan?!

**1997**

## GİDİ DÜNYA

Görəsən bu dünyaya
ilk dəfə kim deyib gidi?
Qorxuram dünyamız
böyük bir muzeyə dönə,
nə tamaşaçısı ola, nə gidi…

**1997**

***

Dünyadan dördəlli yapışdığımıza görə
Tanrı bizə sağ ol deyərmi görən?
Həb-həb, iynə-iynə uzadılan ömür yolu
Dözdüyümüz ağrılara dəyərmi görən?!

**1997**

## İNDƏN BELƏ

Gözəllərə oğrun-oğrun baxardım,
Bilən bilir, mənim yarım qısqancdı.
Ürəyimdən nigarandım, qəflətən
Zillət çəkmiş başım sancdı, nə sancdı?!

Gözlərimin qabağını tutdu çən,
Saçlarıma səpələndi yeni dən,
Doymadığım bu dünyaya yenidən
Xəstəxana xərəyində göz açdım.

Acı qəhər kilidləyib dilimi,
Dost-tanışa uzadıram əlimi.
Pəncəsindən xilas oldum ölümün,
İndən belə nə yaşasam, qazancdı…

**13.12.1989**

## ZARAFAT

Yaram sancdı, ufuldadım,
Qəflətən halım dəyişdi.
Tibb bacısı gələn kimi
İynəyələ qolumu deşdi.
Bir təbəssüm mənə bəsdi,
O getdi, yanları əsdi.
Başımın ağrısı kəsdi,
Ürəyim ağrıya düşdü…

**1989**

## BELƏSİ

Ağrılar artanda gözlərində qəm
Başımın üstündə dura beləsi.
Bir yol qımıldanıb, uf da deməręm,
Vuranda iynəni vura beləsi.

Qılıncı sıyırıb gəlir qarlı qış,
Həsrəti qəlbimə salıb yüz naxış.
Həyat yollarında uçub dağılmış
Sevgi sarayımı qura beləsi.

Süzürəm boyunu mən altdan-altdan,
O qamət, o duruş çıxarmı yaddan?
Ürəyində həsrət qohumdan, yaddan
Soranda, halımı sora beləsi.

Qaşları çəkilə yenə yay kimi,
Sinəmin üstündən axa çay kimi,
Başımın üstündə yana ay kimi,
Qərq edə ömrümü nura beləsi.

Üzü ay parçası, gözləri ülkər,
Söz desən, bir körpə cüyür tək ürkər,
Minib qamçılaya səhərə qədər,
Sevgi köhlənimi yora beləsi…

**14.12.1989**

## DİNCLİYİMİ ƏLDƏN ALIB BU DURNA KÖÇÜ

Dincliyimi əldən alıb bu durna köçü,
Bir yandan da şux gözəllər baxıb can alar.
Duyğulu bir insan kimi yaşamaq üçün
Gərək sevən ürəyində həyəcan ola.

Aylar ötər, illər ötər, ömür sozalar,
Nə iş görsə, ağızlarda dönüb söz olar,
Çor deyənə can söyləsən, nəyin azalar? –
Aşıq demiş: pis sözümüz gərək "can" ola!

Ömür keçir, yaratmağa, qurmağa tələs,
Bir-birinə tələ qurmaq əbəsdir, əbəs.
Sözlərimə lağ eləyib, ağız büzən kəs,
Çox demirəm, elə mənim yarımcan ola.

Ömür yolun sıldırıma tuş olsun niyə?
Şam tək əri, qəlbin qızıl quş olsun deyə,
O dünyaya köçən zaman yaşasın deyə,
Bu dünyada şair gərək yarımcan ola…

**23.01.1989**

## ÜRƏYİMƏ GİLEY MƏKTUBU

Ürəyim, əllərin çiçək dərəndə
Elə sevindin ki, dağıldı huşum.
Onu işə saldın gözəl görəndə, –
Sənin ucbatından nə çəkdi başım?

Dəlilik elədin, dayandım üzə,
İzim qalsın deyə, mən ağac əkdim.
Ağlım ha yalvardı, baxmadın sözə,
O, arana çəkdi, sən dağa çəkdin.

İnlədin, sızladın gözəllik üçün,
Yapışdın əlimdən, mən göz açandan.
Tovladın, tovladın, axırda bir gün
Sən məni uçurdun "Dəvəuçan"dan…

Cərrah bıçağının düşdüm altına,
Köksümdə sızladın, fəğan qopardın.
Mindim əzrayılın köhlən atına,
Ağlımı başımdan ağrı apardı.

Çox sağ ol, dostunun qədrini bildin,
Qalmadı gözümdə arzum, diləyim.
Ağır günümüzdə haraya gəldin,
Qoymadın başımı darda, ürəyim.

Dözdün, bu dözümə heyran qalmışam,
Sən mənim ömrümə oldun keşikçi.
Axır ki, gözümü açdım bir axşam,
Məni tələsdirdin evçin, eşikçin…

Başım çətin çıxa sənin felindən,
Sehrli alov tək elə yanırsan.
Bilmirəm neyləyim sənin əlindən
Ürəyim, yenə də qımıldanırsan…

**23.11.1989**

## BU DÜNYANIN DƏRDLƏRİNƏ VURULDUM

Bu dünyanın dərdlərinə vuruldum,
Köksümdəki ürək dəli ozandı.
Ömrüm boyu hey bulandım, duruldum,
İstəyimə çəpər çəkdi öz andım.

Soldursa da çiçəyimi, gülümü,
Şaxta iflic edəmmədi dilimi.
Nə günahı qələm tutan əlimin? –
Ürəyimin dediyini yazandı.

Ömrü yaman qısa oldu atamın,
Səbəb yoxdu bir kimsədən utanım,
Heç olmadı bir əlimdən tutanım,
Mən hər şeyi dırnağımla qazandım.

Vaxt oldu ki, taleyimdən küsdüm də,
Öz ömrümə özüm dodaq büzdüm də.
Bu qayğılar ocağının üstündə
Elə bil ki, başım qaynar qazandı.

Yaşadıqca yaş üstünə yaş artdı,
Dost itkisi gözlərimi yaşartdı.
Bu dünyada məni ümid yaşatdı,
Ömrün şirin əzabları uzandı…

**11.01.1991**

## KAĞIZ-KUĞUZ ARASINDA

Ağlıma bir söz gələndə
Sevincimdən nəşələndim.
Ömrüm boyu kağız-kuğuz
Arasında eşələndim.

Saralıb-solmuş vərəqlər
Hey özünə çəkdi məni.
Əsrlərin toz-torpağı
Ciyərimə çökdü mənim.

Xalqımı kimsəsiz gördüm,
Qan çiləndi gözlərimə.
Ağ kağızlar kəfən oldu
Ümid dolu sözlərimə…

**1992**

## ŞEİR DƏFTƏRİMİ GÖRDÜM YUXUDA

Tüstüyə, alova vurdum özümü,
İncidi babamın təmiz ruhu da.
Pul-para düşünüb yumdum gözümü,
Şeir dəftərimi gördüm yuxuda…

Onun hüzuruna oğlanlar, qızlar
Məni qolubağlı aparırdılar.
Küləklər əsdikcə, dümağ kağızlar
Bir ağ yelkən kimi qabarırdılar.

Məndə qalmamışdı daha bət-bəniz,
Qudurmuş dalğalar şahə qalxırdı.
Ayağım altında dalğalı dəniz,
Başımın üstündə şimşək çaxırdı.

Tufan bürüsə də bu gün hər yanı,
Dənizdə qərq olan bir nəfər idi.
Bu coşqun dəryanın, qorxunc dəryanın
Ləpəsi yüzlüklər, minliklər idi.

Buluddan sıyrılıb nur çilədi Ay,
Zülmətin qoynunda itən tapıldı.
Dənizdə batırdım, çəkirdim haray,
Yaxşı ki, dadıma yetən tapıldı.

Başladı dünyaya yeni səfərim,
İlhamım bənzədi göydə laçına.
Döndü bir qayığa şeir dəftərim,
Qələmim çevrildi dor ağacına.

Elə ki, başımı dumanlar aldı,
Gah bəmə meyl etdim, gah zilə çıxdım.
O qorxunc dalğalar arxada qaldı,
Üzüb bir çiçəkli sahilə çıxdım…

**1993**

## YAŞAMAQ

Yuyar izimizi tufanlar, sellər,
İnsan eləyibdir bizi yaşamaq.
Yaş üstə yaş gəlir ötdükcə illər,
Dünyanın ən gözəl sözü – yaşamaq.

Gedənin dalınca yazıb qəsidə,
Şairlər Allahın bəlası imiş.
Sevirəm sözü də, ana sözü də
Yaşamaq sözünün balası imiş…

Ondan doğulurmuş yaratmaq eşqi,
Onsuz sevməzmişik torpağı, daşı.
Yaşamaq elə bir ağac imiş ki,
Qoşa budağıymış sevinc, göz yaşı.

Onun övladıymış ayrılıq, həsrət,
Kainat bir həyat bulağı imiş.
Ömrünü yaradıb qurmağa həsr et,
İnsan bu dünyanın qonağı imiş.

Adamı tutduğu əməl yaşadır,
Nə ağaran saça, nə də yaşa bax.
Dünya başdan-başa bir tamaşadır,
Bizə də qismətmiş orda yaşamaq.

Neçə kövrək arzu qaldı gözümdə,
Öz tutduğum yoldan çətin ki, dönəm.
Gəzə bilirəmsə bu yer üzündə,
Deməli dünyanın xoşbəxti mənəm…

**1991**

***

Nadanların gözündə
Mən pislərin pisiyəm.
Qəbirlərdən boylanan
Həyatın nəfəsiyəm.

Daşa dönüb qəlbim də,
Məni söymə qəlbində.
Sevənlərin qəlbində
Yaşamaq həvəsiyəm.

Əyildin, dünya, sın da!
Məzardı dünya sonda.
Bu yalan dünyasında
Sədaqət ölçüsüyəm.

Həqiqət var sözümdə,
Haqq nuru var üzümdə,
Mən şeytan məclisində
Tanrının elçisiyəm…

**1996**

## UTANIR

Dadmışam hər nemətindən
Söz deməyə sim utanır.
İlahi bir məhəbbətin
Önündə tilsim utanır.

İllər ötüb, ömür yarı,
Çoxalıb saçımın qarı,
At oynadan nadanları
Görəndə səbrim utanır.

Ay aman, halım dəyişdi,
Saçlarıma qırov düşdü,
Allah, Allah, bu nə işdi? –
Kim öyünür, kim utanır?!

Bəxtimdən küsürəm hərdən,
Qəm gözümə tutur pərdə,
Təmtaraqlı qəbirlərdən
Gələcək qəbrim utanır…

**1996**

## DAHA

Dadmışam hər nemətindən,
Dünya, gözüm toxdu daha.
Tikanların çox böyüyüb,
Hərəsi bir oxdu daha…

Etdin məni qaranəfəs,
Ta qalmayıb məndə həvəs,
Boğazımdan çıxan nəfəs,
Nəfəs deyil, ahdı daha.

Enmədim bir adama da,
Tikəmmədim bir koma da,
Tale ülkərim səmada
Öləzidi, axdı daha.

Yaşardı, gözlərim doldu,
Üstümü duman, çən aldı.
Nə qaldı keçmişdə qaldı,
Gələcəyim yoxdu daha…

**1991**

## QALIB

Bu get-gəllər bazarında
Ucuz gedib, baha qalıb.
Hey köksümü ötürürəm,
Gümanım bir aha qalıb.

Oğlum acıb, qızım acıb,
Dilənimmi mən əl açıb?
Xəyal saraylarım uçub,
Yeri batıq, kaha qalıb.

Ağır bir yük götürmüşəm,
Hey köksümü ötürmüşəm,
Mən başımı itirmişəm,
Gümanım Allaha qalıb.

## ON İKİ DEKABR

Kimliyimə baxmadılar,
Ciblərimi yoxladılar.
Öz başımdan axan qanla
Məni yerə mıxladılar.

Namərdlər at oynatdılar,
Sinəmdən qopdu odlu ah.
Tutub sənin ətəyindən
Yerdən qalxa bildim, Allah!

Yuyunub ay işığında,
Üzümü tutdum üzünə.
Gördün ürəyim təmizdi
Qüvvət gətirdin dizimə.

Durdum ölüm uyğusundan,
Nəm torpaqdan qalxa bildim.
Başımdan qan axa-axa
Sıldırımı çıxa bildim.

**1993**

## HALAL QANIM ÇAĞLADI Kİ…

Kövrək-kövrək duyğuları
Nadanlar tapdadı, əzdi.
Mənim təmiz üst-başımda
Çirkli-çirkli əllər gəzdi.

Ürək dözmədi bu dərdə,
Tutuldu göylərin üzü.
Halal qanım çağladı ki,
Yuya bilsin murdar izi…

**1993**

## AY İŞIĞI

**Qarsia Lorkaya**

Namərdlər hiylə qurdular,
Məni etdilər yolumdan.
Vurub sərdilər torpağa,
Ay işığı, tut qolumdan.

Səndən başqa kimsənəm yox,
Bu hicra, dalda guşədə.
Kömək elə, qaldır məni,
Evdəkilər əndişədə.

Gözümə zülmət çökəndə
Sən üstümə nur səpmisən.
Huşum başımdan gedəndə
Qanlı alnımdan öpmüsən.

Sığallamısan saçımı
Dönüb sevgili yarıma.
Huşum gedib, sən şam kimi
Yanıb, hopmusan yarama.

Bu kimsəsiz xiyabanda
Məni tənha qoymamısan.
Qəlbi ay nuruyla dolu
Bir şairə qıymamısan.

Ay işığı, tut qolumdan,
Yaxşılığın dili laldır.
Sıldırımın ayağından
Məni düzənliyə qaldır.

Yolum dirənib yamaca,
Qan içində üstüm-başım.
Səndən başqa bu kolluqda
Nə dostum var, nə tanışım…

**17.12.1993**

## YAYLIM MÖVSÜMÜ

Yazda başlayardı yaylım mövsümü,
Gəzib kövşənləri ot arardıq biz.
Qatıb mal-qaranı qabağımıza,
Gecə səhərəcən otarardıq biz.

Qorxuya düşsək də har şıqqıltıdan,
Bu yaz gecəsində ürək coşardı.
İnəyin, camışın məməsində süd,
Bizim sinəmizdə sevgi daşardı.

Bir dilsiz sevdanın sorağı ilə
Gecə səhərəcən inləyərdik biz.
Salıb içimizə öz səsimizi
Gövşək səslərini dinləyərdik biz.

Ay nura qərq etdi onda ruhumu,
Əsdi səba yeli, vədə yetişdi.
Bəlkə də qəlbimə sözün toxumu
O yaz gecəsinin birində düşdü.

Mahnı oxuyardı arabir quşlar,
Hərdən üstümüzə yağış yağardı.
Sıyrılıb gecənin qaranlığından,
Bizim bəxtimizə günəş doğardı…

**1991**

## O QƏDƏR ÖPDÜM Kİ…

O bəxtiyar günlərim yadımdan çıxan deyil,
Nəğməkar şəlalələr kamanım, tarım idi.
Öz kasıb komamızda milyonçuydum elə bil,
O dərələr, o dağlar dövlətim, varım idi.

Ürəyim od alardı lalələrin közündən. –
Ay dolandı, il ötdü, saçlarıma ağ düşdü.
O qədər öpdüm ki, mən bulaqların gözündən
Qismətimə onlardan ayrı yaşamaq düşdü…

**1991**

## ÖMÜR KEÇİR

Ömür boyu qayğılarla durduq üz-üzə,
Bu dünyada uşaqlığın yoxmuş əvəzi.
İldən-ilə adiləşir həyat da bizə,
Heç adamın yaşamağa gəlmir həvəsi.

Eləsi var, haqqı yoxdur, ancaq haqq umur,
Ona görə başımıza dünya dar olur.
Saymazyana tapdayanda biri haqqımı,
O birisi qahmar çıxır, havadar olur.

Ömür keçir, narazıyam özüm-özümdən,
Hələ incik salmamışam bir uşağı da.
İnsanlardır bu dünyanı salan gözümdən,
İnsanlardır bu dünyanın yaraşığı da…

**04.01.1990**

## MƏNİM BALALARIM

Əzabla yoğurub həyat xəmrimi,
Dərd məni qocaldıb, deyiləm uşaq.
Mənim balalarım – mənim ömrümün
Üstündən boy alan üç kövrək budaq.

Qəlbim sevgi ilə yoğrulan gündən
Qışım da çevrilib yaza dönübdür.
Mənim balalarım doğulan gündən
Ürəyim üç telli saza dönübdür.

Biri o birindən ağıllı, qəşəng,
Ömrümü arzuyla bəzəyir onlar.
Nağılın sonunda göylərdən düşən
Üç qızıl almaya bənzəyir onlar.

Mənim balalarım! Ulu dünyada
Yaşaya bilməyir insan kamınca.
Hərdən sözlərimi salarsız yada,
Həyatın qanunu sərtdi yamanca.

Heç zaman, heç zaman siz unutmayın,
Sevgiylə yoğrulmuş ömür bahardır.
Ata şərəfini ucuz tutmayın,
Atasız gen dünya başıma dardır.

Şəvə saçlarıma düşüb indi dən,
Qarsız görmüsüzmü uca dağı siz?
Həyat amansızdır, elə indidən
Öyrəşin atasız yaşamağı siz…

## ELƏ YAŞA

Bir az tələs, imkan varkən gəz bu çölləri,
Əyil yerə, dərilməmiş gülləri qoxla.
Sovuracaq yarpağını xəzan yelləri,
Hara gedib çıxacaqsan sən bu ayaqla?

Şəvə kimi saçlarına zaman iz salıb,
Ömür keçir, çalış çox şey görə biləsən.
Elə yaşa, qocalanda xəyala dalıb,
Xatirələr çiçəyini dərə biləsən.

**1991**

***

Dərd mənim qəlbimi elə deşib ki,
Hazıram ən ağır ölümə daha.
Qələmim o qədər ağırlaşıb ki,
Götürə bilmirəm əlimə daha…

## İZİN QALSIN

Elə yaşa, bu dünyadan
Özün getsən, sözün qalsın.
Tarixlərin yaddaşına
Həkk edilən səsin qalsın.

Günlərini vermə yelə,
Arzuların gəlsin dilə,
Yanıb, yanıb dönmə külə,
Ocağında közün qalsın.

Sərt qaya ol sel içində,
Hörmət qazan el içində,
Elə yaşa, sən köçəndə
Bu torpaqda izin qalsın…

***

Sən ömrünün bu çağında
Uyu, xəyal qucağında.
Öləziyən ocağında
Alışmağa közün qalsın.

Ayaq tutub yeriməz daş,
Heç özünü etmə təlaş,
Dalaşanda elə dalaş,
Barışmağa üzün olsun.

Lovğalanma ucalanda,
Cavanlıqdan güc alanda,
Elə yaşa, qocalanda
Danışmağa sözün olsun…

**1991**

## BİZ TƏZƏDƏN DOĞULURUQ

Həyat sirdi, möcüzədi,
Doğuluruq, ölürük biz.
Kim bilir, neçənci dəfə
Bu dünyaya gəlirik biz?

İlk dəfə getdiyimiz yer
Bizə tanış gəlir hərdən.
Düşünürük: nə zamansa
Yaşamışıq biz bu yerdə.

Yaddaşımız ulduzlar tək
Arabir sayrışır, sönür.
Baş açmırıq özümüzdən,
Həyat möcüzəyə dönür.

Ruhumuz həmin olsa da,
Adımızı dəyişirik.
Ayağımız yer tutandan
Çarpışırıq, döyüşürük.

Qanımız o qan deyilsə,
El qədrini nə bilərik?
Biz yaddaşı itirilmiş
Koroğlular, Nəbilərik.

Hər gedəndə qəmli-qəmli
Köksümüzü ötürürük.
Hər gələndə özümüzlə
Təzə arzu gətiririk…

**1991**

## ÖTƏN GÜNLƏR – GƏLƏN GÜNLƏR

Biz dünyanın sevincini duymazdıq qəti,
O günlərə gün çatarmı? – Gözün dolubdur.
Əzəl gündən köhnə yurdun qədir-qiyməti
Təzə yurdda insanlara əyan olubdur.

Ən gözəl gün qabaqdadır, – deyirdik hələ,
Sanırdıq ki, cəhənnəmdi bizim ev-eşik.
O qayğılar, o gileylər içində belə
Deməyəsən biz dünyanın xoşbəxtiymişik.

Ömür boyu tələsmişik, bilmirəm neçin?
Aylarımız, illərimiz dönüb ağ yelə.
Gələcəyə can atırıq xoş günlər üçün,
Ən dəhşətli günümüz də öndədir elə.

## QİSMƏT

Bu insanlar tələsiblər, qaçıblar,
İnləyiblər Allahın var günündə.
Sızqa suyun qabağını açıblar,
Bənd çəkiblər coşqun çayın önündə.

Cəfakeşlər sakitcə ah çəkiblər,
Sevənlərin ürəyinə dərd düşüb.
Sızqaların önündə arx çəkiblər,
Coşqunların qismətinə bənd düşüb…

**1989**

## AĞ VƏRƏQLƏR

Ağ qalmış vərəqlər,
nə vaxt bəxtiniz açılacaq?
Ya qismət,
üstünüzə nə yazılacaq?
Siz ömrünüz boyu
yazıya həsrət qala,
saralıb sola da bilərsiniz.
Bir qocanın vəsiyyətnaməsi,
bir gəncin sevgi dolu
məktubu da ola bilərsiniz.
Üstünüzdəki yazıya görə
sizi sata da bilərlər,
gərəksiz bir şey kimi
zibil yeşiyinə
ata da bilərlər.
Ağ qalmış vərəqlər,
darıxmayın,
nə vaxtsa ürəyiniz
sözlə dolacaq.
Alnınıza yazılan yazı
taleyiniz olacaq…

**1989**

## AĞ KAĞIZLA ÜZ-ÜZƏ

Qələmimə əsa kimi söykənib,
Kağız üstə alışmışam, sönmüşəm.
Ürəyimdə deyilən söz tükənib,
Özüm də bir ağ kağıza dönmüşəm.

Qanad çalıb sonalara qoşulsam,
Göllərimə üzmək üçün qu gələr.
Bir gözəllik sevdasına tuş olsam,
Ürəyimin çeşməsinə su gələr.

**1990**

## BİR ÖMRÜN XƏRİTƏSİ

Əllər boş dayana bilməz,
Hey yaradar, qurar, tikər.
Əllər bir cüt əsgər kimi
Ömrün keşiyini çəkər.

Taleyin dilsiz çayları
Ovcumda çağlayar, axar.
Falçı fala baxan zaman
Ovcumun içinə baxar.

Əl yaradanda göz gülər,
Əl yaradanda üz gülər.
Bir ömrün xəritəsidi
Əl içindəki cizgilər…

**1990**

## DİL AÇAN VƏRƏQLƏR

Oturmuşam taleyimlə diz-dizə,
Gözəl sözlər yenə məndən gen düşüb.
Dayanmışam ağ kağızla üz-üzə,
İşığından saçlarıma dən düşüb.

Bilirəm ki, onlar ömrü uzunu
Gözlərini gözlərimə dikəcək.
İçimdəki düşüncəni, arzunu
Maqnit kimi öz üstünə çəkəcək.

Yoğrulacaq ürəyimin qanıyla,
Ağ kağızlar laləzara dönəcək.
Fəxr edəcək ömrün ötən anıyla,
Lal vərəqlər danışacaq, dinəcək…

**1990**

***

Napakların arasında olsa da,
Ürəyinə sevgi düşən pak qalar.
Hücum çəkən girə bilməz içəri,
Sevən qəlbim yaranışdan – pak qala.

Öləziyib ötən eşqin közləri,
Yol gözləyir sevgilimin gözləri.
Ona sevinc vəd etsə də yüzləri,
Qəlb istəyir öz dərdiylə tək qala.

Bu qaydadır, barmaq yalar bal tutan,
Yazıq ağac, nə diləsin baltadan?
Gözlərini şöhrət tutan, pul tutan
Gədələr var, salam vermir saqqala.

Qəm sayrışır bəbəyimdə, gözümdə,
Haqq nuru var işıldayan közümdə,
Həqiqətdir amalım da, sözüm də,
Haqsıza bax, istəyir ki, haqq ala.

Nə vaxtdandır düşüb haray-həşirə,
Nadan məni istəyir ki, bişirə.
Ömrüm boyu baş əymədim bir şirə,
Dünya, məni yem eləmə çaqqala!

**1996**

## ŞAİR ÖMRÜ

Ağ vərəqlərim qara torpaqdı,
Düşüncələrim sarı yarpaq.
Küləklərə dikmişəm
gözümü.
Özüm də bir ağacam,
silkələyirəm özümü…

**1977**

## YARPAQ

Bir yaşıl nəğmə idik
dodaqda,
Bir sarı haraya dönmüşük
budaqda.
Qoca dünya,
canımızda təpər varkən,
qoy bərk tutaq əllərindən.
Çox yarpaq əllər üzülüb,
sənin budaq əllərindən.

**23.04.1977**

## KROSS YARIŞI

Bəbəklərim bərəlib,
ürəyim həyəcanla dolu.
Düşüncələr içində baxıram
kross yarışına.
Düşünürəm:
Kross yarışıdı şeir yolu,
Hamının nəfəsi çatmır
yetsin mənzil başına…

**1977**

## 1950 ILDƏN SONRA

Bu dünyanın
otundan, çiçəyindən,
quşundan, böcəyindən,
dərəsindən, dağından,
çayından, bulağından,
soyuğundan, istisindən,
dumanından, tüstüsündən,
qışından, yazından,
yayından, payızından,
sevincindən, kədərindən,
axşamından, səhərindən
xəbərim olmayıb 1950 il.
Hələ ki, yaşayıram,
ancaq ömür əbədi deyil.
Əvvəl-axır
bir gün öləcəyəm.
Bəlkə də ölümümdən
1950 il sonra
dünyaya yenidən gələcəyəm? –
Kim bilir?!

**04.04.1984**

## DÜNYANIN ƏN GÖZƏL ÜZÜ

Bəzən heç nədən
olmur korluğum;
Yaddaşımın budağından
dəymiş meyvə kimi
tökülür fikirlər.
Bəzən də gizlincə baxıb
gizlənən gözəllər kimi

gizlincə baxıb çəkilir fikirlər.
Yanıb-sönür gözəl bir çöhrə.
Nə illah eləsən qayıtmaz,
nahaqdan yorma özünü.
O, sənə bir daha göstərməz
dünyanın ən gözəl üzünü…

**1977**

## BİZƏ NƏ?

İnsanın dünənki səhvlərini
əfv eləyir zaman.
Qəlibə sığan ömürləri
məhv eləyir zaman.
Sökülür tramvay xətləri
yavaş-yavaş. –
Bizə nə, qardaş? –
Davam et yoluna!
Vay tramvay
ömürlülərin halına!

**1977**

## ŞEİRSİZ GÜNLƏRİM

O ağrılar, sızıltılar qopmur sinəmdən,
Ötüb gedir günüm, ayım sakit, ahəstə.
Sudan çıxmış bir qayığam elə bil ki, mən
Mürgü vurub uyuyuram qumların üstə.

Məhəl qoymur sahildəki qayığa heç kim,
Vaxt olur ki, qum üstündən qalxmağım gəlir.
Bəs hardadır mənim fikir sərnişinlərim? –
Dalğaların qucağına çıxmağım gəlir.

**1978**

# BU DÜNYA BİR NAĞILDI

## DEDİLƏR

Doğma evə sanki yadam,
Ögeyə dönərmiş adam.
Kənd həmin kənd, hanı atam? –
Təskinlik tap, döz, – dedilər.

Keç kəndin hər bucağından,
Bezmə onun bu çağından.
Sizin nəslin ocağından
Tükənərmi köz? – dedilər.

Qartal öyünər dağ ilə,
Çay tükənməz axmaq ilə,
Gözəlliyə baxmaq ilə
Yorularmı göz? – dedilər.

Yeridikcə yavaş-yavaş,
Dilə gəldi hər qaya, daş.
Axı nədir ki, otuz yaş? –
Yaşayasan yüz! – dedilər.

Necə doğmadı bu dağlar?!
Necə kövrəkdi budaqlar?!
Kəndimizdəki bulaqlar
Sağlığıma söz dedilər…

**02.01.1980**
**Qubadlı**

## ATAMIN MİNDİYİ ATLAR

Kənddə onu at keçməzdi,
Yaman qoçaq ürgə idi.
Ancaq bir az bu çər dəymiş
Dingiş idi, hürkək idi.

Minilməkçün yaranmışdı,
Güc-bəlayla yüklənərdi.
Bir şaqqıltı gələn kimi
Qulaqları şəklənərdi.

Atamın mindiyi atın
Gözü sanki almaz idi.
Atamın mindiyi ata
Qamçı gərək olmaz idi.

Dəyməzdi atın xətrinə,
Cilovunu boşlayardı.
Qəribəydi, o, atların
Dəlisini xoşlayardı.

Yaxına da buraxmazdı
Onun atı yad adamı.
Cıdırlarda, yarışlarda
Sındırmazdı at atamı.

Atam yəhərə qalxanda
Deyərdin bəs qızıl quşdu.
Atamın mindiyi atı
Keçən at doğulmamışdı.

Zaman atamın ömrünü
Öz əlinə dəstələdi.
Atam atdan düşən kimi
Azar onu üstələdi…

**1977**

## ATA QƏBRİ

Neçə il yanmağa odun çatardı,
Bəs niyə belə tez sönmüsən, ata?!
Qəlbində günəşin istisi vardı,
Soyuq baş daşına dönmüsən, ata!

Yetimə daş atmaq deyildir hünər,
Nadanlar güləndə duyğularıma –
Qəbrin bir yelkənli qayığa dönər,
Ay ata, hey üzər yuxularıma…

**1977**

***

Hönkür-hönkür ağlayardıq, unutmaram o günü,
Üç ildir ki, torpaq üstə qəbrin olub daş ada.
Göz yaşları quruyubdur, zaman verib hökmünü,
Sənin qəlbin torpaq olub, mənim qəlbim daş, ata…

**1977**

***

Sənə də çatacaq növbə bir zaman
Neçə ki, dirisən, bulaq tək çağla.
Vədəli, vədəsiz getsəm dünyadan,
Sən mənə ağlama, özünə ağla.

Gec-tez tərk eləyib qaynar həyatı,
Müqəddəs torpağa qarışır insan.
Pislər alaq otu olub boy atır,
Yaxşılar gül olub qalxır torpaqdan…

**1975**

## ANA QƏBRİNDƏN QOPAN AH

**Afərim nənəmin xatirəsinə**

Üzlərdə qəm buludu, gözlər yaşlı, kölgəli,
Sanki ana qəbrindən qopdu yanıqlı bir ah:
–Görəsən hansı balam çiyinlərdə yol gəlir,
Torpaq olan gözlərim yenə yol çəkir, Allah?!

**1987**

## ÖLÜMƏ

Üstümüzə qapqara kölgəni salacaqsan,
Biryolluq kəsiləcək nur payımız günəşdən.
Bilirəm, əlimizdən hər şeyi alacaqsan,
Ancaq bir an soyumur bizim əlimiz işdən.

Çox görmək istəyirik, tələsmirik ölməyə,
Sənə dünyanı görmüş gözlər hazırlayırıq.
Biz səni sevməsək də, qulluğuna gəlməyə
Ləyaqətli oğullar, qızlar hazırlayırıq…

**1987**

## AĞRI

Ürəyimiz, böyrəyimiz –
bədənimizdəki
hər hansı bir üzv
ömrümüz boyu
təmənnasız
xidmət edir bizə.
Yalnız onlardan
biri ağrıyanda

yadımıza düşür ki,
bu ürək, bu ciyər,
bu əl, bu barmaq…
bizimki imiş…

**1987**

## ÖMÜR OCAĞI

Ömrümüzün sonunacan
Sinəmizdə yansın gərək. –
Alovu qan, şöləsi qan
Bir ocaqdı elə ürək…

**1987**

## BU DÜNYA BİR NAĞILDI

Babam saray uydurdu
Torpaq mağarasında.
Ömrümüz körpü oldu
“Var”la “yox” arasında.
Həyat xoş arzulardan
Bizə çələng toxudu,
Biri varıdı,
Biri yoxudu…

Ömür bir göz qırpımı,
Ömür bir qısa andı.
Məhəbbət atəşində
Kərəm qovruldu, yandı.
Göydəki ulduz deyil,
Sevənlərin ahıdı.
Biri varıdı,
Biri yoxudu…

Dünən danışan, gülən
Oğullar, qızlar hanı?
Bu dünya bir nağıldı,
Biz nağıl qəhrəmanı.
Ömür də bir uyğudu,
Ömür də bir yuxudu.
Biri varıdı,
Biri yoxudu…

**1989**

## BƏXT ÜLKƏRİ AXTARIRIQ

Görünməyən tellər ilə
Bağlanıbdır qollarımız.
Can atsaq da irəliyə,
Düyün düşüb yollarımız.

Hey bənzəyir bir-birinə
Axşamımız, səhərimiz.
Bu dünyanın işlərindən
Sanki yoxdu xəbərimiz.

Xəzan yeli müntəzirdi
Gülümüzü soldurmağa.
Qayğılardan vaxtımız yox
Başımızı qaldırmağa.

Bəxt ülkəri axtarırıq
Bu dünyanı gəzə-gəzə.
Ulduzlarsa başımızın
Üstündə göz qoyur bizə…

## HƏR ÜRƏYƏ ÖZÜ BOYDA

Sevincsiz, dərdsiz ürəyi
Tanrı qəlb hesab eləməz.
Bapbalaca uşaq qəlbi
Böyük dərdə tab eləməz.

Bir addım gedər qabağa
O, hər dəfə döyündükcə.
İçində sevgi böyüyər
Ürəyimiz böyüdükcə.

Sanmayın ki, verdiyini
Allah ona hədər verər;
Hər ürəyə özü boyda
Sevinc verər, kədər verər…

**1992**

## OLMAZ

Kök üstündən ucalmırmı budaqlar?
Bu qaydadır, qış getməsə yay olmaz.
Dağ döşündən çıxan ayna bulaqlar
Bir-birinə qovuşmasa, çay olmaz.

Möcüzədir təbiətin qucağı,
Var hər şeyin öz vədəsi, öz çağı.
Ha gur yansın, nə faydası, ocağın
Közü ulduz, özü günəş, ay olmaz.

Könül açmır həyatın hər pilləsi,
Mərdə dəyir həmişə söz gülləsi.
Yüz il keçə, min nadanın kəlləsi
Bir dahinin dırnağına tay olmaz.

Gedə bilmir, cahil üçün yol açıq…
Neyləməli, yox bu dərdin əlacı.
Qəpik deyil, dilənəsən əl açıb,
Mərifətdən, qanacaqdan pay olmaz…

**1980**

## DÜŞMÜŞÜK HAQQIN DALINCA

Bizi günəş yandıranda
Sərin bir kölgə gəzirik.
Yurdumuz od içindədi,
Abad bir ölkə gəzirik.

Ehtiyaclar başımızın
Üstündə dönüb qılınca.
O, atlıdır, biz piyada,
Qaçırıq haqqın dalınca.

Günəş batır, zülmət çökür,
Dərddən, qəmdən yatammırıq.
Biz getdikcə, haqq da gedir,
Heç vaxt ona çatammırıq…

**1992**

## GƏRƏK

**Balalarıma**

Atanız çiçəkdi, ananız arı,
Zaman yel qanadlı, ömür-gün yarı.
Sizin ömrünüzün odur memarı,
Sevəm, ananızı oxşayam gərək.

Bezsəm də dünyanın dərdi-sərindən,
Özüm heç, düşündüm bir az dərindən,
Bir ömür nədir ki, çiyinlərimdə
Üç ömrün yükünü daşıyam gərək.

Ömrümə göz dikib üç gözəl uşaq,
Mən getsəm, onları göynədər bu dağ,
Ömrümdən boy alan üç yaşıl budaq, –
Sizin xətrinizə yaşayam gərək.

Neyləyim, əlimdən nə gəlir daha,
Meylimi salmışam ota, yarpağa.
Babalar baş qoyan ulu torpağa
Siz ata olanda baş qoyam gərək…

**1984**

## MƏNDƏN SONRA QALAN DÜNYA

Göz açmışam qucağında,
Ay boşalan, dolan dünya.
Köz olmuşam ocağında,
Məni oda salan dünya.

Düzlərin var ətir saçan,
Qızların var, ürək açan,
Yaz gələndə çiçək açan,
Payız vaxtı solan dünya.

Gah ağlar, gah gülər oldun,
Gələnlərlə gələr oldun,
Ölənlərlə ölər oldun,
Qalanlarla qalan dünya.

Taleyindən razımısan?
Torpaqmısan, qızılmısan?
Oğlumunsan, qızımınsan
Məndən sonra qalan dünya…

**1983**

## BU DÜNYA

Nəğmə de, neçə ki, sağsan,
Bir gün sən də susacaqsan.
Neyləyirsən qızıl teşti,
İçinə qan qusacaqsan?!

Daş üstündə daş qalmadı,
Kəsilməmiş baş qalmadı,
Neçə-neçə min il keçdi,
Dünya yenə boş qalmadı.

Göz yaşları ağlayanın,
Sevinc, şadlıq gülənindi.
Eh, bu dünya yaşamağın
Qaydasını bilənindi…

**1980**

## MƏN Kİ MAHNI OXUMAZDIM…

Payız gəlib, həsrətini, ahını
Xəzəllərə gərək sovqat verəsən.
Mən ki, mahnı oxumazdım, bu mahnı
Dodağıma hardan düşdü görəsən?

Sevincin öz, dərdin öz nəğməsi var,
Ahdı çalan ürəyimin sazını.
Taleyimdə son ümiddi son bahar,
Çətin görəm bir də ömrün yazını.

Yanağımda sərin bahar nəsimi,
Hiss etmirəm kimdi ötən yanımdan.
Oxumuram dinləsinlər səsimi,
Oxuyuram ağrım çıxsın canımdan.

**1989**

## MUĞAM

Damarımdan axıb gəlir,
Qəlbimizin aynasıdır.
Ömrümüzün, günümüzün
Səsə dönmüş mənasıdır.
Nə qədər ki, o səslənir,
Ölməmişəm, hələ sağam.
Dərdimizin, sərimizin
Boyuna biçilib muğam.

**1990**

## MİZRAB SİMƏ TOXUNDUMU

**Ramiz Quliyevə**

Mizrab simə toxundumu,
Bir təlatüm doğasıdı.
Çanaq – bir səs dənizidi,
Hər pərdə bir dalğasıdı.
Çanaq sanki bir vağzaldı,
Uzanıbdır dəmir qolu.
Simlər onun qucağından
Qatar-qatar nəğmə dartan
dəmir yolu.
Bu yol ömürdən uzundu,
Hər pərdə bir dayanacaq.

Barmaqların toxundumu,
Pərdələrdə mürgüləyən
Neçə ümid közərəcək,
Neçə həsrət oyanacaq…

**1982**

## QULU ƏSGƏROVUN SƏSI

Gördü ki, dəfn edirsiz,
Səsim əvvəlcə çaşdı;
Məni yer altda qoyub,
Özü yer üstə uçdu.

Qurun maqnitafonu,
Qulaq asın sözümə.
Siz mənim öz səsimlə
Ağı deyin özümə.

O səsi eşidəndə
Dinclik tapacaq ürək.
Qurumuş göz yaşlarım
O səsdən nəm çəkəcək.

Qoy başıma dolansın
Səsim pərvanə kimi.
Yer altında ürəyim
Titrəsin nanə kimi.

**1988**

## ALİM QASIMOVA

Ürəyində isidir mahnının sözlərini,
Vurduğu incə xalla bizi məftun edir o.
Unudubdur hər şeyi, yumubdur gözlərini,
Səsinin işığında harasa yol gedir o…

**1988**

## AŞIQ VAR, AŞIQ VAR

Aşıq var sazının kölgəsində
sözü yaşayır.
Aşıq var sözünün kölgəsində
sazı yaşayır…

***

Aşıq ölüb, saz yaşayır,
Saz çürüyüb, söz yaşayır.
Upuzundu sazın ömrü,
Əbədidi sözün ömrü…

## SÖZSÜZ MAHNI

Sözsüz mahnı dilə gəlir,
Ürəklərdə söz oyanır.
Yer altında mürgüləyən
Yaşıl donlu yaz oyanır.

Tumurcuqlar yarpaq açır,
Qoca dünya təzələnir.
Dalırıq xoş xəyallara,
Xatirələr çözələnir.

Sözsüz mahnı çalınanda
Adamların gözü dolur.
Hər kəsin öz dərdi-səri
O mahnının sözü olur…

**1990**

***

Döndərib suyun yönünü
Min fitnə-fel elədilər.
Kəsdilər arxın önünü,
Yekə bir göl elədilər.

Ayrı bir yol tapmadılar,
Dansığı bol elədilər.
Tapdadılar, tapdadılar,
Cığırı yol elədilər…

**1990**

## DƏRD QƏLBİMİN SAKİNİDİ

Ömür keçdi, ağardı saç,
Tanıdıq doğmanı, yadı.
Damağımdan silinmədi
Acıların doğma dadı.

Vaxt az olub sevinməyə,
Hərdən-birdən gülmüşük biz.
Elə bil ki, yer üzünə
Dərd çəkməyə gəlmişik biz.

Bu dünya belə dünyadı,
Ürəyimi ağrı deşir.
Dərd qəlbimin sakinidi,
Sevinc onun kirakeşi…

**1989**

## AZADLIQ YOLUNDA ÖLƏN

Ağ günlərçin doğulmuşdu,
Azadlıq rəmziydi özü.
Ürəyində xoş arzular,
Dilində azadlıq sözü.

Ancaq yamanca pərt oldu,
Taleyinə olan qəsddən.
Ölüb canını qurtardı
Azadlıq boğan məhbəsdən…

**1989**

## SONUNCU KƏLMƏ

"Kasıbın nəsihəti, ölənin vəsiyyəti havayı şeydi..."

**Dostum Tahirin sözlərindən**

Elə bil ki, dərd çəkməyə doğulub insan,
Yarandığı gündən bəri qəm yeyibdir o.
Qəribədir, köç edərkən biri dünyadan,
Düşünürük: son məqamda nə deyibdir o?

Kiminləsə bölməlidi insan qəmini,
Vəsiyyətin qılınc kimi kəsəri vardır.
Son kəlmənin dəryalarda batan gəmini
Tərk eləyən kapitana bənzəri vardır.

Susmalıyıq, batan günəş danışsın deyə,
Axı onun son diləyi quruca sözdü?!
Üfürürük, üfürürük, alışsın deyə –
Sonuncu söz, öləziyən sonuncu közdü.

O son kəlmə, o son işıq, o son parıltı,
Laqeyd oğul əllərində sönə də bilər.
Ən son kəlmə gizlədilmiş bir xəzinənin
Ən qiymətli açarına dönə də bilər.

Sən vəsiyyət edənlərin sözünə gülmə,
Onları da dilləndirən haqqın səsidir.
Ölənlərin söylədiyi sonuncu kəlmə,
Qalanlara məhəbbətin nişanəsidir…

**1990**

## YESENİNİ OXUYANDA

Hamı düşüb həyətə, oynayan kim, gülən kim,
Evdə qalmışam, məni şeir dustaq eləyib.
Bu gün Nazim Hikmətə istəyirəm baş çəkim,
Bu gün Sergey Yesenin qəlbimə nur ələyib.

Vərəqlər çevrildikcə məni götürür fikir,
Misralar ürəyimə süzülür damla-damla.
Üzünü görməsəm də, mənə elə gəlir ki,
İndi söhbət edirəm ən doğma bir adamla.

Çovdar zəmilərinə, ağaclara, kollara
Sergey öz nəğməsini oxuyur şirin-şirin.
Unuduram özümü, düşüb misra yollara
Ürəyinə gedirəm bir nəğməkar şairin…

**1977**

***

Kim yaşamaq istəyir?
Hamı əlini qaldırıb,
başdaşına dönmüş əlini.

**Vaqif İbrahim**

Gəldik ziyarətinə, əhvalımız qarışdı,
Başdaşları görəndə xatırladıq şeirini.
Qəbir qonşularından bir-bir səni soruşduq,
Bir kimsə göstərmədi məzarının yerini.

Burda daş da, torpaq da dalıb şirin yuxuya,
Daddıq, yaxşıca daddıq sükutun əzabını.
Qüdrətimiz çatmadı vərəqləyib oxuyaq
Başdaşına çevrilən sonuncu kitabını.

İlhamının köhləni axı niyə büdrədi? –
Di sağ ol, sözün varsa, evinizə deyim mən.
Sinənin üstündəki qızılgüllər titrədi,
Bizə qoşulub getmək keçdimi ürəyindən?!

Eh, bu necə küçədi, eh, bu necə şəhərdi? –
Adamların hamısı elə bil kardı, laldı.
Boğaza kilid vuran bəlkə sonsuz qəhərdi? –
Biz döndük evimizə, sən isə orda qaldın…

**1987**

***

Şəhid bulaqları
övlad itirən anaların
təsəllisi, sirdaşıdı.
Şəhid bulaqlarından axan
adi su deyil
anaların göz yaşıdı…

**1996**

## DƏRD

**Elxan müəllimin xatirəsinə**

Hələ körpə ikən
atanın ömrü puç olmuşdu.
Qara saçlarında
ağ-ağ çiçəklər açılmışdı…
Elə bil nəsə dammışdı ürəyinə,
körpələrini böyütməyə
tələsirdin.
Yetimçiliyi
gözünlə gördüyündən
balalarının üstündə
yarpaq kimi əsirdin.
Ömür-gün yoldaşın
sağalmaz dərdə tutulanda
qara günü aldın gözünün altına.
Dərd maşina dönüb
aldı səni dizinin altına…

**03.01.1983**

## QAĞAYI SEVGİSİ

Bir ümid nuru yanır qağayı gözlərində,
Dəniz sevgisi onun boynuna kəmənd olub.
Ona görə uçmur ki, dənizin üzərində –
Qanadlı ləpələrə, dalğalara bənd olub. –
Bircə balıq gördümü, gözündə şimşək çaxır,
Ona görə uçur ki, yemi dənizdən çıxır…

**1995**

## TUŞ GƏLIB

“Mən Sizdən gül ətri alırdım. Demə onun kölgəsində ilan yatırmış…”

**“3”' yazdığım üçün hirslənən bir qızın sözlərindən**

Ocağımda gül ətri var,
Pənah gətirən xoş gəlib.
Neynim, onun kölgəsində
İlan ilana tuş gəlib…

**1994**

*******

Gündə bir cürə paltar
Alıb geyinmək üçün
Sənin qarışıb başın.
Tək bircə paltarı var
Hər ağacın, hər kolun,
hər heyvanın, hər quşun…

**1995**

## HƏSRƏTİMDƏN SOLAN ÇİÇƏK

Gözü şehlə dolan çiçək,
Kol dibində qalan çiçək.
Məni saldın yanar oda,
Həsrətimdən solan çiçək.

Ürək vurğun oldu sənə,
Özün de, nə oldu sənə?
Ağacların ən ucası
Bu balaca koldu sənə.

Çağırıram, gülüm gəlmir,
Qoparmağa əlim gəlmir,
Ona əlvida söyləyib,
Ayrılmağa dilim gəlmir.

Durmuşam, gedə bilmirəm,
Böyründən ötə bilmirəm.
Nə də bir çiçəyə dönüb,
Yanında bitə bilmirəm…

**1988**

## QARMAĞIMDAN QAÇAN BALIQ

Qarmağımdan qaçan balıq,
Uğur olsun, sənə uğur!
Ağzından qan süzülsə də,
Taleyinə günəş doğur.

O yana üz, bu yana üz
Sən suları yara-yara.
Həzin, kövrək nəğmələrlə
Sevmək öyrət balıqlara.

Qarmağımdan qaçan balıq,
Yaşa, yaşa, gərəyimsən.
Mənim çayda çabalayan
Sevda dolu ürəyimsən.

**1988**

## QƏRİB DÜYMƏ

Köynəyimdən qopan düymə,
Ayrılmısan sirdaşından.
Ayrılmısan özün boyda
Neçə bacı-qardaşından.

Hey axtardım, tapılmadın,
Heç yerdə gözə dəymədin.
Köynəyimdən qopan düymə,
Göz yaşın düymə-düymədi…

İstəyirsən qışqırasan,
Heyf, sənin dilin yoxdu.
Özgəsinin yaxasında
Yaşamağa könlün yoxdu.

Köynəyimdən qopan düymə,
Hayana düşüb qalmısan?
Yaxam sənə vətən idi,
Sən indi qərib olmusan.

**1988**

## BƏXTƏVƏRİK

Ciblərimiz boşdu deyə,
Buraxmırlar yaxın bizi.
Taleyimiz belə gəlib,
Az yandırıb yaxın bizi.

Üzülürük ehtiyacdan,
Çörəyimiz çıxır daşdan,
Xəbəri də yoxdu acdan,
Xumarlanır toxun gözü.

Quru alışır, yaş sönür,
Qohum qaçır, qardaş dönür,
Qapıma gələn boş dönür,
Qara olsun yoxun üzü.

Nə utanır, nə usanır,
Gölməçəni dəniz sanır,
Açıq-aşkar xəsis sanır
Neçə boynuyoğun bizi.

Haya-abır üzdə qalıb,
Həyat eşqi gözdə qalıb,
Bəxtəvərik, bizdə qalıb
Yenə, yenə xalxın gözü…

**1988**

## VAR

Əzəl gündən doğmaların
Arasında um-küsü var.
Görən bilir, bu həyatın
Soyuğu var, bürküsü var.

Söz titrəyir dodağında,
Çiçək bitib yanağında,
Gözlərimin qabağında
Bir gözəllik sərgisi var.

Dərdi çoxdu göyçəklərin,
Ətrini duy çiçəklərin,
Bil ki, sevən ürəklərin
Şərqisi var, türküsü var.

Çoxdur susayan qanıma,
Ancaq girmirəm qınıma.
Bu meşəni gəl qınama, –
Pələngi var, tülküsü var.

Yollarımı tutub duman,
Ürəyim bir gizli ümman.
Məndən ayrı bir şey umma,
Hərənin öz ülgüsü var.

Qədrini bil hər anın da,
Üzü ağ ol el yanında.
Dəniz dənizdir, onun da
Nərəsi var, kilkisi var.

Doğmalarım, əzizlərim,
Gəncələrim, Təbrizlərim…
Bilin, qəlbi təmizlərin
Nə qorxu, nə hürküsü var…

**1989**

***

Arzu sonsuz, ömür gödək,
Odumuz var, suyumuz var.
Dana bilməz gədə-güdə,
Əslimiz var, soyumuz var.

Tikan bitdi yastanımda,
Dərd göyərdi bostanımda.
"Dədə Qorqud" dastanında
Neçə-neçə boyumuz var.

Yuxuludur Basat hələ,
Ölməyibdir Qırat hələ,
Davam edir həyat hələ,
Yasımız var, toyumuz var.

Çəkən var ayağımızdan,
Laxlayıb dayağımız da.
Üçrəngli bayrağımızda
Ulduzumuz, ayımız var.

Dönmədim imandan, dindən,
Qorxum yox şeytandan, cindən,
Bu dünyanın sevincindən
Bizim də öz payımız var.

Heç vaxt tükənməz odumuz,
Yaşayır təmiz adımız,
Peyğəmbər tək ustadımız,
Allah kimi dayımız var…

***

Vədəsiz güllər dərirsən,
Qəlbi qana döndərirsən,
Bizə nələr göstərirsən,
Dünya, səni dağılasan!

Para-para olub içim,
İnləyirəm için-için,
Bu dərdlərə dözmək üçün
Gərək uca dağ olasan.

Günlər ötər qatar-qatar,
Aşımıza ağı qatar.
Ürəyimdə bir arzu var:
Təzədən uşaq olasan!

Yetişə qaragilələr,
Budaqdan baxıb gülələr.
Dostlarım qaçıb gələlər,
Sən də üzü ağ olasan.

Çıxasan çiçəkli düzə,
Lalələr çevrilə közə.
Bu dağlarda ruhun gəzə,
Öləndə də sağ olasan!

**1991**

***

Ömrümüzü oğrun-oğrun talayan
Biri gündür, biri aydır, biri il.
Bu dünyada üç şey başa bəladı:
Biri tamah, biri qorxu, biri dil.

Hər nəğmənin bir qiymətli sətri var,
Hər çiçəyin öz rəngi, öz ətri var.
Üçünün də el yanında xətri var;
Biri darçın, biri mixək, biri hil.

Arxasınca keçib gedir an anın,
Qazancı nə ötən günü ananın?
Üç qızı var bizim ocaq ananın:
Biri alov, biri tüstü, biri kül.

Ürəyimdən görün nələr keçmədi?
Bir cüt yar var, baxışları çeşmədi.
İkisi də bir-birindən seçmədi,
Hansın dərim? –Biri qönçə, biri gül.

Damağımda ilk uğurun şirəsi,
Harayımda babaların nərəsi.
Ürəyimin parçasıdı hərəsi,
Nə olsun ki, biri bəmdi, biri zil…

**1980**

## ALABAŞ

Yala həsrət qalsan da,
Dərdin çox böyük deyil.
Tikanlı söz, intizar
Ürəyinə yük deyil.

Arzular dəyir daşa,
Ümidlər çıxır boşa,
Bu dünya başdan-başa
Toy deyil, şənlik deyil.

Dayanmısan naəlac,
Dərdinə yoxdur əlac,
Bu qovhaqov, qaçhaqaç
Üç gün, beş günlük deyil.

Heç nəyə fikir vermə,
Girmə, bu yola girmə,
Hürmə, alabaş, hürmə
Bu karvan sənlik deyil…

**1991**

## QADINLARA

Silinsin qəlbinizdən
Bütün ağrı-acılar,
Bayramınız mübarək,
Ay analar, bacılar!
Siz ellər yaraşığı,
Siz evlərin işığı.
Sizinlə qış demərik
Ömrün ən sərt qışına.
Bircə təbəssümünüz
Bizi qaldırıb qoyar
Zirvələrin başına.
Sizinlə danışanda
Ürəyimiz incələr.
Yorğun baxışlarımız
Gözünüzdə dincələr.
Sizsiz həyat gülşəni
Xəzan olar, sovular.
Eşqiniz düşsə əgər
Qayaların qəlbinə
Ovum-ovum ovular.
Sizin sədaqətiniz
Qəlbimizi isidər.
Sizsiz çəkilib gedər
Yaşamaq həvəsi də.
Gözəlsiniz güllərin
Təzəsindən, tərindən.
Sizsiz dünya çevrilər
Bəlkə də mehvərindən.
Laylalar yetim qalar,
Məhəbbət yetimləşər.
Sizsiz neyləyər bəşər?

Kobud ürəyimizi
Kim kökləyər, kim çalar
Əgər siz olmasanız?
Uşaqları demirəm,
Kişilər yetim qalar
Əgər siz olmasanız.

**1977**

## UTANAN SƏS

Göz dikmişəm müğənniyə,
O, bir zərif, incə qızdı.
Yanaq rəngli, dodaq rəngli,
Təkcə səsi boyasızdı.

Sanki bir dağ çeşməsidi,
Sızıb gəlir qayalardan.
Səs utanır sahibinin
Üzündəki boyalardan.

**1988**

## AZƏRBAYCAN QADINI

Oda düşdü, taleyindən küsmədi,
Bu torpağın qızı olmaq qisməti,
Sədaqətin, düz ilqarın, ismətin
Tarixlərə həkk eləyib adını,
Azərbaycan qadını.

Həyatımın, çörəyimin duzudu,
Evimizdə bərəkətdi, ruzudu,
İnanma ki, bu torpağın qızıdı,
Əgər pozsa peymanını, andını,
Azərbaycan qadını.

Məhəbbəti ürəyə yaz gətirər,
Ömrümüzü ağ günlərə yetirər,
Nəvazişi daşda çiçək bitirər,
Təbəssümü ağac edər odunu,
Azərbaycan qadını.

Zəkasıyla bizi qoyar o, heyran,
Səsi gələr neçə-neçə diyardan.
Nə atadan, nə övladdan, nə yardan
Əsirgəməz ürəyinin odunu,
Azərbaycan qadını.

Şirin-şirin arzularla baş-başa,
İnanmıram hər yetənə baş qoşa,
Nə yaxşı ki, meyl eləməz daş-qaşa,
Sədaqəti əvəz edər altunu,
Azərbaycan qadını.

Bədxahların gözlərinə xəncərdi,
Qayğısıyla neçə arzu cücərdi,
Sevilləşən, tərlanlaşan Həcərdi,
Tarlalarda çapar polad atını,
Azərbaycan qadını.

Qraniti iki bölən Almazdı,
Mirvariddi, Fərizədi, Solmazdı…
Bir zamanlar bu yüksəliş olmazdı,
Vətən eşqi bərkidib qanadını,
Azərbaycan qadını.

Dilləndirər könlümüzün sazını,
Gülləndirər ömrümüzün yazını,
Nə bilərdik, əsirgəsə nazını,
Yaşmağın ləzzətini, dadını,
Azərbaycan qadını…

**1981**

## VAL SATAN QIZ

Ömrün ötən çağı şirin bir xəyal,
Yağışdan islanan əllər buz kimi.
Ürək dilə gəlir fırlandıqca val
Həmişə fırlanan dünyamız kimi.

Həsrətli nəğmələr gələndə dilə,
Qara qaşlarını hərdən çatar o.
Baxar uzaqlara intizar ilə,
Səhərdən axşama nəğmə satar o.

Həssas bir qəlbi var, kövrəlib, dolub,
Düşüb duyğuların axarına o.
Vallar fırlandıqca bir iynə olub,
Düşər xatirələr cığırına o.

Muğam dilə gəlir, kaman inləyir,
Ayrılıq nəğməsi onu üşüdür.
Valdakı nəğməni hamı dinləyir,
Onun nəğməsini özü eşidir.

Gözündən görürəm iztirab çəkir,
Ömrün gənclik çağı oda düşübdür.
O qədər dinləyib nəğmələri ki,
Bəxtəvər özü də nəğmələşibdir…

**1975**

## BİR SENZORA MƏKTUB

Boş-boş danışırsan vermədən ara,
Üyüdüb tökürsən, hüdüləyirsən.
Elə öyrəşmisən sığal-tumara,
Mərdanə sözü də ütüləyirsən.

Üzürsən yelkənli qayıqlar kimi,
Məzlumun üstünə şeşələnirsən.
Sınmışı öyrənmiş toyuqlar kimi
Kağızlar içində eşələnirsən.

Əgər pas tutubsa qəlbinin simi,
Bülbüllər ötüşən gülzara gəlmə.
Yarasa işıqdan qorxduğu kimi
Qəlbinə xof salır hər nurlu kəlmə.

Səadət sanırsan zülmü, əzabı,
Ruhunda el qanı axmayıb hələ.
Keçici bayrağın qırılmış sapı
Sənin ürəyindən çıxmayıb hələ…

**1975**

## QARAÇI

Ömrü boyu gəzər düzü, dünyanı,
Söhbət açmaz ev-eşikdən, vətəndən.
Bu cığırlar, yollar onun ünvanı,
Səfərdədi ayağı yer tutandan.

Bir günlükdü o tikdirən alaçıq,
Köçərilik gəlməz onun arına.
Yerin gəzən durnasıdı qaraçı,
Könül verib göylərin ay nuruna.

Dağ tanımaz hər yanından ötəni,
Bu dünyada hər kəsin bir payı var.
Qaraçının olmasa da vətəni,
Başı üstə şəfəq saçan ayı var…

**1987**

## BU BAHARIN SON YARPAĞI

Nə tez gəldi qızıl payız,
Sona yetdi bahar haçan?
Mən gedirəm, boş qalacaq
Yerim gələn baharacan.

Budaqda titrəyən yarpaq
Ağlayırdı için-için.
Bu dünyaya niyə gəldim
Bir baharılıq ömür üçün?!

**1980**

## ALNIMIZA YAZILANLAR

Alnımıza yazılanlar
Bu yolları ölçün, – dedi.
Yersiz gəldi, yerli qaçdı,
Yadlar bizə köçün, – dedi.

Qoyuldum lağa, loğaza,
Dərdim yük oldu kağıza.
Canım yığıldı boğaza,
Ömrüm qismət köçündədi.

Taladılar sərvətimi,
Tapdadılar hörmətimi,
Dünyanın qəm şərbətini
Tale bizə için, – dedi.

Həsrət qaldıq ulu yurda,
Qismət oldu quzu qurda.
Böyük dünya xırda-xırda
Qayğıların içindədi…

**1993**

## DUZA GEDİRSƏN

Gözün ala buluddadı,
Sən üzü yaza gedirsən.
Ayağın lehmə içində
Aya, ulduza gedirsən.

Göz yaşı gözdən qayıdır,
Ceyranlar düzdən qayıdır,
Camaat duzdan qayıdır,
Sən hələ duza gedirsən…

## DAĞDA ÇAYLAQ DAŞI

Yumru-yumru daşlara bax,
Elə bil ki, dolu düşüb.
Dağda çaylaq daşı varsa,
Burdan irmaq yolu düşüb…

## BİR OLANLAR

Allah birdi,
Ata birdi,
Ana birdi,
Vətən birdi,
Onlara xor baxanların
Yeri qaranlıq qəbirdi…

**1993**

## HEÇ ALLAH QOYARDIMI?

**Kimsəsiz bir qarıya**

Düzəltdirdim qəbrini,
Sənin kimsənən oldum.
Məzarının başında
Duman oldum, çən oldum.

Ruhun şad olsun sənin,
Sanma yurdun boş qaldı.
Sənə adi baş daşı,
Mənə savab iş qaldı.

Əslini danan kəslər
Çətin ki, adam ola.
Heç Allah qoyardımı
Kimsəsiz adam ola?!

**1993**

## QORU MƏNİ

Ay Allah, xilas elədi
İnamımın nuru məni.
Düşmənimlə bacararam,
Dostlarımdan qoru məni…

## ZAMANIN DƏYİRMANI

Sığal çəkir başımıza,
Öz işini bilir zaman.
Bu dünyanın yaddaşından
Adımızı silir zaman.

Ocaq içində öldürür
Közü aldada-aldada.
Qovur üzü gələcəyə
Bizi aldada-aldada.

Zaman körpə uşağı da
Əvvəl-axır böyüdəcək.
Ancaq onun dəyirmanı
Hamımızı üyüdəcək…

**1992**

## DƏRD

Ürəyimin başından dərd püskürdü, dəbərdi,
Yol üstündə dünyanın namərdi var, mərdi var.
Hamı elə sanır ki, özgəsi bəxtəvərdi,
Təkcə Allah bilir ki, hərənin öz dərdi var.

Zaman görür işini dönüb görünməz yelə,
Topdağıtmaz sarayı yerlə yeksan eləyir.
Əl çəkmir yaxamızdan, qovmaq istəsək belə,
Dərd adamı böyüdüb onu insan eləyir…

**1991**

***

Mələkdən müqəddəs bir insanın da
İçində bir iblis mürgüləyirmiş.
Ən qəddar adamın nur var canında,
Xəbislik onu da tərk eləyirmiş.

Özgə bir möcüzə yox insan təki,
Hərəyə bir tale bəxş edib həyat.
Əgər bacarırsan, sən ürəkdəki
İblisə layla çal, mələyi oyat!

**1987**

***

Kənardan su tökməklə quyu çətin ki, dolsun,
"Yumurtada civildər yönlü cücə", – müxtəsər,
Gərək qanında olsun, gərək canında olsun,
Qeyrət, namus pay kimi verilməyir heç kəsə.

Söylədiyim hikməti hərdən salarsan yada,
Qəribliyə salmazsan bu kəlməni, bu sözü.
Qarışqadan şirin şey yeyən yoxdu dünyada,
Yenə tumturşdur özü…

**1977**

***

Arabir ayın da camalına bax
Hər vaxt üstünlüyü günəşə vermə.
Vaxtında atılan "du biri" heç vaxt,
Vədəsiz atılan "cüt şeşə" vermə.

Sakitlə sakit ol, nadinclə nadinc,
Dözməzsən qəflətən vursalar səni.
Partladar ürəyi vədəsiz sevinc,
Vədəsiz "şeş qoşa" mars elər səni…

***

Ürəyimdən keçənləri gərəkdir deyəm,
Yazacağam duyduğumu ürək qanımla.
Bu dünyanı dərk etməyə tələsəcəyəm,
Bu dünyanı ölçəcəyəm öz arşınımla.

Deyəcəyəm nöqsanları mən bircə-bircə,
Sözüm qərib görünəcək neçələrinə.
Təzə "civ-civ" öyrədəcək bugünkü sərçə,
Neçə ilin civildəyən sərçələrinə…

***

Ömrün ötən çağlarını unutmaq olmaz,
Xatirələr həzinləşir ağızda, dildə.
Nənəm nehrə çalxayardı, keçməmiş bir az
Ayran üstə görünərdi yağ piltə-piltə.

Ad-san ummaz, təmənnasız yaradar, tikər,
Papaq altda oğullar var, səbri dağ kimi.
Silkələmək istəsələr bir xalqı əgər,
Qəhrəmanlar üzə çıxar kərə yağ kimi…

**1977**

***

Hər qaranlıq gecənin işıqlı səhəri var,
Həyat bizi ağladır, həyat bizi güldürür.
Dünyada hər nemətin ölçüsü, qədəri var,
Az adamı yarıtmır, çox adamı öldürür.

Doyunca su içməkdi hər ağacın arzusu,
Yanına arx gəldimi, sevinci aşıb-daşar.
Ancaq onun dibində aylarla göllənsə su,
Ayaq üstə durammaz, ağac kökündən aşar…

**1989**

## YAXŞI ADAM

Pislik görsə, gözlərində ildırım çaxır,
Duyur: pisin qəlbinə də iman gələcək.
Yaxşı adam tutduğunu suya buraxır,
Deyir: –Balıq bilməsə də, xalıq biləcək…

Yaxşı adam ağac əkir meyvə yesinlər,
Ürəyində kin-küdurət daşıya bilmir.
Yaxşılığı eləmir ki, yaxşı desinlər,
O yaxşılıq eləməsə, yaşaya bilmir…

**1992**

## PİS ADAM

Mən elə qəddaram ki,
Ağ-qaranı seçmərəm.
Ömrümdən keçərəm ki,
Günahımdan keçmərəm.

Mayam dərdlə yoğrulub,
Hey əzab istəyirəm.
Yapışıb öz yaxamdan
Haqq-hesab istəyirəm.

Uşaq kimi qayğısız,
Ağsaqqal tək ağıram.
Pələng kimi yırtıcı,
Quzu kimi fağıram.

Pis adamam, ömrümü
Zillətə bələmişəm.
Mən ən böyük pisliyi
Özümə eləmişəm…

**1992**

## KOBUD ADAM

Sən hər şeyi ədalətlə ölçə bilib,
Qaranlıqda solğun nuru görə bilsən,
Sən kobudluq sərhəddini keçə bilib,
Kobudların ürəyinə girə bilsən,
Görərsən ki, insanmış o kobud adam,
Mat qalarsan, sən də ona qoşularsan.
Arzuları ürəyini salar oda,
Kövrək-kövrək duyğulara tuş olarsan.
Görərsən ki, dərdi varmış düyün-düyün,
Demə, kiçik eyhamı da o duyurmuş.
Görərsən ki, daş tək möhkəm çəyirdəyin
İçində bir kövrək toxum uyuyurmuş…

**1987**

## BİR KÖRPƏ AĞ SEVİNC

Coşqun dağ selləri axıb, durulub,
Özünə zülm etmək, vallah, hədərdi.
Bu dünya əzəldən belə qurulub;
Əvvəli sevincdi, sonu kədərdi.

Həyat sarayında beş-on kərpic var,
Əcəl dəstələyir ömrü əlinə.
Dönür postamentə dərdlər, ağrılar,
İnsanlar çevrilir qəm heykəlinə.

Məni danlamayın sözümün üstdə,
Ürəyim fərəhlə döyünür hələ.
Kədərin qartımış dizinin üstdə
Bir körpə ağ sevinc böyüyür hələ…

**1989**

## NƏ ZAMANDAN ƏHLI-BƏŞƏR OLMUSAN?

Təkə kimi hey çəkmisən özünü,
Nəyə görə belə təşər olmusan?
Həyat yonub qabırğanı bir azca,
Zoğal idin, sən muxəşər olmusan.

Tükənəcək, çox güvənmə gücünə,
Bəsdir hürdün gedənlərin köçünə!
Sən heç nəyi almazdın ki, vecinə,
Nədən belə dəymə-düşər olmusan?

Tula kimi yal üstünə cumursan,
Yallandıqca, gözlərini yumursan,
Adamlardan qayğı, diqqət umursan,
Nə zamandan əhli-bəşər olmusan?

**1992**

## BİR HARINA

Gözü ala buluddadı,
Qohum saymır, qonşu saymır.
Təmiz adla yaşayanı
Lağa qoyur, kişi saymır.

Deyirik: –Lənət şeytana! –
Arsız-arsız irişir o.
Nə qədər uzaq qaçırsan,
Yenə gəlib ilişir o.

Hikkə balaca boyunu,
Pul cibini dəlir bunun.
Qulaqlarının dibindən
Halva iyi gəlir bunun…

**1989**

## QATIR

Küsübdür öz taleyindən,
Cəhənnəmdi belə həyat.
Bilmir kimə yaxınlaşsın,
Nə eşşəkdi, nə də ki at.

Nə atadan yarıyıbdır,
Nə anadan yarıyıbdır.
İçində bala həsrəti
Qocalıbdır, qarıyıbdır.

İri, qara gözlərinə
Qəm buludu çökən qatır.
Ata-ana günahının
Cəzasını çəkən qatır.

**1990**

## HƏYAT

Nə dadlısan, nə şirinsən,
Hər üzünə bələdəm.
Hamı səndən dadıb gedir,
Doyub gedən
olmayıbdır hələ də…

**1977**

## ADİ HƏQİQƏT

Beşikdən qəbrəcən getsə də hamı,
Dünyada olmayıb cığırımız bir.
Tamam seçilsə də həyat yolumuz,
Əvvəlimiz birdi, axırımız bir…

**1988**

## GÜLLƏ

Kiçik nöqtə boydadı
Divarda güllə izi.
Həyatın axırında
Nöqtədi güllə özü.

**1990**

## ÖLÜMSÜZ AD

Yol göstərən olmadı, o, yolu seçdi özü,
Qolları qüvvət aldı ürəyinin səsindən.
Töküldü qızıl qanı, dünyadan köçdü özü,
Adı zəfərlə çıxdı ölümün pəncəsindən…

***

Günəş bulud arasından
Qızıl libas geyir, çıxır.
Qurban olum o şərə ki,
İçindən bir xeyir çıxır…

## ARPA

Qəribə bitkidi arpa;
onu quş dənləyəndə
göylərə meydan oxuyur
qanadlarını çırpa-çırpa.
Atım, sən də arpa yemisən,
qulaqlarını qırpa-qırpa
göyəmi uçmaq istəyirsən?

**1994**

## BAYQUŞ

Deyirlər bayquş
quşların şahıdı,
ona görə "bəy quş"
adı alıb. –
Bəyin quşu
qonan evlər
dağılıb,
xaraba qalıb…

**1994**

## KORDUMU

“Məhəbbətin gözləri kordu!' –
Kim uydurub bu sözləri?
Şair hər şeyə sevgi ilə baxır,
Kordumu şairin gözləri?

**1994**

## QRAD – QIRAT

Düşmən tanka süvar olub,
Üstümüzə yağır qrad.
Bizsə keçmişi anırıq,
Deyirik: – Hardasan, Qırat?

**1994**

## TƏKLİK

Adamlardan gen gəzsəm də,
Ürəyim mənə deyir ki,
İnsanları düşünürsən,–
Təklik tənhalıq deyil ki?!

Səs-küydə kobudlaşıram,
O qədər kövrək olmuram.
Mən təkliyə can atsam da,
Heç bir zaman tək olmuram…

**1994**

## TƏKLİYİ
## SEVƏN ADAM

–Həyatı sevirdin,
Yel kimi sən əsdin.
Bəs niyə dünyadan
Köçməyə tələsdin?

–Sağ olsun yaradan,
Yetişdi dadıma;
Qəbirdə yer yoxdu
İkinci adama…

Var-dövlət yığana
Tamahı qənimdi.
Bu fani dünyada
Tək qəbir mənimdi…

**1994**

***

Bəlkə mənim üzümə acı taleyim güldü? –
Dünyanın düzəlməsi nə vaxta qaldı, Allah?
Nə dünya bu şairi tərbiyə edə bildi,
Nə şair bu dünyanı sahmana saldı, Allah!…

## ŞEİR

Şeir – qolu  zorluya üz göstərməyən mələk.
Şair qəlbi dinəndə sözlər lal dura bilməz.
Hər misrası olsa da, kəpənək qanadı tək,
Hər ağırlıqqaldıran onu qaldıra bilməz…

**1994**

## HƏYAT EŞQİ

Əzəl gündən insan oğlu həyatı gec dərk eləyir,
Gəncliyini verib bada, solur payız gülü kimi.
Həyat eşqi sağlamların ürəyində mürgüləyir,
Xəstələrin sinəsində çağlayır yaz seli kimi…

**1992**

## ALÇA AĞACI

O ağaca saymazyana baxammazsan,
Bir şeytan qız uşağı tək hey qımışır.
Meyvəsinin turşluğundan inci dişlər,
Çiçəyinin ağlığından göz qamaşır…

**1992**

## ŞAİR QƏLBİ

Bu dünyada şair qəlbi
Çətin dinclik tapasıdı.
O, adicə ürək deyil,
Dərdin ahənrübasıdı…

**1992**

## YALQIZLIQ

Üz çevirdim göy üzünə,
Tale ulduzum ah çəkdi.
Baxmayın bir yerdədilər,
Ulduzlar hamısı təkdi…

**1992**

## DALĞA VƏ SAHIL

Ağ dalğalar həyəcanla haray salıb yüksəlsə də,
Dəniz ana qızlarını qoymur gözündən kənara.
Dalğa Sahilin yanına həvəslə qaçıb gəlsə də,
Duyğusuz Yer itələyir onu özündən kənara…

**1992**

## DÖRDLÜKLƏR

Öpüb qoxladıqca, gül ətirlənir,
Qaranlıq düşdükcə, ay bədrlənir.
Hisslərim çəkilir qızıl suyuna,
Mənim ürəyimdə söz sətirlənir…

***

Ana torpaq, yolunda
Canımdan keçəcəyəm.
Üstündə yaşamasam,
Altına köçəcəyəm.

***

Həqiqətin yox inkarı, niyəsi,
Müəmmalar əl-ayağa dolaşır.
Göydə durub bu torpağın yiyəsi,
Qarışqalar yuva üstə dalaşır…

***

Mənliyini tapdayarlar "mən" desən,
Salacaqsan öz-özünü bəndə sən.
Atam oğlu, çox da döymə döşünə,
Yer üzündə adicə bir bəndəsən…

***

Həyat nə vaxt üzümüzə güləcək? –
İllər salıb saçıma dən, əzizim.
Deyəmmərəm kim qalıb, kim öləcək,
Tale yazan deyiləm mən, əzizim.

***

Qalmışam evsiz, eşiksiz,
Bircə tükdən asılmışam.
Boynubükük bənövşəyəm,
Öz abrıma qısılmışam.

***

Bu həyat yollarında olduq yorğun, ərəsən,
Düz gəlmədi çox zaman işimiz sözümüzlə.
Bu dünyanın mərməri tükənməzmi görəsən
Bir baş daşı aparsaq hərəmiz özümüzlə?!

***

Ocağın içində, odun içində
Daşın qımıldanıb dinməyi varmış.
Yanmağın axırı kül olmaq imiş,
Sönməyin kömürə dönməyi varmış…

***

Gündən-günə böyüyürük, diləyimiz çox,
Biz ucalmaq arzusuyla aşıb-daşırıq.
Qəribədir, boy atdıqca günə, aya yox,
Daha artıq biz torpağa yaxınlaşırıq.

***

İrəliyə getməliyik, qarşıda qocalıq durub,
Uşaqlığa dönəmmərik, gəncliyi də verdik yelə.
Keçmişin yolu üstünə zaman paslı qıfıl vurub,
O kilidi aça bilən anadan olmayıb hələ…

***

On qarış torpağın yol çəkir gözü,
Başımın üstünü dumanlar alıb.
Alnıma yazılan sonuncu sözü
Mərmərin üstünə köçürmək qalıb.

***

–Ömrün şirin şərbətini içək biz,
Özümüzə uzun ömür seçək biz.
–Bu dünyaya xoşumuzla gəlmirik,
Bu dünyadan xoşumuzla köçək biz!

***

Yurdumuzda gör nə qədər gözəl xalça var,
Üstündəki hər bir naxış könül səsidi.
İlmələri göz oxşayan gözəl xalçalar
Nənələrin ürəyinin xəritəsidi.

***

Əlləşirik, vuruşuruq
Yıxılınca, ölüncə.
Bir əylıncə tapammadım
Bu dünyada könlümcə…

***

Uluların dediyinə
Qulaq asan xeyir çəkir.
Arı çiçəkdən şirə, bal,
Şair dərddən şer çəkir…

***

Neyləyəsən, bu ömür-gün baxta çıxıbdır,
Qardaş deyib dost bildiyin saxta çıxıbdır.
Qartalların qanadını ütülmüş görüb,
Koramallar, köstəbəklər taxta çıxıbdır.

***

Bu hikməti cahil heç vaxt dərk etməyəcək,
Ürəyimdə bu ağrını daşıyacağam.
Ruhum heç vaxt yer üzünü tərk etməyəcək,
Əsrlərcə bu dünyada yaşayacağam…

**1988-1993**

# TORPAQ NƏĞMƏSİ

## İLLƏR KEÇƏR

Ömrün axır anınadək həyat eşqi sönən deyil,
İllər keçər, ağrıları, acıları unudarıq.
Ömrümüzün yollarında bir pilləyə dönər hər il,
Qəlbimizdə sonsuz arzu gələcəyə can atarıq.

İşıq dolu gözümüzə bir gün pərdə çəkər gecə,
Solğun payız çiçəkləri uyuyar boran içində.
Aman verməz düşünməyə qəfil gəlib çıxan əcəl,
Zərrə-zərrə yığdığımı sovurar bir an içində.

Yaxşı bilir öz işini, cavan demir, qoca demir,
Qorxma onun gəlişindən, düz gözünün içinə bax.
İtiyimiz olacaqdır – əzablarla dolu ömür,
Qazancımız – hamımıza doğma olan qara torpaq…

**01.01.1990**

## BU DAĞLAR MƏNİM DƏ BEŞİYİM OLUB

**Dağ adamları ilə aran adamlarını müqayisə edib üstünlüyü birincilərə verən bir nəfərə.**

Bu dağlar mənim də beşiyim olub,
Hələ damağımda qalıb dağ dadı.
Dədə-babaların çəkdiyi yolun
Bir ucu aranda, biri dağdadı.

Köksümün altında çırpınır ürək,
Oğulsan şərik ol gəl sevincimə.
Dağı tərifləsək cüyürə görə,
Aranın ceyranı bizdən inciməz?!

“Dağda doğulanın ürəyi dağdır,” –
Xətrinə dəyərdi bu sözlər kimin? –
Əgər söyləsəydin aran oğlunun
Ürəyi genişdir bu düzlər kimi…

Niyə yollarımız haçalanıbdır? –
Dağda, aranda da insandır insan.
Vətən neçə yerə parçalanıbdır,
Bu da bir ayrılıq, –sən uydurmusan.

Bir dön tunc sifətli qıza nəzər sal,
İnciyə döndərir alın tərini.
Dağlarda dünyaya göz açan qartal
Dənizdə balığın verməz yerini.

Vətən müqəddəsdir, nə dağ, nə aran?
Cığırlar yaranıb ayaq gücünə.
Asfalt döşəyib ki, yollara zaman
Onunla gedəsən adam içinə.

Gəl sözü deməmiş düşün bir azca,
“Şairsən”, gözünü tutmasın duman.
Dağda doğulan var, ürəyi qozca,
Aran övladı var, sinəsi ümman.

Bu dağlar mənim də beşiyim olub,
Hələ damağımda qalıb dağ dadı.
Dədə-babaların çəkdiyi yolun
Bir ucu aranda, biri dağdadı…

**1985**

## ELDƏDİ

Tozun bizimlə nə işi,
Günah hamısı yeldədi.
Oyulmazdı dağın dibi,
Bunun təqsiri seldədi.

Yurdu gözdü nur olanın,
Gəlin kəndə, durulanın.
El-obaya vurulanın
Sözü ağızda, dildədi.

Suyu dönüb qanımıza,
Ruhu hopub canımıza,
Vətən dönüb anamıza,
Məhəbbəti könüldədi.

Bülbüllər ötür budaqda,
Qəlbim tək əsir yarpaq da,
Ağacın kökü torpaqda,
İnsanın kökü eldədi…

**1994**

## QALXAN

**Eşitdim ki, Naxçıvanda Babəkin heykəlinin qalxanını söküb xaricə satmağa aparıblar.**

Cibində pulun var deyə,
Xoruz tək çəkmə özünü.
Haram yolla qazandığın
Var-dövlət tutsun gözünü.

Babəkin tunc qalxanını
Söküb apardın haraya?
Üstümüzə yağı gəlir,
Bəs kim yetəcək haraya?…

Bizi biabır elədin,
Halaldı namərdin qanı.
Adı bizə qalxan olan
İgidin qalxanı hanı?!

**1994**

## GÜNƏŞƏ DOĞRU

Axdıqca üstümə əlvan şəfəqlər,
Üzülür, süzülür zülmətin bağrı.
Səhərdir, qızarır geniş üfüqlər,
Gedirəm, gedirəm günəşə doğru.

Külək dilləndirir könül tarımı,
Kükrəyən duyğular yuxu da bilmir.
Günəşin şəfəqli saçaqlarını
Küləyin əli də dağıda bilmir.

Getdikcə gedirəm, uca zirvələr
Kiçilib bir zərrə olur arxada.
Günorta günəşə çatıram, axşam
O əlvan şəfəqlər qalır arxada.

Ürəyim bir yerdə tutmur aram da,
Günəş dağ ardında görünməz olur.
Deyirəm, günəşlə mənim aramda
İndi bir gecəlik məsafə qalır.

Səma ulduz-ulduz, ay ulduz-ulduz…
Yuxu gözlərimə dolur gizlicə.
Ən nəhəng badədir sanki dünyamız,
İçinə şərab tək süzülüb gecə.

Nə görsəm yaxşıdı oyananda mən? –
Əlvan tellərini günəş yayıbdır.
Baxıb gülümsəyir yenə üfüqdən,
O, məni yenə də qabaqlayıbdır.

Yenidən üstümə axır şəfəqlər,
Yenidən qızarır zülmətin bağrı.
Yenidən qızarır geniş üfüqlər
Yenidən gedirəm günəşə doğru…

## BİR QAYA HELLƏDİM

**Məmməd Araza**

Bir qaya hellədim, sevindi ürək,
Heyrətə gətirdim neçə uşağı.
Təkənin dalınca gedən sürü tək
Qayalar yelləndi üzü aşağı.

Yamaclar, kahalar titrədi zağ-zağ,
Dərə dözəcəkmi? – Ağırdı daşlar…
Mənə elə gəldi ağlayırdı dağ,
Gözündən dolu tək yağırdı daşlar…

Uçurtdum qartalın beş balasını,
Diksinib mürgüdən oyandı Araz.
Ürkütdüm dağların daş balasını,
Onun ürəyini kövrəltdim bir az.

Bir qaya itirmək nədir dağ üçün,
Vətən nə itirər əgər mən ölsəm?!
Yatmış duyğuları oyatmaq üçün
Xoşbəxtəm, bir qaya hellədə bilsəm…

**1977**

## ZİRVƏ

Fəsillərə pilləkəndi,
Qartallara yardı zirvə.
Sıyrılıb bir qılınc kimi
Buludları yardı zirvə.

Təpəsində tüstü-duman,
Sanki dağın bacasıdır.
Sinəsində doğulanlar
Daş da olsa, uçasıdır,
Necə bəxtiyardı zirvə?!

Sənə övladmı söyləyim,–
İstəklisi dağın, sənsən.
Bizim qoca dünyamızda
Günəşə ən yaxın sənsən,
Niyə başın qardı, zirvə?!

**1977**

## ANA TORPAQ

Ana torpaq, ana torpaq,
Qüdrətinə bələdəm.
Qoynundakı möcüzəni
Dərk etmirəm hələ də.
Güllərin var neçə boyda,
Neçə rəngdə, biçimdə.

Mən itmişəm lalələrin,
Nərgizlərin içində.
Güllər gördüm, kitablara
Düşməyibdir heç adı.
Ağacların nənələrdən,
Babalardan qocadı.
Çəmən gördüm, elə bil ki,
Allı-güllü xalçadı.
Zirvə gördüm:
bu dağların əlində
elə bildim çiçəklərlə
bəzədilmiş xonçadı…

Qəlbilərə dırmanmağa var hünər,
Tez özümə çəlik etdim bir vəni.
Dağa qalxdım, zərif, incə çiçəklər
Məndən əvvəl fəth edibmiş zirvəni.

Bu dolaylar sükutumun qəsdində,
Xatirəmin tarımlanmış simiyəm.
Bu dağların, yamacların üstündə
Dən axtaran bir qarışqa kimiyəm.

Zirvələrin çiçək qızı, gül qızı
Yaşınmadan camalını göstərdi.
Bircə anda dindi könlümün sazı,
Çiçəklərə şeir oxumaq istədim.

Oba mənim, yaylaq mənim, yer mənim,
Bu Qızıldaş, o Çayzəmi, bu Kəpəz.
Yan-yörəmə boylanıram, gör məni
Haralara qaldırıbdır bu Kəpəz?!

Siqar çəkir, dağa diqqət elə bir,
Bulud tüstü, palıdlarsa müştüyü.
Dağ yolları dağ çayıdır elə bil,
Dolaylardan, gədiklərdən şütüyür.

Nə olsun ki, duman tutub hər yanı,
Göz önündə neçə bəndlər, bərələr.
Belə geniş görməmişdim dünyanı,
Harda idi belə dərin dərələr?!

Yerdən baxıb dağda çəni görürdüm,
Eh, nə qədər yanılmışam gör indi?!
Dərələrdən tək zirvəni görürdüm,
Zirvələrdən mənə hər yer göründü…

Ana torpaq, ana torpaq,
Qüdrətinə balədəm.
Qoynundakı möcüzəni
Dərk etmirəm hələ də…

**1977**

## MAŞIN GEDİR QƏÇREŞƏ

Maşın çıxdı Qubadan,
Maşın gedir Qəçreşə.
Yaşıl bir nağıl kimi
Axır ömrümə meşə.

Saxla maşını, qardaş,
Dəysin yerə ayağım.
Qurum çəməndə bardaş,
Gəl sən də ol qonağım.

Çiçəklərin baxışı
Saldı məni kəməndə.
Yağsın bahar yağışı,
İslanım qoy çəməndə.

Yurdumun hər gülünü
Oxşayaram, öpərəm.
Dağların tər gülünü
Gözlərimə təpərəm.

Mən belə istəyirəm,
Özgəsi nə borcuma.
Çiçəklərin ovcundan
Şəbnəm axsın ovcuma.

Ay qız, baxma güllərə
Gözündə qara çeşmək.
Düş yerə avtobusdan,
Qismət olsun sənə də
Çiçəklərlə çimişmək…

**1977**

## NƏ YAXŞI Kİ…

Dəliqanlı bir igid tək əsdi dağ,
Uçub çayın qabağını kəsdi dağ.
O kim idi dayanmışdı cığırda? –
Dağlar qızı tora düşdü, qovruldu.
Hey çırpındı, hey bulandı, axırda
Güclü qollar arasında duruldu…
Dağ gövdəli bir igidə qısılıb,
Xumarlanır nazlı-nazlı göl indi.
Ağsu çayı dünən dəcəl qız olub,
Bu gün ürək ovsunlayan gəlindi.
Nə yaxşı ki, dağ kükrədi, dağ uçdu,

El gözəli eldən küsüb gedərdi.
Aynasında neçə həsrət qovuşdu,
Dənizlərdə bu duruluq itərdi.
Nələr demir onun büllur baxışı,
Bir sevinci milyon yerə böl görüm?!
Ümmanlara qovuşmadı nə yaxşı,
Ümmanlarda bulanardı Göygölüm…

**1977**

## UCALIR İNSAN OĞLU

Gecələr gəl-gəl deyir sevənlərə göy üzü,
Bu lacivərd səmanın sovqatı, payı gözəl.
Başımın üzərində bir bayraqdı göy özü,
Üstündə şəfəq saçan ulduzu, ayı gözəl.

Arzular əlimizdən tutub ucaldır bizi,
Gəl-gəl deyən işıqdan güc alır insan oğlu.
Ürəyində sevginin ürək göynədən közü,
Göylərə boylandıqca ucalır insan oğlu…

**1990**

## DAĞ DAĞA OXŞAYIR

Sizin tərəflərə gəlmişəm qonaq,
Göylərə baş çəkir ulu Babadağ.
Deyirəm: dünyanın işlərinə bax:
Dağ dağa oxşayır…

Bir də dönəcəkmi geri o çağlar? –
Hər görüş yerində bir çeşmə çağlar.
Sənin də köksünə çəkilib dağlar,
Dağ dağa oxşayır…

**1988**

## YARDIMLI DAĞLARINDA

**Dostum Cavanşir Rəsulova**

Demişdim ki, gələcəyəm haçansa,
Biz görüşdük, tale qismət elədi.
Sıldırımdan yerə enən uçan su,
Yardımlıya xoş gəlmisən, – söylədi.

Yorulsam da, inanmadın yorğunam,
Qucaqlayıb məni yerdən qopardın.
Bilirdin ki, bulaqlara vurğunam,
Dostum, məni Bərəncüyə apardın.

Çay yuxarı getdik quru oduna,
Ögey olan bu yerlərdə azardı.
Çaylaq daşı ayağımın altına,
Elə bil ki, avtoqraf yazırdı.

Torpağınız füsünkarmış gör necə? –
Dağınıza, dərənizə baxırdım.
Dupduruydum, elə bil ki, o gecə
Viləş çayı damarımdan axırdı.

Ofsunluydum bu dərədə elə bil,
Gözüm təkcə ulduzları görürdü.
Yardımlının dağlarında arabir
Laçın iti qərib-qərib hürürdü…

Ağzımızda dustaq idi sanki dil,
Ruhumuzda ildırımlar çaxırdı.
Bərəncünün sızqa suyu elə bil
Qaçqınların göz yaşıydı, axırdı…

Ürəyimdə solan qönçə açdı gül,
Dağınızdan nə gül dərdim, nə lalə.
Arxamızca su atırdı elə bil
Qayıdanda sizin gözəl şəlalə…

**1992**

## ÇIXDIQ SİZİN DAĞLARA

**Coğrafiya elmləri namizədi Hacı Ağayevə**

Çıxdıq sizin dağlara, kövrəldi boğuq səsin,
Tamarzı gözlərindən yaş süzüldü gizlicə.
Yağış elə yağdı ki, maşınlar tərpənməsin,
Sənin ata yurdunda qonaq olaq bir gecə.

Göylər də kövrəlibdir, eh, bu necə yağışdır? –
Hamı susdu, bir kimsə dinmədi səhərəcən.
Dağlarda ocaq çatıb dövrəsinə yığışdıq,
O sehrli alovlar sönmədi səhərəcən.

Vay o gündən, a qardaş, insanla dövran əyə,
Kədərli xatirələr o gün qoşuna döndü.
Sanki bir ata ruhu çevrilib pərvanəyə,
Yandırdığın ocağın uçub başına döndü.

Dalmısan öz dünyana, gözündən yuxu qaçıb,
Kimsə xəyanət etməz çörəyinə, duzuna.
Közərən siqaretin o gecə işıq saçıb,
Xırdaca böcəklərin döndü bəxt ulduzuna.

İnsan nəfəsi dəysə, ulu dağlar ucalar,
Yansın odlar, ocaqlar, işıq zülməti boğsun.
Məsləhət təpəsinə yığışsınlar qocalar,
Bu xaraba kəndlərin bəxtinə günəş doğsun…

**1993**

## QARA TORPAQ GİRİR YUXUMA DAHA

Hanı xəyalımda yaratdığım bağ?
Ürək, mənə qəzəl oxuma daha!
Gözəllər girərdi röyama bir vaxt,
Qara torpaq girir yuxuma daha.

Qəlbimdə alışan o nurlu məşəl,
Gözümün önündə solur, ay Allah!
Qızların saçında daraq olan əl
Yuxuda dırmığa dönür, ay Allah!

Həyat verməliyəm nara, almaya,
Əkdiyim fidanlar boyumu ötsün.
Torpağın üstündə izi qalmayan,
Torpağın altına nə üzlə getsin?!

Sərv boylularım öz yerlərini
Gilasa veriblər, tuta veriblər.
Uzaqda, gün altda yanan torpağı
Mənim əllərimə buta veriblər…

**28.10.1988**

## YANDIR ATA OCAĞININ ÇIRAĞINI

Üşütməsin səni yerə düşən qırov,
Yandır ata ocağının çırağını.
Neçə ildir gözü yolda qalıbdır o,
Qaldır ilham pərisinin duvağını.

Doğma evin havasına isin, isin,
Giləlonsin o pərinin gözündə yaş.
Sənin üçün şeir oxusun, nağıl desin,
Bu həyat bir nağıl imiş elə, qardaş!

Qoy ürəyin təpər alsın yaz mehindən,
O bulaqlar əzəlki tək axsın yenə.
Qoy çiçəklər sırğa taxsın yaz şehindən,
O göylərin şimşəkləri çaxsın yenə.

Doğma yurdsuz arzuların gülü solar,
Bu yerlərdən ayrıldığın – bir qərinə.
O dərədən, bu təpədən axan sular
Sinən üstə qovuşacaq bir-birinə…

**1988**

## TORPAQ ÜSTƏ DOĞULAN YAŞIDLARIMA

Atamızın evindəki döşəmələr torpaq olub,
Taleyimiz belə gəlib, torpaq üstə doğulmuşuq.
Doğma yerdən ayrıldıqmı, gözlərimiz bulaq olub,
Mat qalmışam, elə bil ki, biz torpaqdan yoğrulmuşuq.

Ondan ayrıla bilmirik, əkib-biçmək dəlisiyik,
Tarlalarda, kövşənlərdə azmı olmuşuq ərəsən?
Bir belə ki, bu torpağın vurğunuyuq, hərisiyik,
Onun qoynuna girməkdən niyə qorxuruq görəsən?!

**1989**

## LAHIC YOLLARINDA

Dağların qucağında gəl-gəl deyir Namazgəl,
Bəs niyə Qara qaya kömür kimi qaralıb?
Dodaqlarında nəğmə, köksünün üstdə saz gəl,
Həsrətdən yamacların çiçəkləri saralıb.

Geri dönsən, Lahıcın yolu səndən küsəcək,
Gör bu yerlər nə qədər axarlı, baxarlıdı.
Qorxa-qorxa yerisən, ayağını kəsəcək,
Lahıc baltası kimi bu yollar ovxarlıdı.

Diqqətimiz gərilib, qalxırıq çay boyunca,
Babadağın zirvəsi bələnibdir buluda.
Alpinist kəndiridi elə bil Girdimançay,
Dırmanırıq yuxarı biz ondan tuta-tuta…

**12.05.1989**

## ÖMRÜN İKİ ANI

Bığ yerim təzə tərləyib,
Ürəyim vurur eşq ilə.
Saç qapqara şəvə kimi,
Ağ günlər öndədi hələ.

Ömür keçib, gün dolanıb,
Yaxındadı daha qürub.
Saçlar dümağ qar kimidi,
Qara gün marıqda durub…

**1989**

## ŞƏMKİR LÖVHƏLƏRİ

Boy atan şitillər bir gör nə deyir?
Çöllərin sükutu pozulub burda.
Hər üzüm cərgəsi bir yaşıl şeir,
Zəhmətkeş əliylə yazılıb burda.

Dəli bəbəklərin nur həsrəti var,
Adamlar oyanır günəşlə birgə.
Sanki ayaq tutub yeriyir bahar,
Onun hər addımı bir yaşıl cərgə.

Hər atlas budaqda gözüm dincələr,
Burda ağac saydım gör neçə adda.
Görünməz olubdur evlər, küçələr
Yaşıl çinarların qanadı altda.

İntizar düzənlər durub müntəzir,
İnsan əli dəysə, nələr bitirər?
Burda adamların vaxtı nə gəzir
Qonaq qarşılaya, qonaq ötürə?!

**03.07.1980**

## ŞƏHƏRDƏ YAŞAYAN KƏND ADAMLARINA

Ağladıq ürəkdən, güldük ürəkdən,
Yorğun gözümüzdən qovduq yuxunu.
Uşaqkən ayrılıb kənddən, kəsəkdən,
Şəhərdə sürsək də ömrün çoxunu, –

Heç zaman rahatlıq tapa bilmirik,
Qorxuruq hicranın buz nəfəsindən.
Uzaqda olsaq da qopa bilmirik
Anamız torpağın cazibəsindən.

Vüsal həsrətiylə titrəyir ürək,
Gedərmi sevənin yuxu gözünə?
Kəndin qəbristanı ahənrüba tək
Bizi qocalanda çəkər özünə.

Salıb yadımıza ilkin beşiyi,
Əfsanə olarıq, nağıl olarıq.
Şəhərdə tullayıb evi, eşiyi
Qayıdıb torpağa oğul olarıq…

**1991**

## QANLICA YAYLAĞINDA

**Firuzə bibimin sözlərindən**

Bura bizim oba yeri, yurd yeri,
Bura bizim yaylağımız olubdur.
Vurulubdur qoç igidlərin biri,
Göz yaşından yaylığımız dolubdur.

Qanlıcadır, qan olmayıb mayası,
Bu torpağın nə günahı, ay oğul?
Novlu bulaq, bu da Gəlin qayası,
Həqiqətdir bu gün axı, ay oğul!

Xatirələr hərəsi bir qor olur,
Hey yanıram, hünərin var qaralt da…
Qanlıcada il uzunu qar olur,
Qanlıcada qan donubdur qar altda…

**1977**

## QURUYAN AĞAC

Gərib sinəsini ildırımlara
Zərif çiçəkləri qoruyan ağac.
Göz aça bilmədin bu il bahara,
Qismətin beləymiş, quruyan ağac.

Bir kimsə gəlmədi sənin hayına,
Sanki bir igidin qolu kəsildi.
Torpağın qoynundan sənin boynuna
Axan ümidlərin yolu kəsildi.

Söz yandı şairin dodaqlarında,
Alışdı, dərdini üzə vurmadı.
Quşlar da keçən il budaqlarında
Qurduğu yuvaya yiyə durmadı.

Dərdini təkcə bir bənövşə bildi,
Yanından ötəndə yellər güləcək.
Nə sənin dərdini bu meşə bildi,
Nə mənim dərdimi ellər biləcək…

**1993**

## KÖRPÜDƏN ÇAYA BAXANDA

Sanki sular adama gəl-gəl deyir, çağırır,
Bulanığı da olur çayların, durusu da.
Axarda üzüşdükcə qarınları ağarır,
Ulduzlar tək sayrışır balıqlar duru suda.

Durub körpünün üstdən baxıram çay aşağı,
Mənim yorğun baxışım ləpələrlə öpüşür.
Balaca qarmağına balıq düşən uşağın
Çöhrəsinə, üzünə elə bil işıq düşür…

**1990**

## BU ÇƏMƏNİN ÇİÇƏK GÖZÜ

Bu çəmənin gözəlini
Axtarıram əlimyandı.
Elə bil közdü hər çiçək,
Əl uzatdım, əlim yandı.

Güllər sanki gülümsünür,
Hər təbəssüm ləçək-ləçək.
Bu çəmənin çiçək gözü
Xumarlanır məni görcək…

**1983**

## GÖZƏLLİYİN DİLİ LALDI

Yavaş-yavaş dağa qalxdı çisək, çən,
Gözlərimə gözəl Göygöl görükdü.
Camalını əsirgəmir kimsədən,
Səxavəti özündən çox böyükdü.

Ayrılmasın göy sulardan qoy əlin,
Söyləmə ki, yorulmuşam, ta bəsdi.
Yel əsəndə, dodağına Göygölün
Uçub qonar bir xəfifcə təbəssüm.

Nəyə desən dəyər bircə baxışı,
Gözmü doyar Göygöl kimi gözəldən?
Əsmək ilə, coşmaq ilə yox işi,
Gözəlliyin dili laldı əzəldən…

**1982**

## BAHAR YARADIR

Toxundu iplərə sehrkar əllər,
Qəribə naxışlar səfə düzüldü.
Günəş saçağına bənzəyən tellər
Titrək barmaqlardan axır yüz ildi.

Hər xalı çiçəkli çəmənə dönər,
Burdakı güllərin oxşarı hanı?
Yorulmaq bilmədən Zibeydə nənə
Xalıya köçürər Azərbaycanı.

Kəlməsi ilmədi, sözü naxışdı,
Zərif haşiyələr sıra-sıradır.
Saçlara baxıram, boranlı qışdır,
Əllərə baxıram, bahar yaradır…

**1975**

## SÖYÜDÜM

Baxdım səhər-səhər nəmli gözünə,
Duymadı dərdini çoxu, söyüdüm.
Nə qədər vurdular sənin üzünə
Barsız olduğunu axı, söyüdüm?!

Sənin bu büsatın düzü qəmlidir,
Bir kimsə üzünə gülməyib hələ.
Gecə ağlamısan, gözün nəmlidir,
Günəş göz yaşını silməyib hələ…

Söylə, belə dərdə dözərdimmi mən,
Niyə hamı səndən küsdü, söyüdüm?
Övladsız qadının yəqin bilirsən,
Öz dərdi özünə bəsdi, söyüdüm…

**1968**

## NECƏ QƏRİB SAYIM ÖZÜMÜ BURDA

**Qazax yazıçısı, dostum Beken İbrahimova**

Sizə məhəbbətim dönüb dastana,
Görsəniz, çaşmayın izimi burda.
Özüm gəlməmişdən Qazaxıstana,
Dostlar çox danışıb sözümü burda.

Sıxdı əllərimi mehriban əllər,
Mənə doğma imiş sizin bu ellər,
Oxşadı gözümü yamaclar, çöllər
Çeşmələr qatladı dizimi burda.

Durub Alatau bir ağsaqqal tək,
Medeo – dağların qoynunda çiçək.
Haraya baxdımsa, açıldı ürək,
Tutqun görmədilər üzümü burda.

Necə müqəddəsdir torpağı, daşı,
Gördüm, sızıldadı bağrımın başı.
Təkəli – Şuşamın əkiz qardaşı –
Durub gözləyirmiş bizimi burda?!

Cunqarın üzünü duman bürüyüb,
Yeddi çay – Taldının yeddi hörüyü.
Basıldı dağların külək körüyü,
Üfürüb oyatdı közümü burda.

Necə tanış gəlir bu dağ, bu qaya,
Sevincim köksümdə döndü bir çaya.
Elə düşündüm ki, ulu dünyaya
Nə vaxtsa açmışam gözümü burda.

Belə qərib olmaz, ay boyu bəstə,
Sən məndən sevdalı bir könül istə,
Doğma Ay yanırsa başımın üstdə,
Necə qərib sayım özümü burda?

**1989**

## ALMA-ATA GÖZƏLİNİN

Qazax dilində danışdı,
Başa düşdüm sözlərini.
Alma uzadıb dedi ki,
Bəhrəsidi öz əlinin.

Şeir oxudum, gördüm susur,
Dişi aslan, oldu quzu…
Dəlisiymiş zalım qızı
Füzulinin qəzəlinin.

“Leyli-Məcnun”dan halıymış,
Qönçə dodağı bal imiş,
İçi sevgiylə doluymuş
Onun qıyıq gözlərinin.

Dolandıq bağçanı, bağı,
İncik salmadı qonağı…
Bir almaymış hər yanağı
Alma-Ata gözəlinin…

**1989**

## PAYIZ GƏLİB OĞUZA

Yenə qızıl suyuna
Çəkilib dünya, aləm.
Yarpaqlar pıçıldayır,
Cibimdə durmur qələm –
Hey can atır kağıza,
Payız gəlib Oğuza…

Əlim budaq tək əsir,
Gözüm dağa dikilib.
Söz vərəqin üstünə
Yarpaq-yarpaq tökülüb,
Düşür dilə, ağıza,
Payız gəlib Oğuza.

Sarağanlar közərib,
Oda düşüb yamaclar.
Bu yerlərdə gəzəndə
Çaşıb qalma, ağaclar
Həzin nəğmə oxusa,
Payız gəlib Oğuza.

Dağlarda maral görüb,
Titrədi, əsdi ürək.
Bir dəli şeytan deyir,
O közərmiş yarpaq tək
Könlünü aç o qıza,
Payız gəlib Oğuza…

**03.11.1992**

## MƏNİM KÖRPƏ TUMURCUĞUM

Ağacların budağında
Göz yaşısan bircə gilə.
Hələ könül verməmisən
Xoş ətirli bircə gülə.

Mənim körpə tumurcuğum,
Həyat şirin, baldı daha.
Yaşamalı günlər gəlib,
Kirpiyini qaldır daha!

Görüm yaşıl gözlərini,
Varlığıma bahar axsın.
Sevda dolu ürəyimdə
Göy gurlasın, şimşək çaxsın.

Arzum budur son baharda
Üstünü xəzan almasın.
Baxıb sarı bənizimə,
Sənin gözlərin dolmasın.

Hələ çağlayıb axmayıb,
Bəbəyimdə sellər durur.
Aramızda aylar durur,
Aramızda illər durur.

Ürəyini qorxutmasın
Payız sözü, payız adı.
Sənin yolun ilk bahara,
Mənim yolum payızadı.

Göydə günəşi görəndə
Niyə könülsüz gülürsən?
Sən baharın ləzzətini
Payız gələndə bilərsən…

**1991**

## PAYIZ SULARI

Payız gələndə kövrəldər
Bulağı, çayı, dənizi.
Havanı tutqun görəndə
Bozarar suların üzü.

Külək əsər yavaş-yavaş,
Soyuyar payız suları.
Qapılıb öz dünyasına
Uyuyar payız suları.

Uçuşan qara buludlar
Dağın başında şal olar.
Yarpaq düşəndə suların
Ayna üzü xal-xal olar.

Elə bil ki, sarı simə
Toxunar titrək küləklər.–
Qonar gülün yaxasına
Qızıl-qızıl kəpənəklər…

**1991**

## PAYIZDA YAŞIL YARPAQ

Nahaq yerə yuxu getmir gözünə,
Qara bəxtin indi çətin oyana.
Yaşıl yarpaq, çox güvənmə özünə,
Yolun varmı son bahardan o yana?

Tumurcuğun qarşısında xəzəl var,
Sənin ömrün qırılacaq payızda.
Təhlükəni hiss eləyən ağaclar
Qılınc kimi sıyrılacaq payızda.

**1992**

## PAYIZ

Əsəndə soyuq küləklər
Dilə gəlir sanki budaq.
Dodağından qopub düşür
Dediyi söz yarpaq-yarpaq.

Payızın nəfəsi dəycək
Saralır çöllər, yamaclar.
Sarı-sarı simə dönür
Sarı yarpaqlı ağaclar.

Xəzəl quşa dönüb uçur,
Gedir, gedir uzaqlara.
Xəzan yeli kəmanə tək
Dəyir kövrək budaqlara.

Vədəsiz solan çiçəklər
Arzuları daşa çalır.
Doluxsunmuş buludların
Gözlərindən yaş açılır…

**1991**

***

–Oldum yollarda ərəsən.
–Qanında çeşmələr axır.
–Niyə coşqunam görəsən?
–Pəncərən dənizə baxır…

**1991**

***

Bəzən düşünürəm:
nə üçün doğulmuşam,
öləcəyəmsə
əvvəl-axır?!
Şimşək çaxır
gözlərimin qarasında.
Qolarının arasında
uyumaq istəmirəm əzrayılın.
Kötürür məni fikir:
– Buna da şükür!
Nə yaxşı ki, doğulmuşam,
nə yaxşı ki, çəmənlərdən
çiçək dərmişəm.
Udmuşam havasını dağların,
bağların barından dadmışam
heç olmasa.
Marsa, aya uça bilməsəm də,
izləmişəm kosmik uçuşları.
Quşları heyran qoymuşam
zəkamın qanadıyla.
Adıyla öyünmüşəm
Babəkin, Cavanşirin…
Şirin-şirin dinləmişəm
nənəmin nağıllarını.
Oğullarını itirən ananın
dərdini sezmişəm.

Gəzmişəm vətən çöllərində,
göllərində, çaylarında
çimmişəm.
Fürsət var ikən
dağlara, dərələrə
yenidən baxmaq istəyirəm.
Küçə olub
sərilmək istəmirəm
ayaqlar altına,
çiçək olub ayaqlar altından
qalxmaq istəyirəm…

**1977**

## ŞAMAXIDAN QAYIDIRAM

Əllərimdə
Şamaxı lalələrinin avtoqrafı,
ürəyimdə düzlərin genişliyi,
bulaqların sərinliyi.
Gözlərimdə dağların ucalığı,
dərələrin dərinliyi.
Ciyərlərimdə meşə havası,
qulaqlarımda
bulaqlar nəğmə oxuyur
şirin-şirin.
Başımda
Pirqulu heyrəti,
Dodaqlarımda
Sabir şeri…

**15.05.1977**

## GİR DƏNIZƏ, OĞLUM

Gir, oğlum, gir dənizə!
Peşiman olmazsan
çimdiyinə.
Ayaqların həsrət qalmasın
balıqqulağı çimdiyinə;
Gözlərin dəniz maviliyinə,
suların parıltısına;
Dodaqların dəniz duzuna,
qulaqların ləpələrin şırıltısına.
Öyrən üzməyi, baş vur dərinə.
Körpə əllərini ver
Dənizin ləpə əllərinə.
Qurulan şəfəqlər altında,
tunca dönsün bədənin.
Qəlbi də dəniz olar,
dənizlə dostluq edənin…

**1977**

## ÜÇ BACI

Bakıdakı çarhovuzların birində üç qız heykəli var.

Haçansa soyunub
giriblər hovuza,
üç gözəl, üç bacı.
Çıxmaq istəyəndə sudan
tapmayıb paltarlarını
ağlayıblar acı-acı.
Görəndə sahildəki insanları
donublar bacılar.
Həyadan heykələ
dönüblər bacılar…

## TUT AĞACI

Budaqlarım
doğram-doğram doğranar;
mişarlanar,
baltalanar,
dəhrələnər…
Hər kəsilən
qolumun yerindən
neçə-neçə təzə budaq
pöhrələnər,
boylanar günəşə,
can atar bahara…
Təzədən doğranar qollarım,
təzədən Prometey kimi
dözərəm ağrılara.
Atlas, ipək olub
gözəlləri qucaqlayanda
sızıltısı kəsər qollarımın…

**1987**

***

Ötən günlərin üstünə
təskinlik qarı yağır…
Göz yaşına dönürsə bu qar
ürəyimin atəşində,
neyləyim mən biçarə,
neyləyim mən fağır?

***

Aylı gecələrdə
qapımızdakı paslı qıfıl
ağlayır.

**1987**

***

Bu baharın yarpağı tanımaz,
tanısa, bu ağac tanıyar məni.
Bu bulağın suyu tanımaz,
tanısa bu daş tanıyar məni…

***

Dünyamızın qaşıdırmı üfüqlər?
Günəş gözdü, kirpikləri şəfəqlər…

**1977**

## MƏN SƏNİ ƏKMİŞƏM

Səni qələm vurub əkdim torpağa,
Axdı ürəyinə yerin atəşi.
Tumurcuq gözlərin döndü yarpağa,
Yarpaq ovucların uddu günəşi.

Mən səni əkmişdim bahar eşqinə,
Mənim bahar eşqim ürəyin oldu.
Gözümün nurundan su verdim sənə,
Əlimin zəhməti çörəyin oldu.

Boy atdın, ucaldın, çırpındı ürək,
Sən öz sükutunla danışdın, dindin.
Qızlar bulağından içib qızlar tək
Özün də qənirsiz gözələ döndün.

Bir səhər nə gördüm, görməyəydim kaş
Nadanlar nə günə qoymuşdu səni?!
Yaranın yerindən süzülürdü yaş,
Bir nankor bıçaqla soymuşdu səni…

…Söyüd danışırdı səsində qiyam,
Sükutun dilini bilənlər azmı?
Bu gün bir pərişan söyüdə qıyan,
Sabah bir gözələ əl qaldırmazmı?

Bu sual tərk etmir könlümü bir an,
O əl gözəlliyə bəs necə qıydı?
Söyüd yarpaqları deyildi, solan
Bir nankor xəbisin arzularıydı…

**1978**

## ŞABAŞ

Ömrün qızıl məqamında
Düşür yarpaqlar.
Bu meşədə gör nə qədər
Xəzəl, yarpaq var!

Biz köçsək də bu dünyadan,
Dünya boşalmır.
Budaqlarda bir yarpağın
Yeri boş qalmır.

Bu xəzəllər elə bil ki,
Qızıldı belə.
Bu ağaclar şabaş verir
Yüz ildi belə…

**1990**

## BAHAR APARMIŞDIQ ORABANA BİZ

**Dostum Nazim Yusibova**

Oraban çayından atlanıb keçdik,
Xatirə göyərdi izlərimizdə.
Dörd dost bulağının suyundan içdik,
Dünya gözəlləşdi gözlərimizdə.

Tumurcuq gözünü açdı ağaclar,
Gün çıxdı, kükrəyib kəsdi yolu su.
Yamacda səs-səsə verdi turaclar,
Dağlar nəfəs aldı sinə dolusu.

İtdi qəlbimizdən dərdlər, ağrılar,
Nəsib dayının da gülürdü üzü.
Dağın qolları tək haça cığırlar
Açılıb, qoynuna çağırdı bizi.

Yazın xoş nəfəsi gördü işini,
Hayana baxırsan güldü, çiçəkdi.
Günəş yüz on yaşlı Rəcəb kişinin
Qırış sifətinə ütümü çəkdi?

Üzünə yazılıb onun dünəni,
Danışdı, gözündən sellər ötüşdü.
Çiçəyi çırtladı Göyçək nənənin,
Gəlinlik çağları yadına düşdü.

Nazim nə düşündü, Akif nə dedi? –
Tutdu gülüş səsi dərəni, düzü.
Sanki dost gəlişi toy-bayram idi,
Cavanın, qocanın gülürdü üzü.

Sevincdən qəlbimiz uçdu quş kimi,
Sısqa bulaq idik, bir dəniz olduq.
Bu il Orabana qaranquş kimi
Bahar müjdəsini verən biz olduq…

**13.04.1983**

## DAĞLAR DÜŞÜNÜRDÜ

Bələd oldum suyu dəycək dilimə,
Bu yerlərin torpağına, daşına.
Cığırları dəstələyib əlimə,
Kəmənd atdım zirvələrin başına.

Alçalmağa məcbur etmə ucanı,
Bir gözəllik sərgisi var çəməndə.
Zirvələri tərpətməyə güc hanı,
Kəmənd atan özü düşər kəməndə.

Vətənimə gələn oxa sinə gər,
Belə olub bu dağların tələbi.
Göylə yerin sərhəddidir zirvələr,
Qartallarsa sərhədçidi elə bil.

O tapıbdır ucalığın yolunu,
Kim birinci can atıbsa günəşə.
Göydən gələn ildırımın, dolunun
Qarşısına çiyin verib həmişə.

Bu dağların nisgilini kim duyub? –
Görünsə də zirvəsindən uzaqlar,
Bu dağların ayağına baş qoyub,
Hönkür-hönkür ağlayırdı bulaqlar.

Uzaq düşüb el-obadan, yaxşı bax,
Nə ucadı, nə hündürdü bu dağlar.
"Papağını qarşısına qoyaraq"
Elə bil ki, dərələri, düzləri,
Meşələri düşünürdü bu dağlar…

**30.07.1977**

## DAĞ PAYI

**Dostum Tofiq Hüseynliyə**

Uca dağlar həsrət ilə baxır dənizə,
Dağ çayları dağdan qopub axır dənizə.
Neçə-neçə dərələrin, sərt dolayların
Həsrətini ümmanlarda uyudur yəqin.
Düşünürəm, dağdan gələn bu dağ çayları
Ucalığın dərinliyə payıdır yəqin…

**31.07.1977**

## ƏBƏDİ QONŞULAR

Demə ki, bu dağlar qocalıb, düşüb,
Alçaqlıq dərənin xisləti imiş. –
Birinin payına ucalıq düşüb,
Birinin dərinlik qisməti imiş.

Əvvəl dərəyə en, sonra dağa qalx,
Seyr elə onları yaxından, gendən.
Dağsız dərə olmaz, dərəsiz də dağ,
Onlar qonşudular yaranan gündən.

Ömrün yoxuşuna, enişinə döz,
Gör insan nə qədər bəxtiyar imiş.
Hər yan düz olsaydı, yorulardı göz,
Yaxşı ki, dərələr, dağlar var imiş…

**1986, Şuşa**

## ZİRVƏDƏ BİTƏN PALID

Palıd uca göstərir kök saldığı dağları,
Yellər vecinə deyil, tufanlarla çarpışıb.
Torpağa elə möhkəm işləyib ki, zoğları,
Sanki qartal ovundan caynağıyla yapışıb.

Dayanıb gövdəsinə hamı heyrətlə baxır,
"Qartal"ın hər qanadı nəhəng budağa dönür.
Dartınır, caynağında qaldıra bilmir dağı,
Ancaq özü boy atır, dağ üstə dağa dönür…

**1986, Şuşa**

## YAŞILLIQ NƏĞMƏSİ

Elə ki, bulaqlar nəğməkar olar,
Şırıltı bir həzin nəğməyə dönər.
Balaca arxlarda şütüyən sular
Axar ağacların təşnə ömrünə.

Əgər yolu düşsə quru çöllərə,
Çiçəkli bir xalı toxuyar bulaq.
Əzəldən gözəllik sevən ellərə
Yaşıllıq nəğməsi oxuyar bulaq.

Kirisə, çiçəklər saralar, solar,
Pozular dünyanın yaraşığı da.
Gündüz dünyamızı çimdirən sular
Gecələr yuyunar ay işığında…

**1975**

## DAŞLI DƏRƏ

Torpağında baş qaldırar
Nərgiz, zanbaq, nilufər,
Daşlı dərə, yaz gələndə
Daşlarını sel öpər.
Daş kövrələr daşlığıyla,
Daş dodaqlar dil açar.
Daşlı dərə, daşlarının
Sinəsində gül açar.
Kimlər gəlib, kimlər gedib, –
Eh, mənim də
yoxluğuma dözərlər.
Daşlı dərə, daşın olum,
Əyləşsinlər üstümdə
Suya gələn gözəllər…

**1977**

## BƏNÖVŞƏ

Bahar dostu, çiçək dostu olanlar,
Gəlmişəm ki, təbrik edim sizi mən.
Nə olsun ki, beş-on günlük ömrüm var,
Baharın ilk sözü mənəm, sözü mən.
Tapdanaram, necə çıxım yola mən? –
Səngərimdi, sığınmışam kola mən.
Bahar məni bir əsgərə döndərib,
Əbəs yerə hədələyir qış onu.
Bahar məni kəşfiyyatçı göndərib,
Hazır durub onun çiçək qoşunu…

**1978**

# ƏSGƏR NƏĞMƏLƏRİ

## BİZ ƏSGƏR GEDİRİK

Neçə sevən qəlbdə yara qövr elər,
Hicrana düşənlər oda yandılar.
Biri gül gətirər, biri kövrələr,
Adamlar nə qədər mehribandılar!

Bu gecə analar narahat yatar,
Onlar isti corab toxuyar indi.
Bir vaxt ayrı nəğmə oxuyan qatar
Əsgər nəğmələri oxuyar indi.

Sıxar əllərimi neçə dost əli,
Neçə dost öpüşü havada qalar.
Dolanar bir anda obanı, eli,
Xəyalım göylərdə hey qanad çalar.

Arxamca boylanar, boylanar o qız,
Hicrana dözəni mətin sayırıq.
Çıxıb döyüşlərdən ata-babamız,
Bizsə əsgərliyi çətin sayırıq.

Həyat öz sirrini danışar yenə,
Çıxar yollarıma çətin yoxuşlar.
Ancaq çox çəkməz ki, bu həyat mənə
Mətanət bağışlar, hünər bağışlar…

**1971**

## ƏSGƏR PALTARI

Geyindim əynimə əsgər paltarı,
Anam öz oğluyla öyünə bilər.
İndi varlığımda, indi sinəmdə
Bir əsgər ürəyi döyünə bilər.

İstəyirsən məni odlara yandır,
Nə olar, bərkiyib olaram mətin.
Əsgər paltarını geymək asandır,
Əsgər şərəfini qorumaq çətin…

**1971**

## ƏSGƏR ŞİNELİ

Həm gözəldir, həm qəşəng,
Əsgər şineli.
Həm yorğandır, həm döşək
Əsgər şineli.

Kim geyinsə əyninə,
Qızar bədəni.
O, əsgəri qoruyar,
Əsgər vətəni…

**1971**

## ƏGƏR ƏSGƏRSƏNSƏ

Qırıb keçməlisən qışın buzunu,
Həziyə, Polada oxşamalısan.
Əgər əsgərsənsə, ömrün uzunu
Həyəcan içində yaşamalısan.

Biryolluq könlündən şübhələri boğ,
Nəyinə lazımdır, axı nəyinə?
Deyirsən: –Döyüş yox, müharibə yox,
Eh, nə var indinin əsgərliyinə.

Alınmaz qaladır dayandığım post,
Gərək öz mərdliyin səni tanıda.
Əsgərliyə nə var, söyləmə, ay dost,
Əsgər döyüşdədir sülh zamanı da…

## İKİ ƏSGƏR

Sil gözündən o yaşları, nədir qüssə, qəm?
Niyə mənim ürəyimi oda salırsan?
Mən vətəni qorumaqçın əsgər gedirəm,
Sən eşqimi qorumaqçın əsgər qalırsan…

**1971**

## TƏLİMDƏ

O gecə getmişdik hərbi təlimə,
Ataş kəsilmədi səhərə qədər.
Mən öz silahımı alıb əlimə,
İrəli cumurdum dilimdə zəfər.

Ayağım altında qayalar diş-diş,
Giley yeri deyil, nə danış, nə din.
O böyük sərkərdə – Suvorov demiş:
Döyüşü asandır çətin təlimin.

Səmada yox idi nə duman, nə çən,
Yerdə göy gurlayır, şimşək çaxırdı.
Ataş! – deyən kimi neçə lülədən
Gecənin qoynuna ulduz axırdı.

Meydan oxuyurdu sanki yer göyə,
Zülməti fişənglə sillələyirdik.
Səhər tez açılsın, tez gəlsin deyə,
Elə bil gecəni güllələyirdik…

**1972**

## ƏSGƏR MƏZARLARI

Gəlir yer altından sanki bir səda,
Xeyir, ölməmişik, hələ sağıq biz.
Bir ana qəlbindən qopanda nida,
Torpağın altından qalxacağıq biz.

Sinəmizdən axan o qızıl qanı
Biz havayı yerə itirməmişik.
Əsgər məzarları tutub dünyanı,
Hələlik xidməti bitirməmişik.

Gərək mərd sonacan eli yarıda,
Bu torpaq bizimçün səngərdir elə.
Bil ki, əsgərlərin məzarları da
Bu dünya durduqca əsgərdir elə…

**1972**

## POLADA DÖNMÜŞƏM

Vətənçin döyüşən mərd oğulların
Nələr çəkdiyini indi duymuşam.
Vaxt olub üstündə yatmışam qarın,
Başımın altına daş da qoymuşam.

Gecələr qalmışam çölün düzündə,
Şaxta kəsib məni, yenə dözmüşəm.
Yayın istisində, qışın buzunda
Çöllərdə özümə səngər qazmışam.

Çox şeyə qadirəm, indi nə dərdim,
Daha qorxutmayır dərə, dik məni.
Yanımdan yel ötsə, xəstələnərdim,
Polada döndərib əsgərlik məni…

**1972**

## ANAMA MƏKTUB

Doğma övladından qalmısan gendə,
Salam, əziz ana, oğlundan salam!
Bilirəm, durmusan əlin çənəndə,
Deyirsən: – Görəsən necədir balam?

Darıxma, anacan, kefim pis deyil,
Bir-bir günlərimi salıram yola.
Təsəlli verirsən: – Nədir ki, bir il,
Hamı əsgər gedir, darıxma, bala!

Orda olanda da elə beləydin,
Yollara baxardın darıxanda sən.
Deyirsən: – Ay oğul, kaş tez gələydin! –
Təsəlli verən də, darıxan da sən.

Həyat yollarında ağarıb başın,
Nələr çəkməmisən sən bizdən yana?!
Döyüşdən gəlməyib iki qardaşın,
O vaxtdan qalmısan sən yana-yana.

İki yara varmış sənin bağrında,
Bu dərdə acizlər çətin ki, dözə.
Sonra öyrəndim ki, vətən uğrunda
Gedib dayılarım gedər-gəlməzə.

Açılıb ölümün qorxunc qolları,
Həyat dönməzləri arayır, seçir.
Mən indi bildim ki, cəbhə yolları
Bütün anaların qəlbindən keçir.

Söhbət uzun çəkdi bir az deyəsən,
Anacan, qəlbini bürüməsin qəm.
Bir də ki, mənimçin heç darıxma sən,
Vətənə borcumu verib, dönərəm.

Düşməni didərəm bil ki, dişimlə,
Oğlunun hər yerdən görünər yeri.
Elə gələrəm ki, bu gəlişimlə
İtkin dayılarım qayıdar geri…

**20.01.1972**

## VƏTƏNİN KEŞİYİNDƏ

Hələ bir şey yoxdur yazdıqlarımda,
Bolluca təsəlli, ümid var ancaq.
Əsgər həyatından yazdıqlarım da
Yəqin könlünüzü oxşamayacaq.

Sözümdə nə gül var, nə də ki çiçək,
Hələ gəlməyibdir bura yaz, gülüm!
Misralar gəlsə də xoşuna tək-tək,
Sənin albomuna yaramaz, gülüm.

Ayaq səslərimiz ucalır göyə,
Vətən zəfərlərə çağırır bizi.
Hər vaxt polad kimi bərk olaq deyə,
Bu həyat təzədən qoruyur bizi.

Keşikdə görərsən, məni keşikdə,
Gecəni gündüzə qatıram indi.
Yata bilməyirdim yorğan-döşəkdə,
Torpağın üstündə yatıram indi.

Ancaq ki, bir qədər gödəkdir dilim,
Yarışda çox zaman dostlarım udur.
Bir vaxt təkcə qələm götürən əlim,
Həm avtomat tutur, həm qələmtutur.

Keşikdə durmuşam, zarafat deyil,
Hər vaxt sayıq olam gərək yerimdə.
Mənə ağır gələn avtomat deyil,
Vətənin haqqıdır çiyinlərimdə…

**1972**

## ESTAFET

Ellər bu ənənəyə
Hər vaxt alqış deyəcək.
Atam geyən şineli
Bu gün
mən geyinmişəm,
Sabah
oğlum geyəcək…

**1972**

## SEVGİLİSİ ƏSGƏR OLAN QIZLARA

Gözünüz yol çəkər aylardan bəri,
Pıçıldayarsınız hey həzin-həzin.
Girər yuxunuza addım səsləri,
Qəlbiniz quş kimi çırpınar sizin.

Bu qədər hicrana dözdünüz necə?
Çətindir söyləsəm, inciyərsiniz.
Əsgər məktubunu açıb gizlicə,
Sözlərin oduna isinərsiniz.

Hicran eşq odunu soyutmasa da,
O ötən illərin görünər yeri.
Eh, illər geriyə qayıtmasa da,
Sizin sevgiliniz qayıdar geri…

**1972**

## AYAQ DÖYƏNDƏ DƏ

Titrək əllərinə yetişər əlim,
Ömrünə az qalıb intizarın da.
Sükut eləyirsən, niyə, sevgilim? –
Könlüm məktubunun intizarında.

Ay keçər, həftələr qopar yerindən,
Seyrələr sinəmdən o dərd, o ağrı.
Ayaq döyəndə də öz yerimdə mən
Sanıram gedirəm hey sənə doğru…

**1971**

## ETİRAF

Hey ayaq döyürəm hələ yerimdə,
Bizə əsgərlikdə cavan deyirlər.
Hələ özüm kimi şeirlərim də
Həqiqi mənada əsgər deyillər…

## TƏLƏS, AY QATAR

Qatar yola çıxır: “tıq-tıq, trık-tık”…
Götürür hər yanı səsi, səmiri.
Gedir ayağında bir "dəmir çarıq",
Ayaqlayıb keçir dəmir dəmiri.

Vaqonlar elə bil poçt qutusudur,
İnsanlar içində məktublar kimi.
Qatar nəfəs alıb dayanır, budur
Məktublar ünvana yağır qar kimi…

Yerə düşənlərdən biri də mənəm,
Ünvana çatmaqçın dönmüşəm yelə.
Nə vaxtdır yolumu gözləyir nənəm,
Bilirəm, savadı olmasa belə

Məni oxuyacaq, basıb bağrına,
Deyəcək: özündən, işindən danış.
Hələ atam, anam, bacım bir yana,
Yığılacaq bizə neçə dost, tanış.

Kəndimiz mənimçin darıxıb yaman,
Hər yerdə bir cürə dinəcəyəm mən.
Sevdiyim gözəllə görüşən zaman
Sevgi məktubuna dönəcəyəm mən…

Bilirəm, hər kəsin könlündə söz var,
Gərəkdir yetişə söz ünvanına.
Yollarda ləngimə, tələs, ay qatar,
Məktublar tez çatsın öz ünvanına...

**1971**

## GÜNLƏRIM

Yola salıb ötən günlərimi,
Gedirəm üzü sabaha.
Günlərim patrona bənzəyir,
Zaman silaha.
Ürəyimdə dünyanın
qoyduğu izlər…
Ötən günlərim –
Boş qalan gilizlər…

**27.12.1971**

*******

Quşbaşı qar yağır, hər tərəf dümağ
Deyən sərt olacaq bu ilki qış da.
Addım atan kimi sürüşür ayaq,
Gərək məşq edəsən qarda, yağışda.

Qorxma bu çovğundan, gücünü göstər,
İgid öz adını dəyişə bilməz.
Eh, qardan, çovğundan çəkinən əsgər,
Qəddar düşmənlərlə döyüşə bilməz.

**1972**

## DƏMİR KİMİ

Ölümün dik gözünə bax,
Sən qorxunu saya salma.
Dəmir kimi bərk ol, ancaq
Dəmir kimi soyuq olma…

**01.01.1972**

## SAĞLIQLAR SÖYLƏYƏNDƏ

İstəyirəm alışsın ürəyim məşəl kimi,
Təzə il, təzə arzu, yazılmamış vərəqlər.
Bu yel qanadlı illər görünməz bir əl kimi
Ömrümün kitabını yavaş-yavaş vərəqlər.

Ürəyim inləsə də hicranın pəncəsində,
Ağlayıb darıxmasın, qoy mənim sevdiyim qız.
Bilirəm, köhnə ilin sonuncu gecəsində
Təzə ilin eşqinə badə qaldırırsınız.

O sağlıqlar hamısı gözəldir, ancaq dayan,
Nuş olsun, mey içirsiz boran məni döyəndə.
Mümkünsə təzə ili keşikdə qarşılayan
Əsgəri unutmayın, dostlar, sağlıq deyəndə…

**01.01.1972**

## CAN SAĞLIĞI

Enməyi, qalxmağı bacarmalısan,
İstər dərə olsun, istər dağ olsun.
Bir şey itirəndə dünyada insan
Deyirlər: –Qəm yemə, canın sağ olsun!

Söylə kimin gözü həyatdan doyub?
Kim sevmir ömrünün gənclik çağını?
Dünyanın ən gözəl neməti sayıb
Atalar, babalar can sağlığını.

Bəlkə dərd əlindən üstələnməsəm,
Ətrini bilməzdim can sağlığının.
Kim bilir, bəlkə də xəstələnməsəm,
Qədrini bilməzdim can sağlığının…

**16.01.1972**

## ƏSGƏRLİYƏ NƏ VAR

Mənalı olmazdı bəlkə də həyat
Həmişə insanın kefi çağ olsa.
Heç sənin yanına gəlməzdim, həkim,
Sürünə-sürünə yaşamaq olsa.

Ucalmaq həvəsi vursa beynimə,
Duraram, şineli geyib əynimə.
Dərin uçurumlar gəlməz eynimə,
Qalxaram, nə qədər uca dağ olsa.

Xalqın gözlərində daş-tərəzi var,
Gözəl bir iş görsən, alqışlayarlar.
Başqa günahını bağışlayarlar,
Vətənin yanında üzün ağ olsa.

Bu ülvi gözəllik təbiətindir,
Həyat yollarında insan mətindir,
Dostlar, qınamayın, mənə çətindir,
Əsgərliyə nə var canın sağ olsa…

**19.01.1972**

## GEDİR

Sonalar azalır, nə olsun demə,
Yadında saxla ki, gölündən gedir.
Ceyranlar azalır, batmışam qəmə,
Sənin çəmənindən, çölündən gedir.

Bu məhzun görkəmin gələrmi xoşa?
Qızıl dəqiqələr gedibdir boşa.
Vurduq bu günü də birtəhər başa,
Nə olar, qəm yemə, ilimdən gedir.

Təngə gətiribdir səni boran, qar,
Eh, nə vaxt gələcək görəsən bahar?
Ay Rafiq, hər şeyin bir əlacı var,
Heyf ki, sağlığın əlindən gedir…

**16.01.1972**

# AYLI NƏĞMƏLƏR

## NƏ BİLƏRDİK

Sevməsək, ay tək nur saçan
Üzün qədrin nə bilərdik?
Sevda ilə dolub daşan
Gözün qədrin nə bilərdik?

Boran aldı üstümüzü,
Oğurladı istimizi.
Boğmasaydı tüstü bizi,
Közün qədrin nə bilərdik?

Doğma sayardıq hamını,
Gəzməzdik atın xamını,
Dadmasaq şitin tamını,
Duzun qədrin nə bilərdik?

Bu meydana girməsəydik,
Haqqa könül verməsəydik,
Əyriləri görməsəydik
Düzün qədrin nə bilərdik?

Ürəklərdə nur olmasaq,
Sular kimi durulmasaq,
Füzuliyə vurulmasaq,
Sözün qədrin nə bilərdik?

Sevgi – ömrün yaraşığı,
Həsrət – könül sarmaşığı…
Sevməsək Sarı Aşığı,
Sazın qədrin nə bilərdik?

Ayrılıq bizi yaxmasa,
Gözümüzdən yaş axmasa,
Çoxdan əlimiz çıxmasa,
Azın qədrin nə bilərdik?

Ustayam, deyiləm naşı,
Havalanıb könlüm quşu,
Görməsək boranı, qışı,
Yazın qədrin nə bilərdik?

**1991**

## AYLI NƏĞMƏLƏR

Qəlbinə sevgi düşənin
Yuxu gedərmi gözünə?
Ayağım yerdən üzülür,
Ay məni çəkir özünə.

Onun bircə təbəssümü
Yerimdən qoparır məni.
Uşaq tək əlimdən tutub,
Harasa aparır məni…

***

Mən yuxuya gedən kimi
Göydən Ay aşağı düşür.
Yazdıqlarımın üstünə
Gəlib Ay işığı düşür.

Həsrət dolu misraların
Gözlərinə getmir çimir.
Ürəyimin arzuları
Səhərəcən çimir, çimir…

Açılır sətirlərimin
Qırışığı, uyuşuğu.
Yarımçıq qalan şerimi
Tamamlayır Ay işığı.

Cızmaqaramı oxuyub,
Ah çəkəni qınamıram.
Axşam yazdığım nəğməni
Səhər durub tanımıram…

## AYIM

Ayım, niyə küskünsən?
Yorğunsan, ya üzgünsən?
Sevənlərin baxdığı
Bir sehrli güzgüsən.

Toy-bayramdı gəlişin,
Səadətdi gülüşün,
Gecələr şairləri
Dəli etməkdi işin.

Məni soyuqca süzmə,
Sevən qəlbimi üzmə.
Pəncərədən gir evə,
Üzünü qoy üzümə…

**1988**

## AYLI GECƏ

Aylı gecə, aylı gecə
Axdı ömrümə, ömrümə.
Aylı gecə, Ay gözünlə
Baxdın ömrümə, ömrümə.

Aylı gecə, aylı gecə,
Bir ay üzə vurulmuşam.
Aylı gecə, aylı gecə,
Əcəb bəxtəvər olmuşam!

Göyün ulduz "məməsindən"
Gecə nənə işıq sağar.
İntizarlı gözlərimə
Ulduz-ulduz işıq yağar…

Bulud gördüm, elə sandım
Göydə kimsə qurub çadır.
Ay girdi buluda, neynək,
Ay üzlüm ki, yanımdadır?!

**1977**

## AYLA ÜZ-ÜZƏ

Mən Aya baxan zaman
Halım pərişan olur.
Mən Aya baxan zaman
Qəlbimə sevgi dolur.

Sanki söhbət edirəm
Ən mehriban adamla.
Ürəyimə həsrətin
Süzülür damla-damla…

Ay məni dəli edib,
Yuxum ərşə çəkilib.
Bilirəm ki, sənin də
Gözün Aya dikilib.

Sevənlərin yoluna
Nur çiləyən o fənər
İntizar baxışların
Görüş yerinə dönər…

## AYDINLIQ GECƏLƏRDƏ

Eşqin yolu üstündə
Hər işıq mayak olur.
Sevənlərin hamısı
Gecələr oyaq olur.

Arzular qönçə tutur
Ay işığından içib.
Səyyarələr içində
Gözüm bir ulduz seçib.

Aydınlıq gecələrdə
Quş olmaq istəyirəm.
Mən uçub ulduzlara
Qoşulmaq istəyirəm.

Onlara əlmi çatar? –
Ulduzlar çox qəlbidi.
Hərəsi bir sevənin
İşıq  saçan qəlbidi…

**1991**

## ETİBARLI DOST

Hər qonaq mənim başıma
Dolandı pərvanə kimi.
Kövrəldim, sinəmdə ürək
Titrədi bir nanə kimi.

Axşam düşdü, şər qarışdı,
Dostlarım döndülər geri.
Son közləri öləzidi,
Bumbuz oldu ocaq yeri.

Göyə baxdım, qəlbim əsdi,
Bu ay məndə ürək qoymur.
Təkcə o, etibarlıdı,
Gecələr məni tək qoymur…

## YARPAQLARIN ARASINDA ÇİÇƏKLƏYƏN AY

**Rəsul Rzaya**

Bu gecənin sükutunda bir dəli haray,
Bu gecənin camalına olmuşam əsir.
Yarpaqların arasında çiçəkləyib Ay, –
Bu lövhəni seyr etdikcə ürəyim əsir.

Yarpaqların arasında çiçəkləyən Ay,
Bu dünyanın ən bəxtəvər çiçəyi imiş.
Yarpaqların arasında çiçəkləyən Ay,
Deməyəsən, bir şairin ürəyi imiş…

**1986**

## KOR AY

İşığa qərq edir cığırı, izi,
Ay çölə, çəmənə çağırır bizi.

Nurundan pay verir dərəyə, düzə,
Hər şeyi, hər şeyi göstərir bizə.

Ancaq özü kordu, heç nəyi görmür,
Şeh altda üşüyən çiçəyi görmür.

Odundan od alıb yanan gözləri,
Yarası nur saçan ürəyi görmür…

**1988**

***

Qapını açdım,
Ay girdi evə.
Qapını örtdüm,
Ay çıxdı çölə.
Onu dustaq eləyib
evdə saxlayan
anadan olmayıb hələ…

**1988**

***

Yaşıl işıq
gəl-gəl deyir,
qırmızı – dayan,
sarı – hazırlaş! –
Ayım, nə qədər
sənin üzünə
baxa-baxa dayanım?

# AY

Yuxusu qaçanlara
Ümiddi, dayaqdı Ay.

Yarım, yoldaşım yatıb,
Yaxşı ki, oyaqdı Ay.

Şairlərin yoluna
Nur saçan mayakdı Ay…

**1988**

***

"İçi qəm-qüssəylə dolu
Solğun Ayı sındırdılar."

**F.Q.Lorka**

Solğun Ayı sındırdılar,
İçindəki qüssə, həsrət
çilik-çilik olub səpildi
sevənlərin ürəyinə…

**1988**

# YAXŞI Kİ, DÜNYANIN SEVƏNLƏRİ VAR

## FÜZULI MEYDANI

Görüş yeri təyin etdik
Füzuli meydanını.
Unutmaq olarmı o görüşün
tək bircə anını?!
Gözlər, ürəklər
danışdı bu meydanda.
Məhəbbət çırağı
alışdı bu meydanda.
Həsrətlə süzürdüm
sevdiyim gözəli,
bu dəm
səsləndi qulağımda
Füzuli qəzəli.
Unutdum özümü,
Susdum,
heykəlinə dikərək gözümü…
Məhəbbət yolunda
əridi gilə-gilə,
şam kimi,
kim deyir o yanmadı?
Oyatdı qəlbimizi fəğanı,
qara bəxti oyanmadı.
Elə bil şeir oxuyurdu
əyərək başını.
“Şəbi-hicran”ı dinləyə-dinləyə
atdıq ayrılığın daşını.

Birləşdi əllərimiz,
peyman bağladıq.
Sevinc qəhəri boğdu bizi,
ağladıq…
Həsrət dolu misralar
həsrət qəlbimizə axdı.
Füzuli meydanı –
Məhəbbət dünyasının paytaxtı. –
Bu ad çox yaraşır ona.
Sevməyi bacarmayanlar,
şeirə biganələr
girməsin bu meydana…

**1969**

## ŞAİRIN GÖZÜNDƏN ÇIXAN GÖZ YAŞI

Dedin: – Ağlamırsan, daşsan elə bil,
Mənimsə gözümdən gur sellər axır.
– Şairin göz yaşı gözündən deyil,
Şairin göz yaşı qələmdən çıxır…

Sinəmdə ağrılar çalxanır, daşır,
Sənin gileylərin hədərdir, hədər.
Şair qələmindən çıxan göz yaşı
Kağızlar üstündə nisgil göyərdər…

**1988**

## KÖNLÜM

Könlüm qırıq şüşədi,
Ümidi günəşədi.
Sevinci – kol dibində
Gizlənən bənövşədi.

Dağ yanında dağ könlüm,
Zirvələri ağ könlüm.
Qəm-qüssə hasarının
İçində dustaq könlüm…

**1988**

## DÖRD FƏSİL

Dörd fəsil –
dünyanın dörd üzüdü,
zamanın dörd təkəri,
ilin dörd sözüdü…
Ürəyin dörd xanası,
dörd sevinci,
dörd əzabıdı.
Təbiətə açılan
dörd sehrli qapıdı…

**1988**

***

İtdin o dağın arxasında;
o dağ ayrılığın sərhədi –
keçilməz hasarıdı.
Ancaq…
Dalınca qüruba baxmıram,
üzüm gündoğana sarıdı.
Əgər doğrudan da,
günəşsənsə,
yenidən qayıdacaqsan
ömrümə…

**1988**

## YAXŞI Kİ, DÜNYANIN SEVƏNLƏRİ VAR

Dünya neçə dəfə ağ bələnsə də,
Qəlbimin başında bir işıq yanar.
Bu eşqin üstünə qar ələnsə də,
O qarın altından qəlbim boylanar.

Hələ neçə dəfə gözün dolacaq,
Neçə yol dönəcək ömrünə bahar.
Sanma ki, bu sevda yetim qalacaq,
Yaxşı ki, dünyanın sevənləri var…

Gözümü gözündən etdilər sürgün,
Vətən nisgilini qərib görəcək.
Qar altdan boylanan qəlbimi bir gün
Bir gənc öz yarına dərib verəcək.

Üstümə yağacaq dümağ ləçəklər,
Ala gözlərinə olum sadağa.
Yaxşı ki, dünyada sevən ürəklər
Nə qoruq tanıyır, nə də qadağa…

**1997**

## QUŞ DİMDİYINDƏN DÜŞƏN SEVDA

Körpəcə bir bulaq idim,
Gur çaya dönəcək ömrüm.
Bir quş dimdiyindən düşən
Sevdaya dönəcək ömrüm.

Ətri qalıb çiçəklərdə,
Yaxası şux küləklərdə.
Məni duyan ürəklərdə
Sədaya dönəcək ömrüm.

Sinəm öləziyən ocaq,
Dostdan, yardan ayrılacaq,
Görüşlərdən sıyrılacaq,
Vidaya dönəcək ömrüm.

Zaman titrəyir saçımda,
Qəlbim ömür ağacımda,
Həyatımın son ucunda
Nidaya dönəcək ömrüm…

**1997**

## İSTƏYİRƏM

İstəyirəm suallarla
dolu məktubuna
cavab yazım.
Ancaq ürəyimdə
səni isidə biləcək
bircə gilə
köz tapa bilmirəm.
Qarşımdakı ağ vərəqi
ağ bayraq kimi
qaldırmaqdan başqa
söz tapa bilmirəm.

**1997**

## QAN BAHASINA

İstəmirəm ki,
bir dəliqanlı bizə
baxa, sına!
Bu öpüşün ən ucuzu
qan bahasınadı, gülüm,
qan bahasına…

**1997**

## SEVGİ

Ömür vəfasızdı,
bunu bilə-bilə
yenə sevirik onu.

**1997**

***

Sənin gözlərinin yaşı,
Tale üzüyümün qaşı…

**1997**

***

Tale qismət elədi,
verdin mənə pay, gözəl,
Gözlərin gəl-gəl deyir,
çətin bu yoldan dönəm.
İlk sevgi müəllimin
mən olsam da, ay gözəl,
Məhəbbət gülşəninə
yolu son düşən mənəm…

**1997**

## QALACAQ

Əlvida desən də, unut desən də,
Sevda gülşənində izim qalacaq.
Sənin unudulmaz xatiratında
Söhbətim qalacaq, sözüm qalacaq.

Yoxsan, bir müqəddəs qəmə batmışam,
Şəhdi-şəkərindən bir az dadmışam,
Sənin ürəyində ocaq çatmışam,
Alovum sönsə də, közüm qalacaq.

Dindirən olmasa, dinən deyilsən,
Elə yanırsan ki, sönən deyilsən,
Bilsəm də geriyə dönən deyilsən,
Yenə yollarında gözüm qalacaq.

Şairin dönərmi sevgidən üzü?
Coşub çalxalanır sevgi dənizi,
Tale görüşdürsə yenidən bizi,
Üzünə baxmağa üzüm qalacaq…

**1997**

***

–Necə sevim səni, ürəyi daşsan,
Daş ilə axı kim ülfət bağlayar?
–Torpaq var
qoynunda heç nə bitirməz,
Daş var ki,
qoynunda çaylar çağlayar…

**1997**

## BƏNÖVŞƏ

Çiçəklədin, demək yazdı,
Niyə belə ömrün azdı?
Haqqın var batasan qəmə,
Hələ bu az imiş demə,
Açılan kimi dərirlər,
Sevənlərə göndərirlər.
Kim ki səni sevir, duyur,
Ətrin yaşayır il boyu
Ürəyində o insanın,
Müqəddəsdir adın-sanın.
Qismətimə sən düşəsən,
Nə sevimli bənövşəsən!

**1997**

## NAR ÇİÇƏYİ

Nar çiçəyi, nar çiçəyi,
İlk eşqin nübar çiçəyi.
Qönçələdin, ləçək açıdın,
Gözümdə yaş çiçək açdı.
Ömrümdə bahara döndün,
Bir cüt çatal nara döndün.
Qoy yaxından görüm səni,
Əl uzadıb dərim səni…

**1997**

***

Göz tutdu, cəfası ürəyə düşür,
Ürəyin körpüsü gözlə oynama.
Yaş üstə yaş gəlir, illər ötüşür,
Odu söndürmüsən, közlə oynama.

Kövrək duyğuların elə bil neydi,
Neyin qəlbindəki dilində qalmaz.
Məhəbbət yanğısı xatalı şeydi,
Elə yanarsan ki, külün də qalmaz…

**1989**

***

Üzünə nur saçan təbəssüm hanı?
Görürəm, ürəyin sözlə doludu.
Yenə nə deyiblər qaralıb qanın,
Çöküb aramıza giley buludu.

Uyma indən belə ara sözünə,
Eşqimi gözümdən oxu həmişə.
Sevincin nuruyla gülən üzünə
Qıymaram kədərin kölgəsi düşə…

***

Kövrəlirəm o ağ əllər çiçək dərəndə,
Özüm də çaşıb qalmışam, səni görəndə
Qar altından baş qaldıran novruzgülü tək,
Az qalır ki, deşib çıxsın köksümü ürək…

**1988**

## QIZLAR

Sevgimi qoydunuz lağa,
Özüm üçün görk etdiniz.
Mənim kövrək hisslərimi
Ürəyimdən hürkütdünüz.

Gözünüz sizi sevəni
Azdırar, yola çıxartmaz.
Qızlar, sizin aranızda
Qarğa da bala çıxartmaz…

**1995**

## HƏYAT YOLDAŞIMA

Çox sağ ol, qəlbimdə odun yaşayır,
Dilimdə müqəddəs adın yaşayır.
Xoşbəxt deyiləmmi, məni özümdən
Daha çox istəyən qadın yaşayır…

**1995**

## İLK GƏNCLİYİM

### Gündəliyimi vərəqləyərkən

Mən yazdığım gündəliyin hər səhifəsi
Tarix olub…
Bir sızıltı qopur sinəmdən.
Vərəqləri çevirdikcə ürəyim əsir,
Ömrün ötən çağlarına qayıdıram mən.

İlk gəncliyim, söhbətindən deyiləm doyan,
Gəlmişəm ki, xəbər alam: kefin necədi?
Bu saralmış gündəlikdə heç vaxt solmayan
Sevdamızın çiçəkləri hələ qönçədi.

Mənim dostum, qoşulmusan uçan quşlara,
Yaz gələndə sellər kimi coşub-daşmısan.
Xəyalımın qayıqları dəyib daşlara,
Həqiqətin sərt üzünü görüb çaşmısan.

Qınamıram, o zamanlar uşaq olmusan,
Böyük işə can atanda səhvlərin olub.
Nə yaxşı ki, riyalardan uzaq olmusan,
Sevda adlı bir diyara səfərin olub.

Məhəbbətdən söz açarmış sayrışan ulduz,
Aylı gecə artırarmış eşqin dadını.
Gör nə böyük iş olubmuş, istədiyin qız
Uşaqların yanındaca cəkib adını.

O vaxt sənin aləmində hər kiçik naxış,
Hər adicə təbəssüm də məhəbbət imiş.
Səni xoşbəxt eləməyə bir oğrun baxış,
Bircə şirin kəlmə belə kifayət imiş.

Bir zamanlar işvəsindən ilham aldığın
Həmin gözəl çevrilibdir can sirdaşıma.
Sənin o vaxt kəlməsinə həsrət qaldığın
O qız indi pərvanə tək dönür başıma.

İlk gəncliyim, itib getdin sən ilim-ilim,
Səadətə qovuşmuşam, ömrüm yaz olub.
Uzaq qaçan sevgilinə yetişib əlim,
Ömrün o xoş çağlarısa əlçatmaz olub…

**1990**

## "ÇİNAR" RƏQS ELƏYƏNDƏ

Çinar boylu qızlarımız
Çinar kimi yırğalandı.
Çinarların budağında
Tumurcuqlar sırğalandı.

Danışdıra bilsən əgər,
Danışarlar, gülərlər də.
Yarpaq olmaq istəyənlər
Az olmadı gül əllərdə…

Palıd igidlər süzdülər
Çinar boylu gözəlləri.
Hər çinar bir qıza dönüb,
Sanki çinar yarpağıdı
qız əlləri.

A çalğıçı, yanıqlı çal,
Budaqlarda üt yarpağı.
Düşüb qonaydı çiynimə
Birinin bir cüt yarpağı…

**1977**

## ÇOBAN QARDAŞ

Uzanıb çay qırağında
Güdək qızları, qızları.
Seyr eləyək oğrun-oğrun
Ay tək qızları, qızları.

Yenə çıxaq o dağ üstə,
Quşlar sussun budaq üstə,
Haraylasın bulaq üstə
Tütək qızları, qızları.

Nur damcılar dönsün selə,
Xatirələr gəlsin dilə,
Həsrət dolu səda ilə
Ütək qızları, qızları…

**1977**

## VƏHDƏT

Qəlbimdə məhəbbət, ürəyində kin,
Tamam fərqlənirik bir-birimizdən.
Bəzən düşünürəm, yəqin maqnitin
Şimal qütbü sənsən, cənub qütbü mən.

Deyirsən: tutmarıq bir-birimizlə,
Bunu düşünmüşəm dərindən dərin.
Deyirəm, əzizim, bir məni dinlə,
Olmurmu vəhdəti əksliklərin?!

**1968**

***

Eşqimi inkar etmək
mənə ölümdür, ölüm,
İnkarlıq duymamışam
yox deyərkən səsində.
Məhəbbət fəlsəfəsin
deyə bilmərəm, gülüm,
Yox inkar demək deyil
həyat fəlsəfəsində…

**1968**

## BİRTƏRƏFLİ MƏHƏBBƏT

Milyon təbəssümlə qarşımda dursan,
Yoxdur məhəbbətim zərrəcən sənə.
Unutma, sıfırı milyona vürsan,
Axırı sıfırdır, sıfırdır yenə…

**1968**

## TƏKRAR

Deyirlər ki, bir şeyə
baxanda təkrar-təkrar,
Adiləşər həmin şey,
baxmağa qalmaz həvəs.
O qara gözlərində
söylə, adilikmi var,
Gündə yüz yol baxıram,
niyə yorulmuram bəs?

**1969**

## AYRILIQ

Ürək atəşlərə qalanar
Tez ayrılanda.
Sular birləşəndə bulanar,
Biz ayrılanda…

**1969**

## QOŞA SİM

Elə düşünmə ki, bilmir ürəyim,
Nə yuva quşuyuq, axı kimik biz?!
Səndən ayrılmağa gəlmir ürəyim,
Deyirsən, elə bil qoşa simik biz.

Bizə düzənlər də indi olub dik,
İkimiz bir yerdə ola bilmərik.
Qoşa sim olsaq da, kökdən düşmüşük,
Məhəbbət mahnısı çala bilmərik…

**1969**

## SƏN BAXSAN

Elə məst eləyib gözlərin məni,
Dağlar topuğumdan, göy qurşağımdan.
Çəkilib dünyanın çisəyi, çəni,
Ürəyim asılıb göy qurşağından.

Çirkin də gözümdə göyçəyə dönüb,
Sən baxsan, sevinər, ürəyim gülər.
Ürəyim bir ovuc çiçəyə dönüb,
Sənin qədəminə səpilə bilər…

## GÖZÜMÜN QAN CIĞIRLARI

Hara atım sinəmdəki bu ağrıları,
Həyatımı indən belə kimə həsr edim?
Gözümdəki qıpqırmızı qan cığırları
Ayağının izləridi yoxsa həsrətin?

O cığırlar qan ağlayan bulud gözümdə
İşıq saçan qızıl-qızıl şimşəkdi yoxsa?!
Su ələdin, kömür oldu qızıl közüm də,
Gözlərimi açıb gördüm yanımda yoxsan.

**1986**

## ÜRƏK

Hər tarzənin əlində dinməz qəlbimin simi,
Bundan sonra özünə axtar özgə peşə sən.
Özünü aparırsan niyə sərnişin kimi,
Ürək qatar deyil ki, minib sonra düşəsən?!

İnsanların əlində oyuncaq deyil həyat,
Yəqin ki, bu hikməti duymayıbsan hələ sən.
Deyirsən ki, adımı ürəyindən silib at,
Ürək lövhə deyil ki, yazıb, sonra siləsən…

**1968**

## ŞİMŞƏK İŞIĞINDA

Şimşək işığında çimdi dağ-dərə,
Sanki alovlanan təndirdi göylər.
Torpaqdan güc alıb qalxan güllərə
Dolu yumruğunu endirdi göylər.

Hədələr göndərdi qardaşın, atan,
Çiçək məhəbbətim boylandı, qalxdı.
O buz yumruqları saya salmadan,
Şimşək işığında gözünə baxdım…

**1977**

## KÖSÖV

Sevən ürəyimə yazılıb adın,
Ürək sevənlərə ən münasib ev.
Sən ocaq görməyən sulu bir odun,
Mən ocaqdan çıxan qara bir kösöv.

Kösövə nə var ki, hər odda yanar,
Kösöv insan kimi danışa bilmir.
Niyə eşq oduna kösöv olanlar,
Başqa bir ocaqda alışa bilmir?!

**1969**

## ALOVA DÖNÜR

Bulud var göylərdə qara-qorxulu,
Buludlar da var ki, dümağ qar kimi.
Yel əscək, üzünü tutar saçların
Ay üzünü tutan buludlar kimi.

Buluddan-buluda axan qığılcım
Bir dəfə parlayır, sonra tez sönür.
Sənin gözlərindən çıxan qığılcım,
Mənim ürəyimdə alova dönür…

**1966**

## HAVAM ÇATMIR

Nə vaxtdandır ayrılmışıq,
Məndə buna davam çatmır.
Düzü, yaman darıxıram,
Elə bil ki, havam çatmır.

Demirəm ki, oksigen ver,
Yox, başqadır dərdi-sərim.
Sənin karbon nəfəsini
Arzulayır ciyərlərim…

**1969**

***

Sevgisi yoxsa,
Sevilməz aşıq.
Ürək lampadı,
Məhəbbət işıq…

**1991**

## TÜRK MÜĞƏNNİSİ EMEL SAYINA

Həzin bir duyğu kimi
Qəlbimi bürüyürsən.
Sən oxuya-oxuya
Şam kimi əriyirsən.

Dilin necə şirindir,
Mən bu dilin köləsi.
Yanağından axan yaş
Şamın odlu giləsi.

Dinlədikcə nəğməni
Kövrəlirəm, doluram.
Səsinin işığının
Pərvanəsi oluram.

Əlim əlinə çatmır,
Gözüm gözünə baxır.
Səsin yaz yağışına
Dönüb, qəlbimə yağır…

**1991**

## İNADKAR QƏLƏM

Yolarımız ayrı düşüb,
Özün başa düşən qızsan.
Mənim ürəyim doludu,
Sənsə yazılmış kağızsan.

Mənim qəlbim insaflıdı,
Könlünü üzmək istəmir.
Ancaq qələmim, yazılmış
Kağızda gəzmək istəmir…

**1992**

## OXUMA, BÜLBÜL, OXUMA

Ürəyindən qopan ahlar
Ürəyimi parçalayır.
Sənin bu kədərli nəğmən
Dərdlərimə dərd calayır –
Oxuma, bülbül, oxuma!

Səsində ki bu yanğı var,
Məni salarsan qana sən.
Sevgilimin sinəsindən
Qopan ürək tək qonasan
Yaxama, bülbül, yaxama!

Ayrılıq düşdü araya,
Bəsdi, səs vermə səsimə.
Dözəmmərik bu haraya,
Qəlbimdəki sarı simə
Toxunma, bülbül, toxunma!

Kəsə bilməsən nəğməni
Dimdiyinə gül alarsan.
Səsində od var, işıq var,
Yanıb, yanıb kül olarsan
Ahıma, bülbül, ahıma!
Oxuma, bülbül, oxuma!

**1987**

## ONUNCU GÖZƏLLİK

"Gözəllik ondur, doqquzu dondur."

**Atalar sözü**

Gözəl qız, küçədə gəlsəm qarşına,
Sürməli gözlərin güləcək sənin.
Desəm bənzəyirsən tovuz quşuna,
Bilirəm, xoşuna gələcək sənin.

Düzü, əynindəki o gözəl paltar
Az qalır məni də sala kəməndə.
Doqquz gözəlliyin doqquzu da var,
Onuncu gözəllik çatışmır səndə…

## UŞAQ HƏKİMİ

–Gecələr yatmıram sabaha kimi.
–O qədər xəstəsən, yəni, ay oğlan?
Sən böyük, mən isə uşaq həkimi,
Sağalda bilmərəm səni, ay oğlan.

–Mənim tək xəstəyə lazımdı xoş gün,
Sənin də söhbətin ürəkaçandır.
Heç narahat olma, onsuz da eşqin
Uşağa döndərib məni haçandır…

## NEYLƏYIM?

Məhəbbətdən az yaz! –
Eşitmişəm
neçələrindən.
Neyləyim,
çəkə bilmirəm
dəmir ayaqlarımı
Məhəbbətin maqnit
küçələrindən…

## DİLLƏ GÖZ ARASINDA

Gözün deyir yaxın gəl,
Dilin deyir uzaq gəz. –
Dillə göz arasında
De, neyləyim indi bəs?

**1967**

## SƏNİNLƏ ÜZ-ÜZƏ

Gözlərindəki işıq
varlığımı isidən
Günəşə döndü.
Qönçə təbəssümün
pardaqlanıb açıldı,
Gülüşə döndü...

**1977**

## TƏCNİS

Təbəssümün düzəldibdir bax, işi!
Qurban olum eşqinə də, yara da.
Gör neylədi onun süzgün baxışı? –
Qurban olum eşqinə də, yara da.

Saçındakı ya ənbərdi, ya xına,
Bir gül olub uçub qonam yaxana.
Can atıram üzə-üzə yaxına,
Eşqi coşqun bir dənizdi, yar ada.

Vaxtın keçsə belə dilbər qızıla,
Bir dəqiqən bərabərdi qızıla,
Yağış yağa, gəlib sənə qısıla,
Ürəyində bir təlatüm yarada…

**1978**

## YAZ GƏTİR

Biganələr doğma sanmaz gəlməni,
Hər yetənə tay eləmə gəl məni,
Deyəcəyin o müqəddəs kəlməni
Gözlərinin bəbəyinə yaz gətir.

Gur işığın pərvanəsi az olmaz,
Qraniti kəsə bilər az almaz,
Bir öpüşlə gözəlliyin azalmaz,
Bir öpüşlə varlığıma yaz gətir…

**1977**

***

Əsil yara könül verən yarıyar,
İnanmıram hər yetənə yar uya.
Yenə çəkib qılıncını ayrılıq,
Gen düşməklə unudarmı yarı yar?!

**1989**

## MƏHƏBBƏT NƏĞMƏSİ

Bir bülbül çırpınır sinəmdə.
Oxuduğu nəğmə –
mənim ömrüm.
Evdə oxuyur,
işdə, küçədə oxuyur…
O bülbülün sevgilisi
sənin sinəndə dustaqdı. –
Bir-birinə söykənəndə
iki qəfəs,
səs-səsə verəcək
bir cüt bülbül…

**1980**

## KÜÇƏMIZDƏN KEÇƏN QIZ

Varlığa nə darlıq –
Gülüşlərini  üstümüzə
ələndərirsən.
Hamının səndən umacağı var,
hamıya təbəssüm payı
göndərirsən.
Hər baxışınla
özünə bağlayırsan hamını. –
Hər oğul çıxa bilməz
belə düyündən.
Keçirsən
gülümsəyə-gülümsəyə,
elə bil heç xəbərin yoxdu
hamını bəxtəvər elədiyindən…

**1977**

## TELEFON SÖHBƏTİ

–Dilin topuq çalır, yanağın yanır,
Üz-üzə gələndə niyə əsirsən?
Gözündən bir dəli həsrət boylanır,
Məni təkləməyə məqam gəzirsən.

–Nə vaxt ürəyimin odu sönəcək,
Yanıb qovruluram illərdən bəri.
Hönkürsəm, göz yaşım selə dönəcək,
Yuyub aparacaq xatirələri.

–Qəlbimdə məhəbbət çırağı sönüb,
Küllə oynamağın nahaqdır, nahaq.
–Mənim ehtirasım ac qurda dönüb,
Səni quzu kimi parçalayacaq…

**1988**

***

Bəs nə vaxt dinəcək de, könül tarım?
Mizrabı tutmusan öz ovcunda sən.
Telefon xəttidir bu misralaram,
Bir ucunda sənsən, bir ucunda mən.

Özgəyə qismətmiş bu toy, bu bayram,
Çimirsən məhəbbət yağışında sən.
Bu başda elə hey pıçıldayıram,
Susursan misranın o başında sən.

**1977**

## BU SEVDANIN YOLU

Bu sevdanın yolu sisdi, dumandı,
Əzablarım ürəyinə yatdımı?
El içində rüsvay olmaq yamandı,
Bu halıma sənin qəlbin şaddımı?

Ürəyimə həsrət odu yüklənib,
Bədxahların qulaqları şəklənib,
Baxışlarım baxışına köklənib,
Oxuyacaq, mizrab telə çatdımı.

El nə deyər? – Ürəyin nə vecinə!
Dağ aşaram bu yanğının gücünə.
Gözlərimin içinə bax, içinə,
Bəbəklərim bəbəyinə yaddımı?

Üzün payız çiçəyini andırır,
Ürəksizdən kənar qaçır, yan durur,
Təbəssümün yaşıl işıq yandırır,
Baxışların alovdumu, oddumu?

Bitişərmi şüşə qəlbi qırsalar?
Bu həsrətin odu məni qarsalar.
Tamarzıyıq, qovuşmaqçın vüsala
Kifayətdir ilk cəsarət addımı…

## ƏSKİK OLMAZ

Bizim bu yerlərin toy-düyünündən
Kaman əskik olmaz, tar əskik olmaz.
Çay axar, dağların suyu tükənməz,
Mənbəyi var isə, var əskik olmaz.

Gülər zirvəsindən sənə uzaqlar,
Qaynayar köksündən sərin bulaqlar.
Elə ucadır ki, bizim bu dağlar,
Yayda zirvəsindən qar əskik olmaz.

Getməyib kimsəyə borca təbiət,
Verməz nankorlara macal təbiət,
Bilir öz işini qoca təbiət, –
Gülün dövrəsindən xar əskik olmaz.

Uzaqlar nə qədər olubdur yaxın,
Qalxıb zirvələrə dörd yana baxın.
İnsan əlləriylə salınan bağın
Üstündən heç zaman bar əskik olmaz.

Bağban ağac əkər şirin bar üçün,
Ürəyim tələsər ilk nübar üçün.
Bir könül oxşayan şux nigar üçün
Şair ürəyində yer əskik olmaz…

**1979**

*******

Kim deyir ki, eşqin gölü
Mənə dərindi, dərindi?
Sinəmdə qönçələr açıb,
Gözəl, dər indi, dər indi.

Dolandım dərəni, dağı,
Ov bərəyə gəldi yaxın.
Niyə onun qaş-qabağı
Çənə büründü, büründü?!

Elə bil heç qız deyildi,
Ürəkdəki nə meyildi? –
Çeşmə üstünə əyildi,
Sinə göründü, göründü…

Ayna sular alovlandı,
Yanaqlar elə bil qandı.
Öz əksinə baxıb, yandı, –
Nələr çəkmişik gör indi?!

**1977**

***

Günəş tək çıx otağından,
Gülüş axsın dodağından.
Günəş meynə budağından
Asdı üzümü, üzümü.

Göy sulara düşdü əksin,
Qabardı sevdalı köksün.
Bəxtəvərəm, od nəfəsin
Qarsdı üzümü, üzümü.

Əhsən bahar küləyinə –
Çiçəklərin bəbəyinə,
Sevənlərin ürəyinə
Yazdı sözümü, sözümü…

**1977**

## ABŞERON GÖZƏLİNƏ

Ala gözlü, qələm qaşlı
Bir gör neylədi, neylədi?
Elə baxdı, ağlım çaşdı,
Bilməm yer nədi, göy nədi?!

Lal könlümə səda düşdü,
Kösöv idim, oda düşdüm.
Ötən çağlar yada düşdü,
Yaram göynədi, göynədi…

Qoşa gəzək sizin bağı,
Almanı neynirəm axı?
Abşeronun yaraşığı,
Yarım, meynədi, meynədi.

Qıvrım tellər dəstə-dəstə,
Üzü göyçək, boyu bəstə.
Gül dodaqdan gülab istə,
Canım, mey nədi, mey nədi?!

İnaddan əl üzməmisən,
Taleyindən küsməmisən…
Subaylıqdan bezməmisən,
Onda bəs bu giley nədi?!

**1977**

## ALDANA-ALDANA

Dost gəlişi toya döndü,
Ömrün qışı yaya döndü,
Dərələrdə çaya döndü
Bulaq bollana- bollana.

Bax bu kəndin göyçəyinə,
Bənzəyir dağ çiçəyinə,
Qonub onun ləçəyinə
Dodaq ballana, ballana…

Gözlər bir cüt ülkər idi,
Dil-dodağı şəkər idi,
Ürəkləri çəkər idi
Buxaq sallana-sallana.

Daha çarə yoxdu mənə,
Gör kim ürcah çıxdı mənə?
Oğrun-oğrun baxdı mənə
Yanaq allana-allana.

Ürəyini oda saldı,
Nə biləydi boş xəyaldı? –
Bir həftə də artıq qaldı
Qonaq aldana-aldana…

**1977**

## DÖNÜB

Al şəfəqli günlərimiz
Çiskinə, yağışa dönüb.
İçin-için ağlamışıq,
Dərd kirpikdə yaşa dönüb.

Son baharın gülü solub,
Qara gözlərimiz dolub,
Ömrümüz əfsanə olub,
Qız-gəlinlər quşa dönüb.

Tapdamışıq xəzəlləri,
Yarpaq imiş qız əlləri.
Duymamışıq gözəlləri,
Ürəyimiz daşa dönüb.

Gəncliyimiz çıxıb gedib,
Yaş bizi pərişan edib.
İllər ötüb, aylar ötüb,
Ömrün yazı qışa dönüb…

**1990**

## MƏNİ

Zaman bərkə, boşa çəkib,
Nehrə tək çalxadı məni.
Bir gözələ ürcah oldum,
Yolumdan saxladı məni.

Ürəyimdə eşqin dağı,
Dolandım aranı, dağı.
Gözəllər işvəylə baxıb,
Köksümdən oxladı məni.

Vuruldum ota, yarpağa,
Gözlərim döndü bulağa.
Bağ saldım, ana torpağa
Bənd etdi, bağladı məni.

Güllər gülür gözlər kimi,
Eh, o gözlər gözlər kimi?
Laləları közlər kimi
Yandırdı, dağladı məni.

Dərd içimi paraladı,
Məni məndən araladı.
Özümünkü yaraladı,
Özgələr ağladı məni.

Qüdrətini, Tanrı, gördüm,
Neçə qızı qarı gördüm,
Öz saçımda qarı gördüm,
Qocalıq haqladı məni…

**1990**

## DÜNYANIN XOŞBƏXTİ

Bəsdir qəhərləndin sən dönə-dönə,
Yanağından axan dürmü, incimi?
Mehriban gözlərin dikilsin mənə,
O qonur gözlərdə alım dincimi.

Əzablı hicrandan heç vaxt küsmədim,
Cocuq deyildim ki, yolumdan dönəm.
Göz yaşı olsa da hələ qismətim,
Dünyanın ən böyük xoşbəxti mənəm.

Yetər susduğumuz, ürəkdə söz var,
Bizi usandıran sükut deyilmi?
Mənimçin tökdüyün o inci yaşlar
Xoşbəxt olmağıma sübut deyilmi?

## QAPIMIN AĞZINDA ÖPÜŞƏN QIZLAR

Hər sizə baxanda ürəyim sızlar,
Hərdən yada salın barı bizi də!
Qapımın ağzında öpüşən qızlar,
Bağrıma basıram ikinizi də…

Həsrətin oduna hey yanırsınız,
Sevdalı ürəyim daşdan ha deyil!
Öpüşə-öpüşə boylanırsınız,
Yandıq verirsiniz mənə elə bil.

**1990**

# ZARAFATLAR

1

–Ani təbəssümüm də
Yayınmasın gözündən.
Seyr elə qamətimi,
Söylə, gözəlmmi mən?
–Gözəl sözü düzəlib,
Ay qız, "göz", "əl" sözündən,–
Göz görüb, əl çatmasa,
Nə bilərəm gözəlsən?

2

–Ürəyim nurla dolur
Görcək günəş üzünü.
–Oğlan, günəşə baxma,
Qamaşdırar gözünü.
–Ay qız, olma narahat,
Ehtiyatla baxaram.
Gözüm qamaşsa əgər,
Gün eynəyi taxaram…

3

–Mən səni sevirəm divanə kimi.
–Səndə ürək hanı? – Ya sən, ya heykəl…
–Əgər inanmırsan, məhəbbətimi
Bir möhür öpüşlə təsdiqləyim gəl…

4

Od var gözünüzdə, elə baxmayın,
Sısqa suları da daşdırarsınız.
Gözəllər, bəzənib yola çıxmayın,
Maşın sürənləri çaşdırarsınız…

**1977 - 1984**

## MƏHƏBBƏT

Ürəyə nur kimi girdi,
Çıxanda döndü qılınca.
Hicrana dözə bilmədi,
Qan düşdü onun dalınca…

Ürəyə nur kimi girdi,
Ömür işığa boyandı.
Ürəkdən tikan tək çıxdı,
Ürək dözmədi, dayandı…

**1987**

## KİMSƏDƏ YOXDUR GÖZÜM

Kimsədə yoxdur gözüm,
Sənsən söhbətim, sözüm.
Ulduza necə baxsın
Aya öyrəşən gözüm?

İtmisən ilim-ilim,
Dərddən tutulub dilim.
Heyvanı necə dərsin,
Nara öyrəşən əlim?!

## XALLI QIZ

Əfsunlayır bənizində xal adamı,
Bu gözəllik dənizində xal adamı?!
Gəmiləri qərq olan bir dənizçi tək,
O adaya tullayıbdır məni külək.
Atma məni dalğalara, nə günahım?
O adadır son ümidim, son pənahım…

**1977**

***

Mənim dəli istəyimi gözlərin duyub,
Ayaqların qaçmaq istər sahil boyunca.
Gözlərini gözlərimə gözətçi qoyub,
Qoymursan ki, əndamını süzüm doyunca.

Öz-özünə vurularsan əksinə baxsan
İntizarlı gözlərimin qarasında sən.
Bilirsən ki, balıq kimi çırpınacaqsan
Əvvəl-axır qollarımın arasında sən…

**1977**

## LƏNƏT ŞEYTANA

Qızların dövrəsinə
Düşdü bir qoca kişi.
Qocaya sataşmaqdı
Ərgən qızların işi.
Qızların əllərində
Qoca bir topa döndü.
Toxunduqca gül əllər,
İncəlib sapa döndü;
Qəlbi əsdi qocanın,
Ürəyi tel-tel oldu.
Göyü buludlar aldı,
Yağış yağdı, sel oldu.
Onu ələ saldılar:
Qoca yıxıl, qoca, yat!
Doğrudurmu, deyirlər
Arpa yemir qoca at?
Lənət deyib şeytana,
Qoca girdi meydana…

**1977**

## TƏCNİS

–Bu vaxtacan mən bilərdim buz səni,
Naz satardım, göynədərdi bu səni,
Zorla aldın dodağımdan busəni,
Dilin yoxdu, eləyəsən dil-ağız?!

Ürcah oldun mənim kimi sənəmə,
Süd ha deyil, məhəbbətdir sən əmən,
Dillənsənə!…
–Tuş olanda sənə mən,
Nə sehrdir, topuq çalır dil, a qız?!

Şirin yardan xoşdu mənə şirin naz,
Şirinlərin şirinidir Şirinnaz,
Ruhun olsun, şirin yardan şirin yaz,
Oxuyanda bala batsın dil-ağız…

**1978**

## PAYIZ ÇİÇƏYİ

Xanım ağa, qız ağa,
Maral gəldi duzlağa.
Yazıq hardan biləydi
Düşüb tora, duzağa?!

Xanım ağa, qız ağa,
Düşdün məndən uzağa.
Eşqimiz quzu kimi
Tuş oldu yalquzağa.

Xanım ağa, qız ağa,
Baxışından buz yağar.
Vədəsində açmadım,
Düşdüm qara, sazağa…

**1976**

## BƏLKƏ BU YERLƏRƏ DÜŞMƏDİ YÖNÜM

Gör harda qarşıma çıxdın, ay gözəl,
Güldün, ürəyimin telləri əsdi.
Təzə isinirkən bir-birimizə,
Üstümə ayrılıq yelləri əsdi.

Yaman kövrəlmişəm, məni qınama,
Gözlərim dolacaq, bir himə bənddi.
Yetməmiş murada, çatmamış kama
Ayrılmaq özü də bir ağır dərddi.

Tale bircə dəfə üzə güləndə
Qazandıq yaşamaq həvəsini biz.
Deyirsən: – İndi get, bir də gələndə
Çıxarıq bu günün əvəzini biz.

–Gülüm, öz hökmü var axı hər anın, –
Bəlkə bu yerlərə düşmədi yönüm?!
Bir də o başına gedib dünyanın
Tək sənin xətrinə gerimi dönüm?!

**1990**

## HARA GEDİM

Ala gözlər cüt ulduzu andırdı,
Məni görcək, rəqib çaşdı, yan durdu.
Təbəssümün yaşıl işıq yandırdı,
Yola düşdü həsrətimin qatarı.

Sanki çaydır, hey qıvrılır, yol axır,
Tutub onu, gedib tapdım bulağı.
Məqsəd deyil, vasitədir yol axı? –
Hara gedim, yollar səndə qurtarır…

## SEVİNC YAŞLARI

Üz-üzə duranda bəxtim açılır,
Sehrli bir ayna olur gözlərin.
Özüm də bilmirəm heç səbəb nədir,
Hər məni görəndə dolur gözlərin.

"İnsan həyatını sevgi bəzəyir" –
Deyəndə çatılır qara qaşların.
Gülün üstündəki şehə bənzəyir
Sənin gözündəki sevinc yaşları…

## TANRICA

Nə yaxşı ki, insanların
İmdadına Tanrı çatır.
Göyü çəkib yer üzünə
Bax, qurubdur Tanrı çadır.
Bitirdiyi çiçəyə bax,
Qoparmağa əlim gəlmir.
Ölmüşə bax, nə göyçəkdi,
Qız deməyə dilim gəlmir,
Göydən enən tanrıcadır…

**1977**

## KİTAB OXUYAN QIZ

Hərdən köks ötürür o qız dərindən,
Nədir oxuduğu? – Baxıram ona.
Gözləri kitabın sətirlərində,
Ürəyi atlanır bizim balkona.

Kağızı üzünə rübənd eləyib,
İntizar gözləri dönübdür közə.
Fikrində hər sətri kəmənd eləyib,
Tullamaq istəyir bir dilbilməzə…

**1977**

## BİR GÖZƏLIN TOYUNDA

Tamadamız arıtladı içini,
Dedi: – Ömür sürüb gedir köçünü.
Hünərin var geri qaytar elçini,
Nə zamandır, qız qoşulub qaçacaq.

Nə yaxşıdır qız evindən söz almaq,
Nə çətindir qız köçürmək, qız almaq,
Səadətdir bu ocaqdan köz almaq,
Evinizə qızımız nur saçacaq.

Bu yastanlar, bu güneylər, bu dağlar,
Qara zurna qəh-qəh çəkər, ud ağlar,
Bir-birinə toxundumu dodaqlar,
Gizli-gizli mətləbləri açacaq.

Qədəhiniz silə olsun, ay ellər,
Ürəyiniz pilə olsun, ay ellər,
Pis günümüz belə olsun, ay ellər,
Di tələsin, vaxt quş olub uçacaq…

**1977**

## QARMON

Ay Əlabbas, Əlabbas,
Yarının bağrı daşdı.
Qarmonunun səsinə
Kəkliklər qaqqıldaşdı.

Ay Əlabbas, Əlabbas,
Qarmonunun dilləri,
Barmaqlarına həsrət
Sevgilinin əlləri.

Ay Əlabbas, Əlabbas,
Mən dərdliyəm, sənə nə?
Qarmonun sevgilinmi
Baş qoyubdur sinənə?

Ay Əlabbas, Əlabbas,
Göydə ulduz sayrışır,
O qarmon sevgilinin
Nəfəsi nəğmə olur,
Axıb çaya qarışır.

Ay Əlabbas, asta çal,
Rəqib duyar qan elər.
Sənin qarmon sevgilin
İki qol arasında
Dartınar, fəğan elər…

**1977**

***

Nur doldu gözümə,
Açıldı üzümə
Bir ömrün səhəri.

Ay keçdi, il keçdi,
Bir körpə gül seçdim
Sevməkdən ötəri.

Sevgilim gursaçdı,
Ömrümə nur saçdı
Taleyin ülkəri.

Neyləyim indi mən? –
Eşq imiş sən demə
Həyatın cövhəri…

Kiridi coşanlar,
Sən demə xoş anlar
Olurmuş ötəri.

Boğuldum tüstümə,
Ələndi üstümə
Dünyanın kədəri.

Ömrümüz talandı,
Məhəbbət qalandı,
Biz isə gedəri…

**1990**

## Dİ SAĞ OL, ƏZİZİM

Yenə o ağ əllər əlimdə idi,
Yenə o gözlərə baxırdı gözüm.
Elə ki, nəfəsin üzümə dəydi,
İşardı kül altda uyuyan közüm.

Bu dəli sevdaya nə əvvəl, nə son? –
Baxıb gülümsədin, titrədi ürək.
Sevindim, tək qalan yazıq Robinzon
Ağ yelkən görəndə sevindiyi tək.

Danışa bilmədik doyunca neçin?
Deyəsən bizimlə tale əyibdi.
Mənim dodaqlarım ağ əllər üçün
Eh, bilsən nə qədər qəribsəyibdi?!

Titrədi, sənin də qabardı sinən
–Özünü ələ al, – dedin, – toxtaq ol!
Biganə deyilmiş ürəyin mənə,
Bu həyəcan üçün, dostum, çox sağ ol!

Tez-tez gəl görüşək…
–Eh, bunun üçün
Nə qədər bəhanə uydurum axı?!
Yedim ürəyimi mən için-için,
Gör bizə kənardan neçə göz baxır?!

Güldün qəmli-qəmli: –De, neyləyim bəs? –
Sevirsən, hər şeyə dözəsən gərək.
Burda dayanmağın əbəsdir, əbəs,
Di sağ ol, əzizim, görüşənədək…

**1986**

## YENƏ DƏ

Yenə də çıxaydıq seyrə ikimiz,
Yenə də yağaydı bahar yağışı.
Yuyunub göylərin göz yaşında biz,
Baxaydıq göz-gözə, lap yaxşı-yaxşı.

İslanmış əlimiz olsa da bumbuz,
Dəycək bir-birinə yenə yanaydıq.
Bir vaxt kölgəsində oturduğumuz
Ağacın altında daldalanaydıq.

Yenə səs salaydı o şən damcılar,
Yarpaqlar üstündən hey sıza-sıza,
Bizim üstümüzə düşən damcılar
Yenə qarışaydı pıçıltımıza…

**1968**

## AXTARIRAM

Bir söz söyləyəndə od tutub yanan
Yanaq axtarıram, üz axtarıram.
Hələ gecikmişəm bu axtarışda,
Elə bilməyin ki, tez axtarıram.

Keçib neçə dolay, döngə gəlmişəm,
Sevdasız qəlblərlə cəngə gəlmişəm,
Soyuq baxışlardan təngə gəlmişəm,
Ruhumu isidən göz axtarıram.

Ümidsizliyimi verib yuxuya,
Axtardım, aradım mən duya-duya,
Lağ edən də oldu, dedilər guya
Ovu itirmişəm, iz axtarıram.

Bircə təbəssümlə ruhum isindi,
Şirin duyğularım dindi, nə dindi!
Dediyim gözəli tapmışam, indi
Qəlbimi açmağa söz axtarıram…

**1969**

## UTANMAQDAN KEÇİBDİ

Baxanlar nə düşünər,
Ay oğlan, göz eləmə.
Cızdağımı çıxartdı,
Vallah, bu "Nazeləmə"!

Ağrın alım, asta çal,
Utanıram mən axı?!
Toyxanaya girəndən
Od tutubdur yanağım.

Sümüklərim göynəyir,
Cavanların həsrəti
Ürəyimə köçübdür.
A zurnaçı, zirək çal,
Utanmaqdan keçibdir…

***

Bağların nur saçan limonu varsa,
Qərib gəmilərin limanı varsa,
Tufanlar qoynunda üzməyə dəyər,
Ürəyin görüşmək gümanı varsa…

## SƏHƏRLƏR

Səhər sevdasıyla gülər üfüqlər,
Həsrətli gözümdə yar işıq olar.
Gecənin qoynundan sıyrılan səhər
Ömrümə, günümə yaraşıq olar.

Dan yeri rəng alar zərrin şəfəqdən,
Dünyanın üzünə təbəssüm qonar.
Günəş gülümsəyib qalxar üfüqdən,
Köksümdə sevdalı bir ürək yanar.

Yolumun üstündə dağ var, dəniz var,
Qarşıdan ağ günlər səsləyir bizi.
Hələ neçə-neçə səhərimiz var,
İşıqlı sabahlar gözləyir bizi…

**1997**

## BAKIM

**Musiqisi Nailə Mirməmmədlinindir**

Bəxtinə sökülüb dan,
Taleyi gülür üzə.
Sahil bağı çırağban,
Qız qalası möcüzə.
Öz doğma şəhərimin
Hüsnünə mən bir baxım!
Xəzərimin boynunda
İşıqlar boyunbağı.

Nəqarat
Gözəlliyi önündə
Dünya-aləm baş əyir.
Nə qədər ki, Bakı var,
Azərbaycan yaşayır.
Qibləgahım, əzizim,
Sevgilim, qəlbi pakım.
Anam Azərbaycanın
Döyünən qəlbi Bakım.

Heykəlləri babamın
Ruhu kimi dikəlib.
Bir obanın, bir elin
Gözü ona dikilib.
Gözəlliyi, şöhrəti
Yayılıb eldən-elə.
Onu dünya tanıyır,
Adı düşübdür dilə.
Nəqarat

**1997**

## BAXIŞLAR

**Musiqisi Qismət Əliyevindir**

Ömrümdən bir durna qatarı keçdi,
Mənim görüşümə ay özü gəldi.
Sevdalı günlərin baharı keçdi,
Sevginin çiskinli payızı gəldi.

Nəqarat

Mehriban gözlərin mənə baxırsa,
Neyləyər tufanlar, yağışlar mənə.
Sanıram dünyanın bəxtəvəriyəm,
Baxışlar bir dünya bağışlar mənə.

Qəlbimə nur saçan təbəssüm oldu,
Həyatım bir şirin əzaba döndü.
Könlümün telləri sarı sim oldu,
Nəmli kirpiklərin mizraba döndü.

Nəqarat

**1997**

## GƏRAYLI

Ürəyim quş tək çırpınar
Kəndə axşam düşən vaxtı.
Qəlbdə arzu qönçələyər
Sevənlərin nişan vaxtı.

Yağış yağar, çisəkləyər,
Yalançılar gerçəkləyər,
Gözümdə yaş çiçəkləyər
Bərgüşadın daşan vaxtı.

Şeh düşər gül yanağına,
Bal qonar yar dodağına.
Dönər nanə yarpağına
Ürək şeir qoşan vaxtı.

Bəxt ulduzum aya dönər,
Ömür qızıl toya dönər.
Özü də bir çaya dönər
Yusifoğlu coşan vaxtı…

**1991**

## NƏĞMƏLƏR

Budaqlarda xışıldayan
Yarpağın da nəğməsi var.
Küləyin də nəğməsi var,
Torpağın da nəğməsi var.

Bülbüllər oxuyan zaman
Dinləməyə can atmışıq.
Nəğmələrin gözəlini
Onlar yox, biz yaratmışıq.

Təbiətin səslərini
Heyran-heyran dinləmişik.
Elə ki, dərd qönçə tutub,
İçin-için inləmişik.

Qarğının bağrını dəlib,
Düzəltmişik ağlar neyi.
Yazdığımız mahnılarla
Mat qoymuşuq yeri, göyü.

Ömrümüzə bəzək olub
Qəlbimizdən qopan səslər.
Hissimizdən, duyğumuzdan
Sehr, əfsun tapan səslər.

İnsan nəğmələr altında
Ətə dolub, qana dolub.
Biz nəğməsiz doğulsaq da,
Nəğmə bizə qanad olub.

## BİRDƏN BİRƏ

Ömrün payızı gəldi, xəzan oldu diləklər,
Şum saldı ötən qayğılar alnımda, üzümdə.
Əsdi qara yel, yarpağımı tökdü küləklər,
Bərk narahatam, dünyada yoxdur bir izim də.

Yazdıqlarımı uf demədən pozdu bu dünya,
Bizdən gələcək nəslə qalan sözdü bu dünya,
Bilməm nə üçün rəngi qaçıb, bozdu bu dünya?
Gördüm onu, öz halıma mat qaldım özüm də…

Tutqundu hava, göydə nə gün-ay, nə də ulduz,
Mən hey gəzirəm qəmli çəməndə yenə yalqız.
Şehli çiçəyə bənzədi qarşımdan ötən qız,
Birdən-birə boz dünya gözəlləşdi gözümdə…

**1991**

***

Səndən sənə, ey sevgili canan, gileyim var,
Səndən mənim, ey sərvi-xuraman, diləyim var.

Lazımmı axı etirafım? - Arxayın ol ki,
Mən bəxtiyaram, sən kimi bir şux mələyim var.

Ömrüm boyu heç olmamışam kimsəyə möhtac,
Nə yaxşı ki, süfrəmdə halal duz-çörəyim var.

Büllur kimi safdır ürəyim, sən ki bilirsən,
Kimsə deyə bilməz ki, mənim bir kələyim var.

Yoxsulluğumu dərd eləmə, qəlbini sıxma,
Nə yoxsa da, sevdayla dolu bir ürəyim var…

***

Coşuram mən hələ, nəğmə deməyə var həvəsim,
Heç kəsə bənzəmir aləmdə bilirsən ki, səsim.

Saçımın qarına yox, könlümün ahənginə bax,
Səni gördüm, gözəlim, bil ki, tükənməz həvəsim.

Üzünə hey toxunan adicə bir meh ha deyil,
Nəfəsimdir, nəfəsimdir, nəfəsimdir, nəfəsim.

Qınama gəl məni meyl etsəm ala gözlülərə,
Gözələ gözmü yumar söylə, Füzuli nəvəsi?

Yoxa çıxsam, dolaşıb elləri axtarma nahaq,
Rafiqəm, sən onu bil, dünyada yoxdur əvəzim…

***

Gəldi baharım, bağda ağaclar çiçək açdı,
Baxdımsa hara, gördüyüm işlər ürək açdı.

Nəğmə ilə doldu ürəyi, titrədi birdən;
Coşdu, oxudu, sirrini bülbül gülə açdı.

Nur gəldi mənim gözlərimə, ruhum isindi,
Yel vurdu, sənin sinəni birdən külək açdı.

Şeytan kimi qəlbimdə təbəssüm oyadıb yaz
Bu yaşlı çağımda başıma bir kələk açdı…

***

Gen qaçma, gülüm, sən bu yerin çən-çisəyindən,
Gəl dəstə tutum mən sənə dağlar çiçəyindən.

Şümşad qolunu mən elə gül saplağı sandım,
Gördüm yapışıb əllərim o ağ biləyindən.

Nəbzi döyünür barmağım altında, İlahi,
Müjdə gətirir sevgili arzu-diləyindən.

Güldün üzümə, könlümü sevda ilə yaxdın,
Qəlbim oxuyur, bülbülə dönmüş fərəhindən…

***

Girsə gözəlim bağıma, mütləq gülüm iylər,
Eylərsə əgər dərdimə dərman, gülüm eylər.

Əskik eləməz cövrünü bizdən gecə-gündüz,
Oğrun baxışıyla ürəyi yar, dilim eylər.

Gəlməz yaxına ovçudan ürkmüş bala ceyran,
Gen qaçmaq ilə sevgili canan zülüm eylər.

Yaxşı bilirəm, qəlbimi kimdir salan oda,
Neylərsə mənə, özgəsi yox, sevgilim eylər…

## KÖNLÜMÜ

Baxışın eləyib viran könlümü,
Sənin həsrətinlə vuran könlümü.

Qəlbimə tükənməz eşqinlə nur saç,
Qoyma ki, bürüsün toran könlümü.

Həyəcan ömrümün mənası olub,
Sənin həsrətindir saran könlümü.

Gəl tutub əl-ələ yaylağa qalxaq,
Qorxutmaz acı bir boran könlümü.

Qəlbim dağ-dağ olur dağ yada düşcək,
Ovuda bilməyir aran könlümü.

Bizsiz yetim qalan ulu yurd yeri
Rahat buraxmayır bir an könlümü…

**1990**

## DƏRD MƏNİ ÜSTƏLƏYIB, BAYATIYA KÖKLƏDI...

***

Çən gəldi, çisəklədi,
Gözlərim çiçəklədi.
Dərd məni üstələyib,
Bayatıya köklədi.

***

Yağış deyiləm yağam,
Bu dərdə dözdüm, dağam.
Həsrətin dörd əli var,
Mənimsə bircə yaxam.

***

Bənövşə dərdin, əlim,
Ta nədi dərdin, əlim?
Üzülmür ki, üzülmür
Yaxamdan dərdin əli.

***

Bir uca dağam hələ,
Zirvəsi ağam hələ.
Dərddən qaça bilmirəm,
Keçibdir yaxam ələ.

***

Qoymurlar yazam, ata,
Qatırlar qazamata.
Dərd çayır tək kök salıb,
Gücüm yox qazam, atam.

***

Çoban, döndər naxırı,
Yox bu işin axırı.
Su çuxuru axtarar,
İnək-camış axuru.

***

Ayrı düşdüm köçümdən,
Qaldım boran içində.
Saxsağan kəklik ovlar,
Qış çovğunlu keçəndə.

***

Ceyran qaçdı, vazıdı,
Bu necə avazıdı?
Birdən ovçunu gördüm,
Sifətim avazıdı.

***

Bu, arxın qırağıdı,
Orda bitən qarğıdı.
Kəsib tütək düzəltdim,
Qarğı məni qarğıdı.

***

Yaxşılığa yar oldum,
Yetimə qahmar oldum.
Qoynumda bəslədiyin
Çevrildi şahmar oldu.

***

Gözün himə bənddimi?
Sözün şəkər, qənddimi?
Sən cavansan, mən qoca,
Fələk büküb qəddimi.

***

Gəzdim dağı, dərəni,
Gül sandım heyvərəni.
Səsim tutub dünyanı,
Yoxdur bir hay verənim…

***

Dur çıx göz qabağına,
Girmə özgə bağına.
El dərdi çəkən, közü
Eşməz öz qabağına.

***

Dinmədi, dil utandı,
Ocaqda kül utandı.
Gül üzünü görəndə,
Çəməndə gül utandı.

***

Bağrım şanə-şanədir,
Qəlbim titrək nanədir.
İnsan rahatlıq gəzir,
Ölüm bir bəhanədir.

***

Çəmən sanki dibçəkdi,
İçi dolu çiçəkdi.
Ay doğdu, kainatı
Qızıl suyuna çəkdi.

***

Vurğun könlüm sərxoşdu,
Sanmayın Ay naxoşdu.
Onun solğun üzünü
Seyr eləmək nə xoşdu?!

***

Mənə baxsa yaxından,
Keçərdim günahından.
Ayın üzü saralıb,
Sevənlərin ahından.

***

Qəlbin əsdi, ay adam,
Könül verdin aya da.
Göylər mavi dənizdi,
Qoynundakı Ay – ada.

***

Ürəyimi incəltdi,
Məni yordu, dincəltdi.
Ay işığı qəlbimdə
Neçə sevgi cücərtdi.

***

Məni salıb yar oda,
Ölsəm də bu yaradan –
Bu sevgini qəlbimə
Çox görməsin yaradan.

***

Göyərtmişəm səməni,
Aparın Qarsa məni.
Qorxuram ayrılığın
Alovu qarsa məni.

***

Ürək yaxan Arazdı,
Qəmli axan Arazdı.
Bizi ayrı salanda
İnsaf, mürvət, ar azdı.

***

Gözdə qalan arzuyam,
Təbrizə tamarzıyam.
Kirpiyimdən qopan yaş
Yağ kimi damar suya.

***

Yandı, daş giləlndi,
Gözdə yaş giləlndi.
Arazın bu tayından
O taya gül ələndi.

***

Araz gurdu, dərindi,
Nəfəsini dər indi.
Qədəmlərimə həsrət
Qalan Xudafərindi.

***

Başında cuna gəzir,
Bir qərib sona gəzir,
İki od arasında
Bilmirəm su nə gəzir?

***

Dərd əl çəkmir yaxamdan,
Tanrım, keç günahımdan.
Niyə dəmir tikanlar
Ərimәyir ahımdan?

***

Yolumuz haçalandı,
Zülfün ürək çalandı.
Bircə yol səni gördüm,
Ömrümə il calandı.

***

Boşaldı eşq badəsi,
Qədir bilməz bədəsil.
Mən göz açıb yumunca,
Gəldi hicran vədəsi.

***

Nura, işığa acam,
Açılar sabah haçan?
Günəşin həsrətində
Qovruldum sabahacan.

***

Dərd mənim ağam oldu,
Naşı oldum, xam oldum.
Qönçə ikən qıymadım,
Açıldı, vağam oldu.

***

Görməyib qoşa məni,
Basmayın daşa məni.
Sinəmdəki arzular
Döndərib quşa məni.

***

Qızılgül həşəm oldu,
Solan bənövşəm oldu.
Yollarını göz dikib,
Ağlamaq peşəm oldu.

***

Nurlu səhəri gördüm,
Qızıl yəhəri gördüm.
Yabının güdazına
Gedən kəhəri gördüm.

***

Yordu bu yollar məni,
Üzdü bu yollar məni.
Yarın tənəli sözü
Qürbətə yollar məni.

***

Əlində bu səməni,
Yar gəlib busa məni.
Qışdan yaza çıxarda
Bir odlu busə məni.

***

O gül təzə-tərdimi?
Əlin çiçək dərdimi?
Dostlarım can hayında,
Kimə deyim dərdimi?

***

Yun saymayın qəzili,
Haqq üzülmür, nəzilir.
Dərdin çiynində durur
Bu dünyanın özülü.

***

Qoyma heç bir şərt mənə,
Həyat olub sərt mənə.
Onsuz yaşayammaram,
Doğmalaşıb dərd mənə.

***

Əbədidir bu kədər,
Ürək qəmli, mükəddər.
Dərd dəvəni əridib,
Qarışqaya yük edər.

***

Dərd kükrəyib hey gəlir,
Qollarıma hey gəlir.
Sözləri cilalayıb,
Yonmuşam qəm heykəli.

***

Dərd bol, sevinc kəm oldu,
Ağlar gözüm nəm oldu.
Sözdən bir qala tikdim,
Pəncərəsi qəm oldu.

***

Dərd üzük, qaşı mənəm,
Gözünün yaşı mənəm.
Bu dünya qəm gölüdü,
Dibinin daşı mənəm.

***

Bağrım başı qan olub,
Haqq diləyim danılıb.
Qəm çəkicə dönübdür,
Ürəyim zindan olub…

**1991**

## NİSGİLLİ BAYATILAR

–Dərd mənim sevgilimdi,
Bağrım dilim-dilimdi.
Baladan ayrı düşmək
Ölümdən də zülümdü.

–Bu dünya ələk-vələk,
Döyür bizi qar, külək.
Zülümlər çəkirik ki,
Ölümün qədrin bilək.

–Oğlum, qara bağlaram,
Ürəkləri dağlaram.
Dilim qurusun, sənsiz
Gecə-gündüz ağlaram.

–Göz yaşını sil, dönməz,
Ay qayıdar, il dönməz.
Ölüm haqdır, ölürəm
Söyləməyə dil dönməz.

–Simi yox saz kimiyəm,
Döşü xəlbir gəmiyəm.
Qayıt gəl, oğlum, sənsiz
Bir yığın sür-sümüyəm.

–Neft yanar, qora girsə,
Balıqlar tora girsə.
Ölüm nəhəng saraydı,
Kim çıxar ora girsə?

–Bilərzik qolda gərək,
Bənövşə kolda gərək.
Niyə durmusan, oğlum,
Yolçular yolda gərək.

–Yaram sızlar, oy, anam,
Yatsam, çətin oyanam.
Bir yol varmı ki, gedəm
Ölümdən də o yana?

–Qamətinlə öyündüm,
Ömrüm-günüm üyündü.
Elə demə, ay oğul,
Bağrım düyün-düyündü.

–Dağlar var dağım üstə,
Sarı yarpağın üstə.
Hər qəbir bir nidadı,
Ana torpağın üstə…

**1991**

# "Qəm karvanı" kitabından

## SEVDA DÜNYAMIZIN QARANQUŞLARI

### MƏN ÖZ TALEYİMDƏN RAZIYAM

Mən öz taleyimdən razıyam, gülüm,
Yolumun üstündə bitirib səni.
Keçirib zamanın neçə qışından
Ömrümə, günümə gətirib səni.

Bu yaşda qismətim gülüb üzümə,
Baxışın əridib qəlbimdə kini.
Bircə yol baxdınmı həsrət gözümə,
Oxuya bilirsən qəlbimdəkini.

Gözlərin bulaq tək durudur, duru,
Ürəyim saçında kəməndə düşüb.
Qəlbimə sənətin ecazkar nuru
Bəlkə sən dünyaya gələndə düşüb?

Hələ tərk etməyib könlümü bahar,
Adını çəkəndə dilim sevinir.
Yaxşı ki, sən varsan, o əllərin var,
Onlara dəyəndə əlim sevinir…

Kül altda uyuyan qızıl köz varsa,
Ocağı dünyadan köçməyə qoymaz.
Məni məhəbbətlə süzən göz varsa,
Ruhumu ovxardan düşməyə qoymaz…

**1994**

## ŞAİR GÜNAHI

Nəfəsi gözəllərin saçında külək olar,
Baxıb qəlbi kövrələr hər gün ah edənlərə.
Uzaq başı şairin günahı sevmək olar,
Sən şairi tay tutma hər günah edənlərə…

**1994**

## BU BAHARIN ÇİÇƏKLƏRİ

Sevda dolu məktubunu gözümə təpdim,
Sevincimdən qanad açdım, məni qınama.
Bu baharın çiçəyinin gözündən öpdüm,
Yanağının hərarəti axdı qanıma.

Nəfəsinin yaz ətrini küləkdən aldım,
Sözlərini oxuduqca, gözlərim güldü.
Əllərimdə məktub əlin xəyala daldım,
Bu baharın çiçəyini gözlərin bildim.

İndi mənim həyatımda qış yaza dönüb,
Sanıram ki, dayanmısan mənim qarşımda.
Bu baharın çiçəkləri ulduza dönüb,
İşıq saçır mənim sevda kəhkəşanımda…

**1994**

## MƏN ŞAİR OLSAYDIM

Baxışın ömrümə gətirdi bahar,
Düşündüm: –Ay Allah, işə düşmədim?!
Dedin ki, şairlər qorxaq olurlar,
Bağışla, mən səni başa düşmədim. –

Gah Füzuli dedim, gah da Nəsimi,
Gözlərin dilimə: – Bir dayan! – dedi.
Kövrək təbəssümün boğdu səsimi,
Titrək addımların mənə: – Yan! – dedi.

Giley eşitmədim ancaq dilindən,
Özümə ayrı yol seçəydim gərək.
Mən şair olsaydım, sənin əlindən
Tutub bu dünyadan köçəydim gərək…

**1994**

## SEVGİ AYRI ŞEYDİ, BALA

**Oğlum Gurselə**

Dərməyə qıymadı əlim,
Uzanıb gül əydi, bala!
İndi sənə dediklərim
Sanma ki, gileydi, bala!

Boş söz keçirmir ələyi,
Duyan bir qəlbdi gərəyi.
Atanın sevən ürəyi
Bir dağlanmış neydi, bala!

Məni duyanlar olmadı,
Üç nöqtə, üççə almadı…
Yerdə bizə yer qalmadı,
Pənahımız göydü, bala!

Övlad ataya ağ olmaz,
Sevəni danlamaq olmaz,
Deməklə anlamaq olmaz,
Sevgi ayrı şeydi, bala!

**1994**

## ÖMÜR YOLDAŞIMLA SÖHBƏT

–Pərvanə tək həmişə zövq almısan işıqdan,
Titrəyirsən, bir gözəl göründümü qarşında.
Utanmırsan deyəsən heç oğuldan, uşaqdan,
Məhəbbət şeiri nədi yazırsan bu yaşında?!

–Qəlbim əsəndə sözlər misralara düzülür,
Ürəyimin səsinə necə qulaq asmayım?
Saqqalında bir qara tük qalmayan Füzuli,
Məhəbbətdən yazıbsa,
bəs mən niyə yazmayım?!

**1994**

## ÜÇ NÖQTƏ

Sözümdən söz çəkən qız,
Tanrı yetsin dadına!
Bu ilin ilk şeirini
Yazdım sənin adına.

Üzündə gecələyib
Ayrılığın kədəri.
Vallah, ürəyin gedir
Ağlamaqdan ötəri.

İstədim ki, danışım,
Üzünü aldı təlaş.
Qoymadı ki, dillənim
Gözlərindən axan yaş.

Sehrkar bir dil ilə
Danışdı o, dindi o.
Sözlərimin sonunda
Üç nöqtəyə döndü o…

**1994**

## OLA BİLƏRMİ?

Deyirəm sözümü kəsə,
Qüvvə yox önümü kəsə.
Qanadları olan kəsə
Daş çəpər ola bilərmi?

Yəqin bizi anan görüb,
Dərdlərinə yanan görüb,
Quruları yanan görüb,
Yaş çəpər ola bilərmi?

Od-alov yatır canında,
Gənclik qaynayır qanında.
Şairlə gözəl yanında
Yaş çəpər ola bilərmi?!

**1994**

## HAZIRSAN

Təbəssümün çevrilibdir “kənkana”,
Dincliyimə dərin quyu qazırsan.
Mən fağırı əsir edib sevginə,
Neçəsinin əhvalını pozursan.

Yerli çətin başa düşə gəlməni,
Alovlara tuş eləmə gəl, məni!
Dodağımdan qopan qəfil kəlməni
Allah bilir neçə yerə yozursan?!

Baxışların sevgi toru toxuyur,
Təbəssümün gözlərimə şığıyır.
Yaz çiçəyi qışa meydan oxuyur, –
Mənə sevgi dastanımı yazırsan?

Həsrətimi oxuyursan gözümdən,
Danışmamış söz çəkirsən sözümdən.
Kirpiyinlə od götürüb közümdən
Təzə ocaq qalamağa hazırsan…

**1994**

## BU YAZ YAĞIŞINDA

Bu yaz yağışında tutub əl-ələ,
Baş götürüb gedək çəmənə, çölə.
Daha nə deyirlər desinlər, qorxma!
Şığı irəliyə, geriyə baxma!
Hər şeyə hazıram sənin xətrinə,
Qarışaq çiçəyin, gülün ətrinə.
Məhəbbət ağacı tumurcuqlasın,
Sənin kirpiyində yaş muncuqlasın.
Məhəl də qoymayaq qara, sazağa,
Sevgi qanadında uçaq uzağa.
Çəməndə darıxan güllər, çiçəklər,
Vallah, bizi görüb sevinəcəklər…

**1994**

## CAVAB İSTƏMİRƏM SEVGİMƏ SƏNDƏN

Şikayət eləyim mən kimə səndən? –
Niyə məhəbbətlə üzümə güldün?
Cavab istəmirəm sevgimə səndən,
Sağ ol ki, özünü sevdirə bildin!

Sən açdın tutulan şair dilini,
Bu görüş taleyin bir naxışıydı.
Bu sevgi qəlbimin solan gülünün
Üstünə ələnən yaz yağışıydı…

Tanrı özü yetsin sənin dadına,
Darıxma, qismətin üzünə gülər.
Sən vurma özünü sevgi oduna,
Zərif qanadların ütülə bilər.

Sən Allah, könlünü odlara yaxma,
Qorxuram qəlbində qəm çiçəkləyə!
Sevmə, ağrın alım, sən mənə baxma,
Mən əzab çəkməyə öyrəncəkliyəm!

**1994**

## TİTRƏYƏN İŞIQ

Sən mənim ruhumda titrəyən işıqsan,
Közərib alova dönə də bilərsən.
Sən mənim yanımda körpəsən, uşaqsan,
Bir kobud nəfəslə sönə də bilərsən…

**1994**

## ÜÇ DAŞ

Üç daş bağışladım sənə bu səhər,
Dəniz göndərmişdi onları sənə.
Duyana adi daş gövhərdi, gövhər,
Bəxş etdim duyğulu anları sənə.

Təbəssüm bəzədi nurlu üzünü,
Sevindin, gözündən boylandı yaşlar.
Kim bilir, bəlkə də su pərisinin
Donmuş göz yaşıydı bu xırda daşlar?!

Bu üç daş üç kiçik toxuma bənzər,
Heç biri zərrəcə götürməz ləkə.
Üç daş bağışladım sənə bu səhər,
Dedim: – “Daş ürəyin” yumşaldı bəlkə?!

Sənə aydın olar sözümün ardı,
Fikirləş, üç daşın mənasını tap:
Biri ürəyim tək cadar-cadardı,
Biri sənin əlin, o biri mizrab.

Üç daş bağışladım sənə bu səhər,
Nədən qorxurdumsa, gəldi başıma.
Məhəbbət ocağı köz tutsa əgər,
Onlar dönə bilər ocaq daşına.

Duysan o daşları, gözün dolacaq,
Qaçıb gələcəksən qarşıma bir gün.
Ya onlar ömrünə bəzək olacaq,
Ya da çırpılacaq başıma bir gün…

**1994**

## ÜRƏKDƏ BİTƏN AĞAC

Səni görən gündən dincliyim itib,
Taleyim belədi, cəfakeşəm mən.
Yazırsan: –Qəlbində bir ağac bitib, –
Toxum cücərtməkdə gecikmişəm mən.

Bəlkə xoş söz çəkdim dodaqlarından,
Bəlkə bu sevdaya ellər gülüşdü?!
Bəlkə o ağacın budaqlarından
Mənim qismətimə üç alma düşdü?!

İçimdə közərir gizli bir ocaq,
Qəlbimdə bir təzə sevda doğulmuş.
Bəlkə o üç alma xatırladacaq:
Bu, sevda deyilmiş, şirin nağılmış?…

Sağalmaz bir yara yoxdu dünyada,
Bilirəm, sevdalı qəlbin kövrəkdi.
Toxum cücərdənlər çoxdu dünyada,
Mənə daş göyərdən ürək gərəkdi…

Sənin ürəyində bitən ağacın
Üstündən bir şair nəfəsi əsdi.
Meyvəsi kiməsə qismət olacaq,
Mənə o ağacın kölgəsi bəsdi…

**1994**

## ALAQ OTU

Sənin ürəyində boy atan ağac
Ucalsın, qoy biz də dolaq altına.
Onun zərrə qədər ziyanı yoxdu,
Qəlbimi atmasan ayaq altına.

Qorxutmur könlümü dumanlar, sislər,
Neyləyə biləcək eşqə xəbislər?!
Şair ürəyindən su içən hisslər
Çevrilə bilərmi alaq otuna?!

**1994**

## SƏNİN GÖZ YAŞLARININ GÜCÜNƏ BƏLƏDƏM MƏN

O qədər də bənd olma şair söyləyən sözə,
Ağlı başında olan qara daşı becərməz.
Dünyada görünməyib hələ belə möcüzə –
Tuma bənzəsə belə, kiçik daşlar cücərməz…

Sözümü duymayana çətin ki, əl edəm mən,
Ürəyimə yatarmı hər dağda bitən çiçək?!
Sənin göz yaşlarının gücünə bələdəm mən,
Daşların üstə düşsə, onları göyərdəcək…

**1994**

## SİNƏSİ BULAQLI QAYA

Sinəsi bulaqlı qaya,
Ömrün elə sucan olsun!
Könül verdiyin bəxtəvər
Dönüb sənin xocan olsun!

Gecikmişəm, ömür keçib,
Oda düşüb yenə içim.
Ver suyundan bir az içim,
Qoy sadağan bu can olsun!

Quru çöpə verdin nəfəs,
Ürəyinə saldın həvəs.
Kimsəyə baş əyməyən kəs
Ayağını qucan olsun.

Salmazsan sözümü yerə,
Dikmişəm gözümü yerə,
Gətirdin dizimi yerə,
Görüşümüz haçan olsun?!

**1994**

## SƏNƏ KÖNÜL VERDİM Kİ...

Sevgisiz yaşayanlar –
Dünyadan kamsız gedər.
Sənə könül verdim ki,
Ömrüm getməsin hədər.

Qəlbimə sevgi düşdü,
Aylar, illər ötüşdü.
Yaz yağışı – sevincdi,
Payız yağışı – kədər.

Yolumu tutsa da çən,
Gülüm, bəxtiyaram mən.
Xeyir tapmaz, sevgidən
Kimsə ki, xeyir güdər.

Bəxtiyaram, ey çiçək,
Titrəyirəm yarpaq tək,
Köksümdə sevən ürək
Bülbüllər kimi ötər.

Qorxum yoxdu ölümdən,
Nələr keçir könlümdən?!
Ayrı düşsəm gülümdən,
Könlümü həsrət didər…

**1994**

## NEÇƏ ÇEŞMƏLƏRDƏN İÇİB GƏLMİŞƏM

–Neçə çeşmələrdən içib getmişəm…
–Bəs bizim bulağa gəlməyəcəksən?
–Mən sizin kənddən də keçib getmişəm…
–Daha keçib gedə bilməyəcəksən…

Ulduzlar gözümdür, sənə baxırlar,
Ürəyin odlara qalanacaqdır.
Bir qız qollarına dönüb cığırlar,
İlan tək boynuna sarılacaqdır.

Ötən sevdalardan əl üzüləcək,
Titrək barmaqların dinəcək sənin.
Ya şirin dilindən bal süzüləcək,
Ya ömrün zəhərə dönəcək sənin…

**1994**

***

Alovlu baxışlarınla
Ürəyimə elçi
göndərmisən.
Ancaq süni boyanı
dodaqlarımla
dodaqların arasında
sərhəd dirəklərinə
döndərmisən…

**1994**

***

Səni bircə gün görməsəm,
Yuxu da getmir gözümə.
Ay şeytan, dolub qəlbimə,
Öyrətdin məni özünə.

Həsrətini ürəyimdə
Nə vaxtadək daşıyacam?!
Qəlbim əsir, heç bilmirəm
Sənsiz necə yaşıyacam?!

**1994**

## ETİBAR

–Nəfəsim dəysə közərər,
Közə etibarım yoxdu.
Şairlərin söylədiyi
Sözə etibarım yoxdu.

–Sevgidən ummuram xeyir,
Ürəyimi həsrət yeyir.
Gözün gülür, dilin deyir:
–Sizə etibarım yoxdu…

**1994**

## ÇATARDIMI?

Ürək, sənin döyüntünü
O qız geri qaytardımı?
Bir təzə sevgi dastanı
Başlanmamış qurtardımı?

Qocalmısan, ötüb yaşın,
Daha bu sevdadan daşın!…
İncimə, alovla daşın
Sirdaşlığı tutardımı?!

Mən bir eşqin sevinciyəm,
Heç mizrabdan sim inciyər? –
Gözəl, səndən kim inciyər,
Üzün gülür, bahardımı?!

İsin odlu közlərimlə,
Baş-başa ver sözlərimlə,
Sevsəydim tək gözlərimlə,
Sənə növbə çatardımı?!

**1994**

## AYRILIQ

Demə ki, ayrılıq təkcə göz yaşıdı,
Ayrılıq elə bil bir məhək daşıdı.
Piyada gəzəni köhlənə mindirər,
Ürəkdə uyuyan sözləri dindirər.
Ayrılıq közərdər həqiqi sevgini,
Ayrılıq yalançı hissləri söndürər…

**1994**

## GÜNƏŞƏ BOYLANAN PAYIZ ÇİÇƏYİ

Saralıb meşənin yaşıl birçəyi,
Ancaq ürəkdəki hisslər saralmır.
Günəşə boylanır payız çiçəyi,
Gələn boranları eyninə almır.

Demə qoca şair hara göz dikib?! –
Taleyin verdiyi bu paya gülmə!
Saçıma ələnən qara göz dikib,
Qəlbimdən boylanan sevdaya gülmə!

Önümdə xəzan var mənim, ey sənəm,
Səninsə qarşında neçə yaz durur.
Bəlkə mən yazmıram, bu şeri sənə
Füzuli babamın ruhu yazdırır?!

**1994**

## SƏNİNLƏ SÖHBƏT

–Bu dəli sevdadan necə daşınım? –
Bu yolda sevənlər canından keçir.
Hara gedirəmsə, mənim maşınım
Sizin evinizin yanından keçir.

–Gülməli deyilmi Sizin eşqiniz? –
Bir qız nə şeydi ki, üzülmə belə!
O gün də yanımdan ötüb keçdiniz,
Dönüb baxmadınız üzümə belə…

–Çırpınan xəyalım dönüb ağ yelə,
Eşqinlə külək tək hey əsmişəm mən.
Səni yolda qoyub gedəndə belə
Sənin görüşünə tələsmişəm mən…

**1994**

## QƏLBİMƏ BAXSAYDIN…

Həmişə gələrdin mənim yanıma,
İndi nə olub ki, məndən qaçırsan?
Baxışın dil verir həyəcanıma,
Saçıma ələnən dəndən qaçırsan?!

Yaş o yaş deyil ki, neyləyim axı? –
Ancaq arzularım şimşəyə bənzər.
Qəlbimə baxsaydın, saçımın ağı
Görərdin qara yox, çiçəyə bənzər…

**1994**

## SEVGİ NƏSİMİ

Ruhuma hakimdi şirin bir röya,
Gülüm, sən necə də ətirlənmisən!
Üzün bənzəyirdi solğun bir aya,
İndi nurlanmısan, bədrlənmisən.

Öpür yanağımı sevgi nəsimi,
Tale yol üstündə işıq yandırıb.
Qəlbində məhəbbət yanıb şam kimi,
Üzünü, gözünü işıqlandırıb…

**1994**

## ŞÜŞƏ

Günəş şüası şüşədən pəncərənin qabağındakı taxtaya düşmüşdü. Qəribə idi: şüanı şüşə keçirib taxtaya verdiyi halda, özü soyuq, taxta isə isti idi…

**Bir məktubdan**

Ürəyim buz deyil, düşmə təşvişə,
Sevda yollarında çox xiffət çəkib.
Sənin qınadığın bu soyuq şüşə
Şüşə olanacan müsibət çəkib.

Mane olmasa da, nura, günəşə,
Soyuğun önündə hasar tək qalxıb.
Sən hardan biləsən, bu soyuq şüşə
Nə qədər odların içindən çıxıb?!

Doğma budağından ayrılan xəzəl
Qoşulub yellərə hara tələsər?!
Şüşə ürəyimlə oynama, gözəl,
Sınmağı cəhənnəm, əlini kəsər…

**1994**

## BİLMİRƏM NƏ ÜÇÜN

Bilmirəm nə üçün belə elədim,
Ömrümü əzaba, qəmə bələdim?!
Bir lələk dilədim durna köçündən,
Qərib olduğunu ürək unutdu.
İgidlər içində, ərlər içində
Mənim qız ürəyim gör kimi tutdu?!
Sözün gizlisini, nainsafını
Ona saxlamışdım, etiraf armı?!
Qələm, sən neylədin, söz sərrafının

Gözündən yazdığın söz yayınarmı?!
Qəlbim tək titrəyən bir simi sevdim,
Çətin sala bilsin qına, yar məni.
Gör kimə vuruldum, gör kimi sevdim?–
Eşitsə, el-aləm qınayar məni…
Ürəyim titrədi bir nanə kimi,
Sən demə əzabın ağırı buymuş.
Qanadım ütüldü pərvanə kimi,
Odla oynamağın axırı buymuş…
Bəlkə, bu, könlümün son harayıdı? –
Köhnə dəyirmana təzə dən gəlib?!
Bəlkə bu, Allahın sevgi payıdı,
Mənim ürəyimə göylərdən gəlib?!
Bilmirəm nə üçün belə elədim,
Ömrümü bir şirin qəmə bələdim?!

**1994**

## QƏLƏMLƏ SÖHBƏT

–Yeriyib qoşun tək üstümə ələm,
Könül verdiyinin
könlü nədəydi?
–İndicə mən səni qıracam, qələm,
Nə yazdın yarımın könlünə dəydi?!
–O niyə şübhəylə arayır, seçir?!
Yazdığım sözlərə söz yoxdu, şair!…
Odlu misraların üstündən keçir,
Sevdiyin qızda da az yoxdu, şair…
Mənim qorxum yoxdu, dostum, tez elə,
Verdiyin cəzanı səadət sanım.
Ancaq özün qırma, ver o gözələ,
Sınsam da, qoy onun əlində sınım…

**1994**

## QİSMƏT OLARDIMI?

– Qaydadır, açılan saralır, solur,
Ölmək səadətdi sənin əlində.
Ömrü bir payızlıq, bir yazlıq olur
Payız gülünün də, yaz gülünün də.

Təsəlli verirsən: – Gəl ürəyini
Sıxma, – bu gileyin mənası varmı?
– Payız çiçəyinə yaz çiçəyini
Öpüb qucaqlamaq qismət olarmı?!

**1994**

## TA NƏ İSTƏYIRSƏN?

Xətrimə dəyər ha, dediyin sözlər, –
Dilənçi sanırsan nahaq özünü.
Yamanca sayıqdı keşikçi gözlər,
Görə bilməmişəm hələ gözünü.

Hərdən danışsan da bir uşaq kimi,
Məhəbbət yolunda dolursan yaşa.
Əgər dilənçisən, al ürəyimi,
Qəribsən, köç mənim qəlbimdə yaşa!

**1994**

## İKİNCİ “MƏN”

“Mənim qəlbimdə iki “mən” var. İkinci “mən”i duymaq çətindir. O daha saf, daha təmizdir…”

**Bir məktubdan**

Səni bir çiçəyə döndərib bahar,
Dərə bilməsəm də, iyləyə billəm.
Deyirsən: qəlbində ikinci “mən” var, –
Bir “mən” iki “sən”ə neyləyə billəm?!

Tale qismət edib bir inci mənə,
Əllərin uzanıb qəlbimi dərsin.
Elçi göndərmişəm birinci "mən"ə,
O ikinci "mən"i qoy mənə versin…

**1994**

## AĞ KAĞIZ HAQQINDA ÜÇ YOZUM

1

–Mənə kağız verdin, ağappaq idi,
Bir kəlmə tapmayıb məəttəl qaldım.
–Başqa gözəllərə meyl eləyirdin,
Acıqca mən səndən intiqam aldım…

2

–Gözəl, mənə bir cavab ver,
Bir kimsədə gözüm yoxdu.
–Qocalmısan, ağlın çaşıb,
Daha sənə sözüm yoxdu…

3

İstədim inciyim:
–Sən bu vərəqi
Niyə ağ qaytardın? –
Dedim o qıza.
Güldü: –Dopdoluydu mənim ürəyim,
Boşaltsam, sığmazdı adi kağıza…

**1994**

## QƏLBİMDƏ ŞAM YANIRSA

Deyirsən mən hər şeyi qatıb-qarışdırıram,
Ulduzları endirib yerdə sayrışdırıram.
Ən zərif çiçəkləri dalğalara düzürəm,
Sənə gətirmək üçün çaylaq daşı gəzirəm.

Könlün üzüm istəyir, sənə qora verirəm,
Sevgi uman ürəyə cızmaqara verirəm.
Ulduzlardan saçına nurlu çələng hörmürəm,
Gözlərindən boylanan intizarı görmürəm.
Gülündən çox sevirəm ağacın yarpağını,
Əliyə tullayıram Vəlinin papağını.
Sən aya baxan zaman göyə bulud atıram,
O dərənin suyunu, bu dərəyə qatıram.
Bir-birinə qovuşmur, hirsdən bulanır su da,
Balıq tutmaq asandı axı, bulanıq suda?!
Mən hər şeyi qatıram bircə şeyin xətrinə,
Ciyərlərim həsrətdi nəfəsinin ətrinə.
Sözüm yoxdu bu sözdən söz düzəldən millətə,
Səni şam kimi qapıb, girəcəyəm zülmətə.
Ürəyim hey titrəyir, ərşə çəkilib yuxum,
Qəlbimdə şam yanırsa, qaranlıqdan nə qorxum?!

**1994**

## YAZIRSAN Kİ…

Yazırsan ki, qəlbin olub
Arzuların qəbristanı.
Ürəyinə axan yaşla
Neçə-neçə qəbr islanıb.

Bir gün məni öldürəcək
Bu od ki, var bəbəyində.
Bir şəhidlər xiyabanı
Salacaqsan ürəyində…

**1994**

## DOĞRU

Körpə bir gül boylanırmış
Ayıma, ilimə doğru.
Ömür boyu yol gəlirmiş
Titrəyən əlimə doğru.

Sənsiz günlərim bir hədər,
Mənə doğma olub kədər,
Adını çəkənə qədər
Gəlməyib dilimə doğru.

Qələm nə gəldi yazır ha!
Demə, yolundan azır ha!
Qəlbində qəbir hazırla,
Gəlirəm ölümə doğru…

**1994**

## MƏNİM OLACAQ

Sənin saldığın gülşənə
İlk güzar mənim olacaq.
Göz yaşıyla çiçəklənən
Bu gülzar mənim olacaq.

Həsrətimin gözləri dörd,
Əllərinlə gözümü ört.
Dərmanı olmayan bu dərd,
Bu azar mənim olacaq.

Gülüm, məni ha arzula,
Payızım çətin yaz ola!
Sənin qəlbində qazılan
Son məzar mənim olacaq…

**1994**

## GÖRƏCƏK

Bu dünyanın adamları
Gözlərimi tox görəcək.
Bu dalğalar, bu ləpələr
Bir gün məni yox görəcək.

Xəzan gəlib, solub gülşən,
Köks ötürmək olub peşəm.
Ürəyinə sevgi düşən
Ah görəcək, ox görəcək.

El içinə çətin çıxam,
Dərd əlində qalıb yaxam.
Gözlərinə bir yol baxan
Sinəsində ox görəcək.

Sevən qəlbin yox kini də,
Sev ayı da, sev günü də,
Aydan arı sevgini də
Dünya bizə çox görəcək.

**1994**

## DƏNİZLƏ SÖHBƏT

Kimsə sala bilməz, yar, gözdən səni,
Hər gün soruşuram dənizdən səni.
Dalğalar baxırlar təəccüb ilə,
Gülüm, dəniz səni tanımır hələ…
Deyir ki, qoy o da sənə qoşulsun,
Ya dalğaya dönsün, ya da quş olsun!
Deyir ki, müqəddəs sevginindi yol,
Mənim təmənnasız qonağım olun.
Uçmaq istəyirsə, sən qağayı ol,
Üzmək istəyirsə, balığım olun…

**1994**

## MƏNƏ DƏNIZ BAĞIŞLAYAN GÖZƏLƏ

"...onda dənizi Sizə bağışlayıram. Qoy heç olmasa bizim bir şərikli şeyimiz olsun..."

**Bir məktubdan**

Səxavətin artıq olsun,
Sən dənizi mənə verdin.
Özün çəkildin kənara,
Yenə bizi önə verdin.

Yanğımı söndürmək olmaz
Dalğayla, yağışla, gözəl.
Dəniz elə mənimkidi,
Özünü bağışla, gözəl...

**1994**

## DƏNİZ OLMAQ İSTƏYİRƏM

"Dənizə deyin ki, nə balıq olmaq istəyirəm, nə qağayı, nə dalğa. Dəniz olmaq istəyirəm."

**Bir məktubdan**

Söz vurğunu olan gözəl
Söz qanmazı çətin sevər.
Yazdığımın içindədi
Axtardığın inci, gövhər.

Nə çıxar tək demək ilə,
Bir az mənə kömək elə.
"Dəniz oldum", – demək elə
Səninkiyəm, a bəxtəvər...

**1994**

## MƏNİM DƏNİZİM

Açılıbdı dan üzü,
Dənizim, ay dənizim.
Dalğa köynəyin əsir,
Yer ver, qoynunda üzüm.

Söz deyirəm ərk ilə,
Arı qonmaz hər gülə.
Ya qucaqla boynumu,
Ya qoynunda qərq elə…

**1994**

## DƏNİZ HƏMİŞƏ GÖZƏLDİ

"Dəniz nə laqeyd imiş… Yəqin bunu eşitdikdən sonra məni sahilində görmək istəməz. Bəlkə məni sahilinə gətirdiyiniz üçün qəzəbi tutar…"

**Bir məktubdan**

Dəniz coşub, gözəllərlə
Gəlsə döş-döşə, gözəldi.
Onun hirsli dalğaları
Dönsə gümüşə, gözəldi.

Eşqim sənə əyan olsa,
Sevgin mənə həyan olsa,
Qorxma, onu duyan olsa,
Dəniz həmişə gözəldi…

**1994**

## QOVUŞA BİLSƏYDİK…

Sən mənə dənizi göstərib o gün
Sakitcə: – Sevirəm, – dedin, bu rəngi.
Qüdrətim çatsaydı, gümüş dalğalar
Saçında olardı sevgi çələngi.

Axışa-axışa gələn ləpələr
Bir sevgi nəğməsi ötdü ürəkdən.
O dəniz sənindi, o dəniz mənim,
Hissimiz yoğrulub o mavi rəngdən.

Gözündən oxudum mən bu sözləri
Baxanda səmaya, mavi dənizə:
"Xəzər üfüq ilə birləşən kimi
Qovuşa biləydik bir-birimizə…"

**1995**

## ARAZ BALIĞI

**"Bir qızın pasportuyla yaşayan balığa"**

Ay Xəzərdə üzən Araz balığı,
Qayıt, ağrın alım, geriyə qayıt!
Arazdan adlayıb keç Həkəriyə,
Mənim həsrətimin odunu soyut.

Üzüb Bərgüşadla üzü yuxarı,
Əzizim, gah sağa, gah da sola bax.
Mənim səndən ayrı diləyim yoxdu,
Ata yurdumuzdan gətir bir soraq.

Bizə ümid nuru qaytara bilsən,
Onda mənim ayrı cəlalım olar.
O tapdığın pasport sənin halalın,
Sahibisə mənim halalım olar.

**1994**

## TALE QİSMƏTİMƏ SƏNİ GÖNDƏRİB

Ayrılıq vədəsi gəlib yetişdi,
Kövrəldi dumanlı, çiskinli dağlar.
Yurdumdan, yuvamdan aralı düşdüm,
Hönkürdü dalımca şır-şır bulaqlar.

Elə bilirdim ki, bir də gülmərəm,
Qayıda bilməsəm doğma diyara.
Dedim bu həsrətə dözə bilmərəm,
Sağalmaz qəlbimə vurulan yara.

Titrəyir qəlbimin qırılmış simi,
Gözlərin ömrümü nura döndərib.
Ovundurmaq üçün mənim qəlbimi
Tale qismətimə səni göndərib…

**1995**

## EH, NƏ BİLİM

Deyirsən ki, heyrətindən gözün belə dolmamışdı,
Diqqətimlə varlığında kiçik tufan qoparmışam.
"Ömrüm boyu hələ belə sevindiyim olmamışdı" –
Sözlərini sənin titrək dodağından qoparmışam.

Bu taleyin oyununu tənzimləmək müşkül, hədər,
Bəlkə ölsəm, məni yerdən götürən də olmayacaq.
Eh, kim bilir, ağrın alım, bəlkə elə mənim qədər
Varlığına bir təlatüm gətirən də olmayacaq?!

Düzlüyümlə fəxr edirəm, hər vaxt açıqdır alnım da,
Nə gizlədim, ürəyimdə gizli vüsal arzusu var.
Eh, nə bilim, bəlkə mənim üstü çapıq bu alnımda
Səni xoşbəxt eləməyin haqdan gələn yazısı var?!

**1994**

## DƏYİŞMƏRƏM

Hisslərin alovunda saralan xəzəlləri
Bilirsən ki, payızın özünə dəyişmərəm.
Sən nahaq incimisən, əzizim, gözəlləri
Məni əsir eləyən gözünə dəyişmərəm.

Eşqinlə təmizlədin hisslərimin pasını,
Nahaqdan saxlayırsan qanmazların yasını.
Diplomsuz Füzulinin ikicə misrasını,
Diplomlu nadanların yüzünə dəyişmərəm.

Sağ ol ki, ovxarladın şairin ilhamını,
İndi-indi dadıram məhəbbətin tamını.
Yolumun üstə yanan taleyimin şamını
Lap göydəki günəşin özünə dəyişmərəm.

**1994**

## OLMASA

**Sevda Məmmədli tərəfindən bəstələnib.**

Bəxtəvər olmaram, yavrum, başımda
Sənin məhəbbətin bir tac olmasa.
Sən məni özündən uca sanırsan,
Yarpaq nəyə dəyər ağac olmasa?!

Gizli bir atəşlə yanır, yanırsan,
Mənimlə danışıb kimi anırsan?!
Nahaqdan sən məni zirvə sanırsan,
Zirvə nəyə dəyər yamac olmasa?!

Doyunca baxaydım kaş ki, gözünə,
Niyə əsir etdin məni özünə?
Başım düşmək istər şümşad dizinə,
Ölərəm, dərdimə əlac olmasa…

**1994**

## YAMAC VƏ ZİRVƏ

**"Yamac zirvəyə çata bilməyəndə, zirvə yamaca əl uzatmalıdı…"**

Gözəllikdən bacar, bac al!
Təki ömür versin macal!
Zirvənin əli qurusun
Uzanmasa o yamaca!…

Söz dedin, sözünü istə,
Üşüsən, közümü istə!
Zirvə uçsa, səpiləcək
Yamacın dizinin üstə…

**1994**

## ÖTRÜ

**Sevda Məmmədli tərəfindən bəstələnib.**

Sevən ürəyim titrəyir
Bir şirin sözündən ötrü.
Qəlbim quru odun kimi
Can atır közündən ötrü.

Dərd əlindən çıxdım dağa,
Babam tək qoyuldum lağa.
Özümü verdim sadağa
Bir qızın gözündən ötrü.

Qıfıl vurular yatara,
Zülfünü ya yığ, ya dara.
Gözəl, məni çəkmə dara
Bir "gözəl" sözündən ötrü.

Gecə keçib, işıq sönüb,
Yenə dəli könlüm dinib,
Şair pərvanəyə dönüb
Sənin ay üzündən ötrü…

**1994**

## OLAR

Söz qoşanda ciyərlərim
Köz üfürən körük olar.
Ürəyinə sevgi düşən
Bir sümük, bir dəri olar.

Birinin oddur baxışı,
Biri taleyin naxışı,
Birinin sevdiyi Yaxşı,
Birininki Pəri olar.

Füzulini salaq yada,
Qoy ruhumuz gəlsin dada.
Əsl şair, bu dünyadan
Köçsə belə, diri olar.

Alışmadın közlərimə,
Baxammadın gözlərimə,
Lağ eləmə sözlərimə,
Hər şairin yeri olar.

Muma dönmür söz əlimdə,
Hər şey deyil öz əlimdə.
Sənin kimi gözəlin də
Mənim tək şairi olar…

**1994**

## NƏYİM VAR?

Simləri qırılmış sazım,
Qəlbi dağlanmış neyim var.
Mənə "insafsız" demisən, –
Səndən sənə gileyim var.

Doğma mənəm, uyma yada,
Baş əyirəm təmiz ada.
Ay insafsız, bu dünyada
İnsafdan başqa nəyim var?

**1994**

## ŞAİR SEVGİLISİNİN NƏĞMƏSİ

Sevindim, hər sözündə
Oxşayır, öyür məni.
Sandım ki, bəxtəvərəm,
Sevir bir şair məni.

Göz yaşım ləpə-ləpə,
Ürəyim qəlpə-qəlpə.
Dəydim ilahi qəlbə,
Taparmı xeyir məni?!

Qəlbimin odu sönüb, –
El köçən yurda dönüb.
Dərd bir ac qurda dönüb
İçimdən yeyir məni.

Ömrümə çöküb ələm,
Çətin özümə gələm.
Dedim: "Şeirsiz ölləm!" –
Öldürdü şeir məni…

**1994**

## ÖLDÜRDÜ MƏNİ

Zaman hər arzumu dən tək üyütdü,
Tale dəli kimi güldürdü məni.
Əli Kərim, Məmməd Araz diriltdi,
Rafiq Yusifoğlu öldürdü məni…

**1994**

## ZARAFAT

Soyuq dodaqlar düşüb isinmək həvəsinə,
Məhəbbət dünyasının sonu çevrilişdi, ha!
Şair qonorar alır sözünün əvəzinə, –
Hər misranın qiyməti indi bir öpüşdü, ha!

**1994**

## BU DÜNYANIN BƏXTƏVƏRİ

Yazmışdın ki, ürəyindən keçən sözləri
Oxumağı bacarmıram gözümdən daha.
Elə bilmə öləziyib sevgi közləri,
Sözlərimi sən tutsan da özümdən baha…

Ürək yaxan bir ayrılıq yolumu gözlər,
Səni sevən günahsızın keç günahından.
Cavab yazdım: – İmkan vermir keşikçi gözlər,
Gözlərini görməmişəm hələ yaxından.

Qaçıb gəldin qabağıma sən gülə-gülə,
Təbəssümlə körpə kimi bələdin məni.
Fürsət tapıb gözlərini göstərmək ilə
Bu dünyanın bəxtəvəri elədin məni…

**1994**

***

İncidin "Zarafat"ımdan,
Sənin qəlbin buz imiş ki!
Gözlərin o cür baxışı
Öpüşdən ucuz imiş ki?!

**1994**

## GÖRMƏK İSTƏMİR

Dözür cövri-cəfasına, düşür borana, sazağa,
Məhəbbətin şirin-şəkər barını dərmək istəmir.
Sözə könül verən gözəl şairdən qaçır uzağa,
Ürəyi bal təşnəsidi, arını görmək istəmir…

## VAR İMİŞ

Özün qönçə olsan belə,
Kül olan arzun var imiş.
Nur saçsa da təbəssümün,
Ürəkdə yasın var imiş.

İsti yuvadan qovulan,
Gizlicə yanan, qovrulan,
Dəli sevdayla yoğrulan
Şirin avazın var imiş.

Gülsən, qıymıram dərməyə,
Şadam gözünü görməyə.
Qəlbimə əzab verməyə
Doğulan nazın var imiş.

Ötənləri daşa çaxar,
Ürək çətin yaşa baxa!
Mənimlə bir yaşamağa
Baharın, yazın var imiş…

***

Oğrun baxan bu gözəlin
Bəbəyində həsrət yanır.
Şairə meydan oxuyur,
Gəncliyiylə qürurlanır.

Dərd əriyir gilə-gilə,
Bəm meydan oxuyur zilə,
Kövrək təbəssümü ilə
Torpaq da, göy də nurlanır.

Ömrüm həsrətə bələnib,
Elə baxma cilvələnib,
Mənim ələyim ələnib,
Xəlbirim göydə fırlanır…

**1994**

## İSTƏSƏK DƏ…

İstəsək də məhəbbətin
Göylərində birgə uçaq,
Duyuram ki, sevgi odu
Ürəyimdən düşüb qaçaq.

Gözün elə laqeyd baxır,
Etinasızlıq qəlb sıxır.
Bilirdim ki, əvvəl-axır
Soyuyacaq bu od-ocaq…

Yaman razısan özündən,
Oxuya bildim gözündən:
Deyirsən bunun üzündən
Nə vaxt canım qurtaracaq?!

Ömrümdən ötdü son bahar,
Ümid qalıbmı sabaha?!
Məni dilənçi sanma, ha! –
Borclu borcun qaytaracaq…

**1995**

## SEVGİ ÇÖKDÜRÜB DİZ ÜSTƏ

Ürəyimdə sevgi odu,
Saçımda zamanın zehi.
Hisslərimə layla çalır
Körpəcə bir səhər mehi.

Sevənlər küsür, barışır,
Yenə əhvalım qarışır.
Ulduzlar kimi sayrışır
Kirpiyimdə hicran şehi.

Sözün tükənib, söz istə,
Ocağın sönüb, köz istə.
Sevgi çökdürüb diz üstə
Çox özündən müştəbehi…

**1995**

## ÜRƏYİMƏ YAZILSA DA

Ürəyimə yazılsa da,
Bu yar adı, bu yar adı.
Yanıma zülümlə gəlir,
Sanki yolu biyaradı.

Duyarmı hər külək səni?
Öpərmi hər çiçək səni?
Nə küskünsən, ürək, səni
Bu yar atıb, bu yar atıb?!

Qürrələnir yanaqları,
Qürrələnir dodaqları.
Elə bil uca dağları
Bu yaradıb, bu yaradıb…

**1994**

## GEDƏR

Sevgi odu sehrlidi,
Kifiri də qəşəng edər.
Verdiyim tək-tək gülləri
Yar toplayıb, çələng edər.

Özü uca, eşqi uca,
Bir kimsəyə verməz macal.
Yüz adamın yanındaca
Gözü gözümlə cəng edər.

Qorxsa boran, çəndən əgər,
Qaçıb getsə gendən əgər,
Üz döndərsə məndən əgər,
Küsər, bədəndən can gedər…

**1995**

## NEYLƏYƏSİDİR?

Nifrətin dolu tək yağdı üstümə,
Sənə nə dedim ki, axı, əzizim?
Barmağına batan tikana görə
Niyə qarğıyırsan bağı, əzizim?!

Arabir üzümə gülümsəyirsən,
Gözlərin daha nə söyləyəsidi?!
Axı dolu vuran gül budağına
Günəş təbəssümü neyləyəsidi?!

**1995**

## SEVDALI GÜNLƏRİN BAHARI KEÇDİ

Gözlərim nur saçan bir ulduz seçdi,
Tale göndərmişdi, pay özü gəldi.
Sevdalı günlərin baharı keçdi,
Sevginin çiskinli payızı gəldi.

Saralan yarpaqlar ümidim oldu,
İslatdı buz kimi yağışlar məni.
Kövrək misralarım sarı sim oldu,
Öldürüb diriltdi baxışlar məni.

Sınağamı çəkir bizi təbiət?
Ürəyim nə üçün altuna uydu?
Dağ boyda kişini bir körpə həsrət
Qatlayıb dizinin altına qoydu.

Ömrümdən bir durna qatarı keçdi,
Mənim görüşümə ay özü gəldi.
Sevdalı günlərin baharı keçdi,
Sevginin çiskinli payızı gəldi…

**1995**

***

Desələr ki,
ağlım çıxıb başımdan,
inanma, yavrum,
inanma!
Bu sevgini ürəyimə
Tanrı salıbsa,
qınama məni,
qınama!…

***

Bu sevda
nələr açmadı başımıza?
Sevinc yox,
kədər çıxdı qarşımıza.
Boynun bənövşə kimi əyildi.
Mən heç,
sənin günahın nə idi?!

***

Xəyalən yanına uçurdum, –
Bu, gözəl bir səfər idi…
Günəş üzünü görəndə,
buz qanadlarım əridi. –
Dözmədim adamların
kinli baxışlarına.
Çırpıldım həqiqətin
pıtır-pıtır daşlarına.
Bulaqlar qibtə elədi
gözlərimin ürəyimə axan
yaşlarına…

***

"O qədər ağladım ki",
– deyirsən.
Sevgisiz ürək
fəğan qopara bilərdimi?
Ancaq aramızdakı
sərhəd dirəklərini
sənin göz yaşların
apara bilərdimi?!

***

Mən dərənin dibindəyəm,
sən dağın zirvəsində.
Eşqimin yolları dirənib
ətəkləri sıldırımlı dağa…
Təbəssümün
alpinist kəndiri olursa,
nə var yanına qalxmağa?

***

“Bir gün üzümüzə
güləcək bahar”, –
deyirsən.
“Aramızda
bircə santimetrlik
məsafə var” –
deyirsən.
Başımızın üstündə
ayrılıq şimşəkləri
çaxırsa,
ömrümüzə,
günümüzə
hicran yağışları
yağırsa,
mənim günəşim
qüruba əyiləndə,
sənin günəşin doğursa,
o bircə santimetrə
iyirmi üç bahar,
iyirmi üç qış sığırsa,
bu necə yaxınlıqdı,
əzizim?!

***

Eşqimiz
solğun bir şama bənzəyir,
içimizdə gizli-gizli
yanır…
Ümidimiz Allaha qalıb,
önümüzdə tufan və zülmət
dayanır…
Hələlik ovundurur bizi
qəm işığı.
Sən də qəm aşiqisən,
mən də qəm aşiqi…

***

Qəlbimdə bənövşə ətri
sevinə-sevinə
qarşına gəldim.
Baxışlarımın ağırlığından
kirpiklərin də
qalxmadı…
Mən səndən ötrü
şəhərin bu başından
o başına gəldim,
sən başını qaldırıb
üzümə də baxmadın…

***

Özünü çəkməyəndə
sevimli, məzəli idin,
Ləzzət çəkirdim sözündən.
"Meymun" olanda
dünyalar gözəli idin,
"adam" olub
düşərsən ha, gözümdən!…

**1994-1995**

## BİLİRƏM

Bilirəm,
nə vaxtsa ürəyin
ayrı bir sevdayla
dinəcək…
Mənim məhəbbətim
səninlə hansı bəxtəvərinsə
ayağının altında
sevgi postamentinə dönəcək…
Bilirəm,
nə vaxtsa kobud ayaqlar pozacaq
sənin sevgi gülşəninə düşən
titrək ayaq izlərimi.
Odlu baxışlar unutduracaq
mənim həsrətli baxışlarımı,
utancaq gözlərimi.
Bilirəm,
nə vaxtsa qadir bir ad
ürəyindəki adımın üstündən
qələm çəkəcək.
Sənin intizar baxışların
bəlkə də havadan
nəm çəkəcək…
Söz söz yaddaşını,
gözlər göz yaddaşını,
dodaqlar dodaq yaddaşını
unutduracaq…
Qırğı caynaqlı bir dəliqanlı
kəpənək qanadlı hisslərimizə
qan udduracaq…
Bilirəm, nə vaxtsa
inci-inci düzdüyüm sözlərin

pozulacaq səfi.
Şeirlərim olacaq
rişxənd hədəfi.
Cırıb yelə verəcək onları
sənin həyat yoldaşın.
Səfərə çıxanların
ardınca atılan
suya dönəcək
sənin inci-inci səpilən
göz yaşın…
Bilirəm, nə vaxtsa…
Bilirəm…
Bil…

**1995**

## NƏ VAXTDI

Nə vaxtdı möhtacam
isti bir sözə,
ılıq, həlim
bir nəfəsə.
Nə vaxtdı
cavablarını gözləyirəm
ürəyim əsə-əsə.
Nə vaxtdı sükutun dolub
səbrimin qəsdinə.
Yenə də verdiyin kağızı
ağ gördüm,
ağappaq qar yağdı
sevgi çiçəklərimin
üstünə…

**1995**

## ÖLÜMƏ MƏHKUM OLUNMUŞUN NƏĞMƏSİ

Deyirsən ki,
mənimlə bağlı
gündəlik yazırsan.
Onu mənə verməyə də
hazırsan.
Ancaq şərtin çox ağırdı:
"Biləndə ki, Sizi bir daha
görməyəcəyəm…"–
Oxudum, ürəyim ağrıdı.
Zalımlar zalımısan,
məni salmısan zülümə,
geriyə yol da qoymamısan, –
məhkum olunmuşam ölümə…
Bu sevda –
Aləmi üstümüzə güldürəcək.
O gündəliyi
oxumaqdan ötrü də ölürəm,
amma əbədi ayrılıq da
məni öldürəcək…

**1995**

## SÜRPRİZ

"Sizə sürpriz hazırlayıram", –
demişdin.
Ancaq sözünü dandın,
birdən-birə dəyişdin,
qəlbimə dəydi sözün. –
Bəlkə bu imiş sənin sürprizin?!

**1995**

## SƏN OXUYAN ŞEİRLƏR

Baxışlarının keçdiyi
cığırlara bənzəyir
sən oxuduğun şeirin
sətirləri.
Nəfəsin dəydiyi üçün
elə bil sözlər də
ətirlənib.
Ciyərimə çəkirəm
bu sözlərin qoxusunu.
Gözlərim sevindiyindən
itirib yuxusunu.

**1995**

## BURAXILIŞ GECƏSİ

Sən gəlməmişdin
sonuncu vida gecəsinə,
dilimi göynədirdi
alovlu bir nida.
Ürəyimdə pıçıldayırdım:
Əlvida, gözəlim,
əlvida!
Səsim titrəyirdi,
bilmirəm mənə nə olmuşdu?!
Mən "Bir axşamın xatirəsi"ni
oxuyanda,
uzaq bir kənddə
sənin ala gözlərin dolmuşdu…
Nə mahnı ürəyimi açırdı,
nə rəqs ürəyimi açırdı.

Dodaqlarım təşnə üzlərdən,
gözlərim həsrət gözlərdən
qaçırdı…
Qızlar məni rəqsə dəvət edəndə,
xatırladım
sənli keçən anları.
Qollarımdan həsrətin asılmışdı,
qaldıra bilmirdim onları…

**1995**

## MƏN

Nişangaha çevirmişəm qara bağrımı,
Heç özüm də bilmirəm ki, nə etmişəm mən.
Ürəyimin düz başından qopan ağrını
Bir ilahi sevgi ilə keyitmişəm mən.

Əllərim bu kainatdan üzülü olub,
Təbəssümün həyatımın özülü olub,
Qonaqlarım Məcnun olub, Füzuli olub,
Xəyalımda bir ilahi toy etmişəm mən.

Bircə damcı xılt da olmur şair qanında,
Üzüm ağdı qədirbilən gözəl yanında.
Hisslərimin, düşüncəmin dəyirmanında
Neçə-neçə qədirbilməz üyütmüşəm mən.

Ürəyimə doğru uçan bir ox imişsən,
Dodağımdan qəfil qopan bir ah imişsən,
Eh, bəlkə də bu dünyada heç yox imişsən,
Səni söz-söz, kəlmə-kəlmə böyütmüşəm mən…

**1995**

## DƏNİZ

Bir şey istəməyə məndən üzün yox,
Sönməsi çətindi ürək odunun.
Hər səhər elə bil mən dənizin yox,
Yanına gedirəm bir şux qadının.

Yenə cilvələnir, nazlanır Xəzər,
Yoluma dikilib ilahi gözlər.
Dəniz də füsünkar qadına bənzər,
Məni ağuşunda qərq edə bilər…

**1995**

## MƏNİM SEVİMLİ ŞAMIM

Odumdan od almısan, gizli-gizli yanırsan,
Mənim sevimli şamım, söylə, nəyi anırsan?!
Bəbəklərin həsrətlə dolu eşq piyaləsi,
Dodağımı yandırır dodağının şöləsi.
Ömrümü məhəbbətlə, həsrətlə bəzəyirsən,
Ucu yanan sehrli qələmə bənzəyirsən.
Məhəbbətin oduna yox olmağa hazırsan,
Şölənlə ürəyimə öz adını yazırsan.
Əriyirsən sevinclə, həsrətlə, qürur ilə,
Qəlbimi doldurursan sevgi ilə, nur ilə…

**1995**

## KİM AYIRA BİLƏR AXI?

Sənin könül dəftərindən
Mənim adım qaralanır.
Ürək yaxan sükutunla
Kövrək qəlbim yaralanır.

Özün sevən dost tanımaz,
Sona yetir dastanımız,
Bizim sevgi bostanımız
Uralanır, uralanır…

Gül açmadı kollarımız,
Yana düşdü qollarımız,
Deyirsən ki, yollarımız
Gündən-günə aralanır.

Ürəyimdə sevgi dağı,
Ciyərimdə sevgi ahı,
Kim ayıra bilər axı
Ürəkləri bir olanı?!

**1994**

## ÇƏTİN KEÇİNƏ

Qönçə hisslərin solmağı
Görürəm, deyil vecinə.
Sözdən bir qala tikmişəm,
Girə bilmirəm içinə.

Bir sim ağdı, bir sim sarı,
Yox qəlbimin bir simsarı,
Yol gedirəm sənə sarı
Qoşulub həsrət köçünə.

Sönməyib qəlbimin odu,
Damağımda busə dadı…
Gözləri yar yolundadı,
Can verən çətin keçinə…

**1995**

## GÖZƏL

Qəlbimi şam tək əritmək
Arzun, diləyindi, gözəl.
Mənim pəncərəmi döyən
Sənin küləyindi, gözəl.

Durdum onunla üz-üzə,
Durdum onunla göz-gözə,
Nə xəbər gətirib bizə
Görək külək indi, gözəl?!

Bu nə həsrət, bu nə ahdı? –
Bəbəyimdən ulduz axdı,
Mənim sevgimin paytaxtı
Sənin ürəyindi, gözəl…

**1995**

## GİLEYİN HAQLIDI…

Gileyin haqlıdı, neyləyim, gülüm,
Səni sənin kimi duymamışam mən.
Qovuşa bilərdi əlinə əlim,
İnsaf yol verməyib, qıymamışam mən.

Ürəyin nə qədər ağrıya dözüb,
Sözüm yara üstə düşən duz olub…
Gözlərim görməyib yazdığın sözü,
Cavab istəmişəm qırsaqqız olub.

Qəlbimi duymasan, yanıma gəlmə,
Sən çiçək, ürəyim ac arı imiş…
Mənim görmədiyim o bircə kəlmə
Sənin ürəyinin açarı imiş…

Sevdalı gözündə yaş muncuq-muncuq,
Onları torpaqdan necə qaldırım?!
Başımın üstündə həsrət qılıncı,
Ayağım altında qorxunc sıldırım…

Arı tək incitdim çiçək qəlbini,
Niyə baş açmadım axı sözündən?!
Duya bilməsəm də kövrək qəlbini,
Doya bilməmişəm ala gözündən.

Üstümdə dolanıb dumanlar, sislər,
Başım heç sevgidən ayıq olmayıb.
Mənim ürəyimdən boy verən hisslər,
Sənin ürəyinə layiq olmayıb…

Soyuq görünsə də, verir qar işıq,
Sevdalı başına dünya dar imiş.
"Niyə?" nidasında sevgi qarışıq
Təəssüf, iztirab, əzab var imiş.

Sənin gözlərini yaş aparanda
Bilirsən ürəyim nə zillət çəkib?!
Mənim alimliyim baş aparanda,
Mənim şairliyim xəcalət çəkib…

Əzizim, ürəyin solan gülünü
Dirçəltmək mümkünmü soyuq yağışla?!
Titrək əllərimə uzat əlini,
Bağışla, bacara bilsən, bağışla…

**1995**

***

Deməli sözünü gözünlə demisən,
Qanadım yoxsa da, mən uça bilirəm.
Əzizim, sən mənim ürəyim kimisən, –
Nə ondan, nə səndən baş aça bilirəm…

**1995**

## DARIXMA

"Mənim sevgimin ünvanı insan olsaydı, nə dərdim. Bəli, hər şeyi olduğu kimi, açıq-aşkar yazmaq istəmirdim. Çünki Əli Kərim demiş: "Zülməti korlar da görür…"

**Bir məktubdan**

"Zülməti korlar da görür", – deyirsən,
Görə bilməmişəm yazdığın sözü.
Bağışla, əzizim, məni bağışla,
Axı məhəbbətin kor olur gözü?!

İşığın gurluğu məni çaşdırıb,
Gileyin qəlbimdə bir oxdu sənin.
De, hansı sözünə biganə qaldım?
De, hansı sözündə nur yoxdu sənin?!

Körpə bir sevdaya dil verə-verə,
Bilmirəm nə üçün dilbilməz oldum?!
Bir gün deyəcəksən Əli Kərim tək:
"Qayıt, mənim gülüm,
nə gəlməz oldun?!"

Misralar oduna sənin ürəyin
Zərif bir şam kimi yanar gizlicə.
Şeirə, sənətə vurulan gözəl
Eşqini insana yönəltsin necə?!

Hələ tapmamısan axtardığını,
Sənə vurulsa da bir şair indi.
Darıxma, əzizim, sənin ürəyin
Mənim olmasa da, bir şairindi…

“Zülməti korlar da görür”, – deyirsən,
Görə bilməmişəm yazdığın sözü.
Bağışla, əzizim, məni bağışla,
Axı məhəbbətin kor olur gözü?!

**1995**

## SƏN DEMƏ

“Mən Sizi çox istəyirəm. Onsuz da bilirsiniz. Bunu deməyin mənası yoxdur…”

**Bir məktubdan**

Şair gözəllərin qurbanlığıdı,
Xoşbəxtəm, başına çevirsən məni.
Sevgimə mən cavab istəməsəm də,
Onsuz da bilirdim sevirsən məni.

Onsuz da bilirdim qəlbin kövrəkdi,
Sevgiylə, həsrətlə doludur için.
Doğru yazırsan ki, əsas ürəkdi,
Sağ ol bu səmimi etiraf üçün.

Səni axtarmışdım intizar ilə,
Adını qəlbimdə əzizləmişdim.
Üzünü bir dəfə görməsəm belə,
Yolunu illərlə mən gözləmişdim.

Sevindim, ilk dəfə məni duyanda,
Bəxtimin dumanlı üzü açıldı.
Ala gözlərində yaş qaynayanda
Elə bil qəlbimin gözü açıldı.

Duydum ki, çin oldu arzum, diləyim,
Bəxtiyar şimşəklər çaxdı başımda.
Duydum ki, illərlə mənim gəzdiyim,
Axtardığım gözəl durub qarşımda.

Qönçə bağlayıbmış söz ürəyimdə,
Mənim qismətimi tale yazırmış.
Sən demə bir məsum qız ürəyində
Xoşbəxt bir şairin yeri hazırmış…

**1995**

## QƏRİBLİK

"Qəribədir, eləmi? Axı mən özüm də qəribəyəm!"

**Bir məktubdan**

Ay mənim sevimlim,
Ay mənim qəribəm.
Sevdalı qəlbində
Məgər mən qəribəm?!

Sən əgər istəsən,
Hər şeydən keçərdim.
Qəribə olmasan,
Heç səni seçərdim?!

**1995**

## ÜRƏK SÖZÜ

"Şair sevgilisi olmaq üçün əsas ürək gərəkdi…"
**Bir məktubdan**

Bilirəm, eşqə düşəndən
Çox incidib ürək Sizi.
Ürəyi sevdalı şair
Necə sevsin ürəksizi?

Hərdən bir mənə göz elə,
İncə ruhumu təzələ.
Deyilərmi hər gözələ
Ürək sirri, ürək sözü?!

**1995**

## DƏNİZ GÖZLƏRİNİN RƏNGİNİ ALDI

O gün fırtınalı dənizə döndüm,
İçimdən boy verdi quduz dalğalar.
Ümid qığılcımı bir anda söndü,
Səsimə hay verdi quduz dalğalar.

Başımın üstünü tutdu kor duman,
Ürəyim bir kiçik qayığa döndü.
Özüm öz içimdə qərq olan zaman
Mehriban gözlərin mayağa döndü.

Bu azğın tufandan qurtulmaq çətin,
Ancaq ki, qorxmurdu, ürək şən idi.
Sənin təmənnasız saf məhəbbətin
O kiçik qayığa sərnişin idi.

Elə ki, gözlərin üzümə baxdı,
Həyəcan, fırtına arxada qaldı.
Tufanlar qoynundan zəfərlə çıxdıq,
Dəniz gözlərinin rəngini aldı…

**1995**

## ŞƏRİKLƏR

"Dənizi Sizə bağışlayıram. Qoy heç olmasa, bizim bir şərikli şeyimiz olsun…"

**Bir məktubdan**

Taleyin hökmünə inanıram mən,
Bizim də dünyada bir payımız var.
Xoşbəxtəm, şərikli bir dənizimiz,
Xoşbəxtəm, şərikli bir ayımız var.

Özün bilirsən ki, dəymədüşərəm,
Qəlbimi hər kəsə umud olmaram.
Dənizi görəndə məni anırsan,
Neçə ki, dəniz var, unudulmaram…

De, necə özümü xoşbəxt sanmayım,
Gözlərin gözümə baxırsa əgər?!
Mənim şeirlərim qanına hopub,
Sənin damarında axırsa əgər?!

İçimdə alışan gizli ocağın
Bir közü sənindi, bir közü mənim.
Elə şərikləridi şeirlərim də,
Bir sözü sənindi, bir sözü mənim…

**1995**

## TƏSKİNLİK

Qorxuram tutula birdən üzümüz,
Qəm gələ, silinə birdən izimiz.
Ancaq nə yaxşı ki, bizim şərikli
Bircə sevgimiz var, bir dənizimiz…

**1995**

## ÇOX SAĞ OL

Atdığın söz oxu dəydi hədəfə,
Sevən ürəyimin nəydi günahı?
“Çox sağ ol! Çox sağ ol!” – dedin üç dəfə –
Bu, təkcə “çox sağ ol” deyildi axı?!

Həsrətdən yanırdı ilahi gözlər,
Sənin hər kəlməndə sevgi var idi.
Mənə elə gəldi dediyin sözlər
Şairə “şifahi qonorar” idi.

Ürək həyəcandan tapmırdı aram,
Mən özüm özümə dedim: – Toxtaq ol!
Əzizim, heç kəsə borclu qalmaram,
Çox sağ ol! Çox sağ ol! Sən də çox sağ ol!

**1995**

***

Mənə qibtə edirsənsə,
Sən də eşq oduna gir, yan!
Gör sevginin ləzzətini,
Sən də ol mənim tək giryan…

**1995**

## SƏN MƏNİM TUT AĞACIMSAN

Sən mənim tut ağacımsan,
Şirin meyvəni dərirəm.
Şeirimin sevgi arxını
Sənə sarı döndərirəm.

Nəfəs verib nəfəsinə,
Düşdüm eşqin həvəsinə,
Yarpağının əvəzinə
Mən sənə ipək verirəm.

Könlüm bir yuvasız quşdu,
Can tükəndi, ruhum uçdu,
Bu sevdanın sonu puçdu,
Görürəm, gülüm, görürəm…

Heç nə görünmür gözümə,
Təki sən qızın közümə.
İpəkqurdu tək özümə
Eşqindən kəfən hörürəm…

**1995**

***

Doğma olammarıq
hər görüş ilə,
Gərək ürəyimə
rişə salasan.
Süzüb gözlərini
sən baxma elə,
Məni bu yaşımda
işə salarsan.

## BİR GİLƏ ÜZÜM

Arabir girirsən yuxularıma,
Səndən ayrılsam da, axı nə dərdim?!
Sinəndə bir salxım üzüm bitmişdi,
Əlimi uzadıb bir gilə dərdim.

Yanırdı köksümdə kəhrəba kimi,
Gəl-gəl söyləyirdi nur saçan üzüm.
Ancaq gözlərini görüb utandım,
İkinci giləni qoymadın üzüm.

Ayıldım yuxudan, röyada belə
Yarından ayrılmaq müsibət imiş…
"Yuxu yozumu"na baxıb sevindim, –
Üzümün giləsi məhəbbət imiş…

**1995**

***

Sevən ürəyimin nədir günahı? –
Toruma ilahi bir balıq düşüb.
Mənim taleyimə, – neyləyim axı?–
"Qocalıq çağında yorğalıq" düşüb.

Qorxmursanmı düşək ağıza, dilə? –
Mənə əzab verən baxtımdı bəlkə?
Tinlərdə dayanıb intizar ilə
Sevgili gözləyən vaxtımdı bəlkə?!

Bu həsrət, intizar qəlbimi sıxıb,
Sevdalı ürəyim çətin toxtaya.
Qarşıda önümə sıldırım çıxıb,
Geri dönməyə də yolum yox daha…

**1995**

## XOŞ GÖRDÜK

Ağıla meydan verənin
Köksündə yumru daş gördük.
Qəlbində sevgi olanın
Kirpiklərində yaş gördük.

Ömrün xəzan çağı başlar,
Qəlbimə süzüldü yaşlar,
Perikdi sevgili quşlar,
Neçə yuvanı boş gördük.

Bir gözələ qonub quşum,
Bahara çevrilib qışım,
Əlvida, düşünən başım,
Sevən ürəyim, xoş gördük!…

**1995**

## AĞLATDIĞIM BİR GÖZƏLƏ

Xatirələr axın-axın,
Yaddan çıxarmı o çağın? –
Gizli yanan bu ocağın
Külü közündən yekədi.

Tanrı sənə verib fürsət,
Ömrünü sevgiyə həsr et,
Bəbəyində olan həsrət
Sənin gözündən yekədi.

Üzü bozarıb sözlərin,
Odu soyuyub közlərin,
Allah, Allah, bu gözlərin
Yaşı özündən yekədi!

**1996**

## SEVGİNİN BİR ÜZÜ OLAR

Yağış öpür məhəbbətlə,
Çiçəklərin gözü dolur.
Şairlərin adətidi,
Gözəllərdə gözü olur.

Uyumadım qucağında,
Oda düşdüm bu çağımda.
Qəlbdə yanan ocağın da
Qızıl-qızıl közü olur.

Ürəyimin ol simsarı,
Gülüm, baxma yada sarı,
Yaxşı bilir Aşıq Sarı:
Baxışın da izi olur.

Hər kəs məni duya bilməz,
Həsrət gözüm röya bilməz.
Sevən hiylə, riya bilməz,
Sevginin bir üzü olur…

**1996**

## YAŞIDLAR

Naz satmaq qızlarda bir adət imiş,
Hər oğrun baxışın mənası varmış.
Sən yaşda sevilmək səadət imiş,
Mən yaşda sevməyin bəlası varmış.

Deyirsən: – Sevəndə tayını sev ki,
Sənə gülməsinlər göz-qaş eləyib.
Neynim, qəlbimdəki ilahi sevgi
Məni də səninlə həmyaş eləyib…

Öpür yanağımı həsrət küləyi,
Məhəbbət önündə qəddim əyilmiş.
Sən demə bu adi şair istəyi,
Sən demə bu adi sevgi deyilmiş…

**1996**

## SƏN GƏLDİN, SƏN GETDİN

Hərdən salırsanmı heç məni yada?! –
Üzünü görmürəm, gülüm, bir ildi.
Sən mənə yad dedin, qalandım oda,
Sən məni yad etdin, külüm dirildi…

Ürəyim sinəmdə dil-dil ötürdü,
Taleyin verdiyi pay özü gəldi.
Sən gəldin, qəlbimə bahar gətirdin,
Sən getdin, ömrümün payızı gəldi.

Sən gələn yolları gözümlə öpdüm,
Sevdalı qəlbimin daha nə dərdi?!
Sən gedən yollara göz yaşı səpdim,
Ayaq izlərindən həsrət göyərdi…

**1996**

## İLHAM PƏRİSİ

Titrək əllərinə toxundu əlim,
Ağ günə çıxartdın qara günlünü.
O gün yad elədin sən məni, gülüm,
O gün şad elədin şair könlünü.

Baxa bilərdimmi heç sənə gendən? –
Sən nursan, mən isə işıq hərisi.
Nazlana-nazlana soruşdun məndən:
– Tapdınmı bir təzə ilham pərisi?!

Ürəyim bir ötən sevdayla sızlar,
Elə sual vermə boynunu burub.
Ulduz tək yansa da dövrəmdə qızlar,
Ay tək nur saçanım yanımda durub.

Əlindən tutanda əlin yanırdı,
Mehriban gözlərin məni sınadı.
Ovcumun içində xumarlanırdı
Öz ilham pərimin titrək qanadı…

Əgər sən yoxsansa, o niyə qalıb? –
Əl uzat, köksümdən qopar könlümü.
Titrək qanadının üstünə alıb,
Apar, İlham pərim, apar könlümü,
Mənim dərd əlindən qabar könlümü…

**1996**

## HALIMI SORUŞAN GÜLÜM

Məni taleyim qarğıdı,
Sənə gəldi nişan, gülüm.
Neyləyim qəlbin açılsın,
Ay mənim pərişan gülüm?

Qəm sayrışır bəbəyində,
Həsrət yükü – kürəyində.
Paralanmış ürəyimdə
Bağlayıb arı şan, gülüm.

Nə ilahi gözlər idi?! –
Yollarımı gözlər idi…
Sevginin son közləridi
Gözümdə sayrışan, gülüm.

Doğma ikən sənə yadam?!
Vüsalını çətin dadam.
Ola bilməz böyük adam
Taleylə barışan, gülüm.

Səni özgə bir əl dərib,
Boylanıram qərib-qərib.
Gecələr yuxuma girib,
Halımı soruşan gülüm…

**1996**

## SEVGİ YUVASI

**Hikmət Mirməmmədli tərəfindən bəstələnmişdir.**

Dünyada hər dərdin bir əlacı var,
Sən bu həqiqəti biləsən gərək.
Sevib-sevilməyə ehtiyacı var,
Əzizim, heç zaman boş qalmır ürək…

Təzə yurd yerində salmışam binə,
Ötən məhəbbətim solub, deyəsən.
Elə əsirsən ki, sənin qəlbinə
Sevgi qığılcımı dolub, deyəsən.

Məhəbbət baxmır ki, qocaya, gəncə,
Məhəbbət – qəlbimdən boylanan çiçək.
Sevgi gətirsə də əzab, işgəncə,
Yenə də sevməyə can atır ürək.

Nəfəsin sehrli həsrət küləyi,
Durmuşam önündə qəlbimdə qürur.
Sevgi yuvasıdı şair ürəyi,
İçində gözəllər aşiyan qurur…

**1996**

## İLAHİ, KİM GƏLİB GÖR GÖRÜŞÜMƏ

Nə qədər gözəli vurdum dişimə,
Axır ki, hisslərim saldı bəxtə vər.
İlahi, kim gəlib gör görüşümə,
İlahi, olubmu məndən bəxtəvər?!

Bəlkə də qəlbində ayrı dilək var,
Yanımda əbədi qalmağa gəlib?
Bəlkə də könlünü yaxır intizar,
Məndən xeyir-dua almağa gəlib?!

Hər titrək kəlməsi qəlbimə oxdu,
Nə fırıldaq bilir, nə də ki hiylə.
İlahi, o qızın günahı yoxdu,
İlahi, o qızı bəxtəvər eylə!…

***

Qaça bilərdimmi sənin önündən,
Görüşə gəlməklə nə günah etdin?!
Qılınc tək sıyrılıb nişan günündən
Mənim ürəyimi nişangah etdin.

Bilirəm, özünə bəsdi öz qəmin,
Bir nadan hissimə qənim olacaq.
Taleyin beləymiş: cismin özgənin,
Ruhun həmişəlik mənim olacaq…

***

Dəniz sahilində baş-başa durduq,
Dəymişlər töküldü, kallar sevindi.
Şəhəri bu başdan o başa vurduq,
Döngələr sevindi, yollar sevindi…

Bu görüş kiminsə öz bəxti idi,
Ürəyin sözünü gözlər deyirdi.
Ruhumuz xoşbəxtlər xoşbəxti idi,
Dilimiz adicə sözlər deyirdi.

Arabir arzular qalxsa da zilə,
Sevişən ürəklər pıçıldaşırdı.
Bir zərif qanadlı kəpənək ilə
Bir qoca qırğını görən çaşırdı.

Bu, bəlkə röyadı, bəlkə yuxudu? –
Səni də yolundan sevgi elədi.
Kəpənək qırğıya meydan oxudu,
Qırğı kəpənəyə uğur dilədi…

**1996**

## İTMİŞ QƏLƏMİN NAĞILI

Bir qələm bağışladım sənə, sehrli qələm,
Onunla yazacağın sözə dikilib gözüm.
Deyəsən gözlərində dəyişib dünya, aləm,
Adicə adamlardan seçilmirəm mən özüm…

Bir kövrək məhəbbətin qəbrini qazdırmısan,
Ürəyim əzab çəkir ələmlərin içində.
Sənə bağışladığım qələmi “azdırmısan”,
Ona bənzər adicə qələmlərin içində…

Mənim yaşıl sevgimə təsir etməz xəzan da,
Hisslərin adiləşsə, yolundan sapacaqsan.
O oxşar qələmlərlə sevgi sözü yazanda,
Mənim bağışladığım qələmi tapacaqsan…

**1996**

## YERİM VAR

Demirəm eşqindən çöpə dönmüşəm,
Şükür ki, bir sümük, bir də dərim var.
Gözümdən bir tük də yayına bilməz,
Məni sevdiyindən bil, xəbərim var.

Ala gözlərinin yaşına dönüm,
Ömrünün yazına, qışına dönüm.
Sənin ürəyinin başına dönüm,
Sənin ürəyində mənim yerim var.

Uğura dönmüşəm nəslər içində,
Mənim də səsim var səslər içində,
Sənə doğma olan kəslər içində
Rafiq Yusifoğlu, Əli Kərim var…

**1996**

## ƏGƏR SEVİRSƏNSƏ…

Həsrətli baxışlar köksümü dağlar,
Mələk qarşısında acizdi bəndə.
Təzə don geyinir yamaclar, dağlar,
Dünya gözəlləşir ürək sevəndə.

Üzünə baxanda gözlərim dindi,
Duydum ki, qəlbinə sevgi düşübdür.
Sənin gözlərində, bilirəm indi
Bu dünya nə qədər gözəlləşibdir.

Həsrətin boynumda qəm sarmaşığı,
Yaz gəlir, ürəkdə sevda oyanır.
Şair ürəyinin yaşıl işığı
Bütün sevənlərin önündə yanır.

Alnımdan baharın yelləri öpür,
Təzə çiçəkləyən körpə badamsan.
Sənin təbəssümün incilər səpir, –
Əgər sevirsənsə, bizim adamsan…

**1996**

## SEVDALI NƏĞMƏ

Bu gözəl dünyaya gəlmişik qonaq,
Nadanlar önündə sinə gərmişik.
Meydan sulamasın iblislər nahaq,
Sevda mələyinə könül vermişik.

Vecimə almıram daha qınağı,
Ömrün bir anı da səadət olur.
Şair dodağıyla gözəl yanağı
Üz-üzə gələndə müsibət olur.

Duyana bəxş edib Tanrı işığı,
Sevdalı könlümün əcəb zövqü var.
Gözəl yanağında Tanrı işığı,
Şair dodağında mələk şövqü var.

Bəlk oyatmışam qəlbində nifrət?!
Görəsən sevgilim gələrmi rəhmə?!
Şairə nə qalır?
–Sevda, məhəbbət.
Şairdən nə qalır?
–Sevdalı nəğmə…

**1996**

## BU SEVGİ SINAĞI

Məhəbbət adamı bir gör neyləyir?! –
Ağlım hisslərimə bil: deyil asi.
Ancaq ürəyimdə bir söz göynəyir,
Nə açılasıdı, nə deyiləsi…

Qohumlar, qardaşlar ikimizə də
Əcəl şərbətini içirəcəklər.
Hoydu-hoydu ilə, daş-qalaq ilə
Bizi bu dünyadan köçürəcəklər.

Bu sevgi sınağı uzun sürəcək,
Qaynar qazanlarda bişəcəyik biz.
Fəqət qorxum yoxdu, tutsan əlimdən
Sözsüz ki, cənnətə düşəcəyik biz…

**1995**

## BU SEVDA

Kövrək duyğularım nurdu elə bil, –
Bilmirəm heç necə doğulubdur o.
Vallah, bu adicə məhəbbət deyil,
Sehrlə, ecazla yoğrulubdur o.

Bu sevda eləyib məni utancaq,
Əlinə həsrətdi titrəyən əlim.
Mən sənsiz yaşaya bilərəm, ancaq
Çətin ki, sevgisiz yaşaya bilim…

**1995**

## SƏN ÇİÇƏKSƏN, MƏN ARI

Məni yoldan elədin,
Ay ömrümün baharı.
Bir acgöz arı kimi
Uçuram sənə sarı.

Qoymursan ki, qərq olam
Tellərinin ətrinə.
Ona görə arabir
Sözüm dəyir xətrinə.

Hey tikanlı-tikanlı
Söz atmağı sevirsən.
Özün arıya çubuq
Uzatmağı sevirsən.

Çiçək kimi bir qızsan,
Dəymədüşərsən ancaq.
Heç görmüsən, bir dəfə
Çiçəyi arı sanca?!

**1995**

## BİR GÜNÜN XATİRƏSİ

Təzəcə barışmışdıq,
Baxışların yanırdı.
Elə bil ki, köksündən
Bir günəş boylanırdı.

O başa yeriyirdim,
Bu başa yeriyirdim.
Mənə elə baxırdın,
Şam kimi əriyirdim.

Sən ağlının hökmünə
Qənim idin həmin gün.
Təpədən dırnağacan
Mənim idin həmin gün…

## ƏZİZİM

Bəlkə də dünyanın bəxtəvəridi
Təbəssüm nurunda çimən, əzizim?
Hər mənə baxanda səhra ürəyim
Olur bir çiçəkli çəmən, əzizim.

Ürəkdə qorxunu buza döndərir,
Quru bir odunu saza döndərir,
Mənim payızımı yaza döndərir,
Sənin sevgi dolu namən, əzizim.

Adət zəncirini gəl çırpaq daşa,
Qəlbimiz həmişə döyünsün qoşa!
Bu qoca dünyadan kam al: sev, yaşa!
Nə sən itirmisən, nə mən, əzizim…

**1995**

## QARA YEL, ƏSMƏ…

Qara yel, bağımın üstündən əsmə,
Hələ gül açmamış budağım qalıb.
Baba ocağında, ata yurdunda
Yolumu gözləyən otağım qalıb.

Arzular qarıyıb uşaq köksündə,
Aparma şairi bu dağ köksündə.
Ağ-ağ buludların yumşaq köksündə
Hələ açılmamış yatağım qalıb.

Bəlkə son anımdı, əsir dizlərim,
Deyə bilməmişəm ən xoş sözləri,
Onun öpülməmiş ala gözləri,
Mənim çat-çat olan dodağım qalıb…

**1995**

## SAĞ OL

Göstərdiyin etibar, gülüm, bir ömrə dəyər,
Sevəndə düşmür axı nə iman, nə din yada?!
Sən sirrini ilk dəfə mənə açdınsa əgər,
Demək məndən əzizin,
doğman yoxdu dünyada…

## NECƏ SEVİRMİŞƏM…

Dedin:– Bir avara düşüb dalımca,
Bilmirəm heç məni nələr gözləyir.
Əsəbim çevrildi iti qılınca,
Qorxma, sevənləri zəfər gözləyir.

Birdən sakit sular coşdu, qabardı,
Çoxaldı saçımın dəni, əzizim.
Qəlbimdə qısqanclıq tufan qopardı,
Necə sevirmişəm səni, əzizim?!

**1995**

## MƏNİM YAZ ÇİÇƏYİM

– Mənim yaz çiçəyim, niyə əsirsən?
Sevgi gülşənində yadmı gəzəcək?
– Səndən nə gizlədim, qəlbimə damıb,
Məni bir duyğusuz adam üzəcək…

– Qıymaram bir ləkə düşsün adına,
Ürəyim yansa da eşqin oduna.
Əgər qismət olsan sən bir nadana,
Qəlbim bu ağrıya necə dözəcək?!

**1995**

## BİR AXŞAMIN XATİRƏSİ

Ürəyi coşmuşdu xəyali bəyin,
Xəyali gəlin də bəxtiyar idi.
"Xəyal" həqiqətə layla çalırdı,
Əllərim əlində bəxtiyar idi…

Gözlərim gözündə bəxtiyar idi,
Dodağım üzündə bəxtiyar idi…
"Buraya gəlmişəm tək Sizə görə", –
Titrəyən sözün də bəxtiyar idi…

Sevda dünyamızın qaranquşları
Uzaq diyarlardan köçüb gəlirdi.
Bu ilki baharın müqəddəs yolu
Bizim qəlbimizdən keçib gəlirdi…

**1995**

## BU BAHAR

Bu bahar qəlbimdə ürək açdı dil,
Gözlərim torpağa incilər səpdi.
Mənim yanağımı küləklər deyil,
Çiçəyə bənzəyən gözəllər öpdü.

Həsrətli baxışlar dönüb oldu ox,
Dumanlar içində gəncliyim itdi.
Bu bahar lalələr çöldə, düzdə yox,
Mənim yanağımda, üzümdə bitdi…

**1995**

## DƏLİ SEVDA BAŞIMDA

Keçilməz sıldırımlar
Dayansa da qarşımda,
Hey yolları ölçürəm,
Dəli sevdan başımda.

İnanıram eşqindən
Qüvvət alan gücümə.
Çovğun deyil vecimə,
Tufan deyil vecimə…

Ürəyimə damıb ki,
Əbədidi bu sevda.
İki sevən ürəyin
Məbədidi bu sevda…

**1995**

## SÖZLƏRİMİN ACIĞINA

Mənə meydan oxuyursan,
Gülüm, açıq-açığına.
Özümdən intiqam aldın
Sözlərimin acığına.

Turşudursan üz-gözünü,
Dodağında bumbuz sözlər.
Zülm eləmə o yazığa, –
Gözümdən düşməz o gözlər…

**1995**

## DEDİN Kİ, TƏNHALIQ DÖVRÜ BAŞLAYIR…

Bildin ki, ürəyim nəyi xoşlayır,
Yenə dincliyimin qəsdinə durdun.
Dedin ki, tənhalıq dövrü başlayır,
Əzizim, sən nəyə işarə vurdun?!

Başımın üstündə şimşəklər çaxır,
Göylərin hirsini soyudacağam.
Qəlbinə damıbmı: mən əvvəl-axır
Öz tənha dünyama qayıdacağam?!

Dadlı bir təbəssüm etdin hədiyyə,
Gizli bir həyəcan təbili çaldın…
Tənhalıq qəlbini üşütdü deyə,
Tənha bir guşəni yadıma saldın…

Şərik ol qəlbimin qayğılarına,
Qapımdan nə yarpaq, nə xəzan girir.
Tənha bir mənzilin yuxularına,
Tənha gecələrdə bir gözəl girir…

**1995**

## ÖZÜNDƏN GİZLƏNƏ BİLMƏYƏCƏKSƏN

Əgər məhəbbətlə üzümə gülsən,
İlin hər fəslində baharam, ay qız!
Özünü güzgü tək sındırsan, bölsən,
Bil ki, hər parçanda mən varam, ay qız!

Acı söz deməyə gəlməyir dilim,
Acı göz yaşını silməyəcəksən.
Sən məndən gizlənə bilərsən, gülüm,
Özündən gizlənə bilməyəcəksən…

**1995**

## NƏ HAQQIM

Yerli-yersiz danlayıram bəzən özümü,
Hisslərimin cilovunu yığmalıyam mən.
Özüm qazıb atmalıyam ayaq izimi,
Öz əlimlə bu sevdanı boğmalıyam mən.

Ürəyində söz olanlar çətin ki, susa,
Sənsiz mənim çörəyim də, suyum da zəqqum…
Bu sevdanı ürəyimə Tanrı salıbsa,
Onu boğub öldürməyə mənim nə haqqım?!

**1995**

## MƏNİ ÖYRƏNMƏYƏ BEŞ-ON İL AZDI

Məni öyrənməyə beş-on il azdı,
Tanrıdan əlavə bir ömür dilə.
Hər şair ürəyi sədəfli sazdı,
Tazanə baxışla o gələr dilə.

Əzizim, sirdaşım, dostum, yarımsan,
Qəlbimə damıb ki, son baharımsan.
Sevgi dünyasında hökmdarımsan,
Sənət dünyasında bəbəsən hələ…

**1995**

## DOĞMA TORPAĞIM KİMİ…

Varlığımı titrətdi sənin gizli harayın,
Bir sevilmək arzusu qaynayırdı gözündə.
Yazmışdın ki, sözümdə Siz məntiq axtarmayın,
Çünki məntiq görmürəm bu həyatın özündə.

Göynədirdi dilini bir nisgilli bayatı,
Süfrə kimi qarşına sərmişdim ürəyimi.
Arzuna qəbir qazan bu amansız həyatın
Acığına, mən sənə vermişdim ürəyimi.

Özünü bu dünyanın bəxtəvəri sanırdın,
Oyuncağa dönmüşdün sən hisslərin əlində.
Bir su pərisi kimi qəlbimdən boylanırdın,
Ruhum bəxtiyar idi dənizlərin əlində.

Bilmirəm heç nə oldu, bir gün pozdun adımı
Səni məftun eləyən yaxşılar cərgəsindən.
Uçmaq istəyən zaman sındırdın qanadımı,
Məni sürgün elədin məhəbbət ölkəsindən.

Sonra etiraf etdin: – Qalmayıb geriyə yol! –
Misraların üstündə hönkür-hönkür ağladın.
Yazdım: – Diqqətin üçün sağ ol, min kərə sağ ol, –
Təbəssümlə könlümün yarasını bağladın.

Ancaq yenə dəyişdin, oldun bambaşqa adam,
Laqeydlik, soyuqluq hər şeydən betər imiş.
Ürəyindən qəlbimə gəlmədi əks-səda,
O təsəlli, o ümid bəs nədən ötəriymiş?!

O baxışlar, o sözlər, o vədlər unudulmuş,
Nə üzümə baxırsan, nə bir cavab verirsən.
Özgələr tərəfindən zəbt olunmuş, tutulmuş
Doğma torpağım kimi mənə əzab verirsən…

**1995**

## AY QIZLAR

**Xırdaca dəniz daşları bağışladığım qızlara**

Ay qızlar, şairə bir qulaq asın,
Əlim dünc durmadı, bir işdi, elədim.
Dəniz daşlarını mən öz adımdan
Sizin hamınıza sirişt elədim.

O daşlar dinmirsə, günahdan keçin,
O daşlar duyğulu, o daşlar kövrək.
O kiçik daşlarla danışmaq üçün
Dənizə çevrilə ruhunuz gərək.

Sevirsə, olacaq qəlb cadar-cadar,
Sanmayın ürəyim buz tək soyuqdu.
Hamıya verməyə daşlarım çatar,
Hamıya verməyə ürəyim yoxdu.

Üstümə sevgiylə gələnlər üçün
Hissimin, duyğumun qolu açıqdı.
Daşlarla danışa bilənlər üçün
Mənim ürəyimin yolu açıqdı.

Sevdalı ilhamım sizdən güc alıb,
Nə ona baş qoşun, nə də lağ edin.
Nə vaxt ki, duysanız ruhum qocalıb,
Məni o daşlarla daşqalaq edin…

**1995**

## SEVGİ İLƏ YOĞRULMASA

Sevgi ilə yoğrulmasa,
Qəlbdə pas tutar hisslər də.
Sevənlərin gözlərinə
Yaxşı görünür pislər də.

Məhəbbətlə baxırsansa,
Yarpaq adi yarpaq olmur.
Çiçək adi çiçək olmur,
Budaq adi budaq olmur.

Sevənlərin gözlərində
Təpələr də dağa dönür.
Xırda kol-kos bitən yerlər
Bir çiçəkli bağa dönür.

Əgər sevgisiz ötürsə,
Ay ay deyil, il il deyil.
Pisimi gözün görürsə,
Məhəbbətin kamil deyil…

**1995**

## AY ÜZLÜMƏ

Ürəyin saf, eşqin aydın,
Sevgi göylərimdə Aydın…
İşığın yuva qurmuşdu
Gözlərimin qarasında.
Niyə qaçıb gizlənirsən
Bəs buludlar arasında?

**1995**

## DEDİM, DEDİ

Dedim: – Gen gəzmə,
Qalarsan tənha!
Vüqarla güldü:
– O da kim, mən ha?!

**1995**

## SEVGİNİ SEVGİYLƏ UNUTDURARLAR

Niyə əsir oldun axı sevgiyə,
Şeirimmi, sözümmü aldatdı səni?
Niyə məni sevdin, bilmirəm niyə?
Həsrətli gözümmü aldatdı səni?

Mənə vurulandan üzün gülmədi,
Sevdalı başına dünya dar oldu.
Mən sənə səadət verə bilmədim,
Sevdin, mükafatın əzablar oldu.

Üzdü ürəyini sevgi təlaşı,
Çətin ki, yetişə əlinə əlim.
Mənim məhəbbətim sənə göz yaşı,
Həyəcan, iztirab gətirdi, gülüm.

Məhv edə bilsəydin bu həyəcanı,
Ömrünə yenidən dönərdi bahar.
Sev bir başqasını, qurtarsın canın,
Sevgini sevgiylə unutdurarlar…

**05.05.1995**

## OLDUM

**Hikmət Mirməmmədli tərəfindən bəstələnmişdir.**

Dünyaya zülmət çökəndə
Titrəyən işıqmı oldum?
Sarmaşığın sarıldığı
Bir quruca şaxmı oldum?!

Dərd oduna baca idim,
Ucalardan uca idim,
Bir ixtiyar qoca idim,
Təzədən uşaqmı oldum?!

Müsibətdi sevgi yolu,
Dil qıfıllı, ürək dolu…
Zəmi idim, döydü dolu –
Bir dəstə başaqmı oldum?!

Sözün içindən söz çıxır,
Külün içindən köz çıxır,
Qəlbimə daman düz çıxır,
Müqəddəsmi, şıxmı oldum?!

Heç bilmirəm nə gəzirəm,
Axı hara tələsirəm?!
Onu görcək, hey əsirəm,
Allahım, aşiqmi oldum?!

**1995**

## SEVGİ DÖRDLÜKLƏRİ

Dediyim sözlərə yaxşı qulaq as,
Kövrək hisslərimin aynası sənsən.
Sevgidən yaranan bu şeirlərin
Atası mənəmsə, anası sənsən…

***

Qovğalı başıma olub dünya dar,
Narahat ömrümdə incisən, dürsən.
Məni xilas edən iki qüvvə var:
Bir dəniz, bir sən…

***

Tanrı qarğımasın görüm heç kimi,
Bir gün açılanlar, bir gün solacaq.
Mən səni ağrıyan çürük diş kimi
Çəkdirib atsam da, yerin qalacaq…

***

Ayağımı bu dünyadan üzəcəksən,
Həsrət dolu gözlərimə baxa-baxa.
Sən cavansan, bu sevdaya dözəcəksən,
Mənim qəlbim bu sınaqdan çətin çıxa…

***

Yazdın: – Çevrilmisən bir ovuc külə, –
Sevdalı başıma səpəcəm səni.
Dilim gül açacaq külünə dəysə,
Hönkürə-hönkürə öpəcəm səni…

***

Hicran qılınc sıyırıb, didərgin düşüb vüsal,
Səadətin yolları niyə məndən yan gedir?
Məhəbbətlə baxırsan ötən trolleybusa,
Çünki onun içində sevimli insan gedir…

***

Könlüm vüsal təşnəsidi, görmürsənmi gözlərimi?
Fikrim sənin yanındadı, bilmirəm nə danışıram.
Nə gizləyim, sənə qarşı olan kövrək hisslərimi
Kobud sözlər arasında gizləməyə çalışıram…

***

Niyə gəldin qəlbimə, perikdirdin yavrumu? –
Ay söz, sən köhnəlmisən,
ay söz, sən deyilmişsən…
İllər boyu axtarıb aradığım o gözəl
Bəlkə sən deyilmişsən?!…

***

Ürəyinə dəymədi, çevrildin, yan ötdü ox,
Kaş ürəyin arzular məhbəsinə dönməsin…
Üz-üzə gələn zaman üzün döndü, eybi yox,
Təki ürəyindəki közərən od sönməsin…

***

Kol dibindən boylanan solğun bənövşəyəm mən,
Sözümü duymayana əzab, əndişəyəm mən.
Ürəyimdən keçəni başa düşmür sevgilim,
Bu üzündən o üzü görünən şüşəyəm mən…

***

Bu sevgi yollarında qəlbim olub ərəsən,
Xəyanətmi etmişəm könül verdiyim bütə?
Axı mənim günahım nə olubdu görəsən,
İlahi, layiqəmmi bu kükrəyən nifrətə?!

***

Nə vaxtdandır sevdalı
Gözlər gözümə baxmır.
Özümə yer tapmıram,
Sözlər sözümə baxmır.

***

Gözəl qızlar qaranquş tək
Ömrümə gətirir bahar.
Sevda bitib tükənməyir,
Hər yaşın öz sevgisi var…

***

Məhəbbətin əzabına
Çox az adam tab gətirir.
Sevgi sevinc gətirmir ha,
Sevgi iztirab gətirir…

***

"Nifrət dolu" məktubunu
Təzdən oxudum diqqətlə. –
Demə sənin qəzəbin də
Yoğrulubmuş məhəbbətlə…

## RÜBAILƏR

Bizi ömür boyu izləyir Allah,
Ulu dərgahında gözləyir Allah.
Yeri gül-çiçəklə, göyü ulduzla,
Ürəyi sevgiylə bəzəyir Allah…

***

Bir gün çıraq kimi sönəcəyik biz,
Toxum tək torpağa enəcəyik biz.
Ha yana üz tutsaq, ha yana getsək,
Haqqın dərgahına dönəcəyik biz…

***

Bir güləm, istəsən dərərsən məni,
Yolub küləklərə verərsən məni.
Sözümün altında gizlənmişəm mən,
Sözümü anlasan, görərsən məni…

***

Özünə güvənmə, ey nazlı afət,
Gəl bağla sevdalı qəlbimlə ülfət.
Cavanlıq, gözəllik ötəri şeydi,
Ancaq əbədidi sevgi, məhəbbət…

***

Acı kəlmələri sözlərin dedi,
Məni sevdiyini gözlərin dedi.
Başqa gözəllərə baxa bilmirəm,
Günah məndə deyil, gözlərindədi…

***

Həsrət səni qarabağır eləyib,
Dərd könlünü sürtüb yağır eləyib
Məclislərdə dil-dil ötən gözəlim,
Sevgi səni yaman fağır eləyib…

***

Gözlərin gülmədi üzümə bir gün,
Çox kefsiz göründün gözümə bir gün.
Bilirəm, nə isə olubdur sənə,
Yer tapa bilmirəm özümə bu gün.

***

Tumurcuq hisslərim yaşıl don geyib,
Bir xəcalət hissi qəlbimi yeyib.
Duyumlu qızların pərvanəsiyəm,
Mənə ox vurmusan "Oxatan" deyib…

***

Bu dünya durduqca, sevgi var olsun,
Arada düz ilqar, etibar olsun.
Bütün sevənlərə məhəbbətim var,
Bütün sevilənlər bəxtiyar olsun…

**1994-1995**

## BİR GÖZƏLƏ

Mənimlə üz-üzə gəlcək
Yanağın od tutub yanır.
Üzün qızarır, elə bil
Köksündən günəş boylanır.

## HAQQIM VARMI?

Ömür kimi axıb gedir
yaş gözlərimdən,
Bu həyatda tərslik
edib ərəsən məni.
Bilə-bilə incitdiyim
əzizlərimdən
İnciməyə haqqım varmı
görəsən mənim?!

## SİRDAŞ

Mən onunla
Sirdaş oldum.
Qəlbimdəki
Sirr daş oldu…

## QORXU

Tale görüşdürsə də,
su hara, qaya hara? –
Qorxuram ki, nə vaxtsa
yolumuz haçalana.
Sənin ürəyindəki
sualtı qayalara
Mənim məhəbbət gəmim
toxunub parçalana…

## MÜKAFAT

“Həyat məni heç nə ilə
mükafatlandırmaq istəmir.”

**Bir məktubdan**

Ürəyimdə bahar gülür,
gözlərinə vurulmuşam,
Demə bahar çiçəyinin
üstünə payız əsnədi.
Həyatından gileylənmə,
ay ömrümə nur saçan şam,
Mənim sevən qəlbim sənə
mükafat deyil, bəs nədi?!

**1994**

## YADDAŞ

“İstəyirəm Sizin yaddaşınızda əbədi qalam.
Göz yaddaşınızda yox ha!”

**Bir məktubdan**

Qəlbim susanacan solmayacaqsan,
Dünyada hər şeyin bil, yaddaşı var.
Tək göz yaddaşımda qalmayacaqsan,
Dodaq yaddaşı var, dil yaddaşı var…

**1994**

## ZARAFATLA “KAL” ADLANDIRDIĞIM QIZA

Məndən inciməyə haqqın da yoxdu, –
Çünki nəfəsimdə haqqın səsi var.
Kalların yetişmək gümanı çoxdu,
Dəymişin çürümək təhlükəsi var…

**1994**

## QURBANLIQ

Sözümün ömrü uzundu,
Öz ömrümsə bir anlıqdı.
Şairlər doğulan gündən
Gözəllərə qurbanlıqdı…

**1994**

## KİBRİT ÇÖPÜ

“Bu cür şeirlər kibrit çöpünə bənzəyir,
bir dəfə yanıb, sönür…”

**Bir məktubdan**

İnanmıram ki, kibritdən
Gileyi nurlu şam edir.
O çöp yanıb sönmür, ömrü
Ocaqlarda davam edir…

**1995**

## QƏM KARVANI

(Poema)

“Mənəm ki, qafiləsalari karivani-qəməm”…

**Məhəmməd Füzuli**

Sevən gözlərimə verib Tanrı su,
İndi dərk edirəm məhəbbətini.
Ey böyük Füzuli – sənət Tanrısı,
Bizdən əsirgəmə səxavətini.

Özüm də bilmirəm, axı nə sirdir,
İncə kəlamının dadı azalmır.
Bir şair ürəyi neçə əsrdir
Yanır için-için, odu azalmır.

Baxıb kainata məhəbbət ilə
Həsrət işığında hey köks ötürdün.
Sən ulu eşqinin əzəmətiylə
Məcnunun eşqinə yuxu gətirdin.

Közərdi qəlbində söz için-için,
Keçib əsrləri, bizi yandırdı.
Hicranın zülməti sevənlər üçün
Qaranlıq dünyanı işıqlandırdı.

Məndən sevgilimin üzü dönəndə
Sənin dilin ilə danışdırmışam.
Bəzən ürəyimin odu sönəndə,
Şeirinin oduna alışdırmışam.

Mən sənə biganə qala bilmərəm,
Hər sözün önündə başımı əydim.
Sənin tək sənətkar ola bilmərəm,
Barı sənin kimi sevə biləydim…

***

–Yarəb, bir ilahi məhəbbət ilə
Səni dərk etməyə çalışıram mən.
Ürəyim eşq ilə gəlsə də dilə,
Sənin rizan ilə danışıram mən.

İzn ver qanımda haqq nuru axsın,
Dözərəm, olsa da yarım hikkəli.
Qoy sevgi ruhumu odlara yaxsın,
Sənin dərgahına təmiz, pak gəlim…

Fələklər alışır hər gün ahımdan,
Sevgi qanadında göylərə uçum.
Əfv et Füzulini, keç günahımdan,
İlahi, sevməkdir mənim də suçum…

Qəlbimdə közərir gizli bir inam,
Eh, sənsiz bir günü axı neylərəm?!
Yoxdur bu dünyadan ayrı təmənnam,
Yarımdan yarımı tələb eylərəm.

Aşiq göz yaşını necə saxlayar? –
Dolaram, yadıma, yar, sən düşəndə.
Adətdir, həmişə zar-zar ağlayar
Qəribin yadına vətən düşəndə.

Bir ürək sinədə batıbsa yasa,
Etdiyin cəfalar məgər azdımı?
Sinəmdə min tənə oxu olmasa,
Ürək tənhalıqdan darıxmazdımı?

Bəs sənə vəfasız necə deyim mən,
Hicrində çəkdiyim səfa deyilmi?
Məndən ki cəfanı əsirgəmirsən,
Elə bu özü də vəfa deyilmi?!

Bəxt ulduzu sandım qara gözünü,
Onları üstümdən iraq eyləmə!
Əzizim, amandır, parlaq üzünü
Əğyar məclisinə çıraq eyləmə!

Sənin qəmzə oxun məni yaralar,
Ancaq ki, ölmərəm, yönüm bəridir.
Bağrımın başında olan yaralar
Cünunluq dağının qönçələridir.

Bəzən kövrəlirəm, ürək daş deyil,
İndi varlığıma hopan alovdur.
Gözümdən tökülən qanlı yaş deyil,
Sevən ürəyimdən qopan alovdur.

El-aləm danışır mənim sözümü,
İndi ağıl qoyur hər yetən mənə.
Eh, eşqə salmışam özüm-özümü,
Heç düşmən etməzdi etdim mən mənə.

O qara gözlərin önündə dur ki,
Ürəyin sirrini aça, söyləyə.
Hamı vüsal istər, aşiq odur ki,
Hicran bəlasını tələb eyləyə.

Peyman bağlamışdıq ikilikdə biz,
O məndən cəfanı kəm eyləyərmi?
Qafil, nə çaşmısan, axı səbəbsiz
Göz yaşı yanağı nəm eyləyərmi?!

Dünyanın işığı gözümün deyil,
Görmürsən nə qədər onlar itidir?
Məndəki nəfəs də özümün deyil,
Bir gözəl pərinin əmanətidir.

Səbrə nöqtə qoydu qara xalıyla,
Dərmanım tapılmaz, elə xəstəyəm.
Sağaltdı hamını öz vüsalıyla,
Hicran bəlasıyla hələ xəstəyəm…

Qırılmış bir çiçək çətin ki, bitə,
Onu öz əlimlə dərdim, ay təbib!
Özünü nahaqdan salma zəhmətə,
Sən bilən dərd deyil dərdim, ay təbib!

Mənimçün pərişan olduğun yetər,
Həkim, xoşdur mənə yar yolunda qəm.
Aşiqin dərdinə dərman etsələr,
Onun xəstəliyi artar dəmbədəm.

Yanıqlı naləmə qulaq tut mənim,
Dərdimi deməyə eh, mən acizəm.
Seyr et göz yaşımı, ey bulud, mənim,
Elə düşünmə ki, səndən acizəm.

Yar bizi yad edib, nə danış, nə din,
O gələn yolları öpüm sevinclə.
Odlu göz yaşımı mən öz sərvimin
Ayağı altına səpim sevinclə.

Ahımdan fələklər titrəyir zağ-zağ,
Çətin ki, bu yoldan dönə, – deyirlər.
Çoxdur eşq oduna tutulan, ancaq
Leyli sənə, Məcnun mənə deyirlər.

Dərdim yüz dərmandan artıqdır, təbib,
Cünunluq yolundan məni əyləmə.
Yar vuran yaraya dərman eyləyib,
Məni şirin zövqdən məhrum eyləmə.

İncə əllərində gül tək solaydım,
Bu xəzan mənimçün bahar, yaz olar.
Min canım olaydı, qurban olaydım
Sənə miniylə də, bir can az olar.

Gəl hər şəffaf suyu bulaq bilmə sən,
Axan gözlərimin qaynar yaşıdır.
Nahaq gizləyirsən üzünü məndən,
Gözlər gözəlliyin məhək daşıdır.

Acı sözlərin də mənə bal dadır,
Odur dərdlərimin dəvası, gözəl.
Sənin o pərişan saçlarındadır
Könlümün quşunun yuvası, gözəl.

Yaxır ürəyimi həsrət, intizar,
Vüsalın gözümdən süzülür dən-dən.
Yəqin ki, yaqut tək qiymətim artar
Bağrımın qanına boyandıqca mən.

Məni əridibdir hicran ələmi,
Nahaqdan danlama, gülüm, özünü.
Ahımın tüstüsü tutar aləmi,
Bircə yol görməsəm parlaq üzünü.

Gözündən könlümə işıq axanda,
Dilim topuq çalır, dəyişir halım.
Bağrım parçalanır sən hər baxanda,
Gündə bir ciyəri de, hardan alım?!

Gözlərim səninçün qanlı yaş tökər,
Mənə rəhmi gələr dilsiz daşın da.
Məcnunda olsaydı fəğanım əgər,
Yuva qurardımı quşlar başında?!

Mən sevda yolunda təkcəyəm, təkcə,
Mənimçün qəm deyil yardan gələn qəm.
Gözəllər cəfanı çox eylədikcə,
Eşqin də ləzzəti artır dəmbədəm.

Səba bu dərdimi yayıb aləmə,
Deyib ki, verirəm eşq yolunda can.
Eşq rüsvalığı ayıbdır demə,
Ay zahid, rüsvayi-aləm olarsan!

Eşqsiz o səda olmazdı neydə,
Gör necə yandırır? – Bir dəm tut qulaq!
Ahımdan ulduzlar alışar göydə,
Muradımın şəmi alışmaz ancaq.

Vurğunu olduğum o nazikbədən
Məni öz ardınca dartır günbəgün.
Bidərd tədbirini eşitdiyimdən
Ürəkdə dərdim də artır günbəgün.

Naləmlə hamını oyadıram mən,
Heç kəs möhkəm yatmır sən yatan kimi.
Hər an vüsalına can atıram mən,
Qərib vətəninə can atan kimi.

O ətirli saçlar dağılıb yenə,
Mişki-Çin də verməz onun buyini.
Ağlım söz kəsəndən vətəndir mənə,
Necə tərk eyləyim yarın kuyini?

Qəlbimə vurduğun yara göynədər,
Ona öz əlimlə mən duz səpmişəm.
Hicrində göydəki ulduzlar qədər
Gözümdən torpağa ulduz səpmişəm.

Sözümü üzbəüz deyərdim sənə,
Yadıma yenə də o günlər düşüb.
Sənin tellərini açdıqca şanə,
Mənim can telimə düyünlər düşüb.

Vəfasız dövrandır verir əziyyət,
Cünunlarda görmə günahı, səhra!
Sən suya həsrətsən, mən yara həsrət,
Sən ey sevənlərin pənahı səhra!

Sözümü pas tutmaz, ötsə də min il,
Ilahi, nə qədər odlanım, yanım?
Məndə can qoymayıb bu şeyda könül,
Verim bir gözələ, qurtarsın canım!

Axır ki, sözümə baxmadı fələk,
Vuruldu bir təzə güli-rənayə.
Məni iynə kimi incəldib fələk,
Saldı iplik kimi uzun sevdayə…

Ahımla, naləmlə könül dağladım,
Dərdlər pərvanə tək doldu qoynuma.
Bir sənəm zülfünə könül bağladım,
Cünunluq zənciri keçdi boynuma.

Hicranı ömrümü etsə də yarı,
Kimsəyə uymadım, – sədaqəti gör!
Qiyamət günündə görməsəm yarı,
Saqi, sən özün gəl qiyaməti gör!

Meh əsdi, titrədi könlümün simi,
Meyvəsiz budağa bar gəldi bəlkə?
Sübhə saxlayıbdır hicran qətlimi,
Səhər açılınca yar gəldi bəlkə?!

Xəyala dalmışam, nədir əlacım? –
Tamarzı qalmışam vüsal dadına.
Qəlbimin dərdini de, kimə açım? –
Mən tək yanan varmı hicran oduna?!

Qəlbim istəyir ki, nur salıb ay tək
Sənin keşiyində gecə dayansın.
Sərv qamətini görübsə külək,
Gülüstan içində necə dayansın?!

O necə sevgidi yandırıb-yaxmaz?!-
Sevənlər imanı, dini neyləyər?!
Qaşlarını görən hilalə baxmaz,
Ay üzünü görən günü neyləyər?!

Qolları qandallı bir çıraq susur,
Gözəlim, baxmırmı sözünə zülfün?!
Üzümə açıqkən sevda qapısı,
Niyə qıfıl vurub üzünə zülfün?!

Boynuma salsa da, hicran qolunu,
Bənzətmə bir quru xəyala məni.
Tərk edə bilmərəm sevda yolunu,
Bu yol yetiribdir kamala məni.

Alovlar püskürən qəlbimin başı
Buxar etməsəydi gözümdə nəmi, –
Göz açıb yümunca, gözümün yaşı
Bir anda tutardı bütün aləmi.

Dərdimi duyana dərd oldu dünya,
Eşqimə bir nəfər gülən qalmadı.
Gözümün yaşında qərq oldu dünya,
Gözümün yaşını silən qalmadı.

Sən gəldin ömrümə ilk bahar kimi,
Sərdim ürəyimi yaz yağışına.
Qaşlarım yelkənsiz qayıqlar kimi
Az qalır qərq ola gözüm yaşına.

Şehmidir bərq vurur gül yanağında? –
Sevincdən kövrələr, bəbəyin dolar.
Tökmə göz yaşını vüsal çağında,
Hicran günlərində gərəyin olar.

Danışa bilmirəm, od tutub dilim,
Göz yaşım sevdalı dənizdir mənə.
Onu bəxş eləyib mənə sevgilim,
Dərdim ürəyimdən əzizdir mənə.

Qəlbimi isidən söz nuru olur,
Ürək arzulayır bar dodağından.
Qasid gətirdiyi söz quru olur,
Qoy onlar süzülsün yar dodağından.

Yarpağa dönübdür titrəyən əlim,
Eşqin havasıyla gör əsir necə?
Yar deyib yanına səhərlər gəlim,
Bilmirmi mənimçün yox gündüz, gecə?!

Zülfünü yığ yana, üzünü görüm,
İsitsin qəlbimi bir qaynar nəfəs.
Yarımın yanında olsaydı yerim,
Kafərəm, cənnətə eyləsəm həvəs.

Eşqimlə həyatım qərq olub zərə,
Bura hər sevənin güzarı düşməz.
Pəncərən önündə durduğum yerə
Min il cənnət quşu uçsa, yetişməz.

Yanımdan bir xəfif külək keçibdir,
Ürəyim – titrəyən payız nanəsi.
Gözlərin könlümü vətən seçibdir,
Şükür ki, nurlanıb qəm viranəsi.

Nasehin dediyi sözə uymayın,
Sevənlər qoy mənim sirdaşım olsun.
Məzarım üstünə heç nə qoymayın,
Yarımın kölgəsi baş daşım olsun.

Məni laləüzlüm öldürdü, dağlar!
Çətin ki, mələklər dadıma yetə!
Ey bulud, sən mənim üstümdə ağla,
Bəlkə kəfənimdə lalələr bitə!

Vuruldum, hörmətim aşağı düşdü,
Qismət özgələrin, ad mənim oldu.
Üzümə həsrətin işığı düşdü,
Hər gözəl canıma bir qənim oldu.

Gözündə şeh gülən körpə bənövşə,
Təşnə olduğumu hardan bilirsən?
Göylərdə mələklər, yerlərdə bəşər
Ağlayır halıma, – sənsə gülürsən.

Rəhmdil görmədim gözəl qızları,
Gül xarsız, gözəllər cəfasız deyil.
Ay ürək, incimə, vəfasızların
Yaxşı ki, həsrəti vəfasız deyil.

Ah çəkdin, ürəyim yarpağa döndü,
Demə bu xəzəlin yiyəsi yoxmuş.
Kölgənin xətrinə torpağa döndüm,
Büllur qamətinin kölgəsi yoxmuş…

Zənginə dönmüşəm səni sevəndən,
Dövlətim göz yaşı, varım göz yaşı.
Yolunun üstündə ucalmışam mən,
Bir eşq ağacıyam, barım – göz yaşı.

Sənin təbəssümün nur oldu qanda,
Qəlbimə yenilməz qüdrət gətirdi.
Qiyməti yox imiş eşqin cahanda,
Göz yaşım ona da şöhrət gətirdi…

Sevgilin yoldadır, daha nə dərdin?!
Ağlama, taleyin üzünə gülsə.
Vüsal müjdəsinə canını verdin,
Bəs nə verəcəksən yar özü gəlsə?!

Yadıma dağların maralı düşdü,
O, mənim ömrümün sultanı oldu.
Güzarım yarımdan aralı düşdü,
Məzarım ayrılıq zindanı oldu.

Meyvə arzuladı divanə ürək,
Təbəssümün kimi nübar görmədim.
Dolandım bağları axar sular tək,
Sərv qamətin tək çinar görmədim.

Ayağın incisə, sinəm üstə gəz,
Tapdala bir xəzan yarpağı kimi.
Mənə elə gəlir, pak ola bilməz
Cənnət ayağının torpağı kimi.

Ürəyim tab etməz həyəcanına,
Qıymaram kədərdən yarım mat ola.
Tez-tez getmirəm ki, onun yanına,
Qorxuram itləri narahat ola.

Cananın əliylə can alınıbdır,
Deşib ürəyimi müjgan şeşpəri.
Kirpiyi oxuyla fəth olunubdur
Eşqin səltənəti, eşqin kişvəri.

Qəlbimi çəkibdir dara gözlərin,
Bərq vurub məhəbbət kəhkəşanında.
Göz qırpıb, bu üzü qara gözlərim,
Məni xəcil edib sənin yanında.

Qəlbimi dünyada kədər yaşatdı,
Mələklər eşqinə göz yaşı tökdüm.
Gözəllər o qədər mənə daş atdı,
Yığıb özüm üçün qəmxanə tikdim.

Sevən ürəyimdə şimşəklər çaxıb,
Adını çağırsam, dilim alışar.
Sönmüş ocağımın yerinə baxıb,
Nəsihət eləmə, külüm alışar!

Nasehin sözünü yaxşı bilirəm,
Aləmi üstümə güldürür mənim.
Əgər mey içməsəm, dərddən ölürəm,
İçəndə nəsihət öldürür məni.

Qısqanclıq odunda alışdı ürək,
Gördüm göz izi var solğun üzündə.
Dadıma çatmasa badə qayıq tək,
Çoxdan qərq olmuşdum qəm dənizində.

Sevgili yardamı çevrilib yada?!
Kim açar qapımı küləkdən özgə?!
Əlimdən iş gəlməz qoca dünyada
Nazlı sənəmləri sevməkdən özgə…

Əgər duya bilsən, gün tək sadəyəm,
Nəsihət eləmə hər səhər mənə.
Özünü öldürmə, tiryəkzadəyəm,
Təsir edə bilmir hər zəhər mənə.

Çiçək aramışam gəzib gülşəndə,
Sevgini başıma bir tac almışam.
Hər gözəl xalına gözüm düşəndə,
Elə bil dünyadan xərac almışam…

Eşq Qaf dağının əyib belini,
Vədəsiz qocalıq haqlayıb bizi.
Şükür, tuta bildik canan əlini,
Məhəbbət şövqlü saxlayıb bizi.

Bəsdir, sərv kimi ucaldın göyə,
Əyil, başın dəyər, doğrudur sözüm.
Dünya qapısından çıxırıq deyə,
Fələk qəddimizi əyibdir bizim…

***

Dözümün rəqibi qorxuya salıb,
Əzmin ürəyinə bir düyün çəkib.
Gözlərin gül üzü görüb zövq alıb,
Cövrünü yaralı ürəyin çəkib.

Nəfəsin çiçəkli bahar kimidir,
Dünya gülşəninə həsrətlə baxır.
Sənin hər bir misran damar kimidir,
Ürəyinin qanı onlarda axır…

Sözünün mənası necə dərindir,
Ruhundur onlara dərinlik verən.
Deyirəm, bəlkə də şeirlərindir
Bağdad xurmasına şirinlik verən…

Xəzan ömrümüzdə ilk bahar oldun,
Nasehin sözünü dinləmərik biz.
Qəm çəkmək işində bizə yar oldun,
Nə qədər dərd olsa, inləmərik biz.

Babam, yetməsən də nazlı yara sən,
Sevən ürəklərə nur ələmisən.
Qoşun çəkməsən də bir diyara sən,
Dünyanı sözünlə fəth eləmisən…

Sağ ol, bəxtiyaram şeirin, sözünlə,
Hər misran qəlbimi nura bələdi.
Tale gözəlləri sənin gözünlə
Görməyi mənə də qismət elədi…

**1972 – 1994**

# UŞAQLIQ MƏHƏBBƏTİ

**(Poema)**

Həmişə olduğu kimi
Çıxdım evdən mən bu səhər.
Yenə bayram libasını
Geyinmişdi doğma şəhər.

Doğma Bakı insanlarla
Elə bil ki, öpüşürdü.
Milyonların sevincindən
Mənə də bir pay düşürdü.

Mən baxırdım insanlara
Doğmalara baxan kimi.
Qarışırdım mən onlara
Kür Xəzərə axan kimi...

Mən kütləyə qarışanda
Bir qız vurdu kürəyimdən.
Bu nə demək, bu nə üçün? –
Düzü, yaman karıxdım mən.

Bir oğlan da süzdü məni
Nədənsə çox qaşqabaqlı.
Düşündüm bu vəziyyətdə
Mənmi haqlı, omu haqlı?

Qız gülərək: – Salam! – dedi, –
Tanımadın mənu bəlkə?
Gözlənilməz bu sualdan
Düşün, düşdüm mən nə kökə?!

O səs mənə tanış gəldi,
Xatırladım o sözləri.
Dikilmişdi gözlərimə
Qızın sevdalı gözləri...

Nələr, nələr söyləyirdi
Gülümsəyən o bir cüt göz?
Sehrlənmiş insan kimi
Danışmağa tapmırdım söz...

Baxışları nur saçırdı,
Elə bil ki, yanar bir şam.
– Səsiniz çox tanış gəlir,
Ancaq nəsə unutmuşam.

Səni harda gördüyümü
Xatırlaya bilmirəm mən.
Yaddaşım korlanıb yəqin,
Bəlkə özün söyləyəsən?

Qız güldü: – Sən demirdinmi
Reyhan, unutsan da məni.
Mən unuda bilməyəcəm
Bil ki, ömrüm boyu səni?

Necə? Reyhan? Bu yuxumu?
Bir xəyalmı yoxsa bu səs?
Bu Reyhanmı qabağımda
Həyəcanla alır nəfəs?

Biz ki, kənddə qonşu idik
Reyhangillə, yadımdadır.
Uşaqlığın xatirəsi
Elə bil ki, şəkər dadır.

Hələ səhər açılmamış
Anamı tutaraq dilə,
Pıçıldayıb deyərdim ki,
Olar, gedim Reyhangilə?

Anam isə gülümsəyib,
Xəyallara dala-dala,
Deyərdi ki, hələ səhər
Açılmayıb, yat, ay bala!

Biz Reyhanla oynayardıq
Səhərdən axşama qədər.
Bilməzdik ki, nədir dərd-qəm,
Bilməzdik ki, nədir kədər...

Çör-çöplə evcik tikərdik,
Toz-torpağa bulaşardıq.
Arabir də sözlərimiz
Çəp gələrdi, dalaşardıq...

Qış gələndə axşam çağı
Yığışardıq Reyhangilə.
Gələcəyə yol gedərdik
Bir sehrli nağıl ilə...

Reyhanın ağsaç babası
Bardaş qurub döşək üstə,
Bizə nağıl danışardı,
Nələr yox idi o səsdə?

Biz dikərək o qocanın
Ağzına öz gözümüzü,
Div, əjdaha eçidəndə
İtirərdik özümüzü...

Yaz gələndə biz gedərdik
Çəməndə gül axtarmağa.
Pöhrəliyə çatan kimi
Dağılardıq sola, sağa...

Bir az sonra bürüyərdi
Yamacları "ay can" səsi.
Reyhan məni səsləyərdi:
–Mən tapdım qan bənövşəsi!

Nə gizlədim, bu qonşu qız
Yurd salmışdı ürəyimdə.
Onun idi arzularım,
Onun idi diləyim də...

Yay gələndə yığışaraq
Yaylaqlara köçərdik biz.
Dizimizı yerə qoyub,
Bulaqdan su içərdik biz...

Sənə daha nə deyim ki,
Ay oxucum, dinləyəsən?
Heç bilmirəm nəyə görə
Bağlanmışdım o qıza mən?

Bir gün Reyhan dedi mənə:
Əmim gəlib bizə, ancaq,
Hamımızı götürərək
O, Bakıya aparacaq...

Reyhangilin ailəsi
Köç edəndə kəndimizdən,
Qısılıb tut ağacına
Xısın-xısın ağladım mən.

Axı mən necə gedəydim
O şəhərə Reyhangillə?
Anam məni ovundurmaq
İstəyirdi şirin dillə.

Ağlayırdım, sanki Reyhan
